# AZƏRBAYCAN

**7-8'2020**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN**
**AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini:** **Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**

***REDAKSİYA HEYƏTİ:*** **Ağasəfa, Elçin, Musa Yaqub, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Yaşar, Asim Yadigar, Afaq Məsud, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Əjdər Ol, Vaqif Yusifli, Fəxri Uğurlu, Paşa Əlioğlu, Əli İldırımoğlu**

**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya* –
498-78-10
493-28-32
493-2834
*Mühasibat* –
493-29-41

**Çapa imzalanıb:**
27.07.2020
**Sifariş 1732**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
13 çap vərəqi
18,2 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru

**Qiyməti**
**1 manat 50 qəpik**

**Bakı şəhəri,**
**"Azərbaycan"**
**nəşriyyatının mətbəəsində**
**ofset üsulu ilə çap olunur**

**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**

## BU SAYIMIZDA:

### POEZİYA


AY BƏNİZ ƏLİYAR – Şeirlər ....................3
NAZİM ƏHMƏDLİ – Şeirlər ....................25
AYAZ ARABAÇI – Şeirlər ....................94
FƏXRƏDDİN TEYYUB – Şeirlər ....................99
ƏLİ NƏCƏFXANLI – Şeirlər ....................130
GİLƏ ƏLİQIZI – Şeirlər ....................137


### NƏSR


ƏLİ ƏMİRLİ – Mələk əmi (novella)....................10
GÜNEL NATİQ –Gözəl günlər naminə... (hekayə)....................140


### YENİ TƏRCÜMƏLƏR


SADİQ HİDAYƏT – Hacı ağa (roman)....................33


### SƏNƏT DÜŞÜNCƏLƏRİ


"Həyat Allahın yaratdığı filmdir" – Kinorejissor Vaqif Mustafayevlə sənətşünas Əlisəfdər Hüseynovun söhbəti....................103


### SABİR ƏHMƏDLİ – 90


ELNARƏ AKİMOVA – Sabir Əhmədli – yaralarına sığınıb yaşayan adam .....148


### DÜNYA, SƏNDƏN KİMLƏR KEÇDİ...


RÜSTƏM KAMAL – Rübail: şeirin və ömrün dörd fəsli ....................164


### AXTARIŞLAR, TAPINTILAR


MÖHSÜN NAĞISOYLU – "Dədə Qorqud": eposun yeni variantı ....................169


### TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ


LALƏ HƏSƏNOVA – Şərin təntənəsi və ya... ....................178
SAMİRƏ MƏMMƏDLİ – İsmayıl Saryalın "Bakı rüzgarı" ....................182


### ƏDƏBİ PORTRETLƏR


ƏZİZAĞA NƏCƏFZADƏ - Lalə Əlizadə: Məcazdan həqiqətə ....................188



KİTAB RƏFİ ....................191



*Ay Bəniz ƏLİYAR*

**YENƏ DARIXIRSAN, BİR KİMSƏ GƏLƏ**

Yenə darıxırsan, bir kimsə gələ,
Çayın da soyuyur, qənd də kəmşirin.
Keçirə bilmirsən fürsəti ələ,
İntihar eyləyir düşüncələrin.

Özünə çəkilir pəncərə, qapı,
Masanın üstünə kitablar naxış.
Ağlaya bilmirsən bəhanə tapıb,
Fevraldı, nə qar var, nə də ki, yağış.

Tozlu şam ağacı yatıb yüz ildi,
Sərçə də qonmayır qoca palıda.
Darıxa bilmirsən, bu nə zibildi,
Düşünüb durursan, düşmürsən yada.

Köhnə vərdişinə dönürsən bir an,
Kitab vərəqləmək darıxmaqdımı?
Hamıyla, hər kəslə soyuyub aran,
Onsuz dostların da tutmur adını.

Uilyam Qoldinqə salırsan nəzər,
Sanki dərd üstünə dərd bağlayırsan.
Sonra Lev Tolstoy sataşır gözə,
Kitabın içində soncuqlayırsan.

Sonra fars şeiri, yapon şeiri,
Bədii tərcümə hayına gəlir.
Zamanı bir anlıq çəkirsən geri,
Gözünü yumursan, ruhun dincəlir.

Darıxa bilmir ki özündən küsən,
Darıxmaq istəsən, özünə də sus.
Bəlkə eşitmisən... eşitməmisən,
Sərhədi keçəcək Koronavirus.

Borxes də var hələ...
Borxesdi... Aha...
Deyir ki, eşqsiz də döyünür ürək.
Bu qədər oxumaq bəs edər daha,
Bir az da darıxım, vaxta mübarək...

***

Ağrıma, ömür, ağrıma,
Şuma tum səpilən vaxtdı.
Heç nə gəlməyir ağlıma,
Olanlar-olmazlar haqdı.

Olur günümdən kəsdiyim,
Olur yönümdən azdığım.
Olur eşqlərə əsdiyim,
Qürur önündə azdığım.

Əlimizdən gələn nə var?
Yatan bəxtimə bir daş at!
Nəyim varsa, götür apar,
Bu yüklənmiş ruhu boşalt.

***

Olan onsuz olacaqdı --
Düşünürəm neçə vaxtdı...
Görünmək istəyim yoxdu,
Görünməsəydim keşkə...

Təklik saplandı kürəyə,
Büründüm yalın ürəyə.
Dedim ki, bəlkə kiriyə,
Bürünməsəydim keşkə...

Atdan düşüb dəvə mindim,
Mən də belə dəbə mindim.

Ərindim, vallah, ərindim,
Ərinməsəydim keşkə...

Yaman öndəydik ağılda,
Nə oldu qazanc axırda?
Bu "ömür" adlı cığırda
Sürünməsəydim keşkə...

***

Daha yoxam,
bir ömür gəz,
Darıx bir az, bu da bir həzz.
Gündüz... axşam...
fərq etdirməz,
Sevgi acı olmaq var...

Yoox, olmasın belə sınan,
Sınansan da eşqlə sınan.
Yarıyolda
başqasının
Əl ağacı olmaq var....

Ürəyində dondurduğun,
Gözlərində yandırdığın,
Hamının quş qondurduğu
Altun tacı olmaq var...

Ürəyin tilsimli qəsr,
Bağlı qalıbdı yüz əsr.
Birinin əsldən əsl
ehtiyacı olmaq var...

***

Alışa bilmirəm ağ saçlarıma,
Gözümdə ağarır ölən arzutək.
Bu gün saçlarımı rənglədim yenə,
Hamıya xoş gəldi qoyduğum bu rəng.

Bəs niyə küsürəm özüm-özümdən?
Bir azca bikefəm, bir az da pərtəm.
İstədim, 40 yaşın saçında dən-dən
Ağaran ağrının rəngini örtəm.

Dedim, ürəyim də dincələr bir az,
Saçlar da ürəkdən su içir axı...
Yenə köhnə hamam, yenə köhnə tas,
Bir az da rəngləndi içimdə ağrı.

Alışa bilmirəm ağ saçlarıma...
Necə daşıyacam bu qədər dəni?
Getdikcə böyüyən bu dənlər, axı,
Gözümdə ağaran yollara dönür.

***

Ömür qaçaqaçda, köç qaçaqaçda,
İçimdən yol keçir, yolumdan adam.
Sən məni itirib axtaracaqsan,
Nə qədər keçsəm də yolundan, adam.

Zamandı, zaman bu, verdiyin alıb,
Dünənki borcların sabaha qalmaz.
Yaşanan yaşanıb, olanlar olub,
Sənə bu həsrətin təsiri olmaz.

Mənə rast gəlməyib bəxt dedikləri,
Neçə sevənimi viran etmişəm.
Bir baxdın, göynədi həsrətin yeri,
Bir baxdın, səni də atıb getmişəm.

***

Hələ də yol üstəsən, yol üstəsən hələ də,
Qarasınca deyərlər, kimin nə qınağı var.
Hələ də yol gedirsən, bilirsən, yolun üstə
İllərin imtahanı, illərin sınağı var.

Hardasa bir quş qonub ağaca budaq olur,
Qar yağır qar üstünə, qardan da papaq olur.
Kim keçir bu yol üstdən ömrünə qonaq olur,
Səndən savayı min cür yolun da qonağı var.

Ömür keçir yol üstdə, yollar da can yaşadır,
İnsanı öz gücündə damarda qan yaşadır.
İnsan olan içində əsl insan yaşadır,
İnsanın da başında bir baş qan çanağı var.

Sevgilisi ağrıdır sevgi adlı peşənin,
Dözmək üçün, beləcə, cana sıxar dişini.
Hər gecə gizli-gizli xəyalına düşənin
Bir dişləmlik dodağı, öpülən yanağı var.

Bir baxarsan, dağ olub adam bildiyin adam,
Bir baxarsan, adamdı, əqidəsi deyil tam.
Bir baxarsan,

içinə ağrı damar,
dam haa dam,
İçində özü boyda ağrılardan dağı var...

***

Qaz, qaz,
quyu deyil haa,
dərindən şeir çıxa.
Siləsən göz yaşını,
yerindən şeir çıxa.

Ən dərin söz yaralar...
Sözə divan quralar...
Min bir məlhəm vuralar,
yarandan şeir çıxa.

Hər hissdə hər söz təzə.
Sevib girəsən gözə.
Tor atasan hər sözə,
torundan şeir çıxa.

Əcəl gələ... sönəsən...
Əcəli də yenəsən.
İstəyəsən
dönəsən,
gorundan şeir çıxa.

***

Ürək susanda yazılan
ŞEİRDƏN bir də yazılmaz...
Şeirlər göydə yazılır,
Şeirlər yerdə yazılmaz.

Yazarsan, daşdan yazarsan,
Bahardan, qışdan yazarsan.
Dərdə alqışdan yazarsan,
Şeirlər dərdə yazılmaz.

Yatıb bir yuxu görərsən,
Ömrünü eşqə verərsən.
İkili həyat sürərsən,
Arada pərdə, yazılmaz.

Düşünmə, nə etsən, olar...
Sular bulanar, durular...
Savab bu dünyada qalar,
Günah qəbirdə yazılmaz.

***

qapımı döyəcəksən,
qapım sənə qurban...
pəncərəmdən boylanaqcan...
pəncərəm sənə qurban...
şeirlərimə, kitablarıma qısqanacaqsan...
qurban olsun sənə şeirlər...
sənə qoşulub gedəcəyəm,
arxamda buraxıb balalarımı,
həyat yoldaşımı,
hər şeyimi...

Ölüm, ay ölüm!
Ay gözəl-göyçək sevgilim!
Qapıma gəlmə,
yerini de, mən gəlim...

***

Bir çəmən var idi, rüzgarlar əsən,
Qucağı doluydu bənövşə, süsən.
Bir gül də var idi dünyadan küsən,
Yaman üşüyürdü bu səhər çağı.

O boyda çəməndə sanki tək idi,
İçini çəkirdi, fikrə gedirdi.
Xeyiri yox idi, eh, nə edirdi,
Yaman üşüyürdü bu səhər çağı.

Yenə ləçəklərin öpürdü duman,
Bir bahar şehiylə dolmuşdu yaman.
Boş yellər telini qoxlayan zaman,
Yaman üşüyürdü bu səhər çağı.

Yeni çiçəklərlə gəlmişdi bahar,
O solub gedirdi, başqa yolmu var?
Ona ümidlənib bitən xəyallar
Yaman üşüyürdü bu səhər çağı.

***

İkili dünyaları,
"dost-doğma" özgələri,
Doğruçu röyaları,
yalançı güzgüləri
Yıxıb gedə bilsəydik...

Axsayan yanımızdan,
yeriyən şərimizdən,
Sınanan canımızdan,
ağrıyan yerimizdən
Çıxıb gedə bilsəydik.

Bir şairə kitabdan,
bir şeirə varaqdan,
Bir günaha savabdan,
bir məzara uzaqdan
Baxıb gedə bilsəydik.

Ruhumuzu bir aha,
könlümüzü bir daşa,
Belə...
belə... bir daha
gözümüzü bir yaşa
Sıxıb gedə bilsəydik.

***

Bir işıqlı gecəydi...
Bir də bomboş küçəydi,
Şəhər bizimki idi...

Bitmişdi ehtiyaclar...
Hamiləydi ağaclar,
Bəhər bizimki idi...

Bir qaranlıq otaqdı,
Bir yalquzaq yataqdı,
Qəhər bizimki idi.

Adi idi adidən...
İçirdik bir badədən,
Zəhər bizimki idi.

Gəlmişdi...
geciksə də...
Özgələri çəksə də,
Kəhər bizimki idi...

Saça düşmüşdü ağ dən,
Bilmədim ki heç, necə
sağ çıxdıq o gecədən,
Səhər bizimki idi...

Əli ƏMİRLİ

# MƏLƏK ƏMİ



♦ *Novella*

Mən çox gözəldim, bəlkə elə buna görə ailəmizin sonsuz məhəbbəti ilə əhatə olunmuşdum, çöldə-bayırda, küçədə insanların həsəd dolu heyrətilə üzləşirdim, bitib-tükənməyən xoşbəxtlik içindəydim. Atam, yazıq anam, ondan da yazıq bacım mənimlə fəxr edirdilər. Kiçik yaşlarımda hər biri əlimdən tutub məni gəzdirməkdən zövq alırdı.

Ailəmiz adi xoşbəxtlik standartlarına cavab verən kiçik bir ailə idi. Atam, onda çox xoşbəxt olan yazıq anam, o vaxtlar yazıq anamdan da xoşbəxt olan zavallı bacım, bir də hamını uşaq gözəlliyi ilə heyran eləyən mən...

Bilmirəm babammı, bəlkə ulu babam vaxtı ilə repressiyaya uğramış, Qazaxıstana sürgün edilmişdi. Mən bunu çox sonralar bildim, dünyadan ağlım bir şey kəsəndən sonra. Niyə, səbəb nəydi, bu nə repressiya idi, heç vaxt başa düşmədim, indinin özündə də bunu anlamaq mənim üçün çətindir.

Mən o sürgün olunmuş adamları görməmişdim. Onlar haqqında bildiklərim də az idi. Bəlkə bu barədə danışacaq adamlar qalmamışdı. Gözümü açıb atamı görmüşdüm, o da elə Qazaxıstanda doğulmuşdu, deyəsən, Kokşetauda. Biz rus dilində danışırdıq: anam, bacım və mən. Atam məktəbi bir az qazax dilində oxumuşdu, sonra da rus dilində. Atamla anamın başqa bir dildə də danışdıqlarını eşidirdim hərdən. Bu dildə qazax sözləri də vardı. Sonradan, bir az yaşa dolanda bildim ki, bu, Azərbaycan dilidir, biz azərbaycanlıyıq, əsil vətənimiz də Bakıdır. Və günlərin bir günü atam bizi yığıb vətənə gətirdi, Bakıya. Bu, o illərdi ki, Sovetlər dağılmışdı, hər yerdə yaşamaq çətinləşmişdi. Hamını öz vətəni çəkirdi.

Əmim deyilən bir kişinin evlərindən birində, iki otaqlı mənzildə yerləşdik.

Bakıda bizim, daha doğrusu, atamın işləri düz gətirmədi. Qazaxıstanda nə qazanmışdısa, əlindən çıxdı, böyük borca düşdü, Rusiyaya getdi. Bəlkə də borclu olduğu adamlardan qaçmışdı.

Bir neçə ay, bəlkə də il, beləcə keçdi. Atamdan vaxtaşırı dolanışıq üçün pul gəldi, sonra da ölüm xəbəri. Anam demiş, dərd gələndə batmanla gəlir. Bacımın çoxdan heydən düşmüş ayaqları sözünə baxmırdı. Məktəbə güclə gedirdi. Həm yeriməyə çətinlik çəkirdi, həm də utanırdı. Dava-dərman da kömək eləmirdi. Anam qiymətli nəyimiz vardı, bir-bir satdı. Əmim deyilən kişi

də bizi evdən çıxarmaq istəyirdi. Əslində, atam öləndən sonra biz onun üçün yad adamlardıq. Anam Qazaxıstan vətəndaşı olduğundan, heç yerdə işə girə bilmirdi... Yaşamaq üçün heç nəyimiz yoxdu. Bunları mən sonralar başa düşdüm, o vaxtlar yaşım az olduğundan qanmırdım belə şeyləri, elə həmişə nəsə tələb eləyirdim, istəyirdim...

Vaxt gəldi, yazıq bacım daha evdən çıxa bilmədi, adı çətin olan, əlacsız bir xəstəlik öz işini gördü. Onuncu sinfi yarımçıq qaldı, amma müəllimlər hərdən gəlib evdə ona dərs deyirdilər. Məktəb də güzəşt edirdi. Bacıma kimsə əlil arabası da vermişdi, anam onu əlil arabasında məktəbə aparıb-gətirmək istəyirdi, amma Mina heç cür razı olmurdu. O, əlil arabasında sinfə girməkdən qəti imtina elədi. Bu ağır xəstəlikdən sonra mənim onsuz da az danışan bacım tamam susmağa üstünlük verdi.

Bilmirəm biz necə yaşayırdıq, amma evdə hər dəfə nəyinsə yoxa çıxması çox şey deyirdi. Anam tez-tez ağlayırdı. Bizim müraciət etməyə heç kimimiz yoxdu. Siz elə bilirsiniz bu, bədbəxtliklərin sonu idi? Elə olsa nə vardı?! Anam demiş, xoşbəxtliyin həddi var, bədbəxtliyin isə həddi-hüdudu, sonu yoxdur, onun elə gözlənilməz oyunları var ki!

Həyat içində çapalayırdıq, bizim hər günümüz yaşamaq uğrunda savaşdı, savaşan isə biz deyildik, həyatın özü idi bizi davaya çəkən. Mən bütün bunları sonradan başa düşdüm, tamam tək qalanda, həyat məni paltar kimi yuyub sıxanda. Həqiqətən, xoşbəxtlik adama az şey öyrədir, bədbəxtlik isə... Mən birdən-birə böyümüşdüm. Bir vaxtlar necə xoşbəxt olduğumu indi qanırdım, onu atamla bir yerdə itirəndən sonra.

Bircə sevinc yerim vardı: insanların mənə, mənim gözəlliyimə heyranlılğı! Yeniyetmə yaşında qız nə qədər tərif, kompliment eşidər?! Bütün məktəbdə məşhurdum, o qədər yaxşı oxumasam da, şəklim şərəf lövhəsindəydi. Müəllimlər də məni tərifləməkdə yarışa girmişdilər.

Daşdan-qənbərdən ağır illər beləcə keçirdi. Bacım ölüm-zülüm məktəbi bitirdi. Mən də böyüyürdüm, anam hərdən nəsə müvəqqəti bir iş tapır, yarıac-yarıtox dolanırdıq. Bu, o vaxta qədər davam elədi ki, mən bir gün atdana-atdana məktəbə gedəndə yıxıldım. Sonra bir də... Bir də... Hər dəfə də yıxılanda anam qorxu ilə baxırdı mənə. Bir dəfə lap hirsləndi:

- Niyə yıxılırsan? Niyə ayağıvın altına baxmırsan? Niyə ora-bura ilişirsən?

- Mən ilişmirəm, mama...

-Ayağıvın altına baxmaq əvəzinə camaatın üzünə baxırsan, tərif gözləyirsən... Yekə qızsan, hələ də...

Anam haqlıydı, mən tériflərə, heyran baxışlara elə öyrəşmişdim ki, yanımızdan ötən hər adamın üzünə baxırdım, nəsə axtarırdım. Mən tərifə alışmışdım... Amma yıxılmağım ona görə deyildi, ayaqlarım məni saxlamırdı, ayaqlarım keyiyirdi...

Bir dəfə də anam əlimdən tutub məni məktəbə aparanda dümdüz yerdə yıxıldım. Anam hirslə qolumdan tutub məni qaldırmaq istədi, mən də qalxmağa çalışdım, amma qalxa bilmədim.

-Nə oldu, niyə durmursan, əzildin?

-Mən dura bilmirəm.

-Necə yəni dura bilmirəm? Bu nə deməkdi? Xəstələnmisən?

Anam az qala məni qucağında geri, evə gətirdi. Yazıq anam qarayanızdı, indi isə rəngi qapqaraydı. Danışa da bilmirdi.

- Nə olub mənə, mama? Mənim də ayaqlarım Minanınkı kimi...

- Axmaq-axmaq danışma!

Anam kobud hərəkətlə ağzımı yumdu, sonra ayaqlarımı yoxladı, dizlərimi, baldırlarımı əllədi, budlarımı ovuşdurdu. Bir az aralıda dayanıb bizə göz qoyan yazıq bacım səssizcə ağlayırdı.

Bundan sonra anamın ayaqlarımla ölüm-dirim savaşı başladı. Anam hesab edirdi ki, mən yeriməliyəm, mənim də şikəst olmağa ixtiyarım yoxdur. Ola bilməzdi ki bir evdə iki uşağın ikisinin də ayaqları tutulsun, şikəst olsun! O, bunu məntiqdən kənar bir şey bilirdi.

O, indi məni məktəbə piyada aparırdı. Mənə necə zülüm elədiyindən xəbəri də yoxdu. Mən dözməyib ağlayırdım. Onda anam daha inadkar və qəddar olurdu.

- Sən yeriməlisən!

Yaxşı ki məktəb çox uzaqda deyildi. Anam rəhm etmədən qolumdan tutub məni sürüyürdü...

-Sən yeriməlisən!

Mən yazıq anama təslim olmuşdum. Yıxıla-dura, onun əlindən asılaraq sürünürdüm.

Bir əhəmiyyətsiz hadisə qalıb xatirimdə. Xəstəliyimin getdikcə şiddətləndiyi vaxtlar idi. Buna baxmayaraq, anam hələ qalib gəlmək inamını itirməmişdi. Yenə də çiskinli bir gündə ayaqlarım bir-birinə ilişə-ilişə məktəbə getdiyimiz yerdə gördüm yolumuzun üstündə kiçik bir gül dükanı açıblar. Dükanın lap qabağında qırmızı vedrədə bir qucaq ağ qərənfili görəndə ürəyim getdi. İstəyimin nə qədər ümidsiz olduğunu bilsəm də, dilləndim:

- Mama, mənə gül al, ağ güldən...

-Az danış, Tina! Mənim bir gülüm çatmır!

Mən dartınıb dayanıram.

-Bircə dənə, mama! Nə olar, bircə dənə...

Anam qarşımda çömbəlib qulağıma pıçıldayır:

- Tina, indi sən yekə qızsan, başa düşməlisən, mamanın pulu yoxdu. Çörəyi bir həftədir nisyə alıram.

- Mən çörək istəmirəm, mama, gül istəyirəm... - Gözümdən yaş sıçrayır.

-Sən qələt eləyirsən, axmaq qız! Bu saat qalx ayağa!

Anam dartıb aparır məni.

Ertəsi gün yenə də həmin dükan, həmin qərənfillər.

-Mama, qurban olum, bircə dənə, lap bircə dənə...

- Bəsdi, Tina!

-Mama, yalvarıram, bircə dənə! - Var gücümlə dartınıram. - Saçıma taxacam!

-Bəsdi! Sən mənim zəhləmi tökdün! - Qolumu az qalır qopartsın. Məni sürüyə-sürüyə deyinir. - Gül elə sənin şikəst ayaqlarıva yaraşır...

-Mən şikəst deyiləm... - Qışqırığıma özüm diksinirəm.

- Bəs şikəst necə olur?!

Anam sürətini artırır. Mən ona çata bilmirəm...

-Xanım! Bacı! Sənnənəm!

Bizi səsləyən kişini birinci mən görürəm. Gül dükanının qabağında gördüyüm yekəqarın, qıvrım saçlı cavan kişini. Əlində həmin ağ qərənfillərdən kiçik bir dəstə, bizim dalımızca qaçır.

-Mama, dayan!

-Gəl dedim, Tina, qışqırtma məni.

Kişi özünü yetirir bizə.

- Bacı, sən allah, pis başa düşmə... - Qabağımda diz çöküb əlindəki gülləri mənə uzadır.

- Bu qərənfillər sənindi, - altdan yuxarı anama baxıb günahkar kimi gülümsəyir. Qızıl dişləri parıldayır.

- Nəyə lazımdı? - anam tərəddüdlə etiraz etmək istəyir.

- Halal xoşu olsun!

Neçə gün həsrətində olduğum ağappaq qərənfillər mənimdi.

-Mama, bu güllər mənimdi?

Anam əlimdən tutub yenə də məni məktəbə tərəf dartır. Altdan yuxarı ona baxıram. Yanaqlarında yaş var, amma mən öz güllərimlə xoşbəxtdim.

* * *

Bilmirəm mənim məktəb yollarında çəkdiyim əzablı günlərin sayını. Mən artıq yekə qızdım, onuncu sinfə gedirdim, daha doğrusu, sürünürdüm. Mən hamı kimi olmadığımı getdikcə daha yaxşı anlayırdım. İndi gözəlliyim də mənim kədər yerimə çevrilmişdi. Mənə deyilən təriflərin hamısı mütləq "Hayıf!" nidası ilə bitirdi. Qulağım "Hayıf bu qızdan!" sözlərini tez-tez eşidirdi. Tez-tez də ağlayırdım. Mən artıq şikəst olduğumu bilirdim. Başa düşürdüm ki, mən bir də ayağa qalxıb hamı kimi yeriyə bilməyəcəm, yazıq bacım kimi.

Nəhayət, xəstəlik istədiyini elədi: yazıq anamı da, məni də məğlub elədi. Mən daha məktəbə gedə bilmədim. Beləcə, iki bacı, biri əlil arabasında, o biri çarpayıda, yaxşı halda stulda... Mənim əlil arabam yoxdu, istəmirdim də. Küçəyə çıxmırdım, adamlardan qaçırdım. Onların "Hayıf bu qızdan" sözlərini eşitmək istəmirdim.

Xəstəlik bizi tamam müflis eləmişdi. Vəziyyətimiz dözülməzdi. Qiymətli nə vardı, dəyər-dəyməzinə satılmışdı. Doyunca yeməyimiz yoxdu.

Yazıq anam həm bacıma, həm də mənə qulluq eləməkdən üzülmüşdü. Bu qulluğun nə demək olduğunu ayaqdan məhrum olan adam özü, bir də ona qulluq eləyən bilir. Əmi deyilən kəs də qardaşının başsız qalmış yetim ailəsini, ayaqsız iki qızını evdən çıxarmaq istəyirdi. Bunu açıq deməsə də, məsləhət verirdi anama. Bizim hər ikimizin əlillər evinə verilməmizi istəyirdi. Belə olanda anam da özünə bir gün ağlaya bilərdi. Yazıq anam əmim deyilən kişinin məsləhətini sükutla qarşılayırdı. Hərdən yanaqlarına axan göz yaşlarını ovcunda bürmələdiyi dəsmalla silirdi.

Satmağa daha heç nə qalmamışdı. Yaxın dükanların hamısının nisyə dəftərindəydik. Sabaha nə ümid vardı, nə güman. Bir dənə satıla biləcək şey pəncərəmizə bərkidilmiş kondisioner idi, sovetdənqalma Bakı kondisioneri.

- Kim alacaq onu? - Anam öz-özünə ümidsiz səslə deyinir. - Kimin nəyinə lazımdı bu traktor?!

Bacım da öz-özünə danışır:

- Tutaq elə aldılar, beş-on “şirvan” da pul verdilər. Bəs sonra?

- Sonrasını bilmirəm. Sonrasını bizə zülüm eləyən Allah bilir.

- Mən bilirəm, mama. İki şikəst qız, sümükləri də getdikcə əriyir, əyilir. Bir azdan əlimiz qaşıq da tutmayacaq... - Yazıq bacım qəfil qışqırır. - Bax, mənim əllərimə! Bax, necə əyiliblər. Qələm tuta bilmirəm.

-Sakit ol, Mina, qızışdırma özünü, onsuz da...

- Əlsiz-ayaqsız mən kimə lazımam?

-Mənə lazımsan, Mina.

- Yalan deyirsən! Elə bilirsən mənə necə nifrət elədiyini görmürəm mən?

- İnsafsız olma, qızım. - Yazıq anam onun titrəyən arıq çiyinlərini kolyaskaqarışıq qucaqlayır. - İkiniz də mənə lazımsınız! Nə qədər canımda can var, sizi saxlayacam, kirpiklərimlə od götürəcəm, amma saxlayacam!

Yazıq bacım sakitləşmir:

- Sən ömrün boyu iki əlil qızla yaşaya biləcəksən? Sənin buna gücün yetəcək? Tutaq, lap yaşadın, dözdün, bəs, sən xəstələnəndə, nəhayət, öləndə necə olacaq bizim günümüz?

- Sabahın dərdin bu gün çəkmə, qızım, Allah bir yol göstərər.

- Allah?! Bizi bu yaşda yetim qoyan, bu azmış kimi, iki bacını şikəst eləyən Allah yol göstərəcək?!

- Bilmirəm, Mina, mənə əzab vermə, qızım...

Bacım, yox, mama, mən daha sakit ola bilmirəm desə də, qəfil sakitləşir, əyilmiş əllərinin içi ilə batıq yanaqlarında ilişib qalmış göz yaşlarını bir sivrimə silir və az qala pıçıldayır:

- Mən artıq qərara gəlmişəm.

Bir müddət evə qəribə, hətta müdhiş bir sükut çökür. Heç kim danışmır. Mən vəziyyətdən istifadə edib böyük maraqla "Səfillər"i oxuyur, balaca Kozettanın taleyinə acımaqda davam edirəm. Bu ara heç kəsin mənə mane olmasını istəmirəm.

Uzun çəkən bu səssizliyi anamın hardansa çox uzaqdan gələn səsi pozur. Artıq yatmaq vaxtı olsa da, yazıq anam aram-aram danışır. O bizim üzümüzə baxmadan danışır. Elə bil özü üçün xımır-xımır söylənir. Keçmişləri xatırlayır, atasını-anasını, erkən itirdiyi bacısını, zəlzələdə yox olan qardaşını. Atamızı da yadına salır, onunla necə xoşbəxt olduğunu xatırlayır. Yanaqlarına axan göz yaşlarını silib məni bərk-bərk qucaqlayır, yanaqlarımdan öpür.

- Prosti menya, Tina, prosti, devoçka moya.

Mənim də şikəst olduğumu biləndən sonra mənə məhəbbəti xeyli azalmış yazıq bacım da arabasında yaxınlaşır, üzümdən öpüb qulağıma pıçıldayır:

- Ya tebya lyublyu, Tina...

* * *

Gözlərimi açanda ətrafımda tamam özgə adamları görürəm. Onların içində nə anam, nə bacım var. Ev də bizim deyil. Başı bağlı, yaşı çox olsa da, yaraşıqlı bir qadın gözündə soyumuş bir gilə yaş, üzündə mehriban təbəssüm, mənə baxır.

-Mən hardayam? - Ətrafa boylanıram. - Mama?!

Qadın üzündən çəkilməyən kədərli təbəssümlə mənə baxmaqda davam edir. Onun yumşaq, məlahətli səsini elə bil lap uzaqdan eşidirəm:

- Necəsən, Tina?

- Siz kimsiz? Mənim adımı hardan bilirsiz? - deyib soruşsam da, qadına qəribə bir doğmalıq hiss eləyirəm, rus dilində soruşuram:

- Qde moya mama? Poçemu ya zdes?

Qadın başını bulayır. Düz gözlərimə baxsa da, susur... Hiss eləyirəm, o mənim sualıma cavab verə bilmir.

* * *

Nəhayət, mələk təbəssümlü qadın mənə hər şeyi danışdı. Mənim göz yaşlarıma, isterik qışqırıqlarıma fikir vermədən, əlimi əlindən buraxmadan. Demə, adı Mələk olan bu qadın bizim blokda yaşayan qonşumuzdur. Havada qaz iyi olduğunu hiss eləyib. Qapımızı çox döyüb, açan olmayıb. Adam tapıb qapımızı açdırıb. Anamla bacımın ölüsünü tapıblar, məni isə huşsuz vəziyyətdə xəstəxanaya çatdırıblar.

Mən indi başa düşdüm anamın yatmağa getməzdən qabaq mənə "Prosti menya, Tina, prosti, devoçka maya" söyləməsini. Demə, onlar həyatımıza könüllü şəkildə son vermək qərarına gəliblər, mənim razılığımı almağı isə artıq biliblər. Buna görə məndən üzrxahlıq edirmişlər.

Mən qorxu içindəydim. Qorxu mənim bütün hisslərimi korşaltmışdı. Mən bədbəxtliyin miqyasını hiss etmirdim. Anamsız necə yaşayacağımın qorxusu sarmışdı bütün varlığımı. Mən bilmirdim nə deyim, nə düşünüm, amma təsəvvür eləyəndə ki mən bu insafsız, qəddar dünyada şikəst ayaqlarımla tamam tək qalmışam...

Mən niyə ölmədim, niyə qaldım? Yazıq anamın son sözləri qulağımda bir də səsləndi: "Prosti menya, Tina, prosti, devoçka moya", dalınca da yazıq bacımın səsi: "Ya tebya lyublyu, Tina". Bu mənim onlardan eşitdiyim axırıncı sözlərdi. Bir daha onların səsini eşitməyəcəkdim. Qəfil qışqırdım, qışqıra bildikcə...

-Amma mən sizi sevmirəm, bağışlamıram da! Siz məni bu dünyada tək qoyub qaçdınız. Bu, qəddarlıqdır! İnsafsızlıqdır! Eto jestoko!!! Gözlərimdən yaş süzülürdü, dayanmadan.

-Ağlama, qızım, hər şeyin bir yolu var, heç nə yolsuz deyil. - Mələyin səsidir. - Heç kimi də qınama. Nə olursa, Allahın əmri ilə, Allahın istəyi ilə olur.

Mən təəccüblə baxıram mələk üzlü qadına. O isə davam edir:

-Anan da, bacın da günah iş tutdular. Onlar Allaha tapınsaydılar, özlərinə qəsd eləməzdilər. İntihar böyük günahdır. - Mən heyrətqarışıq qəzəblə baxıram hələ də aramla danışan qadına. - Allah mərhəmətlidir, böyükdür, hər şeyin bilənidir. O, heç nəyi məqsədsiz eləmir.

Mən isterik səslə qışqırıram:

- Mərhəmətli?! Mərhəmətli Allah adamı şikəst eləyər? İki bacını birdən? Bu da bəs eləmədi, onları öldürdü! Bəs o mərhəmətli Allah düşünmədi mən necə yaşayacam anamsız? Axı, mən yeriyə bilmirəm! Anamsız heç nə eləyə bilmirəm. - İsterik hönkürtü məni danışmağa qoymur.

Gözləri yaşarsa da, Mələk gülümsəyir. Bu təbəssümün dili var, mən onu sözsüz də başa düşürəm, amma o, danışır:

- Allah bütün yaratdıqlarını sevir, heç kəsi də yaddan çıxarmır.

Mən birdən sakitləşirəm:

- Bəs niyə mən o sevgini görmürəm, hiss eləmirəm?

- O sevgini görmək, hiss eləmək üçün Allahın varlığına, qüdrətinə şəksiz inanmalısan, Tina. Onun səni sevdiyinə də inanmalısan. Əgər bədbəxtlik varsa, mütləq xoşbaxtlıq da olacaq.

- Axı, ölən dirilmir.

- Sən ki ölməmisən.

- Siz doğrudan elə bilirsiz mən sağam, ölməmişəm? - səmimi təəccüblə qadının yaş dolu ala gözlərinə baxıram. - Anamsız mən acizəm, ölüyəm. Mənim burdan çıxıb evimizə getmək imkanım belə yoxdur. Mənim indi heç nəyim yoxdur. Mənim heç...

Qadın gülümsəyir:

- Bəs mən burda neynirəm? Bəs mən sizin qapınızı niyə açdım? Axı mən bir az gec gəlsəydim, sən də öləcəkdin.

- Kaş gec gələydiz!

-Elə demə, Allaha ağır gedər!

-Ağır gedib nə olacaq, ta neynəyəcək mənə? Daha hansı cəzanı göndərəcək?

-Sus, qızım, danışma, başa düşməyə çalış. Allah adama cəza göndərmir, onu sınağa çəkir. Əgər sınaqdan yaxşı çıxırsansa, mükafatın böyük olur.

- Mükafat?! Mən bu əlil arabasından heç vaxt qalxa bilməyəcəm. Siz ki bunu bilirsiz.

- Hər şey Allahın əlindədir. Əgər sənin Allaha məhəbbətin olsaydı, sən bu vəziyyətdə də özünü xoşbəxt bilərdin.

-Əlil arabasına möhtac olan qız necə xoşbəxt ola bilər?

- Onun da yolu var. Bax, bu gündən başlayaraq sən özünü inşa etməlisən, özünü yenidən yaratmalısan. İnanmalısan ki, normal adam elə belə olmalıdır, sənin kimi, ayaqdan xəstə.

- Bunu bacarmaram, mənim buna gücüm çatmaz, heç istəyim də yoxdur.

- İstəməlisən! Yaşa, mübarizə apar, inan... - Mələk bir anlıq susub qətiyyətlə davam edir. - İbadətin olsun, dua elə, namaz qıl. İnan, Allah rəhmlidir, mütləq səni eşidəcək.

- Axı, mən heç vaxt Allah haqqında düşünməmişəm, nə namaz qılmışam, nə dua eləmişəm, heç bacarmıram da.

- Mən sənə öyrədərəm, namazı da, dua eləməyi də...

* * *

Günlər keçirdi. İndi mən bizim iki otaqlı mənzildə təkdim. Yox, tək deyildim. Mələk mənimləydi. Hər gün mənə baş çəkirdi. Ehtiyacı olanlara yardım etmək istəyən xeyirxah insanlara məni nişan verirdi. Mələk neynəmişdisə, əmi deyilən adam birdəfəlik yoxa çıxmışdı, evdən də əl çəkmişdi. Mənə əlillik pensiyası da düzəltmişdilər. İnanclı başıbağlı volontyor qızlar da gəlirdi yanıma, mənə bir çox işlərimdə iyrənmədən, çəkinmədən yardım edirdilər. Burda özümü gülməkdən saxlaya bilmirəm. Bilirsiz niyə? Mən özümü savab qazanmaq üçün yaxşı bir vasitə hesab edirdim...

İndi mən, demək olar, firavan yaşayırdım. Yox, yaşamırdım, yaşamaq istəmirdim. Daim intihar haqqında düşünürdüm. Və bir gün namazı bitirib Mələyin öyrətdiyi kimi dua eləyəndə bütün həyatım gözlərimin qabağından gəlib keçdi, sonrakı həyatımı da gördüm. Heç bir istəyə yer qoymayan bir ümidsizlik bürüdü məni... Üzümü göyə tutdum və sakit qəzəblə, bəlkə də tənə ilə dedim:

- Niyə məni eşitmirsən? Niyə məni eşitmək istəmirsən? Niyə mənə zülm eləməkdən ləzzət alırsan? Niyə səndə insaf yoxdur? Axı, mən ta nə etməliyəm ki, məni eşidəsən, dərdimə əlac eləmək istəmirsən, öldür məni. Bəs deyirlər, sən bilənsən, eşidənsən, mərhəmətlisən? Öldür məni, nəhayət, öldür, ürəyin soyusun, öldür!

- Allah səni eşitsin deyə qışqırmaq lazım deyil. - Bu, Mələyin səsidir. Demə, çoxdan gəlib, mənə qulaq asırmış. – O, bizi susanda da eşidir, o, bizim hamımızın qəlbində, ürəyindədir.

- İnanmıram, inana bilmirəm...

- İnanmalısan!

- Necə inanım? Necə inanım ki, o məni eşitmir, dərdimə əlac eləmir? Mən daha nə etməliyəm, ibadətdən və duadan başqa əlimdən nə gəlir?

- İnamın zəifdir... Elə olmasaydı, deməzdin o məni eşitmir. İnanmalısan ki, bir yarpaq belə onun istəyi olmadan düşə bilməz.

- Amma mən yarpaq deyiləm, yetim, xəstə, zavallı... bilmirəm nəyəm?

- Sən sağalmaq, şəfa tapmaq üçün namaz qılır, dua eləyirsən, sən, incimə, alver eləyirsən.

Hiss edirdim ki, Mələk haqlıdır. Mən Allahı sevmirdim, inanmırdım. Ali varlıq belə qəddar olmazdı. Mənə bu qədər zülm eləyən varlığı mən necə sevə bilərdim?

- O, sənə zülm eləmir, o, heç kimə zülm eləmir, sınaqlar vasitəsilə bəndələrini kamilləşməyə dəvət edir. Bu sınaqlar var-dövlətlə də olur, kasıblıqla da, bədbəxtliklə də, xoşbəxtliklə də...

- Bu vəziyyətdə mən necə kamilləşə bilərəm? Qüsurlu adam necə kamil ola bilər? Kamil olmaq üçün mənim heç bir imkanım yoxdur.

- Yanılırsan, qızım. Sənin hər cür imkanın var, gör ətrafında nə qədər xeyirxah insan var?! Elə bilirsən onlar bura təsadüfən gəliblər?

- Hamı mənə yardım eləyir savab qazanmaq üçün. - Pis gülürəm. - Mən savab qazanmaq üçün vasitəyəm. Mən nə qədər əzik, yararsız, bədbəxt olsam, bir o qədər yaxşıdır o mərhəmətli insanlar üçün. Savabları daha çox olar.

- Sənin bədbəxtliyin, dediyin kimi, şikəstliyinlə bağlı deyil, Tina. Sənin çətinliklərin ruhunla bağlıdır, sən ancaq özünü düşünürsən, özünü sevirsən. Özünü sevən insan tənha qalır.

- Heç kəsin məni sevmədiyi halda, mən başqalarını necə sevim?

- Bəs səni əhatə edən, qayğına qalan, əziyyətlərini çəkən insanları nə vadar eləyir buna?

- Siz mənim cavabımı bilirsiz, savab yiyəsi olmaq, cənnət qazanmaq...

- Susss... Belə insafsız danışma. Axı, sən dediklərinə inanmırsan.

- Təəssüf ki, axır vaxtlar inanıram...

- Tutaq ki belədir, bəs belə olmasın deyə sən neynəmisən?

- Bu vəziyyətdə mən neynəyə bilərəm? Kolyaskaya möhtac olmuş qarabəxt aciz qız neynəyə bilər?

Mələk qətiyyətlə:

- Sənə demişəm, bir də deyirəm, özünü inşa etməlisən yenidən.

- İnşa etməliyəm? Yəni neynəməliyəm, ayaqlarımı düzəltməliyəm? Bəlkə mən Pinokkio kimi taxta parçasındanam, rəndələyib istədiyim formaya sala bilərəm özümü?

Mələk qeyzlənir:

- Axmaq qız!.. - Dayanır, elə bil söz axtarır. - Ayaqlarını yox, ruhunu rəndələmək lazımdır sənin. Əks halda, ya ölənə qədər, özün dediyin kimi, savab vasitəsi olacaqsan, ya da tam, bütöv insan kimi yaşayacaqsan. İkinci yolu seçsən, ölüm haqqında düşünməyəcəksən...

-Axı, mən bu ölü ayaqlarla neynəyə bilərəm?

- İndiki zamanda vacib deyil hər səhər durub harasa işə yollanasan. Evdə işlə, kompüterdə işləməyi öyrən, sənə iş də taparam, müəllim də taparam.

- Mənim heç normal kompüterim yoxdu.

- Olacaq! Hər şeyin olacaq, təki sən istə!

Mən istehzadan özümü saxlaya bilmirəm:

- Allah yetirəcək?!

- Qızım olsaydın, ağzıvın üstünə bir şapalaq çəkərdim!

Onun qəzəblənməsi yazıq anamı yadıma saldı. Qəfil qadının əlini öpdüm. Ağladım...

Onun mehriban əli başımı sığalladı və qəhərli səsi eşidildi:

- Bir yaxşı insan tanıyıram, onunla danışaram, bilirəm, yox deməz. Hələ müəllim də tapar sənə.

- Oliqarxdı?

- Nə oliqarxdı, nə milyonçu, quruca adı var, amma böyükdən kiçiyə hamı onu tanıyır, lap yuxarılarda da onu sevirlər, o da insanlardan aldığı sevgini ehtiyacı olanlara paylayır. Allah onu yer üzünə mələk kimi göndərib.

Mən gülümsəyib başımı qaldırdım:

- Onun da adı Mələkdir?

- Yox, Mələk deyil, o kişidi, amma əsil mələk elə odur.

- Yəqin o da savab qazanmaq istəyir?

Mələk tərs-tərs baxdı mənə, hətta acıqlandı da.

- Sənin dərdin ayaqsızlıq dərdi deyil, qızım, yaxşıya inamsızlığındır. İnan Allaha, inan onun mərhəmətinə, Allah yaxşılığı özü eləmir, insanların əli ilə eləyir. O mərhəmətli adamlar özbaşına gəlmir bura, onları bura yönəldən var. Allah bəndəsinə sınaq göndərəndə, çıxış yolunu da göstərir. O yolu görmək üçün inamın dərin olmalıdır.

- Mənim qəlbim boşdur, Mələk xala, bomboşdur. Gələn hər gündən qorxuram, yaşamaqdan qorxuram...

- Dua elə, inam işığı düşsün qəlbinə, qızım, dua elə...

- Mən sidq-ürəkdən dua eləməyi bacarmıram.

- Sən heç nə eləməyi bacarmırsan, heç ölməyi də!

Mələyi ilk dəfə idi, belə acıqlı, qəddar görürdüm. Amma o, haqlı idi, mən bir neçə dəfə intihara təşəbbüs eləsəm də, bacarmamışdım.

* * *

Cavabsız suallar məni üzürdü. Niyə mən özgələrə möhtac olmalıyam, niyə mənim də hamı kimi ayaqlarım yoxdur? Niyə bu xəstəlik məhz məni tapmalı idi? Elə bil səs gəldi hardansa. Mələk xalanın da səsinə oxşadı: "Bəs yeriyəndə, hamını gözəlliyinlə heyran edəndə niyə soruşmurdun, niyə mən? Niyə mən belə gözələm?" Susdum. Sual məni tutmuşdu. Niyə insan xoşbəxt olanda, "Niyə mən xoşbəxtəm?" sualını vermir özünə, niyə Allahı çəkmir ortaya, niyə asi düşmür? Yaxşı olan hər şeyi haqq edirmiş kimi alır? Elə ki mənim kimi bədbəxt, şikəst, əlil olur, onda qışqırır: "Niyə mən?"

Bu sualdan və sanki qeybdən gələn cavabdan sonra qəlbimə həzin bir sakitlik çökdü. Bu dəfə, həqiqətən, Mələyin səsini eşitdim: "Xoşbəxt olanda Allaha şükür elə, bədbəxt olanda soruşma niyə belə? Bil ki, o da Allahdandı, deməli, məsləhət belədir". Yazıq anam yadıma düşdü, yazıq bacımı xatırladım. Arabamı kitab şkafına tərəf sürdüm, onların ölümündən sonra bir dəfə də əlimə almadığım köhnə cildli albomu götürdüm. Şəkillərə baxdım, müxtəlif illərdə çəkilmiş fotolara. Köhnəlikdən solmuş, bozarmış ağ-qara şəkillər. Bax, bu şəkildə bacım da, mən də ayaq üstdəyik, ikimiz də gülürük, anam da xoşbəxt təbəssümlə gülümsəyir. Bax, bu da... Ürəyim sızıldadı, burnumun ucu göynədi, gözlərim yaşla doldu. Albomu yerinə qoyanda cildi çoxdan sürtülmüş, kartonu tiftiklənmiş kitab dəydi gözümə. İlahi, "Balaca şahzadə", köhnə dost! Kitabı sinəmə sıxdım, anamın çoxdan unutduğum iyi dəydi burnuma, bayaqdan gözümdə silələnmiş yaş yanaqlarıma axdı...

Yazıq anam bu kitabı nə qədər oxumuşdu bizə, əvvəl yazıq bacıma, sonra mənə. Özü də dəfələrlə. Hər dəfə təzə kitab oxumaq istəyəndə qoymurdum, balaca şahzadəni istəyirdim. Kitabı, anamı qucaqlayırmış kimi, sinəmə sıxdım, pıçıltı ilə "Mama" deyib çox uzaqda olan anamı səslədim: "Мама, ya sovsem odna..." Zığıltılı səslə ağladım, göz yaşım quruyana qədər.

Toxtayandan sonra kitabı açdım, içindən iki qatlanmış bir kağız düşdü. Bu nəydi? Çətinliklə əyilib döşəməyə düşmüş kağızı götürdüm. Açdım... anamın xətti idi. Ürəyim yarpaq kimi titrədi.

"Doroqaya Tina, devoçka maya! Əgər sən sağ qalsan, əminəm ki, bir gün bu kitabı açıb sənə yazdığım kağızı oxuyacaqsan. Nə bilim, bəlkə də... Əgər qismətdirsə, oxuyacaqsan. Gen dünyada bizim yerimiz olmadı, qızım, yaşaya bilmədik, bu bizim Mina ilə qərarımız idi, sənsə xəbərsizdin, biz sənə də səndən icazəsiz ölüm hökmü çıxarmışdıq. Bu mənim ən böyük günahımdır. Amma əlacsız idim, səni yalqız buraxıb gedə bilməzdim. Mən o günahla gedirəm haqq dünyasına. Bağışla məni, yox, bağışlama... Əziz qızım, çox çətin olanda mənə məktub yaz, bütün dərdini-sərini söylə mənə, mənim gözəl qızım... İnan, mən harda olsam, səni görəcəm, səni izləyəcəm. Mina kağız yazdığımı görüb xahiş elədi onun dilindən yazım: ya tebya lyublyu. Tina... Mama."

Bilmirəm, əlimdə anamın neçə il qabaq yazmış olduğu məktub, bayılmışam, yoxsa huşa getmişəm... Gözümü açanda Mələyi gördüm. Anamın məktubu əlində idi.

- O məktub mənimdir, anam yazıb...

Mələk məktubu mənə verib, yaşarmış gözləri ilə gülümsədi.

-Necəsən, Tina?

- Mən oxuyacam, Mələk xala, mütləq işləyəcəm, özümü siz deyən kimi yenidən quracam, inşa edəcəm, mən sübut eləyəcəm, Mələk xala. Qoy Mələk əmi gəlsin, mənə kömək eləsin.

- Mələk əmi burdadı, Tina. - Səs lap yaxında idi. Özü də çox məlahətli, ürəyə yatan doğma, həlim səsdi.

Mən səs gələn tərəfə baxdım. Səsin yiyəsi orta boylu, yaraşıqlı gənc bir kişi idi. Yox, kişi sözü fikrimi düzgün ifadə etmir, o... o... mələkdi. Əynində heç kəsdə görmədiyim parlaq gülləri olan pencək vardı. Boynunda elə pencək qədər parlaq, heç kəsdə görmədiyim qalstuk, döş cibində kiçik bir çiçək buketi. Mən heyrətlə, yox, heyranlıqla baxırdım ona. Onun əlində portfelə bənzər nəsə vardı.

- Mələk əmi? - Məni gic gülmək tutdu. Əlimi ağzıma aparıb gülməyimi gizləməyə çalışdım.

- Nə yaxşı gülürsən? Bəs mənə dedilər sən gülmürsən?

- Nəyə gülüm, Mələk əmi, - əllərimi açıb, bir növ, özümü göstərdim, - Harama baxıb gülüm?

- Doğrudan da! - O, bir mənim yaşlı, amma gülən gözlərimə, bir də kolyaskama baxıb qəfil pıqqıldadı, tez də uşaq kimi əli ilə ağzını tutub gülməyini gizlətməyə çalışdı, alınmadı, gülüşü əlinin yanlarından, barmaqlarının arasından pırtlayıb çıxdı.

Məni də gülmək tutdu və ikimiz də bərkdən güldük.

-Bilirsən nəyə gülürəm, Tina?

Mən başımı yellədim. O isə yenə də gülə-gülə dedi:

- Mələk əmi ey! Yaxşı ad qoydun mənə.

- Bəs Mələk deyil adınız?

- Əlbəttə, Mələkdir, lap elə Mələk əmi. Heç pis səslənmir, hə, Mələk xanım? - Bir kənarda dayanıb gülümsəyən Mələk xalaya baxdı. - Mələk əmi! - Yenə də pıqqıldadı, bu dəfə gizlətmədi gülməyini, çox gözəl gülürdü, su şırıltısı kimi noxudu gülüşü vardı. Bu gülüşün virus kimi yoluxucu gücü istənilən qaraqabaq adama sirayət edə bilərdi.

Mələk xala da güldü:

- Axır bu qızı da güldürən tapıldı. Sağ ol, Mələk əmi.

Hamı güldü. Mələk əmi gülüşünü saxlayıb etiraz etdi:

- Mən niyə, o məni güldürdü.

-Nə fərqi, təki gülmək olsun. - Mələk xala bayaq Mələk əminin əlində gördüyüm çamadanı mənə göstərdi. - Gör sənə nə gətirib Mələk əmin... - Mələk xala bu dəfə qaqqıldayıb güldü.

Mən heyrətlə:

- Kompüter! Noutbuk?

Mələk əmi çantanı tələsik açıb gözəl bir noutbuk çıxartdı. Onu ehtiyatla dizlərimin üstünə qoydu.

- Bu sənindir!

Mən heyrətlə gah kompüterə, gah uşaq kimi gülümsəyən Mələk əmiyə baxdım.

- Axı, bu çox bahalı noutbukdur.

- Yox, baha deyil...

- Neçəyədir?

- Bir şirvana!

Bu cavabın dalınca onun noxudu gülüşü otağı doldurdu. Mən də güldüm.

- Axı, mən kompüterdə işləməyi bacarmıram.

- Mələk əmin ölməyib ki! Sən hər şeyi bacaracaqsan. Kompüter proqramlarını da öyrənəcəksən.

* * *

O gündən mənim kompüter dərslərim başladı. Gənc bir xanım hər gün gəlib mənimlə məşğul olur, noutbukun sirlərini öyrədirdi mənə. Tez-tez də məni tərifləyirdi. Deyirdi mən çox tez qavrayıram. Mələk əmi də hər gün gəlirdi bizə. Hər dəfə də, pencəyini dəyişirdi. Onun bütün pencəkləri güllü-çiçəkli çəmən kimi zəngin və parlaqdı. Mən onu adi kişilərin geyimində heç təsəvvür edə bilmirdim. Mələk əmi məhz bu cür geyinməli idi.

İndi günlər daha tez keçir, əvvəlki kimi uzanmırdı uzana bildikcə. Dünya, deyəsən, gözəlləşmişdi. Bu gözəlliyi daha yaxından görmək, bütün varlığımla duymaq üçün, nəhayət, məni sıxan bu dörd divar arasından çıxmaq istədim, adamları görmək, həyata, dünyaya qarışmaq istədim. Bəzən mən şikəst olduğumu unudurdum. Həri, mən unudurdum, adamlar isə bunu vaxtaşırı yadıma salır, unutmağa qoymurdular. "Hayıf, hayıf... Uzaq olsun..." kimi replikalarıyla. Amma bu suflyor xatırlatmaları məni əvvəlki kimi incitmirdi. Mən kim olduğumu, necə olduğumu hamıdan yaxşı bilirdim...

Mən, həqiqətən, yaxşı tələbə imişəm. İndi əməlli-başlı hazır proqramçı idim. Mələk əmi mənə iş də tapmışdı, bir dostunun firmasında proqram təminatçısı idim. Maaşım da yaxşı idi... İanələrə ehtiyacım yoxdu. Mələk xalaya da demişdim, daha mənə yardım lazım deyil, qoy ehtiyacı olanlara yönəltsin xeyirxah insanları.

Həyatım? Ona uyğun olaraq bütün hisslərim, duyğularım, ovqatım yenilənmişdi, dediyim kimi, hərdən ayaqlarımın şikəst olduğunu da unudurdum. Heç vaxt arzulamağa cəsarət etmədiyim xəyallara qapılır, şirin arzular, istəklər oyanırdı içimdə. Bir etirafa cəsarət edirəm, içimdə qadın oyanmışdı, sevgiyə, nəvazişə, kişi nəfəsinə ehtiyacı olan qadın. Bəlkə, bu istəklərin təsiri idi, bir yuxu məni qarabaqara izləyirdi.

Görürəm, işıqlı, geniş, bir divarı güzgülü salondayam. Ayaq üstdə dayanıb öz əksimə baxıram. Əynimdə çox qısa bir ətək var, ayaqlarım o qədər gözəldir, işıq saçır, yazıq anamın belə ayaqları vardı. Mən heyrət içindəyəm,

həm də elə xoşbəxtəm... necə xoşbəxt olduğumu deyib-danışa bilmərəm. Ayaqlarıma aşiq gözlərlə baxdığım yerdə arxadan doğma bir hənir alıram, dalınca da çiynimdə qayğıkeş bir əl hiss edirəm. Bu təmasdan bilirəm, odur, onun mehriban əlidir, mənim xeyirxah mələyim, mənim yenidən doğulmağımın səbəbkarı Mələk əminin. Qəfil çönüb onun güllü-çiçəkli, ətirli sinəsinə sıxılıram. O mənim hər iki yanağımı əlləri arasına alıb gözlərimin içinə baxır. Onun gözlərində həmişəkindən fərqli bir parıltı var. Bu parıltı məni həm qorxudur, həm də şirin bir istəklə özünə çəkir. O, heç vaxt mənə elə baxmamışdı. Hardansa, lap uzaqdan onun çox fərqli, içimi titrədən sirayətedici səsini eşidirəm. Bu, mələk səsi deyildi, tamam başqa bir səsdi, kişi səsi idi. Bu səsdən başım hərlənir...

- Tina, mən səni sevirəm!

Mən heyrət dolu xoşbəxtliklə soruşmaq istəyirəm: "Məni? Mələk əmi, sən məni sevirsən?" Deyə bilmirəm, daha doğrusu, səsim çıxmır. Mənə elə gəlir bu kinodur, biz də o filmin sevən qəhrəmanları... Baxıram onun təzə, mənə tanış olmayan gözlərinə, o isə üstümə əyilib dodaqlarını dodaqlarıma yapışdırır...

* * *

Bütün günü bu yuxunun təsiri altında olurdum. Əslində, bu yuxu özbaşına gəlmirdi, onun müəllifi mən özüm idim, mənim əlçatmaz xəyallarımın məhsulu idi bu sehirli yuxu. Mən... Mən... Yox, deməyə qorxuram, daha çoxu utanıram, özümə belə etiraf etməyə cəsarət eləmirəm. Gülüş hədəfi olmaqdan, bəlkə də "yazıq qız" sözündən qorxurdum, axı, adamlar mərhəmətli olmaqdan başqa, həm də hədsiz qəddardırlar. Mən iyirmi iki illik həyatımda bunları bilirdim, təcrübədən keşirmişdim. Savabı pulla, yardımla qazanmaq eşqində olanları da çox görmüşdüm.

Mən onu görən gündən sevmişdim. Birdən yadıma düşmüşdü, mən qadınam, qızam... Mən bu sirrimi özümə də etiraf etməzdim, amma neynəyim? Axı, mənim bədənim, ayaqlarım şikəstdi, ürəyim ki şikəst deyildi. Bax, sinəmin altında döyünür, onu düşünəndə yaralı quş balası kimi çırpınır, gözlərimdən ümidsizlik yaşı axır. Amma mən həmişə realist olmuşam, bilirdim ki, həyat yuxu deyil, hər bir cəhətdən vəziyyətimin amansızlığını anlayırdım. Mən özümü necə inşa edirəm edim, olanıma qane olmağı bacarım, insanları sevim... Xoşbəxtliyi isə yarada bilmirəm, bütün bu səylər xoşbəxt olmağa bəs eləmir. Bu yerdə qulağıma elə bil qeybdən səs gəlir, özü də çox kobud, qaba bir səs, anamın səsidir: "Qudurma, Tina!" Hirslənəndə, canı boğazına yığılanda anam belə deyib ayıldırdı bizi. Mən onun sözünü davam etdirirəm öz içimdə: "Sevgi? Sevgi elə sənin şikəst ayaqlarına yaraşır!"

- Nə olub sənə, Tina, niyə qəmlisən axır vaxtlar? Nəyin dərdini çəkirsən?

Mən susuram, gözümdən yaş axır...

- Niyə susursan, niyə mənə demirsən dərdini? Bəlkə ağrıyan yerin var? De mənə, sıxılma.

Mən başımı bulayıb əllərimlə üzümü qapayıram, hönkürməkdən özümü güclə saxlayıram.

- Axı, hər şey yaxşıdır, heç kimdən asılılığın yox, heç kimə yük deyilsən, heç kimin köməyi olmadan yaşaya bilirsən.

Mən susuram, danışa bilmirəm.

- Danış, cavab ver mənə.

Qəfil, özümdən asılı olmayaraq qışqırıram:

- Ona deyin ta gəlməsin bura!
- Kimə?
-Mələk əmiyə deyin bura gəlməsin. Mən onu görmək istəmirəm.
- Sən bilirsən nə deyirsən?

Mələk xala çənəmdən tutub gözlərimə baxır. Mən onun baxışlarına dözməyib gözlərimi yumuram.

- Xətrinə dəyən nəsə deyib? Axı, o, hərdən qəribə, çox vaxt da şit zarafatlar eləyir. Gülən də ancaq özü olur.

Mən çənəmi Mələk xalanın əlindən çəkib başımı bulayıram. İxtiyarsız axan göz yaşlarımı gizlətmək üçün əllərimlə üzümü qapayıram.

Mələk xala sakitləşmir, əllərimi üzümdən ayırmaq istəyir.

- Bəs onda nə olub? - Nəhayət, əllərimi üzümdən götürə bilir. - Sən ağlayırsan? Bu nə deməkdir, Tina?

Mən susuram, danışa bilmirəm. Gözlərimdən isə yaş axır dayanmadan. Mələk məni qucaqlayıb qulağıma pıçıldayır:

- Sən onu sevirsən?

Mən cavab vermək əvəzinə hönkürürəm.

Mələk halsız vəziyyətdə kürsüyə çökür.

- Həəə... bir bu çatmırdı.

Mən başımı aşağı salıram, Mələklə göz-gözə gəlməkdən utanıram. O, mənim sirrimi anlamışdı, sözsüz-sovsuz.

- Deməli, Mələk əmini sevirsən?
- Lap gördüyüm ilk gündən. Amma vəziyyətin bu həddə çatacağı ağlıma gəlməzdi.

Mələk xala bir müddət susur və bir azdan düz gözümün içinə baxıb soruşur:

- Yaxşı, sən bu sevgidən nə gözləyirsən?
- Bilmirəm, bu haqda düşünməmişəm.
- Düşün, Tina, düşünməlisən. Mən bu sevgidən yaxşı heç nə gözləmirəm, heç nə.
- Mən də heç nə istəmirəm... Onu unutmaq istəyirəm. Mən istəklərimi cilovlamaq istəyirəm. O, gəlməsin, onun hər gəlişi... Mən bu sevgidən xəcalət çəkirəm.
- Nahaq! Sevgi gözəl hissdir, amma... Çıxart bu sevgini qəlbindən, dua elə, yalvar, qoy Allah bu sevgini yerli-dibli yox eləsin. Denən, ilahi, çıxar bu sevgini qəlbimdən.

Bu vaxt qapı döyülür. Bir dəfə tək, sonra üç dəfə.

- Odur! - az qala qışqırıram. - Mələk xala, yalvarıram... Mən yatmışam... - Tələsik kolyaskamı hərəkətə gətirib yataq otağına çəkilirəm, qapını da bağlayıram açarla.

Mələk arxamca boğulmuş səslə çağırır:

- Tina, hara? Hara qaçırsan?

Mən ürəyim çırpına-çırpına qapının açar deşiyindən onları izləyirəm. Mələk bir də həmin parolla döyülən qapıya yaxınlaşır və soruşmadan açır. Qapı ağzında dayanan Mələk əmidir. Əynində heç vaxt görmədiyim qara pencək var. Bəzəkləri az idi. Deyim ki, bu pencək ona güllü pencəklər qədər yaraşmır. Üzündə həmişəki gözəl sirayətedici təbəssümü dəyişməzdir. O, təəccüblə soruşur:

- Nooldu? Niyə məni təbəssümlə qarşılamırsınız? Gəmiləriniz batıb deyərdim, amma sizdə gəmi hardandır?! - Gülür. - Tina hanı?
- Tina... yatıb.

- Necə yəni yatıb? Yatmaq vaxtıdır? O, saat beşə qədər işləməlidir. Doqquzdan beşə kimi. Belə getsə, dostuma deyəcəm ona şiddətli töhmət versin. - Yenə də noxudu gülüşü eşidilir. O, bir daha ucadan çağırır: - Tina!

- Çağırma, o özünü bu gün halsız hiss edir. Qoy dincəlsin bir az.

- Axı, mənim onunla vacib söhbətim var...

- Qulaq as, dostum, Mələk əmi, sən ta bura gəlmə.

- Bu nə deməkdir, Mələk mama? Nəsə olub? Tina məni qarşılamır, siz də qəribə sözlər deyirsiz?

- Tinanın, əslində, ta bizə ehtiyacı yoxdur. Amma nə qədər sənə möhtac adamlar var, ehtiyacdan, xəstəliklərdən şam kimi sönən imkansız insanlar... Sən indi Tinaya yox, onlara lazımsan. Mərhəmət işığını onların üstünə sal.

- Yox, burda nəsə var! Ola bilməz ki, Tina mənim gələcəyimi bilib yatsın. Mənim bura gəlməyimi istəməsin.

O, qapıya yaxınlaşır, mən qorxub arabamı iri qədimi şkafın arxasına sürüb, orada gizlənirəm. Qapım döyülür.

- Tina, mersedesini qapıya ver, gör sənə nə gətirmişəm.

Cavab almadığı üçün qapını açmaq istəyir. Qapının açılmadığını görüb bir az da bərkdən qışqırır: - Bu nə deməkdir, Tina, sən qapını bağlamısan? Mələk mama, o niyə qapını bağlasın? - Qapını daha bərkdən döyəcləyir, dalınca da Mələk xalanın sakit, amma təlaşlı səsi eşidilir:

- Tina, aç qapını, Mələk əminin sənə sözü var. - Yenə də cavab gəlmədiyini görür... Mən arabanın tutacaqlarını möhkəm sıxıram. Cavab verməkdən özümü güclə saxlayıram. Mələk xalanın "Aman Allah!" deyən səsini eşidirəm. Qapıya açar salınır. Onda mən şkafın arxasından çıxıb otağın ortasında dayanıram. Qapılar taybatay açılır. Hər ikisi otağa daxil olur.

- Burdasan, axmaq qız, ürəyim düşdü.

Mələk əmi təbəssümlə gəlir üstümə:

- Ah, gizlənpaç oynayır bu qız. Özü də təkbaşına. Mən də oynayardım, hayıf, vaxt yoxdur, yol üstəyəm, gedirəm.

Mən qorxu ilə onun xeyli arıqlamış, avazımış, hətta saralmış sifətinə baxıram:

- Hara?

- Nahara! - Mələk əmi öz sözünə gülür.

Biz də gülürük. Mən indi gördüm ki, onun gözlərinin ağı da saralıb.

- Ciddi soruşuram.

- Bir şirvan versən, deyərəm.

Mələk xala hövsələsiz:

-İndi şirvan var?

Mələk əminin gülüşü dondu sifətində və o, güclə seziləcək kədərlə:

- Tamam gedirəm, uzun müddətə. Xaricə gedirəm.

Mələk:

- Tədbirin var?

Mən içim əsə-əsə soruşuram:

- Nə vaxt qayıdacaqsız?

- Neynirsən mənim qayıtmağımı? Deməmisən mən daha gəlməyim bura, indi ki sən məni görmək istəmirsən, mən də acıq eləyib gedirəm Almaniyaya.

Ağır bir sükut çökür. Mən ağlamaq üçün himə bəndəm, amma hiss edirəm ki, möhkəm olmaq lazımdır. Hannan-hana Mələk əmi dillənir:

- Axmaq bir xəstəlik tapıb məni, rəhmətlik anamın xəstəliyindəndir, burda müalicəsi yoxdur.

Danışsam ağlayacam, susuram. Onun üzünə baxa bilmirəm.

- Bir azdan yola düşürəm. Qayıdıb gələ biləcəm, ya yox, bilmirəm. Bundan sağalmaq yoxdur, amma ümidsiz də deyil.

Mən daha dözüb susa bilmirəm.

- Həkimlər elə deyirlər?

- Yox, bir həkim deyir! - Qəfil noxudu gülür. - Allah bilən məsləhətdir. Bir də dedilər, səni ancaq sevən adamın duaları sağalda bilər. Mən də dedim, həkim, məni sevən heç kimim yoxdur.

Mən az qala qışqırdım:

- Necə yəni sizi sevən yoxdur? Az qala bütün ölkə sevir sizi, Mələk əmi.

-Yox, o sevgi humanitar sevgidir, həkimin reseptində yazılan başqa sevgidir, məni sevən qadının məhəbbəti, məni sevən qadının duaları xilas edə bilər. - Bunu deyəndə onun dolmuş gözlərindən qəfil yaş sıçradı.

Ayaqlarım olsaydı, mən onun üstünə yüyürüb boynunu qucaqlayar və "Mən səni sevirəm, Mələk əmi" - deyərdim, amma mənim ayaqlarım sözümə baxmır, ancaq səsimə gücüm çatır:

- Mən sizi sevirəm! - dalınca da hönkürürəm.

Mələk xala hiss edilmədən getmişdi.

Yuxuda gördüyüm, təmasını hiss elədiyim əllər çiynimə qonur. Mən gözlərimi açmadan onun əlini tutub dodaqlarıma yaxınlaşdırıram.

- O necə sevgidir ki, mənim bura gəlməyimi qadağan eləyir?

Mən danışa bilmirəm. O isə inad eləyir, hiss eləyirəm ki, nəsə deməyimi istəyir. Danışdım, amma bu, mənim səsim deyildi, nəsə başqa bir səsdi:

- Mən bu sevgi ilə ölmək istərdim.

O, yuxudakı kimi yanaqlarımı əlləri içinə alıb yaş dolu gözlərimə baxır:

- Niyə ölmək?

- Başqa yolmu var? Bəlkə siz deyən kimi bu mersedesə möhtac qız nəyəsə ümid eləyə bilər? Mən öz sevgimdən utanıram.

- Sevgidən utanmaq? Bax, bunu eşitməmişdim.

- Bu sevgi ilə mən heç kəsi xoşbəxt eləyə bilmərəm. Mən heç kimin arzu eləmədiyi ağır bir yükəm...

- Mən də səni sevirəm, Tina, dediyin o yükün altına girməyə hazıram, buna mənim gücüm yetər...

Başımı qaldırıb heyrətlə onun üzünə baxıram, yanaqları bir az rəngini dəyişib, allanıb. Gözlərində yuxuda gördüyüm sirli parıltı və mənə tanış olmayan cazibə var. Aman Allah, o, üstümə əyilir, aralı dodaqlarını ağlamaqdan islanmış duzlu dodaqlarıma yapışdırır... Bu öpüş uzun çəkir, hisslərin bolluğundan başım hərlənir... Nəhayət, o, məndən aralanır, barmağındakı üzüyü çətinliklə çıxarıb mənim barmağıma taxır. Çox vaxt yerinə düşməyən, qəfil gələn noxudu gülüşü ilə gülür.

- İndi sən oldun mənim nişanlım.

O, bu sözü elə dərin inamla və qətiyyətlə deyir ki, mən həqiqətən nişanlandığıma inanıram. Yenə də onun əlini tutub dodaqlarıma sıxıram.

- Getmək məqamı gəldi. - Əlini ehmallıca əlimdən çıxarıb ayağa qalxır. - Reseptə görə, sən mənə dua eləməlisən. Sənin duaların harda olsam gəlib tapacaq məni. Əlvida!

Mən əllərimlə üzümü tutub gözlərimi yumuram, onun necə getdiyini görmək istəmirəm.

Örtülən qapı səsini eşidib gözlərimi açır və namaza dayanıram. Sonra isə, Mələk əmiyə həkimin reseptinə uyğun dua edirəm...

***İyun, 2020-ci il***
***Koronavirus dövrü***



*Nazim ƏHMƏDLİ*

## DƏRDİN VƏTƏN ÜZÜ

gözümdən yuxum qaçır
gecəmin sən üzünə;
həsrətin cığır salıb
saçımın dən üzünə;

baş götürüb gedirdim,
yolu tapdım, itirdim;
səni Tanrı gətirdi
dünyanın mən üzünə;

ağ buludlar bir naxır,
ağ sular hardan axır;
qış qayıdır, qar yağır
ömrün çəmən üzünə;

ruhum harda ləliyir,
ağrı-acı ələyir;
könlüm qubar eliyir,
dağların çən üzünə;

kim dəyişib üzümü,
tanımadım özümü;
anam sıxdı gözünü
fələyin şən üzünə;

mən nədən belə kürəm,
dərd gəlir, bürəm-bürəm;
dönüb baxa bilmirəm
dərdin Vətən üzünə.

## DÜNYA BİR QALACIQDI

çıxıb getmək istədim,
dedilər yol açıqdı.
sözü iptək əyirdim,
uzandı, yola çıxdı.

bu yollar burum-burum,
harda dayanım-durum.
dedim bir yuva qurum,
qarşıma qala çıxdı.

bu nədi başımdakı,
qar düşüb qışım təki;
o dağın başındakı
qar deyil, alaçıqdı.

axı, kimə borcluyuq,
hərə bir az suçluyuq.
gəlib gedən yolçuyuq,
dünya bir qalacıqdı.

yaz sətir-sətir məni,
tap, bir də itir məni;
həsrətin ütür məni,
könlüm evi uçuqdu.

qar dənə-dənə gəlir,
dərd dönə-dönə gəlir;
başımıza nə gəlir,
deyirlər, olacaqdı.

## SƏN ALLAH, KÜSMƏ, ÜRƏYİM

soyuq yağışlar üşüdür,
üşüdür daha könlümü.
görən, yaz nə vaxt qayıdar,
bükəm yarpağa könlümü.

daha ürək də qalmayıb,
o da cığallıq eləyir.
tutub bəndimi-bərəmi,
həsrət ağalıq eləyir.

gedim bir cığır axtarım,
görüm yolum hara çıxır.
nədən buz kimi yağışlar
tək mənim başıma yağır?!

son illər çox dəyişmişəm,
bilmirəm ki nədən kürəm.
yuxumda bir vətən vardı,
indi onu da görmürəm.

daha yuxum da qalmayıb,
çəkilib göyün üzünə.
hər gecə ruhum üz tutur,
bir dustaq köyün üzünə.

görən, yaz nə vaxt qayıdar,
bir az isinə ürəyim.
bizimki də belə gəlib,
sən Allah, küsmə, ürəyim.

## ÜRƏYİM SƏNİ İSTƏDİ

hələ bizim sevdamızın
boycığazı çox bəstədi.
bir daha qırma könlümü,
onsuz da dərd üst-üstədi.

konlümün açıq yerindən,
ruhumun acıq yerindən.
yolların uçuq yerindən,
ürəyim səni istədi.

buludların köçünə bax,
həsrətimin yükünə bax.
gəl, canımın içinə bax,
ağrılar dəstə-dəstədi.

bax, dərdin üzü bir deyil,
hər odun közü bir deyil.
hamının gözü bir deyil,
hər adam bir nəfəsdədi.

nədir könlümü qurudan,
kül oldum Vətən sarıdan; -
yollar qırılıb yarıdan,
dağlarımız qəfəsdədi.

külək hardan əsib gəlir,
payızın nəfəsi gəlir;
ürəyimə səsin gəlir,
elə qulağım səsdədi.

## KÜSMƏ, KÖNLÜMÜN MƏLƏYİ

yenə buludlar quruyub,
göydə fırlanır ələyi.
saçlarıma qar gətirib
ötən payızın küləyi.

həsrət yolumun üstündə,
dağlar qolumun üstündə.
ağlar qolumun üstündə,
yurdun döyünən ürəyi.

qarlı qışıydı yollarım,
yordum yaşıdım yolları.
büküb daşıdım yolları,
daşdan çıxartdım çörəyi.

hər gülün bir arısı var,
hələ yolun yarısı var,
hər dərdin bir tanrısı var,
hər ağrının bir fələyi.

ocaq yanıb dönür külə,
gəl, üz-gözümə su çilə,
ürəyimi gilə-gilə
sıxır həsrətin göynəyi.

belə keçir yazım-qışım,
gedim, ruhumla barışım.
səndə qalıb ağlım-huşum,
küsmə, könlümün mələyi.

## ÇOX DƏYİŞİB ADAMLAR

həsrətim yol üstədi,
körü-köçü tökülü,
hələ gözümdə qalıb
göy üzünün şəkili.

dağlar kündə-kündədi,
gör, vətən nə gündədi.
canım od içindədi,
içim-çölüm bürkülü.

söz düşür dildən-dilə,
toz düşür güldən-gülə.
ömrümüz ildən-ilə
yarpaq-yarpaq bükülür.

tənha qalıb adalar,
hamı dərdi sadalar,
çox dəyişib adamlar,
yaxşılıqlar çəkilir.

bu da ömrün o yanı,
burdan necə oyanım?
Tanrı quran dünyanın
divarları sökülür.

hanı o qız bulaqlar,
indi yalqız bulaqlar.
qurudu buz bulaqlar,
zəqqun sular içilir.

kim yazıbdı yazını,
dərd tutub avazını.
hər gün yollar uzunu
ayrılıqlar əkilir.

## BOYLANDIM DAN ÜZÜNƏ

boylandım dan üzünə,
dan üzü qıpqırmızı.
payız dönür deyəsən;
könlümə qubar sızır.

buludlar nəhr-nəhr,
həsrət çiynimi əyir.
mən dəlicə bir şair,
sən də - zalımın qızı.

ötüb ömrün yarısı,
yarı oddu, yarı su.
üzün Ayın arısı,
çiçəklərin bəyazı.

dərd də ki, büküm-büküm,
sürüyüb hara çəkim.
sındırıb yerə töküm
göydən Ayı-ulduzu?

səni yaman özlədim,
ürəyimi közlədim.
bir yer elə, gizlədim
bu qayıdan payızı.

yandım, odun üzümdə,
qovruluram közündə;
bilmirəm heç özüm də,
bu eşqi hara yazım.

## UNUTDUN AXIR MƏNİ

yenə qubarım dönüb,
bir ağrı yaxır məni;
suyam, seləm, yağışam,
buludlar doğur məni.

bu nə istək, nə xəyal,
nə iz qalıb, nə də yol.
bir az məndən uzaq ol,
bir az darıxdır məni.

hanı eşqin özülü,
ötüb gedir yüz ili.
ürəyim çox üzülüb,
bir meh də yıxır məni.

nə var sözün içində,
öldüm özüm içimdə.
odun-közün içində
sevdam buraxır məni.

həsrət şələ-şələdi,
ruhum sənsiz mələdi,
dediyini elədin;
unutdun axır məni.

## ÖMÜR HARDA ÜYÜNDÜ

bu sim kimi ürəyim
niyə qəfil qırıldı?
aşıb keçə bilmədim.
həsrət qəlbi barıdı.

ağrılar büküm-büküm,
çəkir çiynimin yükün.
bu yurddan hara köçüm,
hər yanı dərd darıdı.

neynirdin bu zülümü,
hara atdın külümü;
çiliklənmiş könlümü
ağrılara sarıdın.

saçlarımda çən inlər,
içimdə bir mən inlər.
ötüb getdi min illər,
ayrılıqlar qarıdı.

sözüm ilmə-ilmədi,
üzün yenə gülmədi.
axıb gedə bilmədi,
ağ sular da qurudu.

yollar düyün-düyündü,
ömür harda üyündü;
ürəyim çox döyündü,
axır o da yoruldu.

## İTƏN YURDU HARDAN TAPAQ

ürəyim tər su istəyir
suların duru yerindən.
könlümə qubar tökülüb
dərdin-qubarın yerindən.

hara çatır görən səsim,
axı kimdən, nədən küsüm.
qayıt, əritsin nəfəsin
saçımda qarı yerindən.

bir zalım fələk oynayır,
çiynində lələk oynayır.
yuxumda külək oynayır
dünyanın quru yerindən.

diş qıcayır yoldan ötən,
dərd gətirir çətən-çətən.
param-parça olub Vətən
namusun-arın yerindən.

ağ buludlar papaq-paqaq,
itən yurdu hardan tapaq.
üşüyürəm yarpaq-yarpaq,
payızın sarı yerindən.

min illərdi yol gedirdim,
söz-söz, sətir-sətir idim.
axır bir Vətən itirdim
ömrümün yarı yerindən.

## YENƏ DÖNÜB GƏLƏCƏM

çox uzaqda deyilsən,
dön bax bircə anlığa;
üzümün bir tərəfi
yapışıb qaranlığa.

məni kim üzür, axı,
qopur könlümün bağı;
gün üzü axşam çağı,
əriyir toranlığa.

bax, tıncıxır - nəfəsim,
içimdə qalıb səsim;
hələ getmə, əzizim,
təzə dərd aramağa;

ürəyimi qazıblar,
qazıb hardan asıblar?
alnımdakı yazılar
tökülüb ağ varağa.

məni kim arayacaq,
həsrətim qarıyacaq.
göy üzü quruyacaq
buludlar yağa-yağa.

ocaq yanır küləcən,
bir gün mən də öləcəm.
yenə dönüb gələcəm
günahımı danmağa.

*Sadiq HİDAYƏT*
*İran*

# Hacı ağa



♦ *Roman*

**– 1 –**

Hacı ağa həmişəki kimi əsasını yerə vura-vura həyəti bir dövrə gəzişdi, ətrafı diqqətlə nəzərdən keçirdikdən və evdəkilərə göstəriş verib iradlarını bildirdikdən sonra zərif dəvə tükündən olan əbasını çarpayının üstündən götürdü. Yırğalana-yırğalana uzun və qaranlıq dəhlizi keçib daş döşənmiş həyətə çıxdı. Sonra düz artırma ilə üzbəüz qoyulmuş kürsüdə, döşəkcənin üstündə oturdu.

Boğazını arıtladı və əbasının ətəyini dizlərinə doğru çəkdi. Enli şalvarının ucuyla kirli ayaqqabıları arasında qalan şişman və qıllı topuqları tül əbasının altında yox oldu.

Daş döşəmə yuyulub süpürülmüş, amma qonşular hovuzda yığılmış lehməni arxa boşaltdığından, içərini kəsif qoxu bürümüşdü.

Hacı ağa əsasına söykənib kobud səslə bağırdı:

– Murad! Ay Murad!

Sözü ağzından çıxmamış, çəlimsiz, yırtıq-yamaq libaslı, çaşqın baxışlı bir qoca əlləri sinəsində çölə çıxdı:

– Buyur, qurban!

– Yenə gözdən itmisən, hara getmişdin? Günorta oldu... Qapını aç, lehmənin iyi aləmi bürüyüb.

Murad qapını açıb utana-utana dedi:

– Qurban, Zübeydə xanımın başı ağrıyırdı. Mənə dedi ki, gedib bir az şirniyyat alım.

– A yarımcan qurumsaq! Sənə kim icazə verib? Əlli ildir evimdəsən, hələ də bilmirsən ki, məndən icazə almalısan? Elə indicə Zübeydə xanımın yanında idim, gündən-günə halı da yaxşılaşır. Niyə mənə demədi ki, başı ağrıyır? Bunlar dəvə naz-qəmzəsidir! Zəif damarımı tutmusuz! Evdə şəkər-nabat o qədərdi ki, görən deyər, burda hamı şəkər xəstəliyinə tutulacaq. Gedin camaatın da evinə baxın... Bu gün bəhanə baş ağrısıdı, sabahı qonaq-qara, birigün də uşaq! Elə bil pulkəsən maşınım var! Əgər başı ağrıyırsa, bir stəkan isti şərbət içsin... Başı ağrıyan qadın məsləhətdir ki...

– Qurban, qənd yoxdur.

– Yenə boşboğazlıq edib sözümü kəsirsən? Necə yəni qənd yoxdur? Səhər tezdən hamının qəndini-şəkərini verdim, hələ də gözləri doymayıb? Bir nəfər, iki nəfər olsaydılar, adamın ürəyi yanmazdı. Səkkiz ağızdır... Allaha pənah aparacaq Həlimə xanım qara yerə soxdu məni. Bir dərman resepti, iki dərman resepti... Halı nə yaxşılaşır, nə də pisləşir... Niyə gəbərmir... bilirsən? Həddən ziyadə uzun ömrü var...

Hacı iri gözlərini bərəldib ümidsizcəsinə başını yerə dikdi:

– Bu hala gəlmiş adam gərək ağır işin qulpundan yapışmasın... Ürəyimdə yağ qalmadı... Bütün bunlar bəxtsizliyimdəndi! Səhərdən axşama qədər can verirəm. Evə gəlincə, ya uşaqların ayaqqabılarını, papaqlarını yığıram, ya daimi nikahlı ilə siğəlinin davasını, ya da Həlimə xanımın xəstəliklərinin siyahısını dinləyirəm! Qoca vaxtı görəcəklərim varmış! Olan-bitəni məndən yaxşı bilirsən... Kiçik ağanın təhsilinə nə qədər pul xərclədim... Nə var, nə var, ilk oğlandır deyə, Avropaya göndərdim. O qədər nəzir-niyazdan sonra Allah səkkiz qız verdi mənə, guya qapımı döyən olacaqdı. Başıma gələnləri gözünlə gördün ki. Ah naxələf övlad! Sən də şahidsən, lotu-potunun biriydi, mən də onu vərəsəlikdən məhrum etmək məcburiyyətində qaldım. İşi-gücü qumar, bir də hərzəlik! Elə bil yastığım altında Qarunun[1] xəzinəsini gizlətmişəm. Hamı əlimə-ovcuma baxır. Mənə bir şey olsa, neyləyəcəksiz!? Bu halımla-təhərimlə qulluğumda duranım olmalıdır. Gündən-günə taqətdən düşürəm. Vərəmləcəksiz axırda! Halıma bax! Bu gün saçımı daradım, bir ovuc tük yolundu.

Murad oğrun-oğrun Hacının daz başına baxdı, bu sözləri eşitməyə vərdiş etmişdi. Allahın hər ver günü bu nitqi dinləyir, təharətini güclə saxlayan adam kimi əyilib-büzülür və müsahibinin həmləsini gözləyirdi. Amma tərs damarı tutmuş Hacı, pişik siçanla oynayan kimi, sözü sözə calamaqda idi. Şah Məqsudi təsbehini jiletinin cibindən çıxarıb:

– Elə zənn edirsiz ki, pulu tarladan yığıram! – dedi. – Dünən kağız-kuğuzlara baxanda, bir siyahı tapdım. Fikir verdim, rəhmətlik atamın siyahısıydı. 20 vəziri, vəzifə-məqam sahibini şam yeməyinə dəvət edibmiş. Heç bilirsən nə qədər məsrəfi olub? Altı min iki abbası[2] və üç dənə "pul"[3]. Bu gün gəl camaata de ki, Allah rəhmət eləsin, Şəhid Şah[4] zamanında cindəklə[5] alış-veriş etmişik, buna kim inanar?.. Heç yadımdan çıxarmaram, atamın evində bir "buğlama"[6] bişirilmişdi. Buğlamanın nə olduğunu bilirsən? Hindtoyuğunu kəsirlər, bir az gözləyirlər suyu çəkilsin, sonra qarnını turşu və qaysıyla doldururlar, yağda bişirib qovururlar... O buğlamanı da elə bişirmişdilər ki, tikə ağızda əriyirdi. Ləzzətdən adam barmaqlarını yemək istəyirdi... – Ağzı sulandığından udqundu və gözləri nəmləndi. – Hə, uşaq idim, gecənin bir yarısı hindtoyuğunu qabdan götürüb anbara apardım və orda yarısından çoxunu yedim... Xudaya, bütün bəndələrinin günahlarını əfv et!.. Ertəsi gün rəhmətlik atam məsələdən xəbərdar oldu. Bir dayəm vardı Gülzar adında, günahı boynuna qoydular. O qədər çubuq vurdular ki, yazıq qan qusaraq öldü. Amma mən günahı boynuma almadım, kimsə də təqsirin məndə olduğunu anlamadı. Sonra qanlı ishal olub yatağa düşdüm.

---

[1] – Quranda zikr olunan əfsanəvi şəxs; "Nəhayət (Musanın duasını qəbul buyurub bir zəlzələ nəticəsində), onu (Qarunu) sarayı ilə birlikdə yerə gömdük" ("əl-Qəsəs", 81).

[2] – Qacarlar və Pəhləvi dövrünün valyutası, 4,64 q ağırlığında qızıl sikkə. 1 abbası 200 dinar və ya 4 şahı dəyərində idi.

[3] – Eyni dövrdə işlənən dəyərsiz valyuta

[4] – 1895-ci ildə sui-qəsdlə öldürülən Nəsrəddin şah

[5] – Yarım "pul" dəyərində mis valyuta

[6] – İran mətbəxindəki yemək

Cib yaylığına fısıldayandan sonra:

– O zamanlar hindtoyuğunun biri üç abbasıydı, – dedi. – Rəhmətlik Şəhid Şah zamanı. Elə bil dünən idi, min il əvvəl, Keykavuslar, Əfrasiyablar zamanında deyil. Dünən olan kimi hamısı yadımdadı. O vaxtlar insanlar sağlam etiqadlıydı, hamının əsli-nəcabəti bəlliydi, yoxsa indiki kimi yox. Rəhmətlik Şəhid Şah atası ilə yan-yanaşı, Hacı Mirzə Ağasının[7] qənşərində otururdu. O vaxtlar siyasət də indikitək deyildi. Danışmaqla bitməz. Mərhum Hacı Mirzə Ağası da elə-belə adam deyil a! Bütün dünya siyasəti ovcundaydı... Dünən maliyyə naziri məni yanına çağırmışdı. Gözünlə gördün, xidməti maşınını da mənimçün göndərmişdi... Hə, keçmişdə camaatın qapısı hamıya açıq idi, çünki gözütox insanlarıdı... Sənə bir söz deyim, istəyirsən inan, istəyirsən inanma, süfrəyə çay gətirdikdə, nazir özü yerindən qalxıb qənddanı gətirdi. “Mən sınamışam, bir dənə qənd çay içmək üçün kifayətdir”, – dedi. Doğrusu, xətrimə dəydi, çayı acı-acı içdim. Sonra iki saat başımın ətini boş-boş sözlərlə yedi! Amma aludəçisi olduğumu bildiyi halda, mənimçün qəlyan gətirtmədi... Bilirsən, bu adamlar ata süfrəsindən doyunca çörək yeməyiblər. Amma oturuş-duruşlarına bax, elə bil alçaq dağları bunlar yaradıblar. Rəhmətlik atası ali dərəcəli əyanlardan idi, Qəndəhar səfərində rəşadət göstərmişdi. O səfərdən qayıdanda, Hacı Mirzə Ağası əbasından öpüb, ona həmayil və nişan verdi. Şəhid Şahla həmişə ova gedərdi. İndi hər şey keçmişdə qalıb, qeyrət, şərəf, abır-həya, namus yox olub gedib, dəyərsizləşib. Amma yenə də mənə möhtacdırlar, sadəliyimdən istifadə edirlər. Mən də özümə deyirəm: “Allah bəndəsidir, işinə əncam çəkim, onsuz da bizdən sonra ya yaxşı, ya da pis əməl qalır. Sonu necə olursa-olsun, aqibətimiz iki qarış yerdir”... Hə, de görüm Ümmülbəninin anası qayıtdımı?

Murad dərhal cavab verdi:

– Bəli, gəldi, içəridədir.

– Möhtərəmin otağındadır?

– Bilmirəm nə deyim, qurban, mən alış-verişə getmişdim.

– Evdə deyildinsə, Ümmülbəninin anasının gəldiyinə necə əminsən?

– Mən gedəndə gəldi, qurban.

– Məni eşidirsən? Gözünü dörd aç. Bunu sənə min dəfə demişəm, gözün həmişə üstlərində olsun... – Bir qədər səssizlikdən sonra, – adama hər cür pisliyi yedirərlər. Qarabəxt eləmək üçün cadu-piti verərlər. Mən evdə yox ikən, iki göz də borc alıb, onları izləməlisən, eşitdin? Mən necə keşiklərini çəkirəmsə, sən də elə... anladın?

– Bəli, qurban.

– Sənə bir şey də deyəcəkdim.

– Buyur, qurban.

– O kişi qırığı, Möhtərəmin əmioğlusu... adı Gülübülbül idi, nəydi, bilmirəm... əcaib adlar tapır e, bu camaat... nəysə, düz-əməlli adam deyil. Başını aşağı salıb birbaş içəri girir. Ay balam, bu evdə qadın var, uşaq var, üst-başları da açıq. Xanımın əmisi oğlu hamıya məhrəm deyil axı, əzizim, sabah xalq içində yüz cür söz çıxar, şəbədə qoşular... Nə günə qaldıq, ya Rəbbim! Heç bildin kimdir, nəçidir o?

– Nə deyəcəyimi bilmirəm.

– Qulağında sırğa elə, mən onun bu evə gəlməsini istəmirəm. Çəmini tapıb ona başa sal. Münirlə də aşiq-məşuq olub... Mən bu yolla yüksəlmək istəsəydim, gözəl-göyçək bir qız alardım, təndürüst bədəninə şıq libas

[7] – Qacarlar dövrünün məşhur sədr-əzəmi

geydirər, qol-qola rəqs məclisinə gedər, sonra da məqam sahiblərinin qucağına atardım ki, onlarla rəqs etsin, qumar oynasın, cilvə atsın. İndiki kübarlar kimi, başıma dəyyus papağı qoyardım. Bəli, Murad, sən bu sözlərdən bir şey başa düşməzsən. Haqqın da var. Amma hər gün belələrinin minini uzaqdan gözüm alır. Mən köhnə kişilərdənəm, əgər bu cür işləri bacaran idimsə, günüm-güzəranım indikindən daha yaxşı olardı. Amma etmərəm, eləmərəm. Sözgəlişi də olsa, bunu xanıma de, de ki, mən müasir insan deyiləm. Mütləq de. Möhtərəmin o qohumuna da de ki, bizə az gəlib-getsin.

Hacı fikrə getdi.

– Bəli, qurban... Dünən axşam köhnə-kürüş satan yüzbaşı Hüseyn gəlmişdi, dedi, Hacı Ağa icazə verirsə, hesab-kitaba nəzər salaq. Çünki ziyarətə getmək istəyirəm...

– Bu qurumsaq köpək uşağının mənə gəlmədiyi kələk qalmayıb. Elə bilir ki, üç arşınlıq malında gözüm var. Bazarda bığımın bir tükünü girov qoysam, mənə yüz milyardlıq nisyə mal verərlər. Nə ziyarət, hansı ziyarət? Hər yoldan ötənə elə asanlıqla icazə vermirlər, əgər icazə və pasport istəyirsə, zəhmət çəkib özü ayağıma gəlsin. Bəlkə elə bilir ki, haram pulunu halal edə biləcək? Qoy əvvəlcə arvadının yüyənini yığsın... Bir sözünə görə qabağına qaçıb əyilib-büzülən deyiləm ki... Hə, bazardan nə almısan?

– Qurban, özünüz yaxşı bilirsiz kartofla Burqani[8] gavalısı.

– Məsələn, nə qədər gavalı?

– Bir çarək.[9]

– Bu, bir çarək gavalıdır? Qarınlarına şiş batsın! Hər dəfə süfrədən qalxanda, "ac qaldıq" deyə şikayətlənirlər. Hansı nazirin, deputatın evində süfrəyə bir çarək gavalı qoyulur? Qoy gedib baxsınlar camaat evində axşamlar nə yeyir. Əlahəzrət Rza şah belə bu gün sobaya atılacaq odunu sabah doğratdırır. Bir pomidora görə aləmi dağıdır. Halbuki pulunu balta kəsmir! Ancaq özün bax, bu gavalını çəksək, heç bir çarək gələr? Yox, məni aldada bilməzlər, gözlərim tərəzidir.

– Qurban, vallah yalan demirəm. İstəyirsiz Məşədi Məsumdan soruşun.

– Deməli, sözümün heç dəyər-qiyməti yoxdur? Axı, keçən səfər gavalını saymışam. Sonra da tumlarını, dörd dənəsi əskik gəldi.

– Qurban, maşallah olsun, bəlkə uşaqlar yeyiblər, ya da gavalı tumsuz olub.

– Tumsuz gavalı?

– Bəli, Allahın qüdrətinə şəkkiniz var?!

– Xeyr, xeyr, əsla. Allah bəndələrinin nə qədər oğru və kələkbaz olduğuna yaxşı bələddir, buna görə də, hər gavalının içinə bir tum qoyub ki, sayıla bilsin. Sizin öhdənizdən ancaq mən gələ bilərəm. Hamınız çubuq üçün darıxmısız. Kötək yeməsəz, düzələn deyilsiz... Məşrutə... Azadlıq... Nə üçün, asan oğurlamaqdan ötrü? Ürəyinizdən başqa nə keçir? Mən...

Bu məqamda küçə qapısı açıldı. Əlində böyük bir çanta olan, köhnə-kürüş libaslı yaşlı bir adam içəri girib soruşdu.

– Bu, Hacı Əbuturab ağanın evidir?

Hacı ağa:

– Bəli, buyurun, – dedi. – Xahiş edirəm.

O, Hacı ağanın yanında oturdu. Ev sahibi üzünü Murada tutdu:

– Murad, evdəkilərə de, samovara od salsınlar.

---

[8] – İranda kənd

[9] – çəki vahidi – 750 q

Qonaq:

– Çox sağ olun, çay içmişəm, – dedi.

– Onda get nargilə qəlyanı gətir.

Hacı ağa xəfif təbəssümlə adama baxdı:

– Sanki əvvəllər xidmətinizdə olmuşam. Adınızı xatırlaya bilmirəm... Bəli, qocalırıq, min eybimiz üzə çıxır, min illət.

– Bəndəniz Qulamrza Əhmədbegidir.

– Paho! Bəsir Ləşkərin oğlusuz?

– Bəli.

– Yadınızdadır, eviniz Şotordaran küçəsində idi? Atanız sağ-salamatdı?

– Quraqlıq ilində vəfat elədi.

– Allah ruhunu şad eləsin! Nur içində yatsın! Çox kübar insan idi. Fani dünya!.. Mərhum atanızla tay-tuş idik. Bir-birimizi illərdi görmürdük. Eh, keçən günə gün çatmaz!.. Səhərlər atanızla Lotu Saleh keçidinə gedirdik, hovuzda üzər və oynayardıq... İndi də hər dəfə güzgüyə baxıb üzümdəki çapığı görəndə, keçmişi xatırlayıram. – Hacı ağa qəhqəhə çəkib güldü və gülüşünün sədası daş döşəmədəki lehmədə əks-səda verdi. – Kəyumərsin canına and içirəm, bütün həyatım boyu dost xətrin əziz tutmuşam, indi sizi görəndə, elə bil dünyanı mənə bağışladılar!

– Aman Allah, lap xəcalət verirsiz. Qulunuz belə ola bilmərəm.

– Yox, yox, xətrinizi oğlum qədər istəyirəm. Atanızın o mülk davasına görə üzülməsinə həmişə vicdanım ağrıyıb, yanınızda xəcalətliyəm. Mən təqsirsiz idim, kiçik varislərin malıydı, mən də iddia qaldırmağa vadar oldum. Həmişə deyirəm, dostuma canım qurban, daima vicdan əzabı çəkirəm, ancaq iş işdən keçib, keçənə güzəşt deyərlər. Bu gün o cür adamlar nə gəzir! Hər halda, biz yaşlı, qoca insanlarıq, məhəllə camaatı da bizə inanır. Səfərə çıxanda nələri varsa, mənə tapşırır, ya da uşaqlarını əmanət edirlər. Bizdə əmanətə xəyanət yoxdu. Beləyik də. Biz bu şəhərdə böyüyüb boya-başa çatmışıq. Atam rəhmətə gedəndən hamı məndən mədəd umur. Əlbəttə, belə də olmalıdır... Dünən məhəllə axundu Hüccətüş-şəriə yanıma gəlmişdi, şərəfli insandır, hüzurumda dedi ki: "Vallah, qırx ildir məhəllə axunduyam, amma camaat sizə inandığı qədər mənə inanmır". Yox, mən yetim-yesirin malını yeyə bilmərəm. Bu ayağım burda, bir ayağım o biri dünyada. O cür əməl Allaha da xoş getməz.

Hacının tüpürcəyi Qulamrzanın dodağına sıçramışdı, əlinin arxası ilə tüpürcəyi sildikdən sonra yenə ağzı açıq halda ona qulaq kəsildi.

– Əlimizdən nə gəlir ki?! – Hacı sözünə davam etdi. – Hər kəsin dünyada bir qisməti var. Mənə də bu yaxınlarda "Hacı ağa" adı veriblər. Bu cür xitaba artıq alışmışam da. Məəttəl qalmalı işdi, – deyə tüklü əllərini ümidsizcəsinə yanına saldı.

Murad qəlyanı gətirdi. Əllərini sinəsində çarpazlayıb kənarda dayandı. Qulamrza onun üçün gətirilən qəlyandan imtina etdikdə, Hacı nargiləni önünə çəkdi. Bir ayağını qaldırıb taxtın üstünə qoydu, gözucu Qulamrzaya baxıb qəlyan çəkməyə başladı.

Qonaq çantasından bir zərf və kitabça çıxardı. Zərfin üzərində "Diyanət Toxuculuq Şirkəti" sözləri oxunurdu və içində bir kağızla bərabər, şirkət ortaqlarının altı aylıq qazancı olan 38 min tümənlik qəbz də Hacı ağaya göndərilmişdi.

Məktubu və kağızı tanıyan Hacı ağa Qulamrzanın toxuculuq fabrikinin yeni müdiri təyin edilməsindən agah oldu. Mal-mülkü artıq Qulamrzaya bəlli olduğundan, Hacı mövzunu dəyişdi.

– Bəli, indi günəmuzdla qazandığın dolanışığa kifayət eləmir.

Artırmada başmaqlarını döşəməyə sürtə-sürtə yeriyən uşağın səsi eşidildi. Hacının qızı Səkinəydi bu. Qolu-qanadı yolunmuş, hərəkətsiz bir sərçəni bir əliylə sinəsinə sıxmışdı, digər əliylə də anası Möhtərəmin əlini tutmuşdu. Onlar çölə çıxırdılar.

– Səhərdən başımın ətini yeyir ki, nabat istəyirəm.

– Uşaq bəhanə, ana tamarzı qəndə-şəkərə! Heç olmasa de ki, çölə çıxıb gəzmək istəyirəm! Bu evdə hamı ya çərəz, ya da şəkər xəstəsidir. Elə bir dəqiqə bundan əvvəl Murad qənd-nabat alıb gətirdi. Ürəyi istəyir, uşağa bir parça qənd verin. Yanımda bu cür hörmətli-izzətli adamlar olanda, heç kim çölə çıxa bilməz. Min dəfə demişəm bunu, kimsənin qulağında sırğa olmadı? Bir də buradan keçsəniz, ayaqlarınızı qıracağam!

– Neyləməliyik ki, həmişə yanında kimsə olur.

– Kəs səsini, boşboğaz! Mənə cavab qaytarırsan? Bu evin ağası mənəm. Niyə uşaq bu qədər çirk-pas içindədi? Bu evdə bir dəsmal tapılmadı ki, üst-başı silinə? Adamın ürəyi bulanır. Yüz illik abır-həyam itib-getdi! Yaşadığımız evə bax, hər küncü-bucağı nəcis qoxuyur!

Uşaq birdən-birə ağlamağa başladı. Anası əlini dartıb dedi:

– Gəl gedək, anan qurban, ürəyini üzmə...

Hacı üzünü uşağa tutub:

– Eybi yox, – dedi, – Murada deyərəm, sənə nabat alar... Murad! Get nabat al.

Xanım dəhlizə qayıtdı. Uşaq da ağlaya-ağlaya onun arxasınca düşdü.

Hacı:

– Murad!

– Bəli, qurban.

– Get uşağı susdur. – Sonra o, üzünü Qulamrzaya tutdu: – Allah xətrinə, bağışlayın!

– Eybi yox. Uşaqsız ev nə evdir?!

– Axirəz-zamandı!.. Demək istərdim ki, sərmayə ödənmədiyindən qırtlağıma qədər borc içindəydim. Nə edə bilərdim? Meymənetnejad ağaya böyük hörmətim var. Şəriklikdən çıxsaydım, fabrikdə iş dayanacaq, bir dəstə biçarə işçi bədbəxt olacaqdı. Allaha bu xoş gələrmi? Eyni zamanda, sənaye tərəqqi edir, bu da cəmiyyətə xidmətdir. Mən də istəyirəm ki, bir tikə halal ruzi boğazımdan aşağı ensin. Biz də o biri fabriklər kimi, çürük iplik almırıq ki, corab çox ucuz başa gəlsin. Min cür əziyyətlə valyuta tapıb və amerikan fildokoz[10] ipi idxal edirik. Ancaq corablarımızın qiyməti yenə də digər fabriklərin məhsulu ilə eynidir. Rəqabət! Özünüz məndən daha yaxşı bilirsiz. İnanın, ayda üç min tümən ziyanım var.

Bu məqamda küçə qapısı açıldı. Qara kostyumlu, kepkalı, üzü çopur, əsmər bir adam içəri girib hörmətlə təzim etdi.

Hacı ağa onu oturmağa dəvət etməzdən əvvəl dedi:

– Səlamun əleyküm, ağayi Xələcpur. Hələ səfərə çıxmamısan?

– Qurban, pasportla sifariş məktubunu gözləyirəm.

– Pasport, bütün kağız-kuğuz hazırdır. Dediyim kimi, keçən həftə Bağdaddakı İran səfirliyi üçün iki xalı ayırıb seçdim. İndi vaxt itirmədən Dust Əlinin yanına gedib pasportla sifariş məktubunu götürüb yola çıx. Bağdada çatan kimi birbaş səfirliyə get. Səfirə məndən salam de. Xalçanın təhvil-təslimini Şeyx Həmzə Şəmu Əliylə elə.

[10] – Fil d'Ecosse

– Əvvəllər Əbuqəntərə və şərikləri ilə işləmirdiniz?

– Möhtərəm səfir bu cür münasib bildi. Bu şirkətlə iş daha yaxşı gedir. Dediyim kimi, dərhal Dust Əlinin yanına get, Qəzənfərinin bölməsindədir, özün ki məndən yaxşı bilirsən.

– Baş üstə.

– Hə, yaxşı ki, yadıma düşdü, Hacı Əbdülxaliq Çapluqidə iki sandıq tiryəkim var. Salam de. Qoy qısa müddətdə haqq-hesabını göndərsin. Altı aydır xəbər-ətər yoxdur. – Öz-özünə də dedi: – Səhv etdim! Tiryəki Honq-Konqa göndərsəydim, üçqat qazancım olardı. – Əlqərəz, bu dəfə, keçən səfər olduğu kimi, bizi borclu çıxarmasın. Bəxşiş-zad mənə aid deyil. Çünki sən İraqdakı Ticarət Evinin nümayəndəsisən. Boş yerə vaxtını itirmə, haydı, iş başına.

– Baş üstə.

– Sağ-salamat...

Xələcpur sarayda min il keçirmiş bir adam kimi geriyə addımladı, yenidən təzim edib qaçaraq çölə çıxdı. Hacı ağa Qulamrzaya üz tutdu, sənədi imzaladı və məktubla qəbzi döşəkcənin altına qoydu, yenidən qəlyandan qullab vurdu. Qulamrza çantasını bağladı, ayağa qalxdı.

– İcazənizlə...

– Çox-çox üzr istəyirəm, sizə zəhmət verdim. Qulluğunuzda dura bilmədiyim üçün üzüqarayam. Meymənətnejad ağaya sizdən söz açacağam. Sizi yenidən görməyə, xidmətinizdə durmağa ümid edirəm.

Qulamrza yoxsulluq, bədbəxtlik və nakamlıq üzündən elə haldaydı ki, heç öz sözünə inanmırdı, ətrafını bələyən dünya isə, onun üçün tam mənasızlaşmışdı. Hacının sözləri, tərifləri beynində qəribə əks-səda verirdi. Atasından eşitmişdi ki, Hacı Əbuturab adlı bir hoqqabaz yeganə dolanışıq mənbəyi olan Vəramindəki əmlakı hərbə-zorba ilə mənimsəyib. Amma Hacının məhrəm davranışı, güvənverici münasibəti onu o qədər təsirləndirdi ki, dürüst və riyasız bir adam olduğuna inandı. Fabrikdəki maraqları, xalça və tiryək məsələsi heç cür ağlına batmadı. Az qala yerə qədər əyilib təzim etdi və çölə çıxdı. Özü-özünə dedi: “Necə də həlim-salim şəxsiyyətdir! Yox, Hacı bu zəmanədə anasının əmcəyini kəsən adamlardan deyil. Mənə görə hətta Meyməmətnejad ağaya ağız açıb minnətçi olacaq”.

Hacı boğazını arıtladı:

– Murad!

– Bəli, qurban.

– Uşaqçün nabat aldın?

– Bəli, qurban.

– Bu qəlyan yanmır. Səhərin gözü açılmamış qarğa zılı yemiş kim varsa, dərd-səriylə üstümə gəlir. Adama rahatlıq vermirlər ki! Bu qəlyanı Ənis ağa yandırıb?

– Ənis ağanın işi vardı, odur ki, xanım yandırdı.

– Ona de ki, başdansovdu iş görüb. Bizə çatanda hamının bir bəhanəsi var. Get, gör niyə Kəyumərs hələ də məktəbə getməyib? Qorxuram ki, o da axırda qardaşı kimi gününü qumarxanalarda keçirsin. Yox, yox, heç maraqlanma. Baxaq görək özü gedəcəkmi... Qoca vaxtımızda evin qapıçısı olduq!

– Qurban, sizə deməyi yaddan çıxarmışam, dünən siz getdikdən sonra Hüccətüş-şəriə ağa təşrif gətirmişdi. Bir dərmanla. Dedi ki, məcundur. Mənə vermədi, dedi ki, şəxsən sizə çatdıracaq.

Hacı maraqla:

– Dərmanı gətirmişdi? – deyə soruşdu. – Toz idi, ya maye?

– Bilmirəm, kağıza bükülmüşdü.

– Ah, yenə də bu axund! Allah atasına rəhmət eləsin!.. Düzü, Murad, səndən bir söz soruşmaq istəyirəm.

– Ah, ağa, bu nə sözdü, qulluğunuzdayam.

Hacı göz vurub qaşlarını çatdı.

– Amma öz aramızda qalsın a.

– Nə məsələdi, Hacı ağa?

– Öz aramızda qalacaq ha, başa düşdün? Tay-tuşum sayılırsan, səksən sinni haqlamısan, düzün de, evləndiyin son qadın cavandır? Bilmək istəyirdim, uşağınız var?

– Qurban! O qadın cavan deyil. Həm də xalam qızıdı. Onu aldım ki, öləndə çənəmi bağlamazdan əvvəl boğazıma türbət suyu töksün.

– Həmişə beləsən, tərif yağdırır, təklif irəli sürürsən. Amma bu günə qədər ağzından bircə dürüst söz çıxmayıb. Heç eşitmisən ki, səksən, yaxud doxsan yaşlı, məsələn, xaya iltihabı olan kişi qüvvət dava-dərmanı qəbul edəndən sonra belindən övlad dünyaya gəlsin?

– Əlbəttə, Allah istəsə...

– Nə bilirsən? Xanımın hamilədi?

– Nə deyəcəyimi bilmirəm. Bəlkə də dava-dərmanın bir xeyri oldu.

Hacı öz sözlərindən peşman olubmuş kimi, dodaqlarını qapadı, fikrə getdi. Qəlyanın müştüyünü ağzına alıb bir neçə qullab aldı, sonra başını qaldırdı.

– Murad.

– Bəli, qurban.

– Sürücü Gül Məhəmməd bura gəlmişdi?

– Xeyr, onu görməmişəm.

– O kişi qırığını dama saldıracam, avtobusun təkərini keçəl edib... İki dəfə Kərəcə yol ölçüb, amma pulunu gətirib çıxarmır. Bunu bilirdin? Bətulun qardaşı oğlu Abbas gətirdi xəbəri. Təqsir məndədir, inişil iki nəfəri maşınla əzmişdi, altı il həbsdə çürüyəcəkdi. Əgər şəhər polisinə getməsəydim, üç gün də sərbəst gəzib-dolaşa bilməzdi. Gedib rəisin saqqalının altından keçdik, minnətçi olduq, min kərə yalvar-yaxar... xətir-hörmətimizi yerə vurmadılar. Yaxşılığımın axırı da bu! Şəhid Şahın zamanı olsaydı, həmin kişi qırığını meydana çəkib camaatın gözü qarşısında eşşək balası kimi döyərdim. Nə yemisən, turşulu aş. Qurşaqdan aşağı xətkeş kimi dübbədüz edərdim. Ədliyyə... polis... hamısı oğru, rüşvətxor, haramxor... Mərhum Mirzə Kərim xan Allahın hər ver günü nökərlərini falaqqaya salmaqla gözlərini qorxudardı. Deyərdi: “Əgər yaş şallaq olmasa, öküzlə eşşək yiyə tanımaz”. Üzüyumşağam deyə hamı təpəmə çıxır. Mühəndis Məhduşdu, Şeduşdu, nədi, o adamı tanıyırsan?

– Bəli, qurban.

– Antitiryək komissiyasının adam yerinə qoyulmayan bir üzvü idi. Pul mənimsədiyinə görə xoruzunu qoltuğuna verdilər, barəsində cinayət işi açdılar. Əslində, heç mühəndis-zad da deyildi. Dostlardan biri mənə məsləhət görmüşdü. Baxdım ki, gənc və istedadlı oğlandı. Üçdən-beşdən verdim, göndərdim kanalizasiya tenderinin icrasına, işçilərə nəzarət etsin deyə. Mənim hesab-kitabıma göz-qulaq olmaq yerinə, fəhlələrin pulunu yedi. Mən orada deyildim. Üç adamı da dərəyə atdırıb öldürmüşdü. Arxasında dururdum deyə, heç kim “gözün üstə qaşın var” - deyə bilmirdi. Sonra qudurub özünü mühəndis kimi tanıtmağa başladı. Soruşan da olmadı ki, sən hara, mühəndislik hara. Yerini elədi, özünü necə lazımdı tutdu. Bu adamın əslində

kim olduğunu heç kim bilmədi. Halbuki, əvvəllər heç üzünə baxan yoxudu. Amma bu gün görən tanımaz. Yanında yeddi mühəndis işləyir, altında təptəzə “Pakard” avtomobili, gözdeşən mal-mülk. Bir sözlə, hər şeyi var. Mənim işimi isə məhv etdi. Ayağı Tehrana dəyəndə, məndən gen gəzir. Köhnə haqq-hesaba görə ödəşmək istəmir. – Hacı sözünə ara verdi. – Səni Abbasın yanına göndərəcəkdim. Yox, yox, səbr elə, bəlkə, özü gəlib çıxdı. Maşallaha avtobusların pulunu verəcəkdim. Allahdan qorxan adamdır. Qudurmasından qorxuram, öz aramızda. Düzdü, böyük iş deyil. Üç hamam, bir neçə ev və dükanla qarın doymaz. Səhərdən axşama qədər bekarçılıqdan milçək tutur. Malımı zay elədi. Amma fabrikin işinə özüm nəzarət edirəm. Əmlakıma də Mirzə Tağı... Bilirsənmi, Murad, hamı məni çapıb-talayır. Hər şeyə göz yumuram, neyləyim, zəmanə belədir!

Elə bu dəm kosasaqqal, xaki rəngli kostyum geyinmiş və başında külah olan bir əsnaf içəri girib təzim elədi. Hacı üzünü ona tutdu:

– Ooo, yallah, yüzbaşı! Necəsən?

– Sağlığınıza dua edirəm. Yaşayırıq da, harda qırıldı, qırıldı.

– Ev-eşik, oğul-uşaq? Gəl otur.

– Təşəkkür edirəm, ağa.

Yüzbaşı Hüseyn əks tərəfdəki taxtda oturdu.

– Eşitdim ziyarət eşqinə düşmüsən. Hara getmək niyyətindəsən?

– Sizin, zat-alinin icazəsini alacaqdım. Ömür-gün bitmək üzrədir, arvad-uşaqla Kərbəlaya getmək istəyirik, günah içində itib-batmışıq.

– Allah ziyarətinizi qəbul etsin. Bütün işləri yoluna qoymusan?

– Əlinizi öpməyə gəlmişəm. İki aydır ora-bura yol ölçürəm. Bir ətək pul xərcləmişəm, amma daş yerindən tərpənmir.

Hacı qəhqəhə çəkib güldü.

– Bilirdim ki, axırda gönüvü əlində tutub dabbaqxanaya gələcəksən. De görüm dərivi soyub səndən nə qədər pul aldılar?

– Bu günə qədər beş yüz səksən tümən xərcləmişəm. İndi də general Hujbərasa haqqını istəyir!

– Bu qədər də yox!.. Tələyə salıblar səni!

– Qurban, insan çiy süd əmib. İndi ağıllanmışam, başa düşmüşəm ki, gərək əvvəldən sizin, zat-alinin ətəyindən yapışaydım.

– Deyəsən, sənə kiçik bir borcum vardı axı?

– Qurban, bu nə söhbətdi, xəcalət çəkirəm, bəndəniz hüzurunuzda əmrə amadədi.

– Baxaq da...

– Nə buyursanız, canla-başla yerinə yetirməyə hazıram. Əlbəttə, lap əvvəldə qələt yolun ağına düşdüm, bilmirdim. İndi əmr sizdən, itaət məndən. Bu polisdəki adamlardan gözüm su içmir. Üç gün sorğu-suala çəkdilər məni. Sərhəd gömrükçülərinin məni yubandırmasından da qorxuram, deyirəm, birdən canamaz üçün yola götürdüyüm xalçanı əlimdən alarlar.

– Mənim üçün bir iş görə bilərsən?

– Can-başla.

– Xələcpuru tanıyırsan?

– Xeyr, qurban.

– Köhnə qulağıkəsiklərdəndir. Bu gün-sabaha pasportunu almağa çalışacam. Sonra istəyirəm ki...

Qapı açıldı və təmiz geyimli bir adam içəri keçib ev sahibini salamladı.

– Əleykəssalam, Möhsün xan. Necəsiz?

– Təşəkkür edirəm, ağam.

– Dəvamül-vizarə ağanın kefi necədi? Nə vaxtdı onu görmək şərəfinə nail olmuruq... Buyurun.

– İzninizlə... ağa burada, maşındadı...

– Qədəmləri mübarək, öz evi kimi bilsin, xahiş edirəm, buyursun.

– Təşəkkür edirik.

Bəstəboy, cılız, gözü islaq, saçı bozarmış adam içəri girdi.

Hacı yarıyadək əyilib təzim etdi:

– Ağayi Dəvamül-vizarə, salamun əleyküm... Bəh-bəh! Nə böyük səadət! Səfa gətirdiniz, bizi şərəfləndirdiz.

– Təşəkkür edirəm.

Yüzbaşı Hüseyn ayağa qalxaraq əlini sinəsinə qoydu. Hacı ona sarı dönüb:

– Sabah elə bu vaxt gəl, – dedi, – sənə xəbər verərəm. Özünün və səninlə səfərə çıxacaq adamların sənədlərini gətirməyi də unutma ki, işə tez əncam çəkim.

Yüzbaşı təzim edib getdi.

Hacı üzünü Dəvamül-vizarəyə sarı çevirdi:

– Qurban, bu gün üzləşdiyim səadəti izhar etməkdə dilim acizdir. Çox üzr istəyirəm, bu kasıb koma mənimdir, buyurun içəri keçək.

Dəvamül-vizarə Kaşan ləhcəsi ilə və qaçaraq danışırdı:

– Xeyr, xeyr, başınız haqqı, bura yaxşıdır. Xahiş edirəm, buyurun, buyurun, heç narahat olmayın. Bağışlayın ki, sizi narahat etdik. Məqsədimiz sizi ziyarət etmək və bundan feyz almaq idi. İki-üç gün idi ki, sizə gəlməyi düşünürdüm. Əvvəla, əhvalım yaxşı deyildi, sonra gündəlik işlər başımı qatdı. Allaha şükür ki, bu səadət bizə nəsib oldu.

– İnşallah, bəla sizdən uzaq durar.

Dəvamül-vizarə Hacının yanında oturdu. Möhsün xan avtomobilə sarı getdi. Hacı boğazını arıtladı:

– Murad! De ki samovara od salsınlar.

Murad gözə dəymədi.

Dəvamül-vizarə dedi:

– Xeyr, xeyr... narahat olmayın. Başınıza and olsun ki, artıq zəhmətdir. Bilirsizmi, mən çaydan, tütündən uzaq duran adamam.

Murad çaşqın halda çölə çıxdı. Hacıya üz tutub:

– Qurban, sizi telefona çağırırlar, – dedi.

– Bəs soruşmadız, kimdir, hardandır?

– Qurban, dedilər, Saraydan.

Hacı azca təəccübləndi, ayağa qalxıb Dəvamül-vizarəyə dedi:

– Mən indi gəlirəm.

Əsasını yerə vura-vura dəhlizə sarı getdi. Murad da ardınca. Dəvamül-vizarə cibindən bir qəzet çıxartdı və düşüncəli-düşüncəli oxumağa başladı. On dəqiqə sonra Hacı qayıtdıqda, qəzeti qatlayıb cibinə qoydu.

– Ağayi Dəvamül-vizarə, bağışlayın.

– Nolub, nə məsələdi?

Hacı düşüncəli şəkildə:

– Bəli, məni Saraya çağırıblar. Səbəbini deyə bilmərəm, dövlət sirridir, mənə bəzi təklifləri var. Amma bu xəstə, əlil halımla imtina etmək məcburiyyətindəyəm. Çox təəssüf edirəm, amma o qədər iş-güc var ki, içində itib-batmışam, yox, yüksək mövqe tutaraq ölkəmə heç cür xidmət edə bilməyəcəyəm.

– Həqiqətən, çox təəssüf!

– Bu gün ağayi Fəlaxənüd-dövlənin davranışı fərqli idi. Həmişəki kimi iltifat göstərmədi. Hə, bəlkə də... işi başından aşırdı... Həm də oğlumu, ağazadəni mirasdan məhrum eləmişəm deyə, aramız dəyib... hə, indi Sarayda işləyir... Bəli... Oğlanın ağzından nəsə qaçırmasından ehtiyatlanıram. Düzdü, elə bir şey edəcəyini düşünmürəm, amma... Adam nə bilsin ki, nə qədər yaşayacaq. Heç kimə öncədən əhdnamə verilməyib. Yox, yox, dediyinin qərəz olduğunu əvvəl-axır başa düşəcəklər, əlbəttə. Qorxuram ki, aqibəti yaxşı olmasın... Bu gün ölkənin qüdrətli lideri sayəsində gördüyümüz sabitlik və azadlıq mühiti heç Şəhid Şahın dövrünə bənzəmir. O vaxtlar Saraya çağırılan hər kəsə əvvəlcə vəsiyyətnamə yazdırar, sonra qonağa bir fincan qəhvə gətirərdilər. Yəni o acı qəhvələrdən![11]

– Allah xeyrə calasın.

– İnsan unutqandır. Beynində hər cür fikir dolaşa bilər. Əgər məmləkətin birinci şəxsi dəfələrlə adama nazir, deputat məqamı təklif edibsə və hər dəfə rədd cavabı alıbsa, bu, əlbəttə, yaxşı iş deyil.

– Ağa, varlığınız feyz və xeyir qaynağıdır. Nə işlə məşğul olursuzsa-olun, hətta heç bir işə qol qatmayın, millət sizdən feyz alır.

– Bəli, uzun danışmasaq yaxşıdır... Dünən axşam Mehram ağanın evində oldum. Sizdən ağız dolusu danışdıq. Xarici İşlər Nazirliyindən də mühüm bir şəxs söhbətdə iştirak edirdi. Həyatdan, siyasətdən, hər şeydən danışırdıq. Mən də Sarayın müxatibinə[12] eyham vurdum...

– Kimə?

– Qoç Əli bəyə. İndi polis idarəsində işləyir.

Dəvamüz-vüzarə sanki təsdiqləyirmiş kimi, başını yırğaladı.

Hacı:

– Bəli, mən şəxsən tövsiyə etdim ki, əgər Lurestanda[13] bu qarışıqlıq, iğtişaş və ədalətsizliyə son vermək istəyirsinizsə, bu işdə böyük təcrübəsi olan filankəsi ora göndərməlisiz. Mazandaranda Əlahəzrət əleyhinə iğtişaşı yatıran kəsi. Adam öldürmək, ya həbs etməyi, hədyan danışanın ağzını yummağı, sair işləri çox yaxşı bilir. Əlqərəz, dedim ki, əlimin arxasını qoyaram, əgər o filankəs təyin edilərsə, bütün bu qarmaqarışıqlığı həll edə bilməzsə. Çünki bu gün qətiyyətli adamlara ehtiyacımız var. Dəmir yumruq istəyirik. Gedin, Mazandarana baxın. And olsun, ordakı bir ovuc torpağı canidildən Saraya ərməğan etdim. Yoldan keçənlər deyir ki, bura cənnətdi. Öz malım-mülküm olsa da, bir ovuc düyünü kətxuda və dövlət rəsmilərinin boğazından maqqaşla çıxarırdım. Hamısı it-bat olurdu. Əraziyə göz-qulaq ola bilmədim. Ancaq indi iyirmi adam xəbər göndərib ki, işlər sahmana düşüb, hər şey əladı. Məmləkət abad olub. İndi həmin mülk məmləkətin birinci şəxsinin sərəncamındadır. Tacdar şahzadəmizin atası sayəsində yüksəliş məqsədinə yetişmişik... Bilirsiz də eyhamı nəyə vururam, hesab-kitabı düz olan mühasibin qorxusu olmaz... Məxsusi tövsiyə etdim ki, filankəsin xəmiri siyasətdə yoğrulub, necə olur ki, bu cür vəziyyətdə Lurestanı başlı-başına qoyursuz...

Hacının üzünə xoş təbəssüm qondu.

– Düzü, mənə göstərdiyiniz bu lütfkarlıq və diqqətə görə təşəkkür etmək üçün söz tapmıram. Söz Lurestandan düşmüşkən, mübarək hüzurunuzda sizdən acizanə bir xahişim olacaq.

Hacı ağa tutuldu.

---

[11] – Eyham qəhvənin zəhərli olmasınadır (tərc.)

[12] – Hərfi mənada seçilmiş, səlahiyyətli şəxs, kontekstdə Saray çevrəsinin təmsilçisi

[13] – İranda əyalət

– Canım, buyurun, xahişinizi yerə salmağa həddimiz yetməz.

Dəvamül-vizarə ətrafına göz gəzdirdikdən sonra:

– Qardaşım oğlu polkovnik Büləndpərvaz haqqında bir-iki kəlmə demək istəyirdim.

– Necə, o, qardaşınız oğludur? Onu qiyabi tanıyıram. İstedadlı şəxs olduğunu heç kim inkar edə bilməz.

– Bəli, çox təəssüf ki, bir müddət əvvəl bir yanlış anlaşılma oldu. Yəni bəzi vicdansız və qərəzkar adamlar onu mənimsəmə, rüşvətalma, əxlaqsız davranış, qətl və daha bir çox günahlarda ittiham ediblər.

– Sizin qardaşınız oğlunu?

– Bunu da ərz etməliyəm ki, polkovnik Büləndpərvaz əlahəzrət şahın da diqqət mərkəzindədir. Lurestana getməzdən əvvəl o, zabitlər məclisindəki konfransda "Milli qürur" mövzusunda məruzə edib. Bu konfransdakı çıxışın mətni nəşr olunub və yüksək məqamlarda çox bəyənilib. Digər tərəfdən, mübarək başınıza and olsun ki, onun ruh aləminə yaxşı bələdəm. Sizi əmin edirəm ki, cəsarətli, şərəfli və şəfqətli insandır. Heç qarışqaya da zərər verməz. Amma, ilk növbədə, peşəkar hərbçidir, hərbi nizam və qaydalara əsla zidd getməz, vətənə canını fəda edər. Yəni təpədən-dırnağa vətənpərvərdir.

Deyirəm, kaş hamı onun qədər torpağını sevən olaydı. Lakin ölkənin maraqlarına zidd olan, orduda qeyri-qanuni qruplaşma yaratmış bəzi bədbəxt adamlar mərkəzə böhtançı hesabatlar göndəriblər ki, cənab polkovnik Qurana and içərək, təslim olduqları təqdirdə, əyalətin qəbilə başçılarına dəyib-dolaşmayacağına vəd verib, amma onlar təslim olduqda, hamısını öldürüb, camaatın ev-eşiyini, mal-davarını, qoyun-quzusunu qarət edib, iğtişaşçıların təqibini bəhanə gətirib günahsız insanları öldürüb. Belə görünür ki, bu, dövlətin proqramıdır və o, nə edirsə, yüksək məqamların göstərişlərinə uyğundur.

Amma Daxili İşlər Nazirliyindən aldığım məlumata görə, söhbət Lurestandakı kökü kəsilən quldur dəstəsindən getmir. Tüğyan Xuzistanda baş qaldırıb, əhalinin malına, canına, namusuna təcavüz edirlər. Uzun sözün qısası, məqsədim sizi, zat-alini bu hadisələr barədə məlumatlandırmaq idi. Son nəticədə, şahın özü beynini məlum məsələ ilə məşğul edib. Əlbəttə, bunun fəci aqibəti...

Bu an Murad əlləri köksündə üzə çıxıb Hacının qarşısında dayandı.

Hacı:

– Hə, nə istəyirsən?

– Qurban, icazə verirsiz, evə soğan alım?

– Ayın başında bir man[14] yarım soğan almışdım, nə tez qurtardı? Ət deyil ki, pişik yeyə! Amma xörəkdə soğan tapmırsan! Bütün malım, bax, belə zay edilir!

– Qurban, icazə verin deyim.

– Yaxşı, yaxşı, get Məşədi Məsumun yanına, iki-üç baş soğan al. Sonra pulunu verərəm. Ancaq mənə indidən qiymətini de ki, sonradan kəf gəlməsin.

– Baş üstə.

– Mənə bax, şirin Qum[15] soğanı al a.

Murad çıxdı. Hacı gözlərini bərəldib Dəvamül-vizarəyə baxdı və uca səslə dedi:

– Bəli, həmişə deyirəm ki, İrana, ilk növbədə, qərarlı rəhbər lazımdır, amma bu cəhətdən qısırıq. Xoşbəxtlikdən, bu gün xalqın taleyi Əlahəzrət

[14] – Yaxud batman – çəki vahidi

[15] – İranda məşhur şəhər

kimi əzəmətli bir liderə tapşırılıb. Amma heyf ki, o təkdi, ətrafdakıların hamısı oğru, fırıldaqçı, sapqındır. Məsələn, bir neçə quldur-çapovulçunu məhv etmək, məmləkətin abadlığı, sabitliyi dövlət proqramına salınıb. Rahat nəfəs almaq üçün bütün əyalət qəbilələrinin kökü kəsilməlidir.

Sizdən soruşuram, bu iş ölkəyə nə mənfəət verəcək?.. Həmişə sabitliyi pozurlar, mərkəzi hökumətin də tükləri biz durur. Biçarə tacirlərin malı qarət olunur, günahsız insanlar öldürülür... Kökləri kəsilməlidir!.. Bəli, polkovnik Büləndpərvaz kimi insanlara ehtiyaclıyıq. Məni eşidirsiz? Polkovnik ölkəsinə xidmət edir, buna görə əlini maç eləməliyik.

Dəvamül-vizarə dodağının kənarından Hacıların tüpürcəyini siləndən sonra astaca dedi:

– Bu düşüncənizi təqdir edirəm, amma hər bir müşkülü həll etmənin öz üsulu var.

Hacı ağa göz vurdu.

– Əmin olun ki, bu məsələdə əlimdən gələni qısa müddətə edəcəyəm. Aidiyyəti qurumlarla danışacağam. Əlbəttə, yaxşı bilirsiniz ki, xalq intizardadı. Bu vacib məsələni bir neçə nəfərin qulağına çatdırmalıyam. Mən sözü düz üzə deyirəm.

– Əlbəttə, əlbəttə, başa düşürəm, təkrar etməyə hacət yoxdur. Heç bilmirəm xeyirxahlığınız, mərhəmətiniz üçün sizə necə təşəkkür edim, qarşınızda xəcalətliyəm... Yeri gəlmişkən, sizə demək istərdim ki, bu mühitdə cavanlı-qocalı, etibarlı və imanı kamil insan çox olsa da, təəssüf ki, bəzi bədniyyət adamlar da var ki, barənizdə nalayiq sözlər işlədirlər. Məqsədim dedi-qodular danışmaq, yaxud xəbərçilik eləmək deyil, amma səssiz qalmağım dostlara xəyanət sayıla bilər və...

Hacı təlaşlandı:

– Arxamca danışırlar? Məsələn, kimlər?

Dəvamül-vizarə tamam-kamal başa saldı:

– Sizə olan hörmət və ehtiramıma görə ətraflı danışacağam. Keçən axşam “İran” klubunda ağayi Xüzuri Həzgil Məşəl və ağayi Bənde-i Dərgahla “bric” oynayırdıq. Söhbət əsnasında ağayi Xüzuri dedi: “Filan iş barədə Hacının razılığını almaq yaxşı fikirdir, çünki o, məlumatlı adamdı. Mason olması, xariclə gizli bağlılığı dillərdə dastandı. Amma sabitqədəm, hər yerdə sözükeçən adamdı”. Bəndəniz də buna etiraz etdi və xüsusi vurğuladım ki: “O, təmiz və iffətli bir insandı, bütün İranda tayı-bərabəri yoxdu, vətənpərvərlikdə də heç kim ona çata bilməz”.

Hacı başını ciddi bir tərzdə yırğaladı və səsinin ahəngini qaldırdı:

– Ağa, bu şəhərdə düşmənimin sayı-hesabı yoxdur. Hamısı görməmiş, oğru, oğraş, ölkənin iqtisadi qurumlarına xəlvətcə doluşmuş Suriya və iraqlı ərəblər, xristianlar, atalarını tanımayanlardı, məni qısqanırlar. Ağıllarından nə keçdiyini bilirəm, çünki hansı bulaqdan su içdikləri mənə məlumdur.

Elə bilirsiz Xüzuri öz ağıl-kamalı ilə o məqama yüksəlib? Tehrana gələndə, kimsənin tanımadığı sürücü idi. Üst-başından cin ürkürdü. Amma indi gedin dəm-dəstgahına tamaşa edin... Əgər bir ərəb sürücüsünün biliyi iqtisad elmləri doktorlarımızın biliyindən çoxdursa, onda məktəblərin qapısını qıfıllayın! Bihudə tələbələri Avropaya niyə göndərirsiz ki?..

Dekan[16] maharacası mənə iki dəfə xarici işlər naziri vəzifəsini təklif elədi, qəbul etmədim. “Qürbətdə yaşamaq istəmirəm, – dedim. – Əlimdən gələn bir iş varsa, Vətənim üçün edərəm”. Bəlkə də günahım odur ki, iranlıyam,

[16] – Hindistanda yerləşən yayla

burada doğulmuşam, burada ölmək istəyirəm, xarici valyutanın parıltısı məni cəlb etmir. Ancaq indi atasını-anasını tanımayanların hamısı buranı çapıb-talayıb, xaricdə xoş gün keçirmək arzusundadır. Dəli şeytan deyir, silah çəkib bunların hamısını qır!..

Mənəm sirli adam, ya atasını görməmiş Bənde-i Dərgah? Bir arxa, dayı tapmasaydı, indi haralarda idi bu ayı!? Arvadının ardınca deyilməyən söz yoxdur. Qızını bazarda sərrafa ərə verib özünü əyan-əşrəf kimi tanıdır. Sözü gözlərinin içinə baxa-baxa deyirəm deyə, məndən qorxurlar. Nə ciki-bikiləri varsa, ovcumdadır... Mən masonamsa, onlar da hardan, hansı yuvadan gəlib-çıxdıqlarını yada salsınlar. Bildiyiniz kimi, bu torpaqda səksən ildi yaşayıram. Kimsə mənə “gözün üstə qaşın var” - deyə bilməz. Rəhmətlik atam Şəhid Şah dövründən bəri tanınan-bilinən bir şəxs idi. Sözü daşdan keçirdi, özü bir nəfərin xidmətində dururdusa, min nəfər buyruq qulu vardı. Mənim şöhrətə-şana nə ehtiyacım var? Həm də belə bir zamanda!.. Heç kəsdən nə alacağım var, nə verəcəyim. Özümə arxa-dayaq tapmaq istəsəydim, nə vardı ki... mənim üçün su içmək qədər asandı. Amma...

Qapı açıldı. İki adam içəri girdi. Hacı salam verib təzim etdi. Qonaqlar oturdular. Hacı hələ bir müddət Dəvamül-vizarə ilə pıçıldaşdı. Yalnız “məsələni müzakirə edəcəyəm”, “bu işi həll edilmiş sayın” sözləri eşidilirdi. Sonra Dəvamül-vizarə becid addımlarla qapıdan çıxıb getdi.

Hacı kef-əhval soruşduqdan sonra o, oğrun-oğrun ətrafına boylanan seyrək saçlı gəncə üz tutdu.

– Ağayi Məzləqani, bura gəlin.

Əlində bürüşük qəzet tutan gənc Hacı ilə yanaşı oturdu.

Hacı:

– Hə, deyin görək dünyada nə baş verir?

– Beynəlxalq siyasətin üfüqü zülmətə qərq olub. Müharibənin vahiməli nəticələrini heç kim görə bilmir.

Hacı bir tərəfdən, təsbeh çevirir, digər yandan da Saraydan edilən telefon zənginin qorxusunu yatırmaq üçün “Dobb-e Əkbər” qəzetinin müxbirinə “Pərvər-e Əfkar”dakı çıxışlara bənzər müsahibə verməyin vacib olduğunu düşünürdü.

– Heç ürəyinizi sıxmayın, ağa. Bundan bizə nə? Kim öldü, kim qaldı, son nəticədə İslamın mənfəətinədir. Bu mərəkədə hər kəs başındakı papaqdan ikiəlli yapışmalıdır. Bir parça çörək yeyiriksə, qarşılığını yüz yaxşılıqla verməliyik. Çünki belə bir həssas dövrdə ölkənin taleyi qüdrətli Öndərin güclü əllərindədir. Heç kim inkar edə bilməz ki, hazırda nemətlərin ən müqəddəsi və ən yaxşısı olan Şahənşah həzrətləri yeni İranı qısa müddətdə yoxolma uçurumundan tükənməz tərəqqi yoluna döndərib. Bütün ölkədə sabitlik, təhlükəsizlik hökm sürür. Hətta bir qadın başına qızıl teşt qoyub Makudan Bəndər Çah-e Bahara gedərsə, heç kim ona dəyib-dolaşmaz. Boş yerə deməyiblər ki, göydə Allah, Yerdə padşah!

İndi vəziyyət əvvəlki müharibədəkinə oxşamır, daxildə hərc-mərclik yoxdur. Əlhəmdülillah tacdar şahzadənin atası sayəsində ictimai-siyasi sahədə o qədər irəliləyişlərimiz var ki, artıq heç bir xarici dövlət vətənimizə göz dikə bilməz. Bu gün arxalana biləcəyimiz iki milyon süngü var. Onunla, bir tərəfdən, Qafqazı və digər tərəfdən, Rus Türküstanını fəth edə bilərik. İnanın ki, biz dünyanı lərzəyə gətirməyə qabilik.

Xatırlayırsız, Əhməd şahın dövründə xalqa məvacib yerinə saman, yonca və kərpic verilirdi?.. Srağagün Salamlama mərasimi keçirilirdi, Şahənşahın müqəddəs ayağını öpmək şərəfinə nail oldum. Mənə o qədər iltifat göstərdi

ki! Allah onun mübarək kölgəsini bu millətin üstündən əskik eləməsin! Təhlükəsizlik, abadlıq, ordu, dəmir yolu, asfalt yollar, nəhəng binalar, – bunların hamısını heç yuxuda görə bilməzdik...

Məzləqani:

– Haqlısız, – dedi, – əlahəzrət Rza şah kimi bir dühaya sahib olduğumuz üçün heç bir təhlükə İran xalqını təhdid edə bilməz. Həqiqətən, Allaha şükür etməliyik ki, dünyanın əsas ölkələrini sarıyan amansız müharibədən iraq qalmışıq. Amma bu müharibənin dünya iqtisadiyyatı, mənəviyyatını dərindən sarsıdacağı inkar edilə bilməz.

– Bu günə qədər dünyanın iqtisadi-ticari inkişafına şimal qonşumuz mane olub. Xoşbəxtlikdən, əlahəzrət bu məsələdən huşyardır. Mənim etibarlı mənbəyim var. Almaniyanın Rusiyaya hücum etməsi müjdəsini Şahənşaha xəbər verən bir adam dedi ki: "Əlahəzrətin sevinci yerə-göyə sığmırdı. Buyurdu: "Bunu mənə niyə deyirsən? Get xoş xəbərlə İran xalqını təbrik et!" Nə qədər möhtəşəm sözlərdi! Kəlamül-müluk mülkül-kəlam![17] Heç Əflatun bu cür söz deyə bilməzdi. – Hacı peşman olubmuş kimi, kirpiklərini oynatdı, sonra göz vurdu. – Aramızda qalsın a, siyasi sirdir. Bundan əlavə, əlahəzrətin nə vaxtdır millətə söz-vədə verdiyi o Qafqaz şəhərini İranın ilhaq edəcəyi zaman uzaqda deyil.

Dünən gecə Hitler Berlin radiosunda danışırdı. Necə də cazibədar səsi var! Dodaqlarından qopan hər kəlməni yarım saat alqışlayırdılar. Ağa, o, dahidir. Leş qoxuyan siyasi nizamı dəyişdirmək, yeni dünya nizamı yaratmaq istəyir. İki həftəyə Rusiyanın kələyini kəsəcək... – Hacı qəhqəhə çəkib güldü. – Bəlkə də sizinlə söhbət etdiyim zaman almanlar hətta Moskvanı arxada qoyublar. Sonra növbə İngiltərəyə çatacaq, onun öhdəsindən gəlmək almanlar üçün su içmək kimi bir şeydir, and içərəm ki, bir-iki aya Tehrana da gəlib çıxacaqlar.

Hacı ağzının suyunu uddu və eyni maraqla sözünə davam etdi:

– Yeriniz məlum, Almaniya səfirliyində Fransanın məğlubiyyəti haqqında film göstərilirdi. Mən də dəvətliydim. Alman əsgəri elə bil bir parça dəmirdir. Artıq dünyada onları dayandıracaq heç bir qoşun yoxdur. Sözlə başa salmaq çətindir. Hitler dünyaya yeni nizamla hökm edəcək. Ən azı, dünyanın ağası dəyişər, rahat olarıq. Həzrət Sahibəz-zamanın zühurunun bütün əlamətlərini gözlərimizlə görürük.

Ağa, sinfi bərabərlik, ümumi mülkiyyət nə deməkdir? Əgər yaxşı bir şeydirsə, özlərinə qismət. Bu bolşeviklərdən əvvəl mən Rusiyaya ildə on min tümənlik (o vaxtın puluyla ha) portağal ixrac etmişəm. İndi portağal bir yana, camaatın yeməyə bir dilim çörəyi yoxdur. Dünyanın bir ağası varsa, min buyruq qulu olar, deyiblər. Qoy öz qəzavü-qədərləri ilə müharibə aparsınlar... Niyə mən ağa oldum, Murad nökərim? Çünki Xudavəndin iradəsi belədir, mən neyləyim?! Bundan başqa, mən can yandırıram, əlləşib-vuruşuram ki, bir şahı qazanıb, üstünə birini də qoyum. A balam, dünyanın nizamı var. Hər kəs vəzir ola bilməz. Biri padşah, o biri dilənçi...

Mən qan-tər töküb, daşı daş üstə qoyub, başımı soxmağa bir ev düzəltməli, sonra boynu yoğundur deyə, onu Məşədi Həsən Pəhnpazənə müftə verməliyəm!? Mənfəət olmayan yerdə abadlıq olmaz ki. Murad Hacı ağa olsun, mən də Məşədi Murad!?

Məzləqani:

– Doğru buyurursuz, – dedi. – Əlbəttə, dünyaya bir sıra dəyişikliklər, yeni nizam lazımdır. Amma geri dönüşsüz.

[17] – Padşahların sözü sözlərin padşahıdır (ərəb.)

– Deyilənə görə, Hitler müsəlmanlığı qəbul eləyib, qolundakı sarğıya "La ilahə illəllah" yazdırıb.

– Bəli, həqiqətən də, İrana maraq göstərir. Bugünkü xəbərləri eşitməmisiz?

– Xeyr, amma Kəyumərs mənə “Ali səy” məqaləsinizi oxudu. Darül-məsakinə[18] təqdim etdiyim on at yarışı bileti barədə yazmışdız, amma dəyməzdi, on bilet nədi ki... lap xəcalət çəkdim, amma başqalarına örnək olma baxımından maraqlı mövzu idi... Ağayi Məzləqani, sizi təbrik edirəm. Dünyanın ən möhtəşəm yazarlarından birisiz. Düzünü deyin, o qəşəng sözləri hardan tapırsız?

– Mən vəzifəmi yerinə yetirdim. Amma müdiriyyət yazılanları bir az şişirtmə hesab edib.

– Heyrət!

– Həm də yazının 3-cü səhifədə dərc olunmasını istəyirdilər. Amma israrımla yazını ilk səhifədə yerləşdirdilər. Xüsusi vurğuladım ki, bütün iranlıların boynunda Hacının haqqı var və o, inqilabın yeganə övladıdır, azadlıq və Məşrutəyə görə ona borcluyuq. Bütün ömrü boyu şərəf, ləyaqət, təqva sahibi, yenilikçi insan, elm hamisi olub, buna görə də, o, İranın milli xəzinəsidir. Belə dəyərli siyasətçilərə sahib olduğumuza görə qürur duyuruq.

Murad içinə soğan qoyulmuş dəsmalla həyətə girdi. Hacı xumarlanmış gözləri ilə Məzləqaniyə baxırdı. Bir neçə gəlişigözəl söz demək istəyirdi ki, qəfildən artırmadan bir qadın səsi yüksəldi:

– Hacı ağa!.. Hacı ağa!.. Həlimə xanımın halı pisləşdi...

Hacı qulaqlarını şəklədi:

– Kəs səsini, ləçər! Min dəfə deməmişəm ki, camaatın yanında səsin çıxmasın?.. Murad, get gör yenə nə olub...

Qadın şivən qopardı:

– Vay, başıma kül töküldü!.. Hacıya deyin içəri gəlsin, Həlimə xanım öldü!

Evdən səs-küy qopdu. Hacı Məzləqaniyə üz tutub:

– Üzr istəyirəm, ağayi Məzləqani! – dedi. – Deyəsən, bədbəxtlik üz verib. Tövsiyənizi “Dobb-e Əkbər” qəzetinin müdirinə çatdırıram. İcazənizlə.

Məzləqani və yanındakı adam tez xudahafizləşib getdilər. Hacı ağa əsasından möhkəm yapışdı, döşəkcənin altındakı kağızları jiletinin cibinə qoydu. Sonra Murada xitabən:

– Mən içəri gedirəm, – dedi, – sən döşəkcədən göz-qulaq ol. Həm də get Hüccətüş-şəriə ağaya xəbər ver.

Sonra əsasını yerə vura-vura evə girdi.

## – 2 –

Hacı Əbuturab zilhiccə ayında, Qurban bayramı gecəsi, elə hacı ailəsində dünyaya gəlmişdi. Səksən doqquz yaşı vardı və Nəsrəddin şah çağını gözüylə görmüşdü, amma sinninə görə yaxşı qalmışdı, hələ də nisbətən cavan görünürdü. Vüqarlı qaməti vardı: iri baş, cüssəli bədən, qırmızıyanaq, alnı geniş, saçları gur və xınalı; ağarmış saqqalı kobud xalçanı xatırladırdı, sanki simasına yapışdırılmışdı. Sivri uzun burnunun altındakı şələ sufi-dərviş bığları qarmağa bənzəyirdi. Qalın qaşları, qan daman iri gözlərindən cin ürkərdi. Evdə başına şəbkülah qoyar, buxağı çənəsinin altından sallanardı. Daim araqçın və papaq altında qaldığından qulağının kənarları yastılanmışdı. Hər dəfə güləndə, bir neçə kirli qızıl dişi olan protezi üzə çıxaraq zahiri görünüşünü tamamlayırdı.

[18] – Kimsəsizlər evi

Bədəni uzun, ayaqları qısa idi. Buna görə də, oturanda ortaboy, yeriyəndə bəstəboy görünürdü. Amma beli azca əyriydi və donqarlaşmışdı. Yay aylarında yalnız açıq yaxalı köynək və enli şalvar geyər, çölə-bayıra çıxanda həmişə cibli jileti əynində olardı. Başına şəbkülah qoyar və çiyninə nazik əbasını atardı. Köynəyinin qolları düyməsiz olduğundan, tüklü, şişman əlləri açıq qalırdı. Yaxasından ta boğazına qədər uzanan tükləri saqqalına qarışırdı. Oturarkən təsbeh çevirmədikdə, böyük qapını hər iki əliylə sığallamağa adət etmişdi.

Qışda çiyninə büzüşmüş, arxası çirkli və köhnə yun yapıncı atardı. Öz təbirilə, bu, "mübarək bədənə toxunmuş parça" idi; nəql edirdi ki, günlərin bir günü Nəsrəddin şah şikargahda Hacının möhtərəm atasına xitabən deyib: "Mərhum müqtədir-e xəlvət! İt oğlu, götür bu yapıncını, qoy sənin olsun". Guya hətta ölməzdən əvvəl də atasına "mərhum" deyə xitab edirlərmiş. Amma, əslində, bu çuxanı bir satıcıdan almışdı.

Küçəyə çıxanda boz uzun pencək və qara şalvar geyər, başına enli papaq qoyardı. Qarın divarında yırtıq[19] yaranandan həmişə gümüş başlıqlı əsa ilə gəzir və iri addımlar atırdı.

Hacının evi "birun", "əndərun" və bir neçə otaqdan ibarət olsa da, bütün qonaqlarını həyətdə qarşılayıb yola salardı. Ta gün çıxandan o, yanını taxtın üstünə qoyar və əgər kənarda bir iş-gücü yoxudusa, bütün görüşləri, danışıqları orada həyata keçirər, öz təbirilə, yırtığa yamaq vurardı. Ta ki artırmadan "Şam yeməyi hazırdır!" - deyilənə qədər.

Əyan-əşrəfdən, vəzirül-vüzaradan tutmuş, məhəllə mollası, baqqalı və hətta Zal Məhəmmədi də orada salamlayar və sağollaşardı. Bu sonuncu şəxsin qonaq gəlməsinə etirazlara isə bu sözləriylə məhəl qoymamışdı: "O da bu birilər kimi adamdır. Xortdan deyil ki. Zal Məhəmmədin Tehranda yaratdığı düzəni bələdiyyənin nə büdcəsi, nə də mütəxəssisləri yarada bilib. Fahişəxananı nizama saldı. Kino salonu, teatr binası tikdi. Ancaq bələdiyyəniz bir teatr açmaq istədi, onu da əlli dəfə gah tikdi, gah sökdü. Binanın xarabalığından da neçə-neçə oğru milyonçu üzə çıxdı. Amma yenə də bir şey hasil olmadı. İnsana sözün düzünü demək yaraşır, başqalarının bacarmadığını Zal Məhəmməd tərəddüd etmədən, təmənna güdmədən edir... Qaldı ki kim cənnətə gedəcək, kim cəhənnəmə vasil olacaq, – bunu onsuz da bilməyəcəyik. Heç kimi də başqasının qəbrinə qoyan deyillər ki...

Elə bilirsiz yuxarı başda oturan boynuyoğunlar bir-birinin əlini yumur?! Mən sözü düz üzə deyirəm, fahişəxanaya da bir böyük lazımdır. Yoxsa kişilər arvadlarının yüyənini əlində saxlaya bilməzlər. Cəmiyyətdə şaha, vəzirə, vəkilə ehtiyac olmaya bilər, amma Zal Məhəmmədə o möhtacdır... Mən bu şəhərdə bütün əyan-əşrəf və tacirləri yaxşı tanıyıram. Ona verilən kinoteatr binası tenderində hesab-kitabda bir qəpik əskik çıxmadı. Heyf ki bu ölkədə bircə də olsa qədirbilən insan yoxdur, olsaydı, fahişəxana önündə Zal Məhəmmədə heykəl ucaldardı!"

Həyətdəki taxtın üstündə cəmi dörd döşəkcə olduğundan, qonaqların sayı heç vaxt üç nəfəri keçməzdi. Yəni içəridə qələbəlik yaranan kimi, əvvəl gələnlər yerlərini yeni gələnlərə təhvil verib çıxıb gedərdi. Əgər Hacının gündəlik həyatı teatrda səhnələşdirilsəydi, maliyyə baxımından çox sərfəli olardı, çünki səhnə dekoru yalnız bu kiçik məkanla məhdudlaşacaqdı.

Hacının atası Məşədi Feyzullahın "Zəfəran Bacı" bazarında tütün məhsulları satılan bir dükanı vardı. Qıtlıq dövründə halal-haram nə mal

[19] – Digər adı dəbəlikdir

vardısa, anbara toplayıb, gələcək zənginliyinin təməlini atmışdı. Xüsusilə Mirzayi Şirazi[20] tütünü qadağan edən fitvanı verdikdə.

Məşdi Feyzullah Yəhya xan Muşirüd-dövlənin evinə sığınanlardan biri idi. Molla Abdullah Vaiz yenidən qəlyan və tütünü halal elan edəndə, "Reji" şirkətindən[21] üzr istənildi. Bu arada Məşdi Feyzullahın da bəxt ulduzu parladı. Yəni tütün-tənbəkinin qadağan olduğu dövrdə ucuz qiymətə alıb yığdığını bu səfər baha qiymətə sataraq milyonlarla zər[22] ərazini vəzir Mirzə İsadan dəyər-dəyməzə alıb həcc mükəlləfi oldu. Məkkəyə bir kərə getməklə pulunu halallaşdırdı. Ziyarət səfərindən qayıdandan ta ömrünün sonunacan evindən kənara bir addım belə atmadı. Nəhayət, doxsan üç yaşında öldü. İfrat xəsisliyindən. Qısa hekayət belədir: sancılanmış, həkimbaşı da resept yazmış, amma o, evdə əlinə keçən ilk məlhəmi, dəriyə çəkilən dərmanı içib ölmüşdü.

Əlqərəz, Hacı Feyzullahın bütün mirası bircəcik - yeganə oğlu Hacı Əbuturaba qaldı. O da dünyanı özüyçün çoxdan kəşf eləmişdi. Hacı özünü Məkkəyə gedibmiş kimi aparır və ziyarətlə bağlı atasından eşitdiyi hekayəti, canlı şahidi kimi, camaata nəql eləyirdi.

Hacı Əbuturab tütün dükanının qapısına qıfıl vurub mal-mülk sahibi oldu. Kimsə atasına yerli-yataqlı bələd olmadığından, mərhuma "Hacı müqtədir-e xəlvət" ləqəbi verdi, onu saray əhli, Nəsrəddin şaha çox yaxın olan şəxs kimi qələmə verdi. Həmişə dili ağzına sığmazdı: "Biz ali əyanlardanıq", "biz nücəbayıq".

Xəsislikdə atasını da ötmüşdü. Şəhid Şah zamanında dövriyyədə olmuş köhnə sikkələrin dəyərini beş barmağı kimi bilir, iki qəpik-quruşu əskik gələndə, vəlvələ salırdı: "Məni çapıb-taladılar!.. Keçmişdə adam kimi yaşayırdıq!"

Mal-mülk, dükan, hamam, kirayə evlər, bazarda piştaxtalar, habelə İsfahanda yerləşən toxuculuq fabriki və rezin zavodundan başqa, hətta İranın xaricdəki səfirləriylə şəriklik edib qaçaqmalçılıqdan qaz vurub qazan doldursa da, evdə bir gün ərzində istifadə olunacaq qəndi sayar, odunu özü içəri daşıyar və siğəli arvadlarının əşyalarına göz qoyardı. "Məşrutə" sözünün dilə gətirilmədiyi çağlarda həyətindəcə evin rəiyyət və nökərlərini falaqqaya salıb çubuqla döyərdi.

Zahiri görünüşü həmişə aldadıcı idi və özünü daima haqlı çıxarırdı. Buna görə də görən deyirdi: "Necə də həlim-salim adamdı!" Elə bu aldadıcı zahiri görkəmi onu cümlə-cahanda məşhurlaşdırmışdı, işbilən, xeyriyyəçi və xoş xasiyyətli bir insan kimi.

Hacı əmin idi ki: "Dost sarıdan min əskiyi, bir düşmən artığı var". Buna görə də, hamı ilə səmimi olur, könüllər fəth edir, öz mühiti, dairəsində qarşılıqlı güzəştə gedirdi. Əslində, elə buna görə bir çoxları özünü onun üçün fəda etməyə hazır idi. O, daim siyasətə qatılır, vəzir-vəkili mədh edirdi, üstəlik, Nazirlər Şurasının üzvüydü və müşkülləri çözən biriydi. Həmişə deyərdi: "Biz bu ölkədə, üç gün də olsa, bir tikə çörək yeyib, iki qurtum suyu rahat içmək istəyirik".

Amma Hacı doğru-düzgün yazıb-oxumaq bilmirdi. Nəsrəddin şah zamanında şəxsi müəllimdən "Gülüstan" və "Bustan"ı oxumağı və yazı yazmağı, əlbəttə, öyrənmişdi. Lakin hafizəsi daha güclü idi. Başqalarının sözlərini yaddaşına yazar, arada-bərədə, yeri gəldi-gəlmədi, özü üçün təkrarlayardı. Bir səhv etdikdə, sözü tez dəyişərdi, məsələn, deyərdi ki, rəhmətlik atası Şəhid Şahın sarayında Hacı Mirza Ağasıdan da yuxarı başda oturardı və ya Kərim xan Zənd çağında üç man və bir çarək göz çıxarıb,

[20] – İranda tənbəki hərəkatının əsasını qoymuş müctəhid

[21] – O zamanın məşhur inhisarçı şirkəti

[22] – Arşın – 104 sm

yaxud Dekan maharacası ona təklif edib ki, Xarici İşlər Nazirliyinə rəhbərliyi öhdəsinə götürsün və... ilaxır.

Rical əhlinin[23] və zəmanədaşı olan səlahiyyətlilərlə iç-içə, bütövləşmiş olsa da, o birilərin biliyi-savadı Hacıdan üstün deyildi. Buna görə də, düşüncələrini Hacı ilə bölüşməkdən çəkinmirdilər. Halbuki bəzən Hacı ağzından qaçırırdı: "Elə qazana belə çuğundur gərək! Biz də deyirik bu xalqın, bu ölkənin siyasətçiləriyik!"

Siyasətə baş qoşandan kiçik oğlu Kəyumərsə daim qəzet oxutdururdu. Uşaq məktəbdən qayıdan kimi qəzeti əlinə verir, o da buluğ çağının dəyişdirdiyi şaxəli səsiylə qəzeti ucadan oxuyar, Hacı mənalı-mənalı başını yırğalayardı. Sanki heç kimin başa düşmədiyi sətiraltı mənaları aşkarlayırdı.

Hacı əxlaq kitablarına və Sədinin "Gülüstan"ına xüsusi maraq göstərirdi, tarixdən bixəbər olsa da, keçmişi qurdalamaqdan vaz keçmirdi. İki-üç dəfə Kəyumərsə bəzi məsələləri səhv izah eləmiş, buna görə də yazıq tifil ertəsi gün məktəbdə kötək yemişdi. O gündən bu günə uşaq daha atasından söz soruşmurdu.

Hamıya əxlaq kitabı yazıb nəşr edəcəyini deyir, amma bu işi onun üçün müftə görəcək bir adam tapmırdı. Üstəlik, ədəbiyyatçı iddiası da vardı. Onun aləmində ən böyük filosof Qustav Le Bon idi. Çünki adını çox eşitmiş və Le Bonun kitabının mükəmməl, ya qüsurlu olduğu naməlum bir tərcüməsini hədiyyə almışdı.

Həmişə ədəbi məclislərə gedər, sədarət kürsüsündə oturardı. Hamıya salam verib təzim edərdi. Məclisdə, bir tərəfdən, qəlyan xortuldatar, o biri tərəfdən də şirin çay içərdi. Oxunan hər şeiri elə alqışlayardı ki, ovucları iki gün sızıldayardı. Yeni fikir irəli sürübmüş kimi, ədəbi məclislərdə Qaaninin[24] şeirlərini tərifləyərdi. Onun divanını gözüylə görməsə də, cavanlığında bir-iki bərbad şeirini dinləmişdi. Üstəlik, Qaaninin şeirlərindəki axıcılıqdan ağız dolusu danışardı.

"Pərvəriş-e Əfkar" və "Fərhəngistan" məclisləri Hacının təşrifləri ilə şərəflənirdi. Hacı bu dil-ədəbiyyat qurumlarının rəsmi üzvüydü və həmişə gülünc xətalara yol verirdi. Amma iş pul, maliyyə məsələsinə gəldikdə, hamının umacaq yeri olardı.

Hacı həmişə fani dünyadan şikayətlənər, özünü meyiti ortada qalmış kimsəsiz kimi aparardı. Zəmanənin dəyişib daha da pisləşdiyi, Axirəz-zamanın gəlməsi dilindən düşməzdi. Çünki, nə var, nə var, qonşusu evini Hacının dediyi qiymətə satmamışdı; küçə onun avtomobili üçün dardır; yaxud mindiyi maşın son model deyil; portağal ağacı bar verməyib; insanlar tərbiyəsizləşib, çünki Şeyx Əbdülqafurun xətm məclisində bir növcavan gözlərini ona dikib və adam yerinə qoymayıb. İstədiyi buydu ki, hamı bədbəxtliklərinə həmdərd olsun, ancaq bir neçə məsələ var idi ki, beynini əməli-başlı qurdalayırdı.

Birincisi, general Allahverdiyə görə çox kədərlənirdi, çünki suvarma kanalları olan ərazini Hacıdan çox ucuz qiymətə almışdı. İkincisi, yaşlanırdı, qarnındakı yırtığa da əlac tapılmırdı, bundan betəri də arvadları sarıdan yaman nigaran idi.

Qocalıq sağalmaz mərəzi olduğundan axund Hüccətüş-şəriənin köməyi ilə "Əlfiyyə və Şəlfiyyə", "Məulheyvə" və "Rahnəma-yi İsrət" kimi kitablara istinadən, özü üçün qüvvət məcunları hazırlatdırıb istifadə edir və tez-tez xanımları dəyişirdi.

---

[23] – yaxud dövlət ərkanı – rəsmilər, vəzifə sahibləri

[24] – Sədini təqlid edən və "Gülüstan"a nəzirə yazmış ("Pərişan") Qacar dövrü şairi

Başqa bir dərdi yırtıq idi ki, düzdür, hələ onu əldən-ayaqdan salmamışdı, amma bu yaşda cərrahiyyə əməliyyatı aparmağın təhlükəli olduğunu da eşitdi. Üstəlik, avropalı və ya Avropa təhsilli həkimlərə və onların dava-dərmanına heç vaxt inanmazdı. Məgər atasını öldürən Avropa istehsallı dərmanı deyildimi? Niyə bədənini durduğu yerdə o cür həkimin bıçağına etibar etsin ki? Hər kəsin taleyi müəyyən edilib alnına yazıldığı halda, niyə öz əcəlini yaxınlaşdırsın? Halbuki, cəmiyyətdə bu yırtıq nüfuzunu əhəmiyyətli dərəcədə artırırdı...

Amma arvadlarına gəlincə, bu, daha ciddi məsələ idi. Hacının evlilik sərgüzəşti say baxımından zəngin idi: altı arvad boşamışdı, dörd qadının başını yemişdi, qalan yeddi qadın əhli-beytini təşkil edirdi.

İlk arvadı İqlimə tiryəkdən ölmüşdü. Hacı namərdlik etmədi və bütün əmlakını adına keçirdi. Digər arvadlarından biri doğuş zamanı öldü, o biri damdan yıxıldı, sonuncusu Həlimə ürək ağrısından vəfat elədi. Boşanmış qadınlar isə mehriyyələrini halal eləyib canlarını sağ-salamat qurtardılar.

Sağ qalanlar arasında iki siğəli – Münir və Möhtərəm uşaq yaşda idilər və Hacının fikrini-zikrini qarışdırıb pərişan etmişdilər. Xüsusən Münir başını yaman qatmışdı onun, çox lovğa və dilli-dilavər idi. Ev əhlinin gözü qarşısında Hacı ağanı yamsılayar, onunla bağlı təhqiramiz şeirlər, qurşaqdan aşağı vuran həcvlər oxuyardı.

Möhtərimin isə iki yaşlı bir uşağı vardı və yenə boyluydu. Halbuki, Kəyumərsdən sonra on altı il idi ki, Hacının bircə övladı belə dünyaya gəlməmişdi. Ta ki qonşu çəpərinin nə olduğunu qanmayan o xoruz, əmisi oğlu kimi Möhtərəmi görmək bəhanəsi ilə evə gələn, məhrəm-naməhrəm bilməyən Gülübülbül peyda olanadək. Bəs necə, düz deyilsə, Səkinənin göz-qaşı Gülübülbülün göz-qaşına niyə oxşasın? Canının yarısı saydığı körpə buna görə Hacının gözündən düşmüşdü.

Üstəlik, bu gənc siğəli arvadları haqqında eşitdikləri Hacını tamam-kamal şübhəyə salmışdı. Məsələn, o gün telefonda yalan danışıb Hacını 12 saylı notariusa göndərmişdilər, o, evə qayıtdıqda Münir hamama getmiş və hələ geri qayıtmamışdı. Həm də icazəsiz... Münir onun qulluqçusu olmuş və Hacı onu siğə etmişdi, abır-həyasını aparsaydı, əlbəttə, talağını verəcəkdi. Doğrudur, şəriət baxımdan o, Hacının arvadıydı, amma bu yaşda-sində dil-ağıza da düşmək istəmirdi.

Axı qadınların hamama gedişi və ya valideynlərinə baş çəkməsi niyə bu qədər uzun çəkir? Bir-iki dəfə təhqiqat apardı, amma şübhəli nəticələr əldə etdi. Hər kəs barədə bədgüman idi, hətta Murada da. Düşünürdü ki, başına corab hörmək üçün hamı əlbir olub.

Hacını narahat edən şeylərdən biri də ənam məsələsi idi. Bəlkə də, arvadları belə, kiməsə bəxşiş verirdi, amma bu halda, pulu necə qazanırdılar?

Bu məsələlər Hacının halına-təhərinə, rəftarına təsir edirdi. O, evin sakinlərinə göz dağı verir, əsəbini ətrafındakılara çiləyirdi. Hətta icazəsi olmadan soğan turşusu almış Zübeydənin topuğuna əsanı elə vurmuşdu ki, zavallı hələ də axsayırdı.

Evin girəcəyində oturma adətinin fəlsəfəsi də, bir tərəfdən, arvadlarına göz-qulaq olmaqla bağlı idi. Yay-qış bilmədən çöldə oturmanın, əlbəttə, izafi xərci vardı: həyətdə kürsü[25] qurdurmuşdu, qışda ayaqlarını yorğanın altına salır, ayaqları arasında da əllərini qızdırır, beləcə, əlavə məsrəfdən canını qurtarırdı.

---

[25] – Kənd yerlərində isinmə vasitəsi; evin içində qurulan, üstünə yorğan atılan təndir

Sinni çağlarında səkkiz qızdan sonra dünyaya gələn ilk oğlu içki düşkünü, sifilis xəstəsi və qumarbaz idi. Hacı həzrət Əmirəl-möminin əleyhüssəlamın "Uşaqlarınızı onların zəmanəsinə uyğun tərbiyə edin" buyruğuna istinadla, ağazadəni Avropaya göndərdi. Amma kiçik ağa zövq və istedadını təhsilinə yönəltmədi və elə ki İrana qayıtdı, telini yana daradı, şıq libaslar geyindi, Hacının son model avtomobilinə oturdu və Pekin cinsli iti ilə şəhərin lüks kafe və restoranlarını dolaşmağa başladı. Borclu olduğu adamları atasının dalınca qaçırdırdı. Bir gecə də içkili halda evə dönərkən, maşını ağaca vurub xurd-xəşil elədi.

Atası qiyamət qoparıb onu həm evdən qovdu, həm də mirasdan məhrum elədi. Amma kiçik ağa elə atası kimi bəxti gətirən adam idi: yaraşıqlı olduğu üçün onu Sarayda sürücü işinə götürdülər. Hərçənd yüksək məqamların və Sarayın diqqətini özünə cəlb etmişdi, gələcəyi parlaq görünürdü, amma bu, Hacı ağanın qəzəbini soyutmadı. Qeyrət damarı tutmuşdu, aya, niyə böyük oğluna bu qədər iltifat göstərilir? Həm də oğlanın bir yeyəni olduğu halda, yüz deyəni ola-ola...

Hacı ağa oğlunun kreditorlarına cavab verirdi: "Mən şahidlərin hüzurunda bunu demiş və qəzetlərdə də bəyan etmişəm ki, kiçik ağa artıq oğlum deyil. Avropa onun əxlaqını pozdu. Allah hamının balasını pis dostdan, yoldaşdan uzaq saxlasın! Nuhun oğlu yolunu azdı, nübuvvət xanədanı yox oldu[26]. O, ağlı başında, ayağını düz atan, ədəbli-əxlaqlı bir oğlan idi. Amma hərzəliyə və biganəliyə yuvarlandı. Daha evimin qapısını aça bilməz".

Buna görə də, Hacının bütün ümid və arzuları ikinci oğlu Kəyumərsə bağlanmışdı, ona xüsusi diqqət göstərirdi.

Hacı ağa gün boyu söylədiyi hər sözə özü də inanmırdı, amma həmişə gözünün önündə gəzib-dolaşan sevimli balası Səkinəylə bağlı şəkk-şübhəyə düşəndən, uşaqlara olan marağı da get-gedə süstləşdi. Deyərdi ki: "Uşaqlar, maşallah, böyüyüb başa çatdılar. Böyük oğlumu ərköyün böyütdüm, nəticəsini gördüm. Bundan sonra uşaqlar həyət-bacaya çıxmayacaqlar. Yanıma mötəbər adamlar gəlib-gedir".

Amma bir neçə şey vardı ki, onlara sidq-ürəkdən bağlıydı: birincisi, yemək. Söhbət xörəklərdən düşəndə, çöhrəsi işıq saçar, ağzı sulanar, gözləri parlayıb az qala hədəqəsindən çıxardı. Xüsusilə xurma, halva, paxlava kimi şirniyyatı, yağlı və şirin plovu[27] həddən ziyadə xoşlayırdı. Süfrə başında "Bismillah" deyib qollarını çırmalayar, dırnaqları xınalı kök barmaqları ilə düyünü ağzına aparar və barmaqları arasından damcılayan yağdan həzz alardı. Dadına-tamına şəkk duyduğu xörək haqqında deyərdi: "Mənə zərər versə, düşmənin Əli bin Əbutalib olsun!" Bundan sonra xörəyi yeyərdi. Yemək yeyərkən, gözləri çəpləşər, gicgahları tərpəşər və ağzını marçıldadardı. Sonra gəyirib deyərdi: "İlahi, Əlhəmdülillahi Rəbbil-Aləmin!" Dırnaqları ilə dişlərinin arasını təmizləyər, yeməkdən bir müddət sonra hərəkət etməz, heç bir işə baş qoşmazdı.

Hacı ağa hamamı, yuyunmağı çox xoşlayırdı. Amma hamam xərci artandan, nadir hallarda hamama gedərdi. Buna görə də, yay aylarında Hacının boğucu tər qoxusu həyət-bacanı bürüyərdi. Hamama gedəndə ağzına bir ovuc su alıb misvakla fırçalayardı. Sonra uzanıb yatar, bədənini ovdurar və masajçının yumruqlarından həzz alar, ah-nalə eləyib Allaha həmd deyərdi.

---

[26] – "Ey Nuh! O sənin ailəndən sayılmaz; başqa sözlə, bu doğru olmayan bir davranışdır.." ("Hud" surəsi)

[27] – Kişmişli, boranılı plov nəzərdə tutulur.

Yuxu məsələsində Hacının müşkülü yoxudu və gözlərini yuman kimi röyaya dalırdı. Elə o andan xoruldamağa başlayardı, sanki evdə iki yüz balina yatırdı.

Amma qadın məsələsində Hacı doyumsuz idi. Halbuki, evin əndərunu daimi və siğəli arvadlarla doluydu. Elə ki diqqətini cəlb edən bir qadın gördü, gözləri qıyılır, təngnəfəs olur, ağzı sulanır və marçıldayır, gözləri qanla dolurdu. Xüsusən bu qadınlar çadralı, namaz-niyazlı görünüşlü, yoğun topuqlu, qalınqaş qəhbə xalalar olanda, papağının altındakı gözləri alacalanırdı. Nəfsinə hakim ola bilmirdi. Ağzı suyla dolur və kəkələyir, beyninə qan vururdu. İnişil az qalmışdı ki, Xanımbalaya, yüzbaşı Hüseynin arvadına aşiq ola. Hətta qarnında yırtıq yaranandan bir neçə il əvvəl vəfadar dostlarla fahişəxanaya baş vurar və evin birini gizli eşq üçün ayırardı.

Hacının hamıdan və hər şeydən çox sevdiyi, ən böyük ehtirası pul idi. Pul onun məşuqu, canının dərmanı, ləzzətin mayası və qorxusu, həyatının sayıla biləcək yeganə məqsədi idi. Pulun adı, pulun cingiltisi, pul saymaq Hacının könlünü oxşayır, ürəyinə su səpirdi. O, pulu pul varlığına görə sevirdi; pula pərəstiş edirdi. Pul qazanmaq üçün hər işi məqbul sanırdı. Sanki pul aləmində Hacıya cəmiyyətin istifadə etdiyi bu vasitəni toplamaq və onu məbədə çevirmək vəzifəsi tapşırılmışdı; pul əldə etmənin bütün üsulları doğuşdan Hacının ixtiyarına verilmiş və onu münasib bir çevrədə vücuda gətirmişdi.

Səhərin gözü açılandan ta axşama qədər, hətta yuxuya getdikdə, fikri-zikri mənfəət və özünü zərərdən bərtərəf etmək idi. Ona görə də hər cür işə girişirdi. Hətta qoca vaxtında küçələrin inşası və xiyabanların yaşıllaşdırılması üzrə tenderdə iştirak etməklə milyonlar qazanırdı. Amma zəmanədaşları olan dövlət məmurları və daim yaltaqlandığı ölkənin bir nömrəli şəxsindən qorxduğu üçün həmişə özünü müflis və bədbəxt göstərir, dilənçi kökünə salır, böyük əməliyyatlar, alış-veriş, satınalmalarda oğlunun və ya arvadlarının adından yararlanırdı. O, cəmiyyətdə qazandığı yaxşı san və şöhrətə möhkəm bağlıydı. Çünki məhz bu yolla maraqlarını təmin edirdi.

Hacı maraqlarını da tez unudurdu. Lakin Allah göstərməsin, zərəri üzə çıxdıqda (bir şey kəm gəldikdə), rəftarı anidən dəyişirdi. Məsum görünüşünün altında it üzü ortaya çıxardı. Çox vaxt evində gümüş başlı əsanı işə salırdı. Bir dəfə pulverməz kirayəçilərlə üz-göz oldu. Axırda Hacı əlini əlinin üstünə vurub dedi: "Yüz illik abır-həyamı apardız! Bu ölkədə sümüklərimi çürüdərəm, amma müftə ev kirayə vermərəm. Axı yeddi baş əyalıma başqa kim çörək verəcək?"

Axirət barədə də Hacının öz rəyi vardı. Deyirdi: "Kim o dünyadan qayıdıb ki? O da doğrudursa!?" Siyasi əqidəsi kimi, axirət barədə də sabit etiqadı yoxudu. Məgər həcc, namaz və orucu pulla satın almaq mümkün deyil? Deməli, pulu olan adam hər iki dünyanın ağasıdır!

Bununla belə, dini digərləri üçün zəruri sayırdı. Cəmiyyət içində təqiyyə edər və əsl simasını gizlədərdi. Buna görə də, Məhərrəm ayında təkyə, hüseyniyə və rövzə məclislərində lap başda oturardı. Aşura günü Kəyumərsə tapşırırdı ki, əzadarların xidmətində durub su paylasın, beləcə, özü çox xərcə düşməsin. Onu əyninə kiçik gələn qara paltar və kəşkül, ağ önlüklə, təşnəsi olanlara su paylamaq üçün camaatın yanına göndərərdi. Yolu məscidə düşdükdə, dəst-namaz şükranlıq namazı qılardı. İldə bir dəfə xüms-zəkatı müfəssəl hesablayar, bir neçə yüz tümənlik qəbz yazıb cənubdakı mülklərindən gələn xurma səbətinə qoyardı. Sonra Hüccətüş-şəriə ağanı çağırtdırır, xurma səbətlərini satmaq və ya xurmaları yoxsullara paylamaq

üçün ona verərdi. Sonra “Mən külfət sahibiyəm, uşaqlar xurmanı gördü, ürəyi istədi, səbətlər evdə qalsa yaxşıdı”, – bəhanəsini uydurub xurmanın dəyərini o günün qiymətinə uyğun hesablayar, ümumən on tüməndən azca artığını Hüccətüş-şəriəyə verər və səbətdəki qəbzi ləğv etdirərdi.

Bu üsulla xüms-zəkat verən Hacı xoşbəxt idi. Axı xurma bazarda satılsaydı, qəbz başqasının əlinə keçə bilərdi. Amma bu halda, həm içində qəbz olan səbəti satın almış, həm də şəri hökmü icra eləmişdi.

Hacı əməllicə şərab düşkünüydü və qonaqlıqlarda çəkinmədən içərdi. Ona sovqat göndərilən içkiləri “dava-dərman” adıyla çaydana töküb nuş edərdi. Amma içkiyə pul vermək – haşa!

O, qumar oynayardı, yəni kart və nərd-taxta; o da rəqibini məğlub edəcəyinə əmin olduğu halda.

Ramazan ayında xəstə olduğunu bəhanə gətirib orucunu yeyər, amma camaat içində təsbeh çevirər, istiğfar edərək oruc haqqında moizə oxuyardı. O, yatdıqda və ya arvadları ilə didişdikdə, Murad qapıya gəlmiş adamlara “Ağa namaz üstədir”, “Ağa məscidə gedib”, – deyərdi.

Məqam-vəzifə hərisliyindən Hacı özünü gözə soxmaq məqsədilə siyasətin cəncəl işlərinə baş qoşur, casusluq etməkdən belə, çəkinmirdi. Buna görə də, neçə-neçə məhrəm məsələnin sirr pərdəsini qaldırmışdı. Hər yerdə nüfuz sahibi olmaq və öz mənafeyini daha yaxşı müdafiə etmək üçün (etiraf olunmalıdır ki, bu yolla inanılmaz uğur qazanmışdı). Hacı siyasəti, bir növ, ticarət və özünü dövrünün ən böyük siyasətçisi sayırdı.

Həmişə ön səfdə gözə dəymək, özünü mühüm şəxs kimi qələmə vermək və başqalarının sözünü kəsmək cəsarətində olmaq vərdişi vardı. Nitqini bitirdikdə müsahibinin gözlərinin içinə baxardı, onda təəssürat oyadıb-oyatmadığını öyrənmək üçün. Bu məsələdə ilahi vergisi vardı. Çünki dili ağzına sığmazdı, hamının damarını tuta bilirdi, kimlə desən, söhbət qura bilərdi. O, başqalarının sözlərinə diqqətlə qulaq asar, onunla həmdərd olar, kömək əlini uzadacağı vədi verər və məsləhətlərini əsirgəməzdi. Ancaq adətən, əlini bir işə bulaşdırmazdı, əlbəttə, fayda qazanmayacaqdısa və ya dar gündə karına gəlməyəcəkdisə.

Hamının sıraya durub növbəsini intizarla gözlədiyi yerə Hacı hörmət və ehtiramla, həm də maneəsiz girər, qısa zamanda işini həll edərdi. Bəzən hətta mühüm şəxslərlə söhbət edərkən də onları məzəmmət edir, ağzından məmləkətin maraqlarına zidd olan kəlmələr qaçırırdı. Ancaq ona olan hörmət və güvəndən, bütün bunları görməməzliyə, eşitməzliyə vurardılar.

Uzun sözün qısası, hamı onunla hesablaşırdı. Əksər vaxt Hacı ağa müsahibinin üzünə baxa-baxa həyasızcasına gülər və bu gülüşü qurşaqdan aşağı, xayalarının sancısının başlamasıyla bitirdi.

Hərçənd ki Hacı ağanın dilindən “Heç kimdən alıb-verəcəyim yoxdur” cümləsi düşmürdü, amma polisin xəbərçisi olduğu, indiyədək neçə-neçə günahsız adamı şərləyib həbsə atdırdığı məlum idi. Hətta şəhər polisinin rəisi ondan çəkinirdi. Çünki qulağına Hacının “mühüm xarici səlahiyyətlilər”lə əlbirlik etməsi xəbəri çatmışdı.

Qəribə olan bu idi ki, Hacı yeni hökumət üzvlərinin adlarını əvvəlcədən bilir, bazarda bunu çəkinmədən danışır, hətta mərcə girir və onun proqnozları möcüzəvi şəkildə doğru çıxırdı.

Hacı ağanın bolşevizm haqda bilgisi elə faşizm barədə bildiyi qədər idi. Ancaq güman edirdi ki, günlərin bir günü ruslar Tehrana ayaq bassa, dərhal mal-mülkünü qəsb edəcək, arvad-uşağını çarmıxa çəkəcək, özü və əyalının kəlləsi ayaqlar altına diyirlənəcək. Zənnincə, İkinci Dünya müharibəsi bəlkə

də rusların onun mal-mülkünə göz dikmələrinə görə başlamışdı və almanlar dadına çatmağa çalışdılar; məhz onun düşüncələri, məqsədləri, planları naminə savaşırdılar.

Hər gecə Berlin radiosunun proqramına diqqətlə qulaq asır və almanların irəliləməsi xəbərini eşidəndə ürəyinə yağ yayılır, diktorun sözləri qulaqlarında vəhy kimi səslənirdi. Daha sonra ərəb musiqisini tapır, radiodan gələn dəvə böyürtüsünə bənzər nərələrə zövqlə qulaq kəsilərək həyatın dadını çıxarırdı.

Zahirdə min cür cildə girirdi, bir-birinə zidd kəlmələr söyləyirdi. Öz təbirincə: “Çörəksiz qalmamaq naminə”. Çünki öz aləmində Hacı əmin idi ki, həyat – saxtakarlıq, yalan, ikiüzlülük və kələkbazlıqdan ibarətdir. Yaşadığı cəmiyyət bu təməl üzərində qurulmuşdu, belə bir cəmiyyətdə hər kəs başqasına daha tez kəf gələ və sudan quru çıxa bilirdi; günahkar varlığını başqalarının varlığı ilə tərəzinin eyni gözünə qoyurdu. Mənfəəti naminə heç bir hoqqabazlıqdan əsla çəkinmirdi. Düşünürdü ki, dil bir parça ətdir, odur ki, sələmdən tutmuş casusluq, yaltaqlıq və qarətə qədər hər cür günaha batmışdı.

Zəmanə beləydi, onu da özünə uyğun yetişdirmişdi. Hacı ağa əyyamının tanınan simalarından biriydi, o, “dünya” deyilən bu fəndgirlik bazarında, başdan papaq qapıb qaçmaq meydanında başı papaqsız qalmaq istəmədi.

İlk oğlu sarıdan pərişan olandan həyatda qazandığı təcrübəni və şəxsi fəlsəfəsini – yazmağa vəd etdiyi əxlaq kitabında əks olunacaq mətləbləri məsləhətlər şəklində Kəyumərslə paylaşırdı.

“Dünyada iki növ insan var: talayan və talanan. Əgər talanan olmaq istəmirsənsə, başqalarını tala. Böyük savada ehtiyac yoxdur. Amma hesabı, mühasibatı yaxşıca öyrən. Dörd əməli bilməyin yetər: pul qazanmağı, pulun üstünə pul gəlməyi, onu qoruyub saxlamağı, hesabda aldanmamağı, başa düşdün?.. Hesab bilmə vacibdir, həyata mümkün qədər tez atılmalısan. Qəzet oxuya bilirsənsə, kifayətdir. Alveri öyrənməli, insanlarla sövdələşməyi bacarmalısan. Sözümə qulaq assan, “Cam-e Abbas”[28] kitabı oxumaq yerinə, piştaxta arxasında durub bir cüt ayaqqabı satmağı üstün tutarsan... Hər sifətə-dona gir, unutma, əlindən gələni beş qaba çək. Öz haqqını qoru, söyüşdən, təhqirdən çəkinmə, söz havadı, üfürdün getdi. Bu qapıdan qovulsan, o birindən gülümsəyərək keç, başa düşdün?.. Həyasız, kobud və bisavad ol. Bəzən işin rəvan getməsi xətrinə ağa qara deməlisən”.

“Ölkəmiz bu gün belə şəxslərə ehtiyaclıdır. Zəmanə adamı olmalısan. Etiqad, din, məzhəb, əxlaq – bütün bunlar alıb-satılan sözlərdir. Amma təqiyyə etməlisən, çünki avamların nəzərində mühüm məsələlərdir. İnsanlar üçün etiqad vacibdir, onların yanında maskalanmalısan. Cəmiyyət əfi ilan yuvasıdır, əlini soxsan, sancarlar. İnsanlar talelərinə müti və əmin olmalıdırlar ki, boyunlarına çıxıb öz işini aşırasan. Əhəmiyyətli olan şeylər yemək, salam vermək, cəmiyyətə qarışmaq, qadınlarla cilvə atmaq, rəqs etmək, üzgörənlikdir. Xüsusən min dona girmək. Bu dövrdə belə şeyləri bilməsən, çörəksiz qalarsan. Çalış, yüksək məqamlarla əlaqən olsun. Hər kəslə və hər cür əqidədə olan adamlarla dil tap. Hamıdan bir addım qabaqda ol... Səni zəmanə adamı, heç kimə möhtac olmayan biri kimi yetişdirmək istəyirəm. Kitabdı, dərsdi-filandı, bunların bir qəpiklik dəyəri yoxdu. Təsəvvür elə ki, dağ başında yaşayırsan, qəflətə düşsən, səni çapıb-dalayarlar. Bir neçə xarici söz, bir neçə gəlişigözəl kəlmə öyrən, bəsdir. Sərbəst ol! Mən vəzir-vəkili susuz aparıb susuz gətirərəm... Mühüm olan mahir oğru olduğunu, qapdığını asanlıqla verməyəcəyini, onlardan biri olduğunu göstərməyi və sövdəyə

[28] – Şeyx Bəhaəddin Amilinin məşhur risaləsi

girməyi bacarmağındır. Onların etibarını qazanmalısan, onda səni özününkü biləcəklər... Biz sərgərdan həyat tərzi keçiririk".

"Amma ən mühüm məsələ puldur. Əgər bu dünyada pul sahibisənsə, iftixar, etibar, şərəf, namus, müxtəsər, hər şeyin var. Pul səni hamının göz bəbəyi edəcək. Bütün işlərin tavada əriyən yağ kimi gedəcək. Pul – eyibləri örtür. Pul oğurlasan, onu halal hala sala bilməlisən, ana südündən də halal.

Axirət üçün də namaz, oruc və həcci pulla satın almaq mümkündür. Həm o dünyada, həm də bu dünyada işinə yarayar. Pulun çoxaldısa, Allah Evini ziyarət edə bilərsən. Hər yer sənin olacaq, hər kəs səndən çəkinəcək, hamının baş tacı olacaqsan, kimsə sözünün qabağına söz qoymayacaq. Pulu olan dediyim hər şeyə sahib olacaq, pulu olmayan əli ətəyində qalacaq. Qulağında sırğa elə, pul tapmaq asan, amma pulu qoruyub saxlamaq çətindir. Pul toplamağı bacarmalısan.

Mən saçımı dəyirmanda ağartmadım. Pulu istənilən üsulla tapmaq məqbuldur. Adamı adam yerinə qoydurur. Məndən sənə nəsihət! Söylədiyimə əməl eləsən, mühəndis zavodunda maşınları işə salmağın ilə öyünər, memar evini tikmək istəyər, şair səni mədh edər, acından ölən rəssam portretini çəkər, jurnalist, vəzir-vəkil, qısası, hamısı nökərin olar, tarixçi tərcümeyi-halını yazar, əxlaq carçısı səni camaata örnək verər. Bütün bu boynubüküklər pulun quludur.

Elm, savad niyə həyatda kara gəlmir, bilirsən? Çünki adamı pul sahibindən asılı, həyatını isə zay edir. Hələ həyatın nə olduğunu bilmirsən. Elə bilirsən ki, səhərdən axşama qədər çənəmi boş yerə yorub adamlarla dil-ağız oluram? Yox, bu, pulumu daha yaxşı qorumaq üçündü. Pul üstünə pul gələr, pulun aşa bilməyəcəyi divar yoxdur. Məsələn, səhər tezdən üzünü görmədiyim, harda olduğunu belə bilmədiyim on press pambıq alıram, axşam ikiqat qiymətə satıram!.."

Hacı bu nəsihətlərini tam səmimi deyirdi. Məsələn, gənclərə buyururdu: "Mən yaşlıyam, amma düşüncələrim gəncdir. Bacardığınız qədər həyatın dadını çıxarın... Mən də cavan olmuşam, ova getmişəm, qumar oynamışam, şərab içmişəm. Ancaq indi tövbə etmişəm, çünki gücüm-taqətim qalmayıb. Hər şeyin öz zamanı var. Ancaq bütün savadlılardan daha yenilikçi, daha mütərəqqi adamam. Başına Pəhləvi papağı qoyan ilk şəxs mənəm. Başına ilk şlyapa qoyan da. Axırı nə oldu... mənə təkfirçi[29] dedilər. Ağa, papaq adamın əqidəsini dəyişmir, insan elə yaradılıb ki, dünyadan zövq ala bilsin. Təkfirin özü həyat üçün gərəklidir. Sözümü dinləyin: həyatdan həzz alın ki, qocalıqda peşmançılıq çəkməyəsiz..."

Bir bəhai ilə yanaşı oturduqda, deyirdi: "Mən müsəlmanam, amma təəssübkeş deyiləm. Bilirəm ki, hər dövrün öz şərtləri var. Hələ dünyaya elə bir din gəlməyib ki, desin: zina və ya oğurluq edin, adam qətlə yetirin...

Bəli, bütün dinlərin eyni hökmləri var. Hər bir din zamanın şərtlərinə görə fərqlidir. Mən axundların hamısı ilə çəkişirəm. Məsəl var, deyir: "Molla bəyə qoşuldu, xalqın evi yıxıldı". Dünyada din pərdəsi altında nə qədər cinayət, qırğın, qarət törədilib və törədilir! Hələ də bu üsuldan istifadə edən bəs deyən qədər siyasətçi tanıyıram. Adbaad deyə bilərəm…

Nəysə, mətləbdən uzaqlaşmayaq. Məsələn, bu gün oğurluq edənin əli kəsilmir, yaxud qul bazarı yoxdur. Bunlar keçmiş əyyamda qaldı. İndi qanunun hakimiyyəti yaradılmalıdır. Məsələn, bir vaxtlar qız uşaqlarını diri-diri dəfn edirdilər, amma bu gün heç kim belə bir iş tutmaz. İndi qadınlar başlarına çadra örtmək istəmirlər. Amma mən bu yaşda-sində həmin

[29] – Küfrə yuvarlanan

məsələdə öncül ola bilmərəm, çünki qadın tayfasına çox yaxşı bələdəm. Nə qədər ki, başları çadralıdır, Xudaya min şükür!"

Məşrutə tərəfdarlarına Hacı ağa deyirdi: "Mən azadlıq mübarizəsinin ön sırasındaydım. Heç kim bunu inkar edə bilməz. Bilmirəm, Məclisin topa tutulmasını xatırlayırsızmı? Mən inqilabın əsgərlərindən biriydim. O gecə mərhum Seyyid Camal, qəbri nurla dolsun, məni evində gizlətdi. Kazaklar onun evinə basqın etdilər. Gecə başıma qara çadra keçirib qonşunun evindən qaçdım. Məni qadın sanan bir silaxorlu[30] yolumu kəsdi, qolumu elə çimdiklədi ki, ağrıdan bağırsaydım, tutulacaq və indiyədək yeddi kəfən çürüdəcəkdim, – deyə Hacı qəhqəhə çəkib gülərdi. – Sonra ürəyimi yeyə-yeyə sərhədə yetişdim və mühacirlərin arasına qarışdım. Mən qəzet nəşr elədim və min cür iş gördüm. Bəli, hər işdə fədakarlıq tələb olunur! İndi qocalmışıq, növbə siz cavanlarındır!"

Bir müstəbidlə qabaq-qənşər olduqda, Hacı ağa boşboğazlıq edərdi: "Qurban olum Şəhid Şah dövrünə! Qurban olum o zəmanəyə! Nə, Məşrutə! Məşrutə çıxaranın atasına lənət! Elə Məşrutəyə görə bu günə düşdük də!.. O dövrdə insanlar heç kimin əlinə baxmırdı... Hamının dədə-babası bilinirdi... İndi bütün oğurluqlar, hoqqabazlıqlar, oğraşlıqlar Məşrutə adı ilə icra edilir. Biz Məşrutənin nə olduğunu heç bilmirdik, bu hoqqaları əcnəbilər öyrətdi. Dini-imanı əlimizdən almaq üçün. Artıq hər şeyi bada vermişik. Nə din var, nə ayin. Heç kim heç kimə hesabat vermir. Böyük-kiçik də qalmayıb! Gizli polis təşkilatına ehtiyacımız var, yoxsa adamlar bir-birinin ətini yeyərlər. Bunu bilirdiz?

Bir nəfər dəmir yumruq kimi daim insanların başı üstə durmalıdır ki, bir-birinin ətini yeməsinlər. Əlbəttə, ölkənin dini-məzhəbi təməli var. Amma hər işi dinlə görmək mümkün deyil, o cür olsaydı, polisə, jandarmaya, ədliyyəyə nə hacət? Buna görə də, bir nəfər lazımdır ki, camaatın havasını alsın, qoy bir-birinin ətini yeməsinlər. Azadlıq o demək deyil ki, kimin ürəyindən nə keçir onu eləsin. Allah eşşək yaradıb, amma ona buynuz verməyib. Adamlar öz ayağı ilə falaqqa-çubuq payı almağa gəlir. Azadlıqla-mazadlıqla ölkə abad olmaz. Vaxt olub ki, bu evin qabağında camaatı sıraya düzüb şallaqlayardım. Amma indi ədliyyəyə, polisə şikayət edirsən, ciblərinə pul basırsan, dallarınca altı il sürünürsən, axırda da işi ört-basdır edirlər gedir..."

Arxeoloq qədim bir əsərin qarşısında necə ehtiramla dayanırsa, camaat da ucuzluq və zorbalıq dövründən qalma Hacı ağanın qənşərində heykəl kimi dik durub hörmət-izzətini saxlayırdı. Onu nüfuzlu adam sayaraq çəkinir, canına and içirdilər. Əksər vaxtlarda vəsiyyətnamələrini, ya da səfərə çıxarkən, arvad-uşaqlarını ona əmanət edirdilər. İnsanların nəzərində Hacı dürüst, mətin və abır-həyalı bir adam idi. Çox kərə arxasınca deyirdilər: "Ona Hacı ağa yox, mələk deyin!" Fəqət evinin əyalı, xüsusilə də qadınlar tam əksinə düşünürdü, ürəkləri kin-küdurətlə doluydu. Daima donquldanırdılar ki: "Əzrayıla canını verməz!", "Sudan yağ çəkər!", "Üzünə milçək qonsa, onu Petelporta[31] qədər qovar!", "Allah onu öldürsə də, meyiti başında kimsə qalmasa, kəfəni yırtıb meyitxanadan qaçar!", "İtə də tamah salar!", "Görüm cəhənnəm odunda yansın!" ...ilaxır.

Hətta Murad da bu söhbətlərə qatılırdı. Evdə Hacı ağaya "Qoca kaftar" ləqəbi vermişdilər.

Şəhrivər ayının 3-də baş verən hadisələr[32] Hacını yaman sarsıtdı. O, şələ-küləsini də toplayıb gecənin qaranlığında arvadları arasında ən çox şəkk-

[30] – Silaxor yaylası Luristanda yerləşir və lur etnik qrupunun yaşayış məskənidir.

[31] – Azərbaycanlıların "Fitilbörk" kimi tələffüz etdiyi, loru dildə Peterburq, yaxud Sankt-Peterburq şəhəri (Rusiya)

[32] – Rza şahın 1941-ci ildə hakimiyyətdən kənarlaşdırılması və İrandan sürgün olunması

şübhə etdiyi Münirlə İsfahana qaçdı. Çünki əmin idi ki, onu öldürəcəklər. Amma dəyirman çax-çuxu bitib-tükənən kimi, Hacı ilə birlikdə qaçan bütün oğrular, xainlər, casuslar, canilər qalibanə şəkildə Tehrana qayıtdılar.

Hacı ağa İsfahandakı şərikləri ilə haqq-hesabını çürütdükdən, öz təbirilə, "inəkləri tövləyə saldıqdan" sonra siyasi əqidəsini dəyişdi. Böyük zərərə düşsə də, maşını palçıqlı yolda əzilsə də, qarnının piyi 12 kilo ərisə də, o da məsləkdaşlarının tutduğu yolun ağına düşdü.

## *– 3 –*

İsfahandan qayıdandan sonra Hacı ağa nadir hallarda həyətdə göründü. Şübhə duyduğu məsələlərlə əlaqədar görüşlərə gedir və ya ticarət sövdələşmələri aparırdı. Pul qazanmanın yeni yolları Hacını məmnun edir və sevincək halda deyirdi: "Dədələrinə lənət, boş yerə bizi demokratiya ilə qorxutdular! Əgər demokratiya elə budursa, elə mən özüm ömrüm boyu demokrat olmuşam".

Ancaq Hacı ağanın görünüşü, rəftarı, ruh halı da dəyişdi. Siması aydın və ciddi idi, gözlərindən təlaş və narahatlıq oxunurdu, daha ürəkdən gülmürdü, əsəb saçırdı və məhrəmləri ilə daha pis davranırdı.

Bunun səbəblərindən biri ölkənin durumundakı qəfil dəyişiklik, məsləkdaşlarının xaricə qaçması, bəsirət gözü ilə İkinci Dünya müharibəsinin nəticələrini görə bilməməsi idi. İkincisi səbəb – Hacını cənginə alan yeni xəstəlik.

Hacını görməyə gələnləri tez-tez Murad qarşılayar və müxtəlif bəhanələrlə geri yollayardı. Yalnız müamilə və ya vacib bir iş olduqda, Hacı ağa, çətinliklə də olsa, çölə çıxır, həyətdəki yerində oturur, "yırtığa yamaq vurma məsələləri" ilə məşğul olub, cürbəcür işlərə əncam çəkir, bundan sonra otağına qayıdırdı.

O, ticari məsələlərin çoxunu telefonla həll edir, amma Hüccətüş-şəriə kimi mühüm adamlar təşrif gətirdikdə, onlarla otağında baş-başa qalıb, qabaqqənşər oturardu.

Bir müddət xəlvətcə güc-qüvvət dava-dərmanından istifadə etdikdən sonra, nəhayət, Hacı ağa həkimə müraciət etmək qərarına gəldi. Həkim dedi ki, bu mərəzin adı fissure-dir[33] və babasillə fistuladan fərqli bir şeydir. Çox ağrıverici olsa da, müalicəsi sadə və asandır, yəni heç bir təhlükə yoxdur, yalnız kiçik əməliyyata ehtiyac var. Amma Hacı əməliyyatdan, avropapərəst həkimlərdən və cərrahiyyə otağından, içində gəzdirdiyi qorxudan həkimin sözünə inanmadı. Buna görə də, alışa bilmədiyi ağrıya zor-bəla dözürdü. Ahnaləsi evi bürüyür, səbəbsiz-illətsiz arvadlarını danlayıb məzəmmət edir, onlara Bəni-İsrailə[34] deyilən iradlar bildirirdi.

Həlimə xanım ölən gündən Hacının gözündə əziz-girami olmuşdu, sağlamlığında onun başına açdıqlarını indi də o biri arvadlarının başına açırdı.

Naxoşluğu Hacının fəaliyyətindən heç nə əskiltməmişdi, yalnız hər cümləsindən sonra sözünə "ax"-"vay" əlavə edir, ağrının şiddətindən üzü əyilirdi.

Xüsusən Şəhrivər hadisələrindən sonra, Hacı ağa ciddi demokratiya tərəfdarı, Rza xan diktaturasının müxalifi və azadlıqsevərlərdən birinə çevrildi. Müttəfiqlərin[35] səfirliklərində, onların mədəni məclislərində mütəmadi görünür, gecə ziyafətlərinə frak geyinərək gedir, müttəfiqlərin zəfəri şərəfinə

---

[33] – "anal fissure", anal dəlikdə çat

[34] – Quranda Bəni-İsraildən şikayətlərə eyham vurulur.

[35] – Sovet İttifaqı, ABŞ və Böyük Britaniya koalisiyası

qədəh qaldırır, köhnə rejimə söyüş və lənət yağdırırdı: “Görün bu eşşəklər arasındakı maarif naziri də necə eşşək olub ki, əxlaq kitabının tərtibçiliyinə görə mənə qonorarı verdi, amma bir kərə soruşmadı ki, bəs kitab hanı?.. Belə bir sistem, əlbəttə, məhvə məhkum idi!”

Kimisə sancmaqdan və özünü haqlı çıxarmaqdan çəkinməyərək lağ edirdi: “O dövrdə adamlar canlarının və mallarının toxunulmazlığına əmin deyildi. Mazandarandakı əmlakımı bir qəpiklik etdilər, məni əlimdəki mal-mülk şəhadətnaməsi ilə Rza xanın ayağını öpməyə məcbur qoydular. Heç kimin cınqırını çıxarmağa belə cəsarəti çatmadı!” Yaxud deyirdi: “Mən bir çox korrupsiya hallarının qarşısını aldım. Siyasi oyunlara qatıldım. Günlərin bir günü xalq bunu başa düşəcək və Rza xanın yerinə, mənə qızıldan heykəl ucaldacaq. Yeganə günahım düzünü danışmağımdır. Niyə bu müddətdə işlərinə müdaxilə etmək üçün heç nə etmədim? Çünki vicdanım yol vermədi. Sizdən nə gizlədim, mənə də vəzir-vəkil məqamı təklif etdilər. Onların buyruq qulu və kuklası olmağımı istədilər, rədd elədim... dedim ki, yaşıma-başıma yaraşmaz. Əlbəttə, çörəksiz qala bilməzdim. Təqiyyə caizdir, əlimdən başqa nə gəlirdi ki?!”

Həm də Hacının ticari fəaliyyəti artmışdı. O, ölənlərin şəxsiyyət vəsiqələrini alıb, qənd-şəkər kuponları çap etdirir, torpaqlarını və məhsullarını yüz qat qiymətə satırdı. Əslində, hələ də şəhər polisi ilə gizli əlaqə saxlayır, komendant saatında keçid izni almadan maddi fayda qazanırdı. Amma eyni zamanda, fəqir-füqəraya mərhəmət göstərir, hamilə qadınlar üçün ianə yığırdı.

Ölkənin düşdüyü acınacaqlı durumu nəzərə alan Hacı ağa əvvəlcə Amerikaya qaçmaq fikrinə düşdü, hətta sərmayəsinin bir qismini oraya köçürdü. Amma sonra gördü ki, məsləkdaşları qürbətə qaçmaqdan vaz keçib, bütün əsas məqamları ələ keçirir və dəyişən yalnız budur: “demokratiya” sözü “diktatura” kəlməsini əvəzləyib, odur ki, köç fikrindən vaz keçdi.

Hacının dostları niyyətlərinə yetişməkdə axundbazlıq və xurafatdan faydalandı, əyalət tayfalarını silah-sursatla təchiz etdilər, onları Heydəri-Nemətı[36] davasına çıxardılar, xuliqanlıq, hədə-qorxu gəlmə və demaqoqluqdan belə çəkinmədilər. Əllərindən gələni əsirgəməməkdə yeganə məqsəd Məclisdə əksəriyyəti təmin etməklə, ərbablarının planlarının həyata keçməsini təmin eləmək idi.

Amma söz Sovet İttifaqından düşəndə, sanki Hacı ağaya anasının bic doğulan uşağından danışırdılar. İçində gəzdirdiyi köhnə kin oyanır, yalan xəbərlər uydurur və dilindən zəhər tökülürdü. Deyirdi: “Ölkənin yüksək maraqları bunu tələb edir!” Güman edirdi ki, şahənşah qoşunu Kərəc[37] körpüsünü məhv edərsə, deməli, sovet ordusu səddi adlaya bilməyib orada qalacaq. Müzəffər ordunun belə bir şeyi etməməsi, Hacının zənnincə, bağışlanmaz səhv idi.

On dördüncü çağırış seçkiləri yaxınlaşdıqca Hacı ağa coşqun siyasi və iqtisadi fəaliyyətə qatılırdı. Ən qəribə olan bu idi ki, baş nazir həvəsini millət vəkilliyi ilə dəyişmişdi. Səhərdən axşama qədər qəzetçi, bazar əhli, qoca axundlar və demokratiyadan törəyən mollalarla danışıqlar aparır, bəyanatlar və tapşırıqlar verirdi. Hətta deputat seçilmək üçün bir yol tapıb yaşını belə qanuni şəkildə azaltmışdı. Deyirdi: “Başqa nə çarə qalır!? Ölkənin maraqları təhlükədədir!”

[36] – Tayfalararası dava

[37] – Tehran yaxınlığında şəhər

Yenə də evin həyətində məclislər qururdu. Ağrısına az-çox alışdığı yeni mərəzinə və taqətsizliyinə baxmayaraq, yəhudi ravvinlərinin papağına oxşar dəri külahla çöldə oturur və işləri yoluna qoyurdu.

Hacı ağanın xəstəliyi daha da ağırlaşır, Avropa dərmanlarından qorxsa da, ağrıları azaltmaq üçün özünə "Donaltin" iynəsi vurdururdu. Axırda xəstəxanaya getməyə və kiçik əməliyyata belə razı oldu. İş-gücü o qədər çoxdu ki, hətta əməliyyatdan bir gün əvvəl Hüccətüş-şəriə ağanın köməyi ilə vəsiyyətnaməsini yazaraq, onu səhm və mal-mülk sənədlərinin də saxlanıldığı sandığa qoydu.

Bir gün sübh tezdən Murad qoluna girdi, şalvarının çiyinbağısı arxadan sallana-sallana həyətdəki döşəkcənin üstündə oturdu (Hacı həmişə malının əndişəsində olduğundan, şalvarını qaçaraq geyinmək üçün çiyinbağını həmişə jiletinin altında saxlayırdı).

O səhər üzü qar kimi ağappaq idi, əsasına dayaqlanmışdı, arada-bərədə alnının tərini silirdi.

Hacı bir yandan, təsbeh çevirir, o biri yandan da, başını yırğalayırdı.

– Uy, uy, uy... vuy, vuy, vuy!

Murad, əlləri sinəsində, onun qarşısında dayanmışdı.

– Qurban, fikir eləmə, inşallah, mərəz keçib-gedər...

– Bu xəstəliyin qorxusu ürəyimin yağını əritdi. Bu gün aynaya baxdım, özümü tanımadım.

– Ağa, ahın dağlara! Xəstəlik çox pis şeydir, adamı üzüb-bitirir.

– Murad, nə vaxtdır o biri dünya haqqında düşünürəm... Bilmirəm niyə. Adam qocaldıqca taqəti azalır... Ox, oxx... Murad, mən belə tez ölmək istəmirəm. Uşaqlarım yetim və yiyəsiz qalmasın... Hələ ki vücuduma bu məmləkətin ehtiyacı var.

– Maşallah, "Cehel-sütun"[38] kimisiz.

– Heç bilirsən canım necə ağrıyır... Əgər günahlarım bir ağacın yarpaqları qədərdirsə, deməli, əfv olunmuşam. Ha düşünürəm, ömrüm boyu bir günah iş görməyim yadıma gəlmir. Nə araq içdim, nə də qumarbaz oldum. Hə, əgər bircə dəfə şeytan cildimə giribsə, o da əyləncə üçün olub. Ailəm üçün pis nümunə olmayım deyə. Elə olmasaydı, niyə "Allah bağışlayan və mehribandır" deyirlər? Mən həmişə insanların işinə əncam çəkdim, əlimdən gələni əsirgəmədim. Axı niyə bu dərdə mübtəla olmalıyam? Of... off... Hə, əgər bizdən pis bir münasibət görmüsənsə, haqqını halal et... ox... oxx!

– İxtiyar sahibisiz, Hacı ağa. Canım-qanım sizə qurban!

– Fikirləşəndə ki, sabah bu Allah tanımaz ağ paltarlı həkimlərdən biri əlindəki bıçaqla məni taxta sərəcək, tüklərim biz-biz durur. Murad, təsəvvür edə bilməzsən... Mərhum atamı da bu həkimlər öldürdü... ox... oxx!..

– İnşallah, yaxşı olar.

– Xeyr, bu işin zarafatı yoxdur. Bıçaqla ətin dostluğu olmaz... Mənə iynə vurulandan sonra bihuş olacam, sonra bıçağı bədənimə batıracaqlar... ox... oxx... oxxx... Heç "ox" demək imkanım olmayacaq... Sonra? Məsələn, bədənimlə heç bir əlaqəm olmayacaq... Hissiz və hərəkətsiz bədən. Mən onu tanımayacam, amma ruhum hər şeyi görəcək, hər şeyi anlayacaq!... Off ... offf! Bütün xatirələrim, bütün həyatım bu bədənimdə cəmlənib. Bədənimi duymayacağamsa, vay halıma! Ondan sonra mənim üçün dəyərli nə qalır? Yalnız həsrət! Əstəğfirullah! Bədənimdən ayrıldıqdan sonra gözəl-göyçək qadınlara, bu dünyanın bütün ləziz qidalarına həsrətlə tamaşa eləmək

[38] – "Qırx sütun" – II Şah Abbasın İsfahanda tikdirdiyi möhtəşəm saray

istəmirəm! Onda bu qədər zəhmətin, əziyyətin faydası nədir? Başa düşürsən, Murad? Yox, yox... ölmək istəmirəm.

– Ağa, Allah göstərməsin! Niyə pis-pis şeylər danışırsız?

Hacı dama-dama yaylığı ilə burnunu sildi.

– Ax... vay... Bu gecə gözümə yuxu getmədi... Həkim iynə vurub gedəndən sonra iki dəqiqə yata bilmədim... Heç bilirsən yuxuda nə gördüm? Allah rəhmət eləsin, Həlimə xanım evimdə çox əzab-əziyyət çəkdi... Üç dəfə imamzadə Davudun ziyarətinə getmək istədi, icazə vermədim. Yadındadır, həmin gün əynindəki yeni səmənqur[39] paltarını cırıb tikə-tikə elədim? Bir kişmiri canamazı vardı... ah... vay, vay... Biçarə canım! Allah bütün bəndələrinin günahlarını bağışlasın! Üçüncü dəfədir ki, onu yuxuda görürəm.

– Allah xeyrə calasın!

– Yuxudur da, yalan olmaz. Allah rəhmət eləsin, nazənin qadın idi! Üstünə nə qədər daimi və siğəli arvad gətirdim, bircə kərə də üzümə ağ olmadı. Bütün günahlar Hüccətüş-şəriədədir, məni vəsvəsəyə saldı... İnsan çiy süd əmib, unutqandır. Kaş sən də bu cür yuxular görəydin. Böyük, yamyaşıl bir bağda oturmuşdu, təsəvvürünə gətirirsən, Murad? Elə gözəl-göyçək idi, on dörd günlük Ay kimi! Məni görən tək gəlib əlimi maç elədi. Dedi: "Hacı ağa, xoş gəlmisən, səfa gətirmisən! Əgər mən..."

Qapı açıldı. Əyin-başı tərtəmiz, gül qoxuyan, şıq libaslı, boynuyoğun, irigöz, parlaq qara saçlı növcavan, papağı əlində, həyətə girdi və Hacı ağaya salam verdi. Hacı da onu salamını alıb içəri dəvət elədi. Gələnə diqqətlə baxdıqda, Möhtərəmin əmisi oğlu Gülübülbül olduğunu gördü. Geyim-keciminde qeyri-adi dəyişiklik vardı... Çünki bir ildir ki, yaxası-paçası açıq, saçları daranmamış, üzü-saqqalı təraş olunmamış, ütüsüz şalvar və kirli ayaqqabı ilə Hacı ağanın evinə gəlib-gedən şəxs indi tam başqa bir adam olmuşdu, rəftarı, ədası ilə ağazadəyə oxşayırdı. O, ədəb-nəzakətlə gəlib Hacının yanında oturdu, Murad da evə keçib gözdən itdi.

– Yallah, ağayi Gülübülbül! Aya-günə dönmüsüz, haçandır sizi görmürəm... Elə dəyişmisiz ki, sizi heç tanımadım... Sizi az qala göydə axtarırdım, yerdə tapdım... ox, oxx...

– Bir neçə dəfə gəldim, amma təəssüf ki, sizi görə bilmədim.

– Ox, oxx... Mən kin-küdurətin yaranmasından qorxdum. Bir ildir ki sizi görmürəm... Möhtərəmin də sizdən heç bir xəbəri yoxudu... Fikirləşdim, Allah göstərməsin, naxoşlamısız və ya başqa bir şey olub... Mənim də halımı-təhərimi görürsüz... ox!

– Allah şəfa versin!

– Bəli, xəstəxanalıq oldum... Əlimdən başqa nə gəlir ki?... Ox, oxx... Siz daha yaxşı bilirsiz, bu kişi qırığı var a, Muradı deyirəm, daha bilmir nə desin, nə danışsın, qorxurdum ki, ağzından artıq-əksik söz qaçırar... Nə bilim, eşitdiyimə görə, xanımlara deyibmiş ki, üst-başları açıq olduğu halda, bixəbər içəri girirsiz, filan-peşman... Oğlumun yerindəsiz, belə şeylərdən camaat arasında söz-söhbət çıxar, ya da Murad ağzını el yolunda qoyar.

– Heç vaxt! Bu nə sözdür?! Demək olar ki, bir ildir siz zat-alinin oğlu, Kiçik ağanın sayəsində sarayda mexanik işinə düzəlmişəm. İşimin çoxluğundan xidmətinizdə dura bilməmişəm. Bu gün ilk fürsətdir...

– Əcəb işdi! Heç bilmirdim ki, mexanikadan başınız çıxır.

– Avtomobil sahəsində.

– Bəh-bəh, nə yaxşı! Deməli, orada işləyirsiniz, hə? Heç bilmirdim... Təbrik edirəm. Yaxşı gələcəyiniz var... İndi Kiçik ağanın adını dilimə ala

[39] – Nazik çit növü

bilmərəm. Sağ-salamadırsa, bəsimdir. Dünən borclu olduğu adamlardan biri evimə gəlmişdi, məni rüsvay eləyib getdi. Naxoşam, demək olar ki, ölmək üzrəyəm, sabah xəstəxanaya gedirəm. Onun ayağına getmək, üzünü görmək öhdəliyim yoxdur... ox... oxx...

– Çox təəssüf, üzüldüm. Mən sizə and içə bilərəm ki, Kiçik ağa siz zat-alinin xəstəliyindən xəbərsizdir, yoxsa əlinizi öpmək üçün mütləq gələrdi. İndi iş-gücü başından aşır. Bir kərə siyasi pasportla Misirə gedib-gəldi. Özünüz bilirsiniz, o, ali hakimiyyətin etibarını qazanıb. Mənim də işim çoxdur. Şəxsi məsələləri həll eləmək üçün üçgünlük icazə almışam. Sizin üçün çox darıxdığımdan elə ilk fürsətdə yanınıza gəldim, niyyətim birinci növbədə xidmətinizdə durmaq idi... Həm də kiçik bir ricam var. İcazə verirsizsə...

Hacı ciddi şəkildə qulaqlarını şəkləyib:

– Buyurun, xahiş edirəm, – dedi.

Gülübülbül ehtiram və ədəblə:

– Mənə təcili, iki aylığa beş yüz tümən pul lazımdır, – dedi. – Bir dostumdan almaq istədim, amma təəssüf ki, indi səfərdədir. Buna görə də, əgər mümkündürsə, siz zat-alidən almaq istəyirəm... Sizə ömrümün sonunadək minnətdar olaram.

Hacı fikrə getdi, sonra:

– Ox... oxx... Allah şahiddir ki, indi o qədər pulum yoxdur, əlim aşağıdır. Sabah xəstəxanaya getməliyəm, heç bilmirəm həkimin, dava-dərmanın pulunu haradan tapacam... ox... oxx... Biri günə qədər səbr eləyin, bəlkə mümkün oldu.

– Zərər yoxdur, gözləyərəm.

– Bəli, söz aramızda qalsın, indi pula böyük ehtiyacım var, iflasnaməmi verə bilmərəm... Heç kim bu dünyayla daimi əhdnamə bağlamayıb. Əməliyyat masasında qalmaqdan qorxuram... əcəl qabaqcadan “gəlirəm” demir. Mən də vilayətdən təşrif gətirən təzə-tər tacirlərin birindən min tümən borc aldım ki, yaramı sağaldam. Madam ki sizin də pula ehtiyacınız var... ölməsəm, sağ qalsam... o tacirdən min beş yüz tümən də sizin üçün borc alaram... amma bir şərtlə...

– Buyurun, deyin.

– Tacir tayfası bədgüman olur, bığından bir tük qopara bilməzsən. Sənədsiz, vəsiqəsiz heç kəsə borc verməz. Bədbəxtlikdən hərəkət edə bilmirəm, yoxsa elə dəyərli adamlar var ki... sabah kim ölə, kim qala?! Hər halda, canımı Əzrailin əlindən geri ala bilsəm!..

O tacir mənə yaxşı bələd deyil. Özünüz də yaxşı bilirsiz, adamlar pulunu, arvad-uşağını mənə əmanət eləyir. Amma birisi gün saat 10-da o tacirlə qabaq-qənşər olacam. İnşallah, heç kim də əmanətini mənə etibar etməyə gəlməyəcək. Birisi gün saat 10-da bizə gələrsiz. Murad yetim-yesirin mənə əmanət verilmiş bir miqdar pulunu və cəvahiratını bağlama halında qabaqcadan sizə verəcək. Həyətə girincə, həmin bağlamanı o tacirin yanında mənə verərsiz. Pulu saymadan deyərsiz: “Hacı ağa, bütün mal-dövlətimi sizə əmanət edirəm, səfərdən dönən kimi əlinizi öpməyə gələrəm. İndi uşaqları da yanınıza göndərməyə gedirəm”. Mən nə qədər “Canım-gözüm, tələsməyin, gəlin, qəbz verim”, – deyə israr eləsəm də, “Ehtiyac yoxdur, Allah sizi başımız üstdən əskik etməsin!” - deyəcəksiz. Bu işi məharətlə yerinə yetirsəz, əminəm ki, müamilə baş tutacaq və elə həmin günün axşamı sizə beş yüz türnəni verərəm... Off..off...

Hacı ağanı azdan-çoxdan tanıyan Gülübülbül onun bu dərəcədə kasadlığına çox təəccübləndi, amma əlacı kəsildiyindən, təklifi qəbul elədi.

Elə bu dəm qapı açıldı, ucaboy, kosasaqqal, başına araqçın qoymuş və üçhaçalı libas geyinmiş, bayquşa oxşayan bir kişi yanındakı donqar və saqqallı, bazar adamına oxşar gənclə içəri keçib hörmət-izzətlə təzim elədi.

Hacı onların salamını alıb Gülübülbüllə sağollaşdı:

– Biri gün saat 10-da gələrsiz.

Sonra ucaboy, kosasaqqal adama üz tutdu.

– Ağayi Mixçiyan, bura buyurun, – Gülübülbülün yerini ona göstərdi. – Ağayi Zaməsqei... xahiş edirəm, siz də buyurun... ox... oxx...

Gülübülbül təzim edib çölə çıxdı. Mixçiyan Hacının yanında oturub təlaşla soruşdu:

– Allah xeyrə calasın, Hacı ağa, üzünüz niyə qar kimi ağappaqdır?

– Eh... bu, heç bir kitaba yazılmamış xəstəlikdəndir... bilmirəm sifilisdir, süzənəkdir, ya nədir. Hətta ən pisi odur ki, həkimlər də nə olduğunu bilmirlər. Dəlləkliyi mənim başımda öyrənmək istəyirlər... Allah heç bir bəndəsini bu hala salmasın! Bu yaşacan belə bir dərdə düşməyim əsla yadıma gəlmir. Dədəmin goru haqqı!.. Murad! Taxçadan dərman qutusunu gətir, bir qurtum da su ver. Qəlyanı da unutma.

Artırmada görünən Murad yenidən içəri keçdi.

Sonra Hacı ağa Mixçiyana xitabən dedi:

– Ağa, heç bir faydası yoxdur. Elə ki iynəni vururlar, bir az ağrım azalır, keyiyirəm, sonra köhnə hamam, köhnə tas.

– Xəstəliyiniz hələ də sağalmayıb? Mən Xəndək yanındakı bazarda bir əczaçı tanıyıram, mum və ya məlhəm kimi şeylər verir.

– Bilirəm kimi deyirsiz, Qənbərəli. Bütün dərmanlarından istifadə elədim, faydası olmadı. Bu, yeni xəstəlikdir, sabah xəstəxanaya gedirəm, cərrahiyyə əməliyyatı üçün. Canım boğazıma gəlib, cəhənnəmə ki, nə olar, olar! Dünyadır da, əgər yanınızda bir xətam olubsa, haqqınızı halal eləyin.

– Bu nə sözdür, Hacı ağa, ixtiyar sahibisiz, Allah göstərməsin!

Qapı açıldı, üst-başından cin ürkən, yırtıq papaqlı və gözləri maraqdan bərəlmiş bir adam içəri girdi; papağını çıxarıb salam verdi. Alnının yuxarısı daz, saçları çal və çirkli, üzü solğun idi.

Hacı:

– Salamun əleykum, ağayi Münadilhəqq, buyurun, – deyib yeni gələnə qabaq-qənşər oturmağı təklif elədi. – Ağayi Mixçiyan, müasir gənc, həssas şair olan Münadilhəqqi tanımırsız?

Mixçiyan şairə etinasızcasına bir tərif söylədi. Münadilhəqq bir müddət məlul çöhrə aldı, sonra gedib döşəkcə üstündə əyləşdi. Mixçiyan həyətə göz gəzdirib dedi:

– Təəssüf. Sizi narahat edərəmsə, icazənizi istəyim?

– Xeyr, əksinə, başımı bir işə qarışdıranda ağrını da az hiss eləyirəm. Əslində, əhəmiyyəti yoxdur, onsuz da canımı dişimə sıxmışam, müqəddəs vəzifəmi icra edirəm, bütün həyatımı vəzifə başında keçirmişəm. Son nəfəsimə qədər də bu vəzifəmi icra eləmək istəyirəm... Hə, bazarda vəziyyət necədir?

– Pis deyil, alış-veriş artır.

– Ürəyinizi sıxmayın, qiymətlər daha düşən deyil. Eşitdiyimə görə, Amerikadan torba-torba corab ipliyi satın alırlar. Sizcə, corabın qiyməti düşəcək?

– Fələstindən, Amerikadan ucuz qiymətə corab idxal olunur. İranda corab baha qiymətə satıldığından, onlar da baha satırlar.

Hacı bərkdən səs çıxararaq yaylığı ilə burnunu sildi.

– Bu, rəqabətə görədir. Bazardakı malları dəyərdən düşürmək istəyirlər. Hətta Sovet İttifaqından da mal gətirirlər. Amma məgər bir-iki yük maşını ilə ölkənin tələb-təklifi dəyişəndir? İki gün sonra əlli min polşalı gəlir. Etibarlı mənbələrdən xəbər almışam. Onların çörəyini, suyunu kim verəcək?..

Mixçiyan:

– Təkcə corabla iş bitmir. Bu gün rezin satışı daha sərfəlidir.

Hacı göz vurdu:

– Yeni bir işdirsə, mən də şərik oluram.

– Qoy bir söz deyim, siz də gülün. Dünən ədliyyəyə getmişdim, ağayi Kerçəklu ilə görüşdüm. Əlində özünün vəfat etməsi haqqında Dəfn İdarəsinin möhürü və imzası ilə təsdiqlənmiş sənəd vardı.

Hacı gülmək istədi, amma gülə bilmədi.

– Səkkizinci dəfədir ki, ağayi Kerçəklu ölümünü təsdiqlədir!

– Onu da tanıyırsız?

– Əlbəttə, yanımda xətir-hörməti var. Ağa, mən ömrümdə belə zirək və ağıllı adamı az görmüşəm. Hər dəfə rezin qaçaqmalçılığı qovluğu açılan kimi, adətən, bir az pulla saqqal altından keçir, ardınca Dəfn İdarəsindən 100 tümənə öz ölümü barədə şəhadətnamə alır. Ədliyyə üçün də 100 tümən ayırıb işi bağlatdırır. İndiyə qədər təxminən 8 dəfə cinayət işini açıb-bağlayıblar. Sabah yenə "dirilib" köhnə məşğuliyyətini davam etdirəcək.

Məsələ tamam-kamal faş olandan sonra Mixçiyan istehzayla güldü. Lakin Zaməsqei ciddi görkəmini pozmadı.

Mixçiyan Hacının tüpürcəyini üzündən siləndən sonra:

– Sizi narahat etməyimin səbəbi telefonla dediyim on səkkiz yeşik mıx məsələsidir. Deyilən qiymətə istəsəniz, işi tamamlayaq.

– Ağayi Mixçiyan, lütf edin, halımı ki görürsüz. Ancaq mən istənilən halda, sözümün ağasıyam.

– Başınıza and olsun, bu günə qədər on müştərinin təklifini rədd eləmişəm. Xətir-hörmətinizə görə heç kimə vəd vermək istəmədim. Digər tərəfdən, 70 yeşik natrium sulfat var.

– Telefonda dediyiniz on iki yeşik? Ox... oxx...

Bəri tərəfdə oturan Zaməsqei dilləndi:

– Srağagün telefonla mənfi cavab verdikdən sonra on iki yeşiyi mən aldım, bugünkü qiymətlə satsam, səkkiz qat xeyir götürərəm. Bu gün Hacı Kazımın həyətində Almaniyanın "Bayer" firmasının altı yeşik difteriya serumu[40] satılacaq. Yeşiklərin biri islandığından içindəki mal korlanıb, amma o birilər yaxşı haldadır. İstəsəniz, sizi də müamiləyə əlavə edərik.

Hacı bir az incik və pərişan halda:

– Ağayi Zaməsqei, lütf və mərhəmətinizə sığınıram. Bilirsiniz ki, bu pul yetim uşaqlarındır, onların pulundan istifadə edə bilmərəm. Amma ətrafında təvaf etdiyim Qara Daşa[41] and olsun ki, dediyiniz qiymətə razılaşsam, zərərə düşərəm.

– Əziz canınıza and olsun ki, siz zati-aliyə olan xətir-hörmətimdən işi xeyrinizə həll etməyə çalışacağam. Dünən məxsusi ağayi Bəyatüt-tüccarla söhbət eləmişəm, onu razı salmışam.

Hacı:

– Təşəkkür edirəm, – dedi və üzünü Mixçiyana tutdu: – İki həftə əvvəl Şotor Hüseynin israrı ilə bir sövdəyə girdim... of... off... 2 sandıq mum aldım. Mərhum Həlimə xanımın pulu olduğundan ölüyə borclu qalmaq istəmirəm.

[40] – Difteriya əleyhinə zərdab

[41] – Kəbədəki həcərül-əsvəd

İndi qiymətin artıb-artmadığını bilmək istəyirəm. Deyirlər, yatalaq epidemiyası yayılıb. Camaat təmizliyinə diqqət etməlidir. Əlbəttə, dövlət də tədbirli olmalıdır.

– Mən tam əzmlə bu məsələni araşdırar və sizə xəbər verərəm.

Murad qəlyan və bir stəkan su ilə peyda oldu. Hacı şüşədən bir həb çıxarıb uddu. Dərmanı içəndən sonra üzünü büzüşdürdü və həb şüşəsini Murada qaytardı. Sonra qəlyanı Mixçiyana uzatdı, o da müştüyü ağzına alıb qullab vurdu.

Hacı:

– Ağayi Mixçiyan, 70 yeşik natrium sulfatla əlaqədar əvvəlcə Mirzə Təqini görməliyəm, sonra telefonla xəbərdar edərəm. Dolların məzənnəsi indi nə qədərdir?.. Of...off...

– Dünəndən bəri dollar 5 şahı 2 "pul" məzənnə itirib, amma bu müvəqqətidir. Sizə dollar almağı məsləhət görürəm. Çünki əcnəbi əsgərlər indiyədək xeyli dollar xərcləyib, ancaq birdən-birə valyuta məsrəfini kəsiblər. Eşitdiyimə görə, onlara bizim əskinasları verirlər. Amma lirənin dəyəri itib... vəziyyəti heç yaxşı deyil. Tövsiyə etmirəm. Çünki bu müharibənin sonu bilinmir, xəmiri hələ çox su aparacaq.

Hacı yerində qurcalanıb başını yellədi.

– Ox... ox... uyy... Ağayi Mixçiyan, etibarlı mənbələrdən aldığım xəbərə görə, pulumuzun məzənnəsi axsayır... Dəyərini bankın ehtiyatları hesabına qorumağa çalışırlar. Bir adam tapılmır ki, məmləkətin xəzinəsini təftiş eləsin... hamı kafir olub getdi. Təyyarəylə torba-torba əskinas gətirirlər, dövriyyəyə buraxırlar. Belə getsə, müttəfiqlər samovarlarına da əskinaslarımızla od vuracaqlar!..

– Bizim üçün nə fərqi var?! Əskinasımız ki yoxdur. Onsuz da Rza şahın dövründə bank balansı dörd dəfə dəyişib.

– Ölkənin varını-yoxunu mənimsəyən Böyük Öndər səltənətin cəvahiratını da oğurladı, əntiq əşyalarını da özüylə apardı, xalqın əlində isə onun lənətə gəlmiş rəngli fotolarından başqa heç nə qalmadı... Bir adam tapılmadı ki, ondan soruşa: "Ay oğraş, pulumuzu hara aparırsan?" Çünki ölkədə qalanların hamısı onun oğru yoldaşları və tərəfdaşlarıdır.

– Zahiri işgüzarlıq nümayiş etdirir və ondan çəkinirdilər.

– Bəyəm bunun günahkarı Həsənin nənəsidir? Bizi bu hala gətirən məhz onlardır. Səhv etməyin, Rza xan qalsaydı, vəziyyət daha betər olardı. Həm də, indi yuxarı başda olanlar məgər ona quyruq bulayanlar deyil?

Uzaqda axtarmayın, onun ustadları burada qalıb. Özü yadlara alət olan təlxək, onları belinə çıxaran hambal idi. Son dəqiqəyə qədər yükünü camaatın kürəyində saxlamağa çalışdı. Tuluğunu doldurdu, xalqın bığına-saqqalına lağ edib, axırda qürbətdə gəbərdi. İndi onun zatıqırıq əsl-nəcabətindən, yeddi arxa dönənindən olanlar bu yoxsul millətin puluyla dünyanın dörd bir tərəfində at oynadıb kef çəkəcəklər...

Əlbəttə, o vaxtın aşıq havası ayrı, indiki ayrı. Rza şah indi burada olsaydı, lənətə gəlmiş demokratiya tərəfdarlarının kökünü kəsərdi və millətin bədbəxtliyinə baxıb ürəyi qan ağlayardı. Millətə oğurluq yolunu göstərən o idi... ox... oxx...

– Amma gördüyü abadlıq işləri, ordunu nizama salması inkaredilməzdir. Məncə, bu, əcnəbilərin siyasətidir, öz naqis işləri ilə bütün nailiyyətlərimizi məhv etmək istəyirlər...

– Nə? Fikirləşirsiz ki, bütün bunlar xalqın rifahı və məmləkətin abadlığı xatirinədir? Yuxarıdakılar yeni oğurluq yolu icad edib, indi də icrasına

başlayıblar. Qalanları da ərbablarından göstəriş alır, çünki özləri nə edəcəklərini bilmirlər. Hətta istəsələr belə, edə bilməzlər.

Çox demirəm, qoy hələ bu müttəfiq qoşunları Tehranın darvazasından çıxsınlar, görəcəksiz, onda 3 Şəhrivərdə iştirak etmiş zabitlər özləri üçün yeni Rza xanı necə düzəldəcəklər. Ancaq general Allahverdi xan kimi adamlar belə dövrlərdə p.. yemiş turaca dönür. Bir soğana görə baş kəsən bu həriflər cavanlarımıza nə örnək olacaq? Gedin, baxın özlərinə necə dəm-dəstgah qurublar, o qədər pul yığıblar ki, ciblərindən çölə tökülür. Amma dünənə qədər qəpiyə güllə atırdılar. Bir ovuc əsl-nəcabəti bilinməyən bic, oğru dilbir olaraq bizi bu zillətə salıb!

Möhtərəm müttəfiqlər, Allah atalarına rəhmət eləsin, bizimlə yaxşı davranırlar, amma xalq nə istəyir? Su və çörək.

Hacı ağa cib yaylığını çıxarıb burnunu bərkdən sildi.

– Vətənimizin maraqları baxımından demək istəyirdim...

Çənəsi qızışmış Hacı ağa Mixçiyana cümləsinin ardını uddurdu:

– Mən sözü düz üzə deyənəm. Elə buna görə də, zəmanədən geri qalmışam. Vətən sizin üçün daş və torpaqdan ibarətdir, amma əvvəlcə adamlara nicat verməliyik... Hə, həmişə sözü düz üzə demişəm, heç kimdən asılacağım yoxdur və olmayıb.

Pir mənimdir, kəramətinə bələdəm! Nə zəri, nə də zoru olmayan birini hakimiyyətə gətirib, var-yoxlarını əlinə verdilər, bir dəstə mütrüb də ətrafında rəqs edib əl çaldı, dalını yalayıb axırda bizi bu hala saldı!

Kəyumərsin ölmüşü üçün, Rza xan bir neçə dəfə məni yanına çağırıb nazir vəzifəsi təklif elədi, boyun qaçırdım. Çünki nəticəsini bilirdim. Mənim də özümə görə hesab-kitabım var. Düz deyirlər ki, xalqın gözü tərəzidir. O daha neyləmədi, adamların canını boğaza yığıb evlərini xaraba qoydu, Mazandarandakı mülkümü qəsb elədi, amma dəmiryolunu guya mənim, ya sizin üçün çəkdi? Camaatın puluyla çəkdi. Amma ərbabının göstərişi ilə. Məgər nəticəsini görmədiz?

Axı mən siyasətin içindəyəm, bilirəm su hara axır... ox... oxx... Millət din, namus və var-yoxunu itirib... Yəni bizdən sonra oğul-uşağımız bu torpaqda yaşamayacaq?..

Allah rəhmət eləsin, Şəhid Şahın dövründə neft gəlirləri yox idi, lakin insanlar daha yaxşı yaşayırdılar. Bu dahi isə həmişə öz ovlağında, toyuq hinində ova çıxırdı. Əyalətlərin qəbilələrini silahsızlaşdırıb güllələbaran elədi. Amma niyə Ağrı dağını nümayişkaranə tərzdə əldən verdi? Niyə Əfqanıstanla sərhəd ixtilafı çıxanda, masqaralıq oldu? Niyə Fərat çayında gəmiçilik məsələsi peyda olduqda, ağzına su aldı? Niyə Bəhreyn adasını geri ala bilmədi? Çünki yağ-bal içində yaşayan müştəbeh idi. Amma bu günəcən bir maddəsi belə icra olunmamış neft müqaviləsinin qüvvəyə minmə tarixi gəlincə, bayram-seyran düzəldib xalqı meymun kimi oynatdı!..

Ordumuz yoxdur, halbuki, iddia edirdik ki, qoşunumuz var. Orduya sahib çıxmağı düşünürdük. Təntənə ilə təlimlər keçirəndə, zabitlərimizin acından üç gün-üç gecə qarnı quruldadı. Hələ bu gedişlə cahan müharibəsində azuqə yardımı etmək istəyirdi?

Şəhrivərin 3-də öz gözlərimlə gördüm ki, Şah Əbdüləzim məqbərəsinin darvazası yanında dövlətin bir tankçısı avtomobil sahiblərinə benzin satır. Canımızı və malımızı beləlari qoruyacaqdı? Yox, ordumuz satqınlar yığınıdır, hər an təpəmizdə oturmağa hazırdırlar. İxtiyar verilsə, qabaqlarına çıxan hər kəsi çapıb-talayar, qırıb-biçərlər. Budur ordumuz?.. Yaxud xain, casus millət vəkilləri sizin təmsilçinizdir?

– Hacı ağa, düzü, eşitdim millət vəkilliyinə namizədliyinizi irəli sürürsüz...
– Bəli, ağa... xalqın, millətin israrlı təkidi ilə...
– Əlli min, diqqət yetirin, beş səs demirəm a, əlli min seçici səsi məndən. Həqiqətən, əgər millət vəkilliyi təklifini qəbul etsəniz... ki, bizim üçün qürur mənbəyidir... millətə çox fayda gətirər... Bizim də Məclisdə belə bir təmsilçiyə ehtiyacımız var.
– Allah müvəffəq eləsin... Sizə dünyalar qədər minnətdaram. Rəfiqlərimin mənə göstərdiyi diqqətə görə yerdən göyədək razıyam. Sizə lazımınca təşəkkür etməkçün söz tapmıram... ox... oxx... Hələ ki yaxşıyam... Deyin görək, bazarda davadan nə danışırlar?
Mixçiyan qüssəli çöhrə aldı:
– Eşitdiyimə görə, ruslar almanların irəliləyişinə sədd çəkib.
Hacı gülmək istədi, amma gülə bilmədi.
– Bir filmdə görmüşəm, alman qoşunu polad kimidir. Məgər kimsə cəbhədə olanların qabağını kəsə bilər? “Allahın bəndəsilə öcəşmə, çünki bəndəni Allah xəlq edib!” Əksinə, almanlar o qədər rus öldürüblər ki, axırda özləri rəhmə gəliblər. Bütün təqsir Stalindədir. Avtomatı əlinə alıb, əhalisini qoyun sürüsü kimi qabağına qatıb, topun-tüfəngin qarşısına göndərdi.
Rusiyada artıq adam qalmayıb, hamısı qırılıb tələf olublar. Hə, almanlar müsəlmandır, ürəklərində rəhm var. Özləri deyir ki: “Niyə bu qədər biçarəni öldürək? Allaha xoş getməz...” – Hacı ağzının suyunu uddu. – Dünən Səlmasdan[42] bir qonağım vardı. Dedi: “İki həftə əvvəl alman təyyarələri şəhərin üzərində uçurdu. Sonra insanlar təyyarədən evlərinə sarı atılan qanadlı qutuları[43] görüblər. Əvvəl qorxublar ki, birdən bomba olar. Amma qutuları açanda içində nə görsələr yaxşıdır? Ağızda əriyən ciyər və qarın qovurması konservləri. Bizim konservlərdən yox ha... hamısı təmiz və ləziz. Qutuların üstündə də yazılıbmış: “Yaşasın İran! Bütün varlığım İrana bağlıdır! Sizə layiq olmayacaq bu kiçik hədiyyəni əziz iranlılara təqdim edirəm”. İmza: Hitler.
Mən o qutunu görmüşəm. Hitler İrana olan məxsusi marağına görə düşmənlərimizi ölkəmizdən püskürtmək istəyir. Ruslar alman hədiyyələrinin paylanmasına əngəl olub. Amma sözüm sözdü, bir-iki həftəyə, heç nümunə olaraq da, bir rus qalmayacaq. Bu, bolşevik rejiminin sonudur!.. Ox..oxx...
Ürəyinizi üzməyin, etibarlı mənbələrdən xəbər almışam, bu günlərdə almanlar Tehrana daxil olacaqlar. Bir inək almışam, vermişəm ətə-qana gətirib kökəltsinlər, Hitler gələndə, ayağının altında qurban kəsəcəm. Necə deyərlər, saxla samanı, gələr zamanı... ox... oxx... Murad!
Murad pəjmürdə halda artırmada göründü.
– Bəli, qurban!
– Bu gün nahara nə var?
– Umac.
– Keç içəri, de ki naharı yesinlər, məni gözləməsinlər... Özün də şəqaxana[44] tərəfə, Kəblə Zülfəlinin yanına get, ondan üç, yox, beş qaraciyər, həm də yaxşısından al, günorta vaxtı da mənə xəbər elə. Onlara nanə-tərxun da vurarsan, başa düşdün?
– Bəli, qurban.
Murad getdi. Hacı boğazını arıtladı. Mixçiyan qəlyanın müştüyünü Hacıya uzatdı, o da götürdü və çəkməyə başladı. Elə bu vaxt nökər qiyafəli, lakin şıq geyinmiş biri içəri girib Hacını salamladı.

[42] – İranda şəhər
[43] – Paraşütlə atılan qutular
[44] – İran şəhərlərində ənənəvi kiçik dini ayinlər üçün nəzərdə tutulan tikili, təxminən pir.

– Əleykəssalam, Möhsün xan. Haçandır ağayi Məqamül-vüzarə... e... üzr istəyirəm, ağayi Dəvamül-vizarənin xidmətində dura bilmirik. Əhvalı-şərifi necədir?

– İcazə versəniz, elə indi təşrif gətirər.

– Gözlərim üstə yeri var, xahiş edirəm...

Möhsün xan dərhal getdi və ardınca Dəvamül-vizarə həyətə girdi. Hacı yerindən yarıyacan qalxıb salam verdi:

– Bəh-bəh! Bizi çox müşərrəf etdiniz!

Mixçiyan və Zaməsqei ayağa qalxdılar, lakin Münadilhəqq heç qımıldanmadı. Hacı Mixçiyanın yerini Dəvamül-vizarəyə göstərdi. Sonra əvvəlki qonaqlarına müamilə ilə bağlı telefonla xəbər verəcəyini söyləyib onlarla sağollaşdı. Sonra üzünü Dəvamül-vizarəyə tutdu.

– Şərəf verdiniz... Haçandır xidmətinizdə dura bilmirdim, necəsiz? Bilirsiz, o məsələni həll elədim. Amma xəstəliyimə görə sizə baş çəkə bilmirdim... Sabah xəstəxanaya gedirəm...

Dəvamül-vizarə təlaşla:

– Çin səfirliyində, axşamkı məclisdə agah oldum. Xəstəliyinizin şiddətli olmadığını söyləmişdiniz, fikirləşirdim ki, artıq şəfa tapmısız... Yəni belə ağır mərəzdir ki, mütləq xəstəxanaya getməlisiz?

– Bəli, bunun hamısı bədbəxtliyimdəndir, davası olmayan mərəzdir. Öz aramızda qalsın, bu avropapərəst həkimlərin heç nədən başı çıxmır. Düzü, onlara əsla inanmıram... Keçən il yazın əvvəlində qəflətə düşdüm, hər il olduğu kimi, qan aldırmaq, şahtərə ilə kasnı dəmlədib içmək yadımdan çıxdı. Özüm-özümə düşünürəm, bəlkə də istilikdən olub... İsfahan səfərindən qayıdandan heç özümə gələ bilmirəm. Nə qədər əlac eləsəm də, bir şey alınmadı... Qorxu, sarsıntı, yolun bərbadlığı... dərd üstə dərd gəldi. Axırda günlərin bir günü yuxudan oyandıqda, sizdən uzaq, süzənək, yaxud sifilis xəstəliyi tutduğumu sandım.

Hə, xeyli adam bu xəstəliklərə düçar olub və müalicə edə bilmir. Elə ağrıdır, incidir ki, Allah heç kafirə də qismət etməsin! Nə qədər dava-dərman, müalicə və keyləşdirici... xeyri olmadı. İndi dostların israrıyla, Allah onlardan razı olsun, ağayi Cabbar Sultan məni ən yaxşı həkimin, Calinusül-hükəmanın qəbuluna apardı. Həkim hər yerimi müayinə eləyəndən sonra and-aman elədi ki, ciddi bir şey deyil, cəmi yarım saatlıq iş var. Xəstəxanadan evə qayıdan kimi istixarə elədim, sonu pis çıxdı... bax belə neçə aydır... artıq qərar vermişəm, nə olar, olar!..

– Bəndəniz Calinusül-hükəmanın köhnə dostudur. Məxsusi olaraq sizi ona tapşıracam. Baş nazirə də deyəcəm, gözü üstünüzdə olsun. Əgər narahatlıq verirəmsə, mürəxxəs olum.

Hacı cib yaylığını çıxarıb fınxırdı:

– Başınıza and olsun ki, yox, yox, siz, zat-ali ilə söhbət edərkən, dünyanın bütün dərd-səri üstümdə olsa, unuduram.

– Çox lütfkarsız. – Dəvamül-vizarə oğrun-oğrun Münadilhəqqə baxdı. – Sizi narahat etməyimin məqsədi, ilk növbədə, hal-əhvalınızı soruşmaq, daha sonra polkovnik Büləndpərvaza görə sizə təşəkkür eləmək idi. Məlumunuz olsun ki, polkovnik Büləndpərvaz Şəhrivər hadisəsindən sonra çox soyuqqanlı və qətiyyətli şəkildə Lurestandakı əsgərləri silahsızlaşdırıb və onları müttəfiq güclərə təslim etməklə qırğının qarşısını alıb.

Əlbəttə, belə hallarda kələfin ucunu tutmaq çətin olur və silahların nizamlı şəkildə Mərkəzə çatdırılma imkanı yoxdur. Söz çıxıb ki, guya hərbi silah-sursat kürdlərin, lurların əlinə keçib, gecəyarısı çöl-biyabanda Buveyr Əhmədi

tayfası və qaşqaylara sandıq-sandıq top-tüfəng təslim edilib. Sözsüz, gələcəkdə bu silah-sursatın istiqlalımızı qazanmağa təsiri olmayacaq. Bunun aydın sübutuna gəlincə, bir ay sonra polkovnik Büləndpərvaz general rütbəsinə yüksəldilərək ordunun birinci dərəcəli medalı ilə təltif olundu, həmçinin təqdirnamələr aldı...

Onun davranışı İranı müttəfiq məqamlarında o qədər yüksək qiymətləndirilib ki, Meycir Coalsənge Büləndpərvazın mərkəzə təyin edilməsinə qarşı çıxıb. Sizə də məlum olduğu kimi, iğtişaşların yatırılması və quldur dəstələrinin məhv edilməsi məsələsi artıq qapanıb.

Ağa, demokratiya yaxşı şeydir! Heyif ki, qədrini bilmədik! O dövrdə vətənpərvərlə vətən xainini bir-birindən ayırd edə bilmirdilər.

Hacı başını yırğalamaqla təsdiqlədi:

– Eyni sözü həmişə mən də deyirdim.

– Generala göstərdiyiniz diqqət və qayğıya görə zat-alinin göndərdiyi kiçik hədiyyəni sabah sizə təqdim eləmək öhdəliyim var.

Hacı ağa qaşqabaqlı halda Münadilhəqqə baxdıqdan sonra:

– Bəndənizi xəcalət dənizinə qərq etdiniz, – dedi, – indiyə qədər belə çətin bir vəzifəni öhdəmə götürsəm də, qarşılığında heç kimdən heç nə qəbul etməmişəm, amma indi hədiyyədən imtinam incikliyə səbəb ola bilər, fikirləşərlər ki... off... off... Amma sabah xəstəxanada olacağam.

– Dediyiniz kimi, sadə cərrahiyyə əməliyyatı olacaq, fikir eləməyin, mən də xəstəxanaya gələcəm, sonra birlikdə evə qayıdarıq.

Murad qapıdan içəri girdi və artırmada gözdən itdi. Hacı ağanın üzü gülürdü.

– Allah ağzınızdan eşitsin! Hər dəfə əməliyyatı fikirləşəndə, tüklərim biz-biz olur. Həm də bu yaşda! Gecə elə onu unutmaq niyyətiylə yuxuya gedəcəm, əlbəttə, yata bilsəm. Bəlkə də bu, xəstəliyin təsiridir. Görəsən, naxoş adamların hamısı mənim kimi düşünür?..

Bu gün hamıya həsəd aparıram. Hətta bir milçək görəndə, sabahkı əməliyyat canıma vicvicə salır, özüm-özümə deyirəm, kaş o milçək Hacı olaydı.

Həyat qəribə bir şeydir, ticari əmtəə kimi canımıza yapışıb. Niyə? Bilmirəm. Bu kiçik canlılar gündəlik yaşayışın hayındadır, sabahı düşünmürlər. Aqibətlərinə bir şey saxlamırlar. Gözləntiləri də yoxdur. Amma həyat onlara da əmtəə kimi yapışıb.

Yadımdadır, uşaq ikən, bir pişik balası maşın təkəri altına düşmüş, beli qırılmışdı. Bədəni qana bələnmişdi, durmadan miyoldayırdı. Dırnaqları ilə torpağı cırmaqlayaraq yerdə sürünürdü. Kimi çağırıb yalvardığı bilinmir, ancaq yaman əziyyət çəkirdi. Əlbəttə, bədənindən qurtulmaq, taleyi dəyişdirmək istəyirdi. Həm də yaşamaq...

Həyatın nə olduğunu dərk etmirdi, vücudu da onu tərk etmək niyyətində deyildi. Çəkdiyi əziyyətlə ölmək istəmirdi... oxx...oxxx...

– Bəli, doğrudur, amma bəşər ölümdən daha çox yoxluqdan qorxur. Vücudunun sağ qalması üçün mənəvi dünyaya, ictimai fəaliyyətə yönəlir. Eləlhəri də var ki, əbədi həyat ümidiylə ölümü cani-dildən qarşılayırlar.

Hacı burnunu sildi, natəmiz əlini əbasının ətəyinə sürtdü.

– Mən heç vaxt bu cür fikirdə olmamışam. Naxoşluq adamın düşüncəsini dəyişir. Şərab məstliyi kimi bir hala salır. Hər gün gördüyümüz adi şeylər indi adamın gözünə başqa cür sataşır. Bu gün yanında oturan ağayi Mixçiyanın baxışlarından bəzi şeyləri öyrəndim...

İnsanla heyvan arasında fərq budur ki, adam avtomobilin altına düşüb

beli qırılmazdan əvvəl belə bir aqibətlə üzləşməmək üçün Allaha yalvarır. Hələ yaralanmamışdan qabaq onu hiss edib pişik kimi nalə çəkər... nəysə, bu mövzunu qapadaq...

– Özünüzə dərd eləməyin, ağa. Bu günə qədər üç dəfə əməliyyat olunmuş və bir böyrəklə qalmışam. Bilirəm, fikir adamın beynini yeyir. Həm də ilk dəfədir, amma əməliyyatınız sünnət olunmaqdan belə asandır. Calinusül-hükəma kimi möcüzələr yarada bilən həkim üçün bu əməliyyat su içmək kimi bir şeydir.

– Bəli, dərd etməyə dəyməz... Yaxşı, dünyadan nə xəbər-ətər var?

– Vacib sayılacaq heç nə. Bildiyiniz kimi, vəziyyət qəlizdir. Xaos hökm sürür. Məlum olduğu ki, həzrətin zühurundan sonra[45] maddi-mənəvi nə varsa, çöküntü içindədir. Müşahidəmə əsasən, əxlaqi və ictimai fəsad həyatımızda kök salıb.

Ağa, mən bu Qərbə gedən gənclərdən ümidimi tamam kəsdim. Srağagün Avropadan yenicə dönmüş əmim oğlunu, ağayi Simindövləni görməyə getdim, elə şeylər danışdı, elə fikirlər dedi ki, həqiqətən, çox mütəəssir oldum.

Hacı qaçaraq:

– Müharibə haqqında nə danışdı? – deyə soruşdu.

– Əslində, bir az əsəbiləşdim, ona görə də, dava haqqında sual vermədim. Bu gənclər xaricə gözləri, qulaqları bağlı halda gedib, oraların zahiri görünüşünə aldanır, əcdadlarının torpağına da yad adam kimi qayıdırlar. O bir məsəl vardı e, eşitmiş olarsız, qarğa kəklik kimi yerimək istədi, öz yerişini unutdu.

Hacı dərdli-dərdli başını buladı.

– Lap bizim Kiçik ağa kimi. Dediyinizi çox yaxşı başa düşürəm. O, Avropaya getməzdən əvvəl ağıllı, ayağını düz atan bir oğlan idi. İndi qumarbaz köpəkoğludur. Qəbahətini də başa düşmür. Yanımda fit çalır, siqaret çəkir, səhərdən axşamacan güzgü qabağında durub bəzənib-düzənirdi, arxasınca da bir it süründürüb rəqqasxanalara gedirdi.

Əlbəttə, bu, atalıq vəzifəsidir, onu islah eləmək üçün mirasdan məhrum elədim. Ancaq heç kim ata və oğul arasında sevgini inkar edə bilməz. Ürəyimdən keçən budur ki, xəstəxanaya gedəndən sonra ona bir baş çəkim. Amma Avropanı gedib-görmək çox pis şeydir!..

Dəvamül-vizarə təsdiqlədi:

– Bəli, nə faydası var? Üstəlik, inqilabi fikirlər, saxta Vətən sevgisi və pis adət-ənənələri öyrənib gəlirlər. Allah bizə rəhm eləsin!

Ağa, barəsində danışdığım Avropadan qayıdan gənc qürbətə getməzdən əvvəl yerini bilən, ədəb-kamallı, adətlərimizə xor baxmayan biri idi. İndi kobud, köntöy adama çevrilib, bütün milli dəyərlərimizi və müqəddəslərimizi təhqir edir. Məsələn, deyir: “Bu məmləkət coğrafi xəritədə heyz[46] ləkəsinə oxşayır. Havası qızmardır, tozludur, torpağı nəcisli, suyu sidikli və üfunətli, yaranışdan pis, insanları tiryəkxor, traxomalı, özündənrazı, fatalist, ölülərə sitayiş edən, aciz, ikiüzlü, buyruq qulu, xəbərçi, başkəsən və sizdən uzaq, dalı babasillidir”.

Hacı əsəbiləşdi:

– Bu oğlan kafirdir, qulağına azan oxunmalı və tövbə etməlidir. Ağayi Simindövlənin əqidəsi nədir?

– Ağa, heç nə! Əcaib bir haldadır. Elə şeylər danışır ki, adamın bədənində tükləri biz-biz durur. Deyir: “İrqimizin pozğunluğu uşaqlı, cavanlı, qocalı

[45] – Rza xandan sonra oğlu Məhəmməd Rzanın taxta çıxarılması nəzərdə tutulur.

[46] – aybaşı

hamıya yoluxub. Yaşadığımızı iddia edirik, amma kaş bu iddia düz olaydı. Günü günə calayıb yola veririk. Eşşək qədər ağıl sahibi deyilik. Hər yoldan ötən bizə kəf gəlir, amma özümüzü ən ağıllı məxluq sayırıq! Həmişə möcüzəvi şəkildə bizə nicat verəcək bir rəhbərin zühuruna müntəzirik!..

Rza xanın təlxəkləri 20 il təpəmizə çıxdı, səsimiz yerli-dibli batdı, hələ də eyni tamaşanı göstərirlər... Nə mədəni, nə ictimai, nə də elmi sahədə beynimizi işlədə bilmirik. Hünərimiz ancaq boşboğazlığa çatır, qurumlarımız – süründürməçi, fəlsəfəmiz – mübahisə, səhvlər, şübhələr barədə bəhsə girmək, xörəklərimizin ən yaxşısı – ciyər qovurması. Nə zövq var, nə mədəniyyət, nə də səadət. Hamı oğru, dələduz və rövzəxan! İylənib çürüyürük. Sufisindən dərvişinə, cavanından tutmuş ağsaqqalına qədər, tacirindən qara fəhləsinə, dilənçisinədək hamımız pul və hakimiyyətin sehrinə düşmüşük. Həm də xirtdəyədək.

Dünyanın dörd bir yanında insanların bir şeyə və ya həqiqətə aludəçilyi normaldır. Ancaq burada alçaqlıq və zillət tüğyan edir. Təhqir və ah-nalə zəmanəsində yaşayırıq!..” Hələ bu nədir, daha betərini deyirdi: “Bura oğruların, qaçaqmalçıların vətəni, insanların zindanıdır. Bu “Ana Vətən” deyilən qadına nə qədər bəzək-düzək vurub Alkaponenin[47] qucağına atsalar da, faydası yoxdur. Çünki təpədən-dırnağacan iylənib çürüyür.

Bu günün səlahiyyət sahibləri Şah Sultan Hüseyn dövrünün üzünü ağartdılar. O dövrün xəcalətli tarixini nə Zəmzəm, nə də Kövsər suyu ilə yuyub-təmizləmək mümkündür. Biz dünya deyilən məkanın quyusunda soxulcan kimi yaşayırıq, yoxsulluq, xəstəlik və çirkab cəhənnəmində qovrulur, ən iyrənc üsullarla sağ qala bilirik. Məzhəkə bundadır ki, deyirik, ən gözəl həyat tərzi məhz bizə məxsusdur!”

Belə olan halda, Hacı ağa, əxlaqi və mənəvi dəyərlərimizin necə aşınıb sarsıldığını görürsüzmü? Bəlkə də Rza şah Avropaya gedən cavanları sərhəddə tutub zindana atmaqda haqlı idi! Bu sözlərdə qan iyi, inqilab qoxusu var, aqibətini heç yaxşı görmürəm.

Hacı ağa asqırdı. Dəvamül-vizarə:

– Sağlam olun, – dedi. – Bəli, məqsədim bunu çatdırmaqdır ki, bu gənclərin əxlaqı pozulmasın. Əlhəmdülillah, Avropada ədəb-əxlaqını itirməmiş, əba-əcdalarının adət-ənənələrini unutmamış bir neçə gənc istisna olmaqla, cavanların hamısı bədbin, etiqadsızdır, kiçiklərin böyüklərə hörməti qalmayıb, rəhbərlərə etibarı süstləşib. Fikrimcə, cəmiyyətimiz geriliyə yuvarlanır. Xüsusilə təcili mənəvi və əxlaqi tədbirlər görülməzsə, Yer üzündən yoxolma ilə üzləşəcəyik.

– Fikirlərinizi bütünlüklə təqdir edirəm. Mən də vaxtilə bunları sezmişdim. Təcili olaraq təşəbbüs göstərib mənəvi-ruhi dəyərlərimizi möhkəmləndirməliyik. Elə buna görə də, bir dəstə adam millət vəkilliyinə namizədliyimi irəli sürüb... of... off... doğrudur, özüm hələ qərar verməmişəm. Siz də təsdiqləyə bilərsiz, bu iş mənlik deyil, amma ölkənin ali maraqları təhlükədədir, odur ki, var-gücümüzlə əncam çəkməyə hazır olmalıyıq. Üstəlik, bu, hər bir vətənpərvərin vicdani və əxlaqi vəzifəsidir. Həm də xalq bütün ümidlərini bizim kimi insanlara bağlayıb.

Dəvamül-vizarə Hacının tüpürcəyini üzündən sildi.

– Bu niyyətimizlə bağlı sizi səmimi qəlbdən təbrik edirəm. Dostlarım şahiddir, həmişə deyirəm ki, Hacı cəsur və qərarlı adamdır, heyif ki, dövlət işlərinə cəlb olunmaqdan özünü iraq saxlayır. Həqiqətən, belə bir qarışıq zamanda təhlükəli bir vəzifəni çiyinlərinizə almanız millət üçün qürur

[47] – ABŞ-lı məşhur qanqster

mənbəyidir. – Əyilib Hacının qulağına: – Ağayi Silsileconbanla üz-üzə gəlməyə hazırsızmı?

– Onu qiyabi tanıyıram, hörmətli şəxsdir. Rəqib olmağa cani-dildən hazıram. Məsələ bundadır ki, mənim 135 min seçici səsim var, eşitdiz nə dedim? 135 min sabit səs. Bunun qarşılığında o nə edə bilər? Ox... oxx...

– Bəndəniz bu gün onunla danışmaq istəyir, nəticəni sizə bildirəcəm. Düzü, sizdən kiçik bir xahişim vardı. Nüfuzlu şəxslərdən biri və siz zat-aliyə hörmət-ehtiramı olan ağayi Zülfəzail Astane-Qüdsinin[48] naibüttövliyəsi[49] olmaq istəyir. Bu məsələ ilə bağlı müəyyən dərəcədə hazırlıq görülüb, amma işi sürətləndirmək istədim, çünki...

Hacı diqqətlə dinlədikdən sonra özünə arxayın şəkildə:

– Hesab edin ki, iş həll olub. Məndən ona salam çatdırın, deyin ki, səfər çamadanlarını indidən hazırlasın. Artıq bundan bəhs etməyə ehtiyac yoxdur, mən müvafiq məqamlarla danışacağam.

– On iki təqdim etməyə hazırdır.

– İxtiyar sahibidir! Amma bunun insafsızlıq olduğuna siz də razılaşarsız. Bu məbləğ oranın bir aylıq mənfəətinin yarısıdır. Ancaq bəzi üsul çətinliklərinə görə, bunu məndən daha yaxşı bilirsiz, öz payımdan vaz keçirəm, sizin xətrinizə işi otuz səkkizlə bitirək, getsin.

– Bunun mümkün olacağını düşünmürəm. Bəlkə iyirmi ilə razılaşaq...

– Özünüz bilirsiz, ağayi Tacül-mütəkəllimin bundan da çox ödəməyə hazırdır. Siz zat-alinin xətrinə iyirmi beşə razılaşmaq olar. Ancaq bir şərtlə ki, bu dəfə hamısı 100 tümənlik əskinaslarla olacaq. Çünki saymaq daha asandır.

– Həqiqətən, heç bilmirəm bu mərhəmətinizə görə sizə necə təşəkkür eləyim...

Qapı açıldı və "Dobb-e Əkbər" qəzetinin müxbirliyindən baş redaktorluğuna yüksələn Məzləqani bəstəboy, kök bir gənclə içəri girdi. Hacı ağa və Dəvamül-vizarənin hüzurunda Məzləqani qurşağadək əyilib təzim elədi.

Hacı:

– Bəh-bəh, nə əcəb! Ağayi Məzləqani, düz yarım saat qabaq sizdən danışırdıq. Haçandır görünmürsüz. Ağayi Dəvamül-vizarəni tanıyırsız?

– Tanış olmaq iftixarına nail olmuşam. Həm də, deyəsən, siz zat-alinin hüzurunda. İcazənizlə, əziz dostum ağayi Xeyzorannejadı sizə təqdim edim.

Salamlamadan sonra Hacı ağa Muradı çağırdı və qəlyanı təzələmək üçün onu evə göndərdi.

Məzləqani:

– Ağayi Xeyzorannejadla elə buralardan keçirdik, icazənizlə onu sizə tanıdım. O, mərhum Şövkətül-vaizinin oğludur və özünə görə çılğın azadlıqsevər bir gəncdir. Rza şah dövründə saxta xəbər ittihamı ilə zindana atılmışdı. Bəli, mən də onun hüzurunuzda olmaqdan feyziyab olmasını istədim. Elə bu niyyətin verdiyi cəsarətlə yanınıza gəlmişik.

Hacı onun sözünü yarıda qoydu:

– İxtiyar sahibisiz... Şərəf verdiniz... ox... oxx...

Məzləqani kədərlə:

– Allah şəfa versin! – dedi. – Xəstəliyiniz hələ də keçməyib?

– Yox... bu elə xəstəlikdir ki...

– Buyurun, sizinçün nə edə bilərəm?

– Çox sağ olun, sabah xəstəxanaya gedirəm.

---

[48] – Məşhəd şəhərində İmam Rza əleyhüssəlamın ziyarətgahı

[49] – Qəyyumlar Şurasının sədri

Dəvamül-vizarə ayağa qalxdı.

– Sizinlə söhbətdən doymaq olmur. Ağayi Silsileconbanla dediyimiz məsələ ilə bağlı görüşəcəm. Sabah sizə xəbər gətirəcəm. Sağlıqla qalın!

Hacı yerindən qalxaraq:

– Sağ olun, mərhəmətinizə sığınıram, – dedi.

Sonra Hacı Məzləqanini yanında oturtdu və dostu Xeyzorannejad üçün də əyləşməyə yer düzəltdi.

– Hə, ağayi Məzləqani, dünyada nə baş verir? Etibarlı mənbələrdən eşitmişəm ki, ruslar almanların hücumunun qarşısını alıb.

– Bunlar siyasi təbliğatdır, kor-koranə inanmaq olmaz. Dünən gecə radioda xəbərləri dinlədim, yarırəsmi məqamlar, demək olar ki, bütün cəbhələrdə atəşkəs olduğunu bildirdilər.

– Bəlkə də bu, almanların döyüş hiylələridir. Əgər o filmdə gördüyüm qoşundursa, heç Səlmlə Turun[50] ordusu da öhdəsindən gələ bilməz. Guya ruslar və ingilislər onların qarşısını kəsəcək? – Hacı ağa gülmək istədi, amma gülə bilmədi. – Deyir: "Cənnətdə ilan var ki, onun qorxusundan insan əjdahaya sığınar". Yaxşı, ingilisləri bildik, bəs bu şimallılar nə deyir? Məgər tacirsiz, sərmayəsiz dünyanın çarxı fırlanar? Ta qədimdən bəri deyilir ki: "Dünya ticarətlə abad olur. Ticarət olmasa, alış-veriş dayanar, ölkənin iqtisadiyyatı çökər".

Ağa, bu nə rejimdir ki, səhərdən axşama qədər qətl törədir? Hamının taleyi ilə oyun oynayır? Kimin qismətində nə varsa, nəsibi də odur! Dünyanın nizamı əvvəldən budur, biri acından qarnı belinə yapışıb ölər, o birinin acgözlükdən qarnı partlar. Nə qədər peyğəmbər, hökmdar gəlib-gedibsə, hamısı bunu təsdiqləyib. Ölümün qarşısını almaq mümkün olsaydı, bəşər cəmiyyətinin qanunları da dəyişdirilərdi... off... Almanlar yeganə məram və həqiqət naminə mübarizə aparırlar, amma heç kim soruşmur ki, bu mübarizədə niyyətiniz nədir? Hamı deyir: "Fəhlələri və bu biçarələri öldürürlər".

Ovcumu iyləməmişəm ki... gedin rəiyyətdən soruşun. İnsanlarla yaxşı davrandığım üçün az qala mənə pərəstiş edirlər. Amma Stalin rəiyyəti ilə düz davranmır. – Hacı əliylə talvarı göstərdi. – Bu hörümçək torunu qırx ildir başımın üstündə görürəm, bircə kərə də belə Murada: "Qurumsaq köpəkoğlu, bunu təmizlə!" - demədim.

Hacı cib yaylığı ilə burnunu möhkəm sıxıb sildi.

– Of, off... Bilirsiz niyə bazarda qiymətlər artıb? Biçarə tacirin təqsiri nədir? Almanların qorxusundan on milyon rus qadın, uşaq məmləkətindən qaçaraq Azərbaycana gəlib, İran təbəəsi olmaq istəyirlər. Amma, məncə, dövlət onların bu istəyinə razılıq verməməlidir. Sabah almanlar İrana gəlib-çıxdıqda onlara nə cavab verəcəyik? Ox... oxx...

Heç darıxmayın, bir neçə günə almanlar Tehrana qədəm basacaqlar. Baxarsız! Dünən yox, srağagün "İran Ruhlar Cəmiyyəti"ndə idim, ruh çağırırdılar. Mərhum Hacı Mirzə Ağasının ruhu gəldi. O ki yalan danışmaz! Soruşdum: "Davanı kim udacaq?" Cavabında dedi: "Külək Hitlerin otlağına tərəf əsir". Görün necə gözəl cümlədir! Bəli, bəli, o, böyük siyasətçi və ədib idi... Qorxuram əməliyyata girəm, almanların Tehrana gəlişinin şahidi olmayam!..

Məzləqani:

– İnşallah, Hitleri gül-çiçəklə qarşılayacağıq.

Hacı təqdiredici nəzərlə Məzləqaniyə baxdı.

[50] – Firdovsinin "Şahnamə"sində adı keçən əfsanəvi İran şahı Firidunun iki oğlu

– Sizcə, alman qoşunu qarışqa süvarisidir və ya bir Kərəc körpüsünü partlada və bolşevikləri dayandıra bilməyən, dəvəyə minmiş şahənşahın ordusu?.. Uy, uy... Yaxşı, vəziyyət necədir, bazardan nə xəbərlər var?

– Dünən o məlum qəzetlərin bəzisi dərman möhtəkirlərinə həmlə etmişdi.

– Ağa, onlar xaricdən maliyyələşir, ölkənin iqtisadiyyatını çökdürtmək, bizi iflasa sürükləmək istəyirlər. Məndən sizə nəsihət, şimallılardan ehtiyatlanın. Jurnalistlərin hamısı vicdanlı deyil.

Qoy sizdən bir söz də soruşum, tacirlərin günahı nədir? Dövlət özü oğrudur, milləti çapıb-talayır! Bir ovuc ac-yalavaca “millət” adını qoyub! Bəs onun halına acıyan kimdir? Hələ tacirdən mədəd də umurlar? Guya ordumuz ordudur, ya maliyyəmiz maliyyədir? Ya maarifimiz, ədliyyəmiz yaxşı gündədir? Birini görüb üzünü çevir, o birinə tüpürürlər. Dəvədən soruşurlar: “Niyə boynun əyridir?” Deyir: “Haram düzdü ki!?”

İddiaları adamın ürəyini partladır! İllərdir adamlar bu yalanları asanlıqla həzm edir, amma gülməli olan budur ki, iddia sahibləri özlərini dünyanın ən ağıllı insanları olduğunu düşünürlər. Bu da, bir növ, siyasi təbliğatdır, bizi nəzarətdə saxlamaq üçün. Amma milli sərvət deyiləcək nəyimiz var? Dühaları guya əlahəzrət Pəhləvi idi. Bir düymə, bir iynə düzəldə bilmədik, amma üç gündən bir Avropa içkilərini istehsal etdik. Şüşələri doldura-doldura “bəh-bəh” söylədik.

Biz saxtakarlıq, oğurluq və fəndgirliyi ağılla qarışdırırıq. Budur elm, budur sənət? Bu qədər təbibimiz var, amma başı ağrıyan canını istəyirsə, Avropaya qaçır. Elə mənim xəstəliyimi götürək, düz-əməlli həkimimiz olsaydı, bir dərmanla sağalardı. Bəs deyən qədər iynə vurdurmuşam, sabah da xəstəxanaya getməli və həkimin bıçağı altına düşməliyəm!

Neft məsələsi ortaya çıxanda da Avropadan nə qədər hüquq doktoru, müşavir gətirdik. Bu millət həmişə urvatını aparıb, təpəsinə minəcək bir qoluzorlunun intizarındadır! Neçə kərə küçə kənarında ağacları əkdik, sonra çıxardıq, neçə kərə avropalıları təqlid elədik, ortaya nə çıxdı?

Allah rəhmət eləsin, Şəhid Şah dövründən bu yana Avropaya nə qədər tələbə göndərdik, hələ də yolunu gözləyirik, heç nə dəyişməyib! Amma bizdən çox-çox sonra ayılan Yaponiyaya baxın, heç kim onlara “gözün üstə qaşın var” deyə bilməz... ox... oxx...

Hacı cib yaylığını çıxarıb yenə burnunu möhkəm sıxdı.

– Əslində, bu məmləkətə ölü torpağı səpiblər. Hamı gözləyirdi ki, demokratiyadan sonra qəzetlərdə əxlaqi aşınma, diktaturanın ziyanından bəhs, sülhü, dini, adət-ənənəni təşviq edən məqalələr yazılacaq. Ancaq gəlin görək nədən yazıb-pozurlar. Hərc-mərcliyə çağırış, hər səhifədə əcnəbipərəstlik!

Əlbəttə, həqiqət acıdır, amma papağımızı qabağımıza qoyub fikirləşməliyik, axı irqimiz batıb-gedir. Nə elm var, nə də mədəniyyət! Ən ləziz yeməyi ciyər qovurması olan millətdən nə gözləmək olar?

Havamız, torpaqlarımız, suyumuz çirkab, mikrob içindədir. İnanın, biz dünyanın quyusunda soxulcan kimi qıvrılıb yaşayırıq. Başbilənlərimizin hamısı oğru, fırıldaqçı və rüşvətxordur. Bəli, başqa necə olmalıydı ki?.. ox... oxx...

Keçmişdə hər kəs dədə-nənəsini tanıyırdı, torpağına, suyuna bağlıydı, amma indi hər yerindən duran xalqı barmağına dolamaq və sonra xaricə qaçmaq üçün millət vəkili olmaq istəyir!

Xeyzorannejad söhbətə qoşuldu:

– Hacı ağa, siz də təsdiqləyərsiz ki, bunların hamısı öz günahımızdır, qolumuzu çırmalayıb heç nəyə əncam çəkmirik. Laqeydlik və üzgörənlik hər

işə maneə törədir. Hamı “mənə nə!” deyir. Bu hərc-mərclik, böhran şəraitində “çörəksiz qala bilmərəm” deyərək yaxasını kənara çəkir. Ona görə də, köklü islahatlara gedə bilmirik.

Hər işin bir üsulu, əncam çəkmə qaydası var. Dünyanın heç bir yerində burdakı qədər dəvə, inək, pələng yoxdur. Baxırsan, barmaqla sayılacaq sayda adamın qəsrləri göylərə ucalır, lüks avtomobillərə minirlər, hətta tualet kağızını belə Nyu-Yorkdan idxal edirlər. Digər tərəfdən, insanların əksəriyyəti yoxsul, xəstə və acdır, tarix öncəsi dövrün şərtləri ilə işləyir və yaşamaq nədir, sürünürlər.

Məgər Avropa ölkələri əvvəlcədən abad idi? Yaxud insanları min il qabaq bu cür idi? Bəlkə İrandan bütün tarixi boyu ağıllı-başlı bir kimsə olmayıb? Çünki avropalıların zəkalı səlahiyyətliləri vardı, insanlara can yandırdı, yaşayışı nizama saldılar. Biz nə etdik? Yüz illərdir oğurluq, casusluq və dələduzluqla məşğuluq! Üç qara qəpiyə dəyməyən boşboğazlıqla milləti yoxsulluq və zülmə düçar elədik və hələ də bu minvalla davam edirik. Bəyəm bütün bu işlər millətin təqsiridir?

Hər millətə bir mürəbbi, bir bələdçi lazımdır. İrana gəlincə, Əşrəf-Əfqan zamanında[51] adamlar özünü elə itirmişdi ki, düşmən onları yüz-yüz qılıncdan keçirir, kimsənin də cınqırı çıxmırdı. Amma necə oldu ki, birdən-birə Nadir kimi bir şəxs elə həmin adamlarla Hindistanı fəth etdi?

Sözümün canı diktatorluq və zorakılığa pərəstiş deyil, o dövrün şərtləri tam başqa cür idi. Daha xarici siyasətinə alət olan, öz əlimizlə təpəmizə çıxardığımız Rza şahın dövrü kimi yox! Ölkənin başçısı oğru olanda, millət vəkili, nazir, nazir müavini, asayişə cavabdeh şəxs, şöbə müdiri də oğru olacaq. Belə olan halda, baqqal Məşədi Həsəndən nə gözləyirsiz? O, çürük meyvəni zibilliyə atsa, təəccüblənərəm! Amma o cür malı ucuz da satmaz.

Bütün bunlar zəncirin bir-birinə bağlı halqalarıdır. Ya köklü islahatlar həyata keçirməli, ya da həyasızcasına hamilə qadınlar, yetimlər və fəqir-füqəraya ianə toplayıb, özümüzü gözə soxmalıyıq. Bu gedişlə heç nə düzələn deyil. Dünyanın dörd bir yanında köklü islahatlar aparan ölkələrdən nümunə götürməli, ya da elə bu cür xəcalət çəkərək yaşamalıyıq. Mən bu vəziyyətə inqilabdan başqa çarə görmürəm.

Hacı boğazını arıtladı, alnının tərini silib sözə başladı:

– Bəli, mən də bu barədə çox düşünmüşəm, amma mən inqilaba müxalifəm, bu qələtdir, qətliamdır, təkamül yolu ilə irəliləməliyik.

– Bu cür şeylər haqqında çox danışılır. İndi keçid dövründəyik, sonra təkamül dövrünə qədəm qoyacağıq. Bu necə dövrdür ki, heç cür bitmir! Min ildir keçid dövründə ilişib qalmışıq!

Gedin, digər ölkələrə baxın, müqayisə edin, bizdən xeyli qabaqdadırlar. İstər iqtisadiyyat, istər mədəniyyətdə, bir çox cəhətdən bizdən geridə idilər, amma bu gün bizə dərs verərlər.

“İslahat” adıyla bizə laylay deyib yuxuya verdilər. İllərdir sınadıq, həm istibdad, həm də Məşrutə, həm azadlıq, həm də diktatura. Nəticəsi də göz qabağında! Düzünü deməliyiksə, layiq olanı tapa bilmədik. Hamısını sınaqdan çıxarsaq da. Mən qan tökülməsinin vacibliyinə inanıram.

Qan göz yaşına qarışacaq? Cəhənnəmə ki! Əsrlər boyu bu ölkədə tam mənada milli dava, inqilab baş verməyib, xalq daim istibdad və diktatorların çəkməsi altında əzilərək səsini çıxarmayıb, hayqıracaq halı belə qalmayıb. Öz canının-qanının hayına həddən ziyadə çox qalıb, buna görə də, qanın rəngindən belə, qorxur. Halbuki, hər gün minlərlə baş kəsilir.

[51] – XVIII əsrdə İranın əfqan işğalı dövrü

Millət zillətlə ölməyə məhkumdursa, ona təkan verilməlidir, bəlkə də onu əsarətdə saxlayan ərbablarını devirər, taleyini dəyişər. Çünki pərişan olmayınca işlər sahmana düşməyəcək!

Hacı qaşlarını düyünlədi.

– Əcnəbilərin maddi yardımı ilə baş verəcək inqilabdan nə fayda olacaq?

– Dünyanın heç bir inqilabı özü-özünə baş verməyib. Ac və yoxsul insanların özlərini qorumaq üçün nələri var? Bütün qüdrət və maddiyyat hakim sinfin sərəncamındadır, xalqdan kor-koranə itaət gözləyirlər, istəyirlər ki, yoxsul kütlə onlara başağrısı vermədən öz dərd-sərini həzm eləsin.

Xalq naçar durumdadır, vəziyyəti qiymətləndirib, faydasını düşünməli və özünə köməkçi axtarmalıdır. Amerika öz müstəqilliyi naminə Fransadan yardım alıb, Fransa da ingilislərdən...

Bu hakim sinif hər cür sınaqdan keçirilib. Nə bir şəxsiyyəti var, nə də şah əsəri! Adamların hamısı oğru, hambal, qatildirsə, bu, rəhbərlərə görədir. Xalqa hökm edənlərin xalqdan üstün heç nəyi yoxdur. Kütlə ya indi ayağa qalxmalıdır, ya da heç zaman!

Hacının əhvalı təlx oldu.

– Ağayi Xeyzorannejad, ağ eləməyin! Siz hələ çox gənc, dəliqanlısız. Mən də vaxtilə bu sözləri hər gün təkrarlayırdım. Özüm də inqilabın övladıyam, Məşrutə dövrünün rəhbərlərindən biriyəm. Səttar xanı, Bağır xanı Tehrana kim gətirdi? Mən şəxsən azadlıq və demokratiyanın toxumuyam. Amma bu gün əqidəm dəyişib. Hər işdə ehtiyatlı olmalıyıq. Rusiyada da inqilab baş verdi, nəticəsi nədir? Bütün xalq zəlil oldu. Hitler də ərazisinin hamısını işğal elədi.

Rza şah dövrü də, bir növ, inqilab idi. Hamı gedib quş gətirər, şah qulu bayquş gətirər. Onun İran xalqına faydası nə oldu? ox.. oxx... – Hacı mövzunu dəyişdirdi. – Üzr istəyirəm, bu xəstəlik adamın ağlını qarışdırır... İzninizlə tanış edim, – Münadilhəqqə işarə edərək: – ağayi Münadilhəqq müasir gənc və həssas şairlərdən biridir. — Ağayi Məzləqani, “Dobb-e Əkbər” qəzetinin redaktoru və tanışlığımıza çox şad olduğum ağayi Xeyzorannejad...

Münadilhəqqin mürgüsü yarıda qaldı. Məzləqani ayağa qalxdı və Münadilhəqqə təzim elədi.

– Barəsində xoş sözlər eşitmişəm. Özü gözdən-qulaqdan iraq həyat tərzi keçirsə də, “Simurq-o-Kimya”[52] adı ilə tanınır, amma bundan tam bixəbərdir. Bilmirəm Hacı ağa onu nə cür ovsunlayaraq fəth edib. Xoşbəxtlikdən indi bu tanışlığa nail olmuşam, iftixar duyuram. Ağayi Münadilhəqq, yeni nə yazmısız? Qəzetimizi şərəfləndirə bilərsizmi?

Münadilhəqq:

– Hələ ki dəyərli bir şey yoxdur.

Hacı:

– Bu gün onu mühüm bir məsələyə görə yanıma çağırmışam. Amma, təəssüf ki, hələ söhbət edə bilməmişik.

Münadilhəqq:

– Ağaların buyurduqlarından faydalanıram.

Hacı:

– Ağayi Məzləqani, sizə məsləhət görürəm ki... of...off... ağanın şeirlərindən qafil qalmayın və qəzetinizdə dərc edin. Bir mahir rəssam da tanıyıram. Ağayi Zərrinçənqal. Əxlaqı eyniylə ağayi Münadilhəqqinki kimidir, o da cəmiyyət arasına nadir hallarda çıxır. Mənim portretimi elə çəkib ki,

---

[52] – Şəmsin qəzəl divanının adı – “Simurq və Kimya”

gerçək görünüşümdən bir əskiyi yoxdur. Zərrinçenqalın işlərindən də faydalana bilərsiz.

Məzləqani qalibanə tərzdə əlini qaldırdı:

– Təklifim siz zat-alinin həmin şəklinin "Dobb-e Əkbər" qəzetində nəşr olunmasıdır. Seçkilərlə əlaqədar "Demokratiyanın atası" klişesi ilə ilk səhifədə tərcümeyi-halınızla birlikdə yerləşdirərik.

Hacı:

– Ağayi Məzləqani, mənə xəcalət verirsiz.

– İxtiyar sahibisiz, bəndəniz bunu səmimi-qəlbdən deyir. Millət öz dühalarını tanımalıdır. Mən də icazənizi almağa gəlmişdim. Digər tərəfdən, buyurduğunuz elanın əlyazmasını hazırlamışam, indi nəzərdən keçirməyinizi istəyirdim. Münasibdirsə, həmin şəklinizlə birlikdə dərc edək. – Cibindən bir kağız çıxardı. – "İranın əsilzadə ailələrindən birinə məxsus olan ağayi Hacı Əbuturab zöhd, təqva ilə keçən ömrü boyu sosial-ictimai həyatdakı fəaliyyəti və azadlıq uğrunda fədakarlıqları ilə hamıya məlumdur. Saysız-hesabsız vətənpərvər və azadlıqsevər vətəndaşların təkidli istəyi ilə millət vəkilliyinə namizədliyi irəli sürülüb. Yeri gəlmişkən, bu əsnada əziz-girami vətəndaşların rifahı naminə elə ilk fürsətdə Çəhardəh Məsum prospektini asfaltlamaq vədəsi verir. Bütün ziyalılara və azadlıqsevərlərə ona səs verməyi tövsiyə edirəm. Üstəlik, Çəhardəh Məsum prospektinin asfaltlanmasına maraq göstərən hər kəsdən ianələrini Milli Bankda açılan... №-li hesaba köçürmələri tələb olunur".

Hacı təsirlənmiş tərzdə:

– Sizə necə təşəkkür edəcəyimi bilmirəm, – dedi. – Belə məsələlərdə nə qədər güclü qələm sahibi olduğunuz aydın görünür. Yazdığınız elə bil mərhum atamın dostu Qaimül-məqam Gərrusinin[53] "Münşəat"ıdır.

Məzləqani:

– Zati-alidən bir ricam vardı.

Hacı şübhəli tərzdə:

– İxtiyar sahibisiz, buyurun, eşidirəm.

– Qulunuzun səmimi niyyətini başa düşdüyünüzdən, möhtərəm xarici işlər naziri ilə barəmdə söhbət etmənizi istərdim. Mümkündürsə, məni İranın Vaşinqtondakı... – Hacının başa düşməyəcəyini nəzərə alaraq: – yəni İranın Yengi Dünya[54] səfirliyinə xüsusi attaşe vəzifəsinə təyin edə bilərmi... Əlbəttə, mən də ali hakimiyyət məqamının razılığını əldə etməyə çalışacağam.

Ondan pul istənəcəyinə görə bədgüman olan Hacı rahat nəfəs aldı.

– İxtiyar sahibisiz! Siz daha böyük məqama layiqsiz. Xüsusi attaşe, hə? Fərhəngistanın[55] dilimizə gətirdiyi sözlərdəndir? Özüm Fərhəngistanın üzvü olsam da, bu sözləri tələffüz edə bilmirəm, heç mənasını da bilmirəm. Yəni Yengi İmamın[56] vəzir-muxtarı?.. off...offf...

– Xeyr, qurban. İranın Amerikada, Vaşinqtondakı səfirliyində çox kiçik, böyük məsuliyyəti olmayan vəzifədir.

Hacı burnunu bərkdən sildi.

– Münasib görmürəm. Qəzetçilik təcrübənizlə ya mədəniyyət naziri, ya vəziri-muxtar olmalı, məsuliyyətliliyi öyrəndikdən sonra isə səfərə çıxmalısız. Məsuliyyəti yoxdur nə deməkdir? Məgər bu cəmiyyətin üzvü deyilsiz? İranın

---

[53] – Həsənəli xan Məhəmmədsadıq oğlu Gərrusi (1820-1900) - dövlət xadimi, ədib, xəttat, dilçi

[54] – Yeni Dünya – türk mənşəli ifadə olub danışıq dilində "Amerika" sözü əvəzinə işlənir.

[55] – İranda Dilçilik Qurumu

[56] – "Yenge İmam" – ölkənin şimalında, Əlborz ostanının (vilayətinin) Səvudbulaq şəhristanında yerləşir. "Yenqi" türk mənşəli sözdür və "yeni", "təzə" mənasında işlənir. Danışıq dilində coğrafi ad "Yenqe mam" kimi tələffüz olunur.

vəzir-muxtarlığını nə sanırsız? Boş-boş şeylər, saxta gülüşlər, iki qatlanıb tərif söyləmək, dil tökmə, gecə ziyafətləri, qədəh toqquşdurma, ab-havadan şikayətlər, xarici məqamlarla künc-bucaq söhbətləri, qürbətdəki iranlıların işlərini çək-çevir eləmək, pasport, şəxsiyyət vəsiqələri satmaq, qaçaqmal alveri... başqa məsuliyyəti var?

– Əslində, bilmək istəsəz, heç bir vəzifədə gözüm yoxdur. Qələmimlə qazandığımın hesabına kiçik bir sərmayə toplamışam, siz alicənabın sayəsində Amerikada İran xalçaları satılan bir mağaza açmaq istəyirəm, bu da Ana Vətənimizin əl sənətinin Amerikada təbliğinə kömək edər. İndi böyüklər sinfində ingilis dili öyrənməklə məşğulam. Məqsədim üç şahı pulumu yol xərcinə və rüşvətə sərf etməməkdir. Rəsmi status və diplomatik pasportu buna görə istəyirəm.

Hacı təsirlənmiş tərzdə:

– Bu düşüncənizə görə sizi səmimi-qəlbdən təqdir edirəm. İndi başa düşdüm ki, həqiqətən, sözüylə əməli düz gələn bir adamsız. Əmin olun ki, əlimdən gəlincə qısa müddətdə sizə kömək edəcəm... oxx... Amma Amerikaya gedirsizsə, niyə ingilis dilini öyrənirsiz?

– Yolda karıma gələ bilər.

– Bərəkallah, bərəkallah! Sizi təbrik edirəm. Həyatın mənasını yaxşı başa düşmüsüz. Gənc nəslə ümidim artdı. Artıq işiniz barədə narahat olmayın, yalnız o şəhərin adını bir kağız parçasına yazıb mənə verin, yoxsa unudaram. Sabah həkimin bıçağı altından sağ-salamat qurtulsam, müşkülünüzə əncam çəkəcəm. Əvvəl-axır bu yırtığa görə mən də bir kərə Amerikaya getməliyəm. Ömrümüz boş yerə keçdi, tənbəllikdən ayağımızı kənara ata bilmədik.

Yox, əlavə sözə, izaha ehtiyac qalmadı. Bu ölkənin problemləri bitən deyil. Halva-halva deməklə ağız şirin olmaz. Hətta tabutunu da yadlar yerdən qaldıracaq. Şeirdi, tiryək manqalıdı, xəyalpərəstlikdi, məqalə yazmaqdı, inqilabi fikrə düşməkdi... elə hay-huyla bu günə qaldıq. Bu gün əlindən bir iş gələn adama ehtiyacımız var. Hansı iranlının yolunu kəssən, cibindən şeir yazılmış bir parça kağız çıxır.

Ağa, məndən eşidib qulağınıza sırğa edin, vəssalam, axırımız çatıb. Sizin yaşınızda olsaydım, dabanıma tüpürüb çoxdan getmişdim. Həyatın pis üzü əl-ayağımı bağladı. Bura zəka, istedad qəbiristanlığıdır. Gedin dünyanı görün, o da bir qənimətdir.

Hacı son cümləni qüssəylə dedi. Sonra jiletinin cibindən iri qızıl saatını çıxarıb baxdı.

– Murad!

Murad bayıra çıxdı.

– Bəli, qurban!

– Elə bu dəqiqə Hüccətüş-şəriənin dalınca get, onunla vacib işim var, harada tapsan, tut, gətir.

– Baş üstə.

Murad qaçaraq getdi, Məzləqani bir parça kağızı Hacıya verib, Xeyzorannejadla birlikdə ayağa qalxdı.

– İcazənizlə, mürəxxəs olaq.

– Gələn ayaqlarınız ağrımasın! O məsələni artıq həll olmuş sayın, qalanı mənlikdir. Bankdakı hesab nömrəsini sizə telefonla bildirərəm.

– Var olasız! Sizi bir daha narahat edəcəyik.

Onlar çıxdıqdan sonra Hacı qəddini düzəldib yerini rahatladı. Yorğun, əsəbi üzünü Münadilhəqqə tutdu.

– Ağa, çox-çox üzr istəyirəm, özünüz də gördünüz, nə qədər dərd-sər var!.. ox... oxx... İcazə versəniz, sizə bəzi məsləhətlər verərdim. Eşitdiyimə görə, gözəl qəsidələriniz var.

– Həyatım boyu bir qəsidə belə yazmamışam.

– Olsun, sözümün canı şeirdir, qəsidə, ya təsnif, nə fərqi... Bilin ki, mən bütün ədəbi birliklərin üzvüyəm. Ömrümün böyük hissəsi elm və ədəbiyyat öyrənməyə sərf olunub. Molla Kazımdan "Came-Abbasi", "Cəfr"i oxuyub öyrənmişəm. Məncə, dünyaya Qaanidən böyük şair gəlməyib. Fürsətim olsaydı, sizə düz on divan şeir oxuyardım. Amma indi bu cür əyləncələrlə camaatın könlümü ala bilməzsən...

İndi bu qədər iş-gücüm və xəstəliyim ola-ola... ox... ox... məncə, şeir söyləmək imkanım yoxdur. Digər tərəfdən, ədəbi məclislərin birində demokratiya haqqında qəsidə söyləyəcəyimə söz vermişəm. Sizdən iltimasiricam demokratiya haqqında bir şeir yazmanızdır.

Əlbəttə, bu xidmətinizi unutmayacaq, sizi ədəbi məclislərdə layiqincə tanıdacağam. Heç bilirsiniz ki, demokratiya indi dəbdədir?! Bir vaxtlar şairlər şahənşahı, əyanları və böyükləri mədh edərdilər. Elə mənim barəmdə də neçə-neçə şair şeir yazılıb. Söz yox, sizin də qələminizdən bu sayaq şeirlər çıxıb. İndi dəb dəyişib. Əlbəttə, şeir də, bir növ, özünü tanıtmadır.

Demək istədiyim budur ki, bu gün bir şair əvəzinə, daşı yolu üstündən götürə biləcək şəxsə ehtiyacımız var. Sırf rəsmilik naminə olsa da, eyib etməz, xüsusilə seçkilər dövründə təsirli olar. Buna görə də, sizinlə xəlvət görüşmək istədim. Şübhəsiz, yanınızda xəcalətli qalmaram.

– Deyəsən, məni səhv anlamısız. Məndən sifarişlə şeir yazmağı xahiş edirsiz. Bu, mənlik deyil.

– Vallah bacararsız. Sizin üçün bir şeir nədir ki. Mən müasir şairlərin çoxunu tanıyıram, bircə dəfə fit çalsam, hamısı qaçaraq hüzuruma gələr. Amma ədəbi məclislərdə sizdən ağız dolusu danışırlar, geniş tanınmağa ehtiyacınız olduğundan, məhz sizi seçdim.

– Səhv edirsiz. Məşhurluğa, tanınmaya ehtiyacım yoxdur. Heç kimdən də sədəqə almamışam. Sizin kimilər üçün şeir mənasız bir şey, əslində, maddi zərər, şair isə dilənçidir, yalnız oğrular, quldurlar, qoluzorlular və qaçaqmalçılar ağıl sahibi, işləri də cəmiyyət üçün dəyərlidir!

Bu cavabı gözləməyən Hacının ağzı açıq qaldı və kəkələməyə başladı:

– Siz də... bu cəmiyyətin... üzvüsüz... oğru cəmiyyətin...

Münadilhəqq onun sözünü kəsdi:

– Haqlısız. Axmaqlara arxa duran, səfilləri çoxaldan, qoluzorlulara meydan verən bu mühitdə siz söz sahibisiz. Acgözlüyünüz, gözdoymazlığınız, qəddarlıq və axmaqlığınıza uyğun bir nizam yaratmısız və onu himayə edirsiz. Bu mühitdə sizin kimi insanlar yaşayırsa, mən naçaram, əlimdən nə gələ bilər ki... İtib-bataram. Çünki şairləriniz də sizin kimi olmalıdır.

Sizin vücuda gətirdiyiniz hər şey, oğruların, dələduzların, casusların dəyər verdiyi, sözün mənasını itirdiyi bu dibsiz quyuda mən heçəm. Bu quyuda ancaq yemək, kökəlmək haqqı var. Bu quyu sizlərə layiqdir! Mənsə, ancaq sizin nəcisinizin içində boğulmağa.

Görəsən, şair dilənçi, quyruq bulayandır, yoxsa daim cəmiyyəti heçə sayıb, insanlara kələk gələnlər?..

Hacının səbri tükəndi:

– Bəsdir! Həddini aşdın a! Şeir nə çörəkdir, nə də su, onunla qarın doymaz. Səhərdən axşama qədər "oğru" dediyiniz adamları mədh edib mərhəmətinə sığınırsız, qapıları ağzında boynubükük qalıb bir şeirə görə

bəxşiş gözləyrsiz! – Hacı dediyi sözlərə peşman oldu. – İcazənizlə, məqsədim...

– ...sizin kimi, özünüz kimi ləyaqətsiz dilənçi şairlərdir.

Şeir, şair haqqında qərar vermək sizlik deyil. Sizin kimilər səfeh varlıqlardır. Siz xirtdəyədək yeyib gəyirir, oğurlayır, yalan danışır, uşaq doğuzdurursuz. Sonra ölüb yaddan çıxırsız. İndi ölüm və yoxolma qorxusundan özünüzə məqam axtarırsız.

Bu dünyada minlərlə insan nəsli gəlib-gedəcək. Yalnız bir neçə adam yeyən, yatan, oğurluq edən, cütləşən və özündən yadigar olaraq nəcisini saxlayan bu naməlum qəbiləyə bəraət vermək üçün onların həyatına məna verəcək, mövcudluq haqqını tanıyacaq. Halbuki, bəşər övladı oğru, quldur, fırıldaqçının iziylə getməli deyil, çünki insan həyatının bir mənası olmalıdır.

Bircə Firdovsi kifayət edir ki, sizin kimi milyonlarla insanın varlığı istər-istəməz haqlı sayılsın və onunla iftixar duyasız. Amma elm, sənət, mədəniyyət bu torpaqdan iraq düşübsə, başa düşülən budur ki, yalnız oğurluq, casusluq və dələduzluğun meydan sulamasına imkan qalıb.

Salmasın humay quşu şərəfli kölgəsini heç vaxt

O diyara ki, orda tutuquşunun dəyəri quzğundan kəmdir.[57]

Bu milləti söyməyə, təhqir etməyə, xüsusilə dərisini soymağa haqqınız var. Millətin qeyrəti olsaydı, sizin kimilərin taxtını çoxdan başına uçurmuşdu. Bir millətin ki taleyi rəzillərin əlindədir və...

Hacı dəhşətə bələnərək özünü ələ aldı.

– Ağzından çıxanı qulağın eşidir? Həddini aşma! İtin sidiyi ilə dəniz murdar olmaz! 70 ildir bu məhəllədə tanınıram, camaat pulunu mənə əmanət edir, arvadını tapşırır. Hələ heç kim...

– 70 il adamları aldatdın, çapıb-taladın, bığ-saqqalını lağa qoydun, pulunu oğurlayıb hiyləylə özün üçün halallaşdırdın, Qara Daşın ətrafında dövrə vurub, şeytana 70 daş atdın, qurban kəsdin. Bu, sənin fədakarlığının yeganə nümayişidir. Amma niyə camaat pulunu sənə əmanət edir? Çünki pul pulu cəzb edir.

Səhərin gözü açılandan hörümçək kimi tor qurursan, oğru, quldur və qaçaqmalçıları böyür-başına yığırsan. İş-gücün fırıldaq, dələduzluq. Elə bilirsən bu sirr qırx gündən çox davam edəcək? – Münadilhəqq əsəbi halda güldü. – Səhv fikirləşirsən. Bu millətin daha bir nəslinin taleyi də sizin kimilərin ixtiyarında olsa, Yer üzündən yox olacaq. Ətrafınıza Çin səddi çəksəniz belə, dünya sürətlə dəyişir. Dəvəquşu kimi başınızı quma soxmusuz. Yaşamaq haqqı olduğumuzu dansaq, başqaları dərhal yerimizi tutacaq. Onda, xudahafiz, Hacı ağa və şərikləri!

Amma narahat olmayın, sizdən törəyənlər də başqaları üçün qazdığınız qəbirə gömüləcək. Əgər pulunuzu qoltuğunuza vurub xaricə qaçsan, arxanca min söz deyib məzələnəcəklər. Amma böyük ehtimalla, sabahkı aqibətin – üzünə yapışan tüpürcək və arxana vurulan təpik olacaq. Beli qırılmış pişik kimi, ömrünün axırına kimi, nəsillikcə bu rüsvayçılıqla yaşayacaqsan.

– Xəcalət çək! Rədd ol!

– İnsan tualetdə çömbələrkən “Bunu Hacı ağa düzəldib” sözünü görsə, ordakı milçəklərdən utanmaz. Çünki hörmətli varlıqlardır, işi bu həddə gətirən onlar deyil.

Hacının üzü turp kimi qızardı.

– Rəhmətlik atamın goruna and içirəm! Şahid Şahın vaxtında... off... offf...

[57] – Hafizin “Xoş əst xəlvət...” qəzəlindən bir beyt

– Dədən də sənin kimi oğru idi!.. İnsan lüt-üryan dünyaya gəlir, sonra ölüb, elə o cür də qəbirə girir. Pulu çox olan ya sadəcə oğru, ya da miras oğrusudur. Səndə bunun hər ikisi var!

Hacının gözləri iki kasa qanı xatırladırdı.

– Hə, indi demokratiyanın zərərini başa düşürəm. Rza xan dövründə can, mal təhlükəsizliyimiz varmış. Həyasız oğlu... Rədd ol!.. oxx... oxxx...

Münadilhəqqin səsi titrəyirdi:

– Kəs səsini, ... torbası! Nəfsinin aciz köləsi! Bütün fikrin-zikrin, istəyin ayaqyolu, mətbəx, yataqdadır! Hələ bir millət vəkili də olmaq istəyirsən. Milləti yerin dibinə soxmaq üçün? Özün kimisini törədib çoxaltmaq, gələcək nəsillərə ürcah etmək üçün?

Özündən sonra yenə şəhvətkar, saxtakar, utanmaz bir kimsənin bu həyətdə oturub, gələcək nəsli qaz kimi yolmasını istəyirsən. Sənin varlığın bəşəriyyətə xəcalətdir!

Şeirin mənasını bilirsən, ya bilmirsən, heç fərqi yoxdur, hətta bilməyin təəccüblü olardı. Həyatın boyu heç bir gözəlliklə üz-üzə gəlmədin. Görsəydin belə, başa düşən varlıq deyilsən. Gözəl bir mənzərəni gözün heç almayıb. Bir qəşəng sima, ya həzin musiqi könlünü oxşamayıb. Hansısa dərin mənalı kəlam, yaxud ali fikir qəlbində iz qoymayıb. Yalnız qarnının qulu olmuş və qurşaqdan aşağının ehtiyacını düşünmüsən. Sahib olduğun bu iyrənc həyatı zaman və məkan içində uzatmağa çalışırsan. Soxulcandan, donuzdan çirkinsən, bu çirkinliyi ana südü ilə əmmisən.

Hansı donuz həmcinsinin canı və malı ilə oyun oynayar və ya onların pulunu toplayıb möhtəkirlik etməklə qarnını doyurar və ya dava-dərmanını alar!? Səhərdən axşama qədər minlərlə günahsız insanın qanını zəli kimi sorub həzz alırsan! Özünü siyasətçi və əyan adlandırırsan! Bu murdar mühit sənin kimiləri sırasına qəbul edir və dəstəkləyir. Cəmiyyətin cəhənnəm qanunları yalnız sənin kimi yüyəni qırılmış donuzların mənafeyini qorumaq üçün hazırlanıb və sizə at çapıb tazı qovlaya biləcəyiniz meydan verib...

Sənin kimilərin var olduğu mühitə lənət!..

Tfu!..

Bir tüpürcəyə belə dəyməzsən! Bu dünyada yaşamanın bir donuz və ya vəba mikrobu qədər dəyəri yoxdur!..

Üç-dörd min tüməndən artıq pul oğurlaya bildiyin günü bayram edirsən! Ölümün astanasına gəlməyinə, ağrıdan qıvrılmağına baxmayaraq, hələ əlini pis əməllərdən çəkmirsən. Xalqın dava-dərmanı, yeyəcəyi ilə möhtəkirlik eləmək üçün demokratiya tərəfdarlığına üz tutmusan. Hətta mumla da möhtəkirlik edir, qaz vurub qazan doldurmaq istəyirsən. Məgər bilmirsən ki, qurdun tövbəsi – ölümdür...

Rahat ol! İndi şairlik sənətini boşamışam. Həyatımın ən böyük, ən ali şeiri – yüz minlərlə insanı ölümə, bədbəxtliyə sürükləyəndən sonra lovğalanan sən və sənin kimi adamları ləğv eləməkdir.

Günah məzarına gömülən bişərəflər!

Hacının sifəti qəhvəyi rəng almış, oturduğu yerdə donub qalmışdı, xəstəliyini belə hiss eləmirdi. Münadilhəqq ayağa qalxdı, küçəyə çıxıb qapını çırpdı. Hacı boğuq səslə:

– Ağayi Murad!.. Vay aman, dadıma gəlin!

Sanki öz səsinin əks-sədasını eşitmişdi. Hər yan sakitliyə bələnmişdi. Dəhşətə qapılıb yenidən çağırdı:

– Burda heç kim yoxdur? Bu qurumsaq canıma qəsd etmək istəyir!

Sonra susdu. Cib yaylığını çıxarıb burnunu sildi. Bir neçə dəqiqədən sonra qapı açıldı. Murad və saçı-saqqalı hənalı, gözləri hədəqəsindən çıxmış, başına sürməyi rəngli əmmamə qoymuş, dəvə yunundan köhnə-kürüş libas geyinmiş Hüccətüş-şəriə ağa içəri girib salam verdi.

– Səbbəhəkumullahu bilxəyr![58]

Hacı əsasına söykənib ayağa qalxdı, dərin nəfəs aldı.

– Əleyküməssalam... oxx...oxxx... Ağayi Hüccət, yaman gec gəldiz... Böyük bir xətərdən güclə qurtuldum. Bu oğraş şair, bolşevik... Şəhid Şahın zamanı olsaydı, əzalarını kəsdirib, el-aləmə ibrət olsun deyə, bazarda gəzdirərdim... Azadlıq, demokratiya məgər ona görə verilib ki, bu kişilikdən binəsib köpəyoğlu mərhum atamın goruna söysün!? Heç yadıma gəlmir ki, kimsə mənə bu cür hərbə-zorba gəlməyə cəsarət eləsin.

Ağa, fikir verin, görün mənə nə deyir: "Bu məmləkət bir tualet dəliyi, insanları da p... üzərində uçuşan milçəklərdir!"

Murad, qulağında sırğa elə, orada, mənimlə qabaq-qənşər oturan o köpəyoğlu Münadilhəqq bir də bu qapıya gəlsə, rədd elə getsin! De ki, ağa komissiyaya gedib.

Bunları öldürmək, məhv etmək lazımdır, çünki cəmiyyətin parazitləridir.

Guya, bunun şeiri Qaaninin şeirindən daha gözəl olacaqmış. Ondan-bundan bir neçə qafiyə oğurlayıb, düzüb səfə, sonra da dilənçiliyinə alət eləyib... – Hacı yavaşca: – Şşş!.. Murad, get, bax, gör qapı arxasında bizə qulaq asmır!

Murad gedib baxdı və qayıtdı.

– Heç kim yoxdur, qurban.

Hüccətüş-şəriə:

– Əstəğfürullah! Bu zəmanənin adamları nankordur. Hər şey aradan gedib: hörmət-ehtiram, şərəf, namus...

Hacı:

– Ağa, bu oğraş təhlükəli casusdur, yüzdə-yüz bolşevikdir, başı qırmızısarıqlıdır. Vallah, ağa, canından, malından keçən adam təhlükəlidir. Başını suya soxmaq lazımdır. Qoy bir xəstəxanadan çıxım, o Münadilhəqqi zindana atdırıb kim olduğumu başa salacam. Təqsir məndədir ki, üz verdim, "Dobb-e Əkbər" qəzetinin hörmətli baş redaktoru ilə tanış elədim. Bişərəf, binamus köpəyoğlu üzümə çımxırır, elə bil atasının mirasını yemişəm! Amma bu dəfə ayağını qıracam. Hünəri var bu qapının yanından keçsin!..

Hüccətüş-şəriə:

– Mötəbər hədisdə buyurulur ki, Həzrətin zühuru dövründə mütrüb, şair və təlxəklər çoxalacaq. Şeir, rəssamlıq, musiqi, heykəltəraşlıq şeytan əməlidir.

Hacı:

– Murad, o qurumsağın hara getdiyi məlum deyil. Bəlkə özüylə yoluxucu viruslar gətiribmiş. Oturduğu yeri yaxşıca süpürüb-təmizlə, əhəng vur ki, uşaqlara xətər gəlməsin.

– Baş üstə.

Hacı saatını çıxarıb baxdı və Hüccətüş-şəriəyə dedi:

– Narahat etdimsə, bağışlayın, sizinlə vacib işim var, başımı qaşımağa belə vaxtım yoxdur. Onun-bunun kələfini açmaqdan beynim şişib... ox... oxx... Qorxuram yenə gəlib başımı qatsınlar. Buyurun, içəri keçək.

Hüccətüş-şəriə:

– Necə istəyirsiz... Siz zat-alinin buyruqlarını dinləməyə hazıram.

---

[58] – Ərəbcədən tərcümədə "Sabahınız xeyir!"

Uzun və qaranlıq dəhlizi keçəndə, Hacının kəməri yerlə sürünürdü. Əndərunun qapısı önündən keçərkən, uşaqların səs-küyü eşidilirdi. Hacı boğazını arıtladı, Hüccət ağa ucadan "Ya Allah" dedi. Yamaqlı və çirkli boz pərdəni çəkdilər. Kəyumərslə qırxılmış başına pek[59] çəkilmiş qızcığaz yanan bir siçanın dalınca qaçırdılar.

Hacı bərkdən:

– Susun, lal olun! – dedi. – Məni bu həyətdə boğsalar, canıma qəsd etsələr, evdə kimsə fəryadıma gəlməyəcək! Sakit olun, zəlil olmuşlar, cavan ölmüşlər! Bahalı nöyütlə oyun oynayırsız!? O yanan siçan zirzəmiyə soxulsa, evim od tutub yanar! Hələ səbr eləyin, dərsinizi verəcəm!

Yanan siçan ciyildəyə-ciyildəyə qaçıb suyolunun dəliyinə girdi, uşaqlar da dağılışdı. Tualetdə uşağını işədən qadınla camaşır yuyan qadın çadranın ucuyla yaşmaqlandılar. Ətrafı sükut bürüdü. Hüccətüş-şəriə astaca öskürdü, Hacı ağa sola dönüb iki pillə yuxarı çıxdı, tavana qədər xalça yığılmış, kəskin naftalin qoxuyan otağın qapısını açdı.

Küncdə telefon vardı. Buxarının üstündə çılpaq qadınların rəsmi olan poster, İsa və Məryəmin fotosu. Divardan dua lövhəsi asılmışdı. Digər tərəfdən, Kəyumərsin ibtidai təhsilini başa vurması barədə çərçivəyə alınmış şəhadətnaməsi.

İki iri sandıq arasındakı dar yerdə Hacı ağa ayaq saxladı, Hüccətüş-şəriə əlini sinəsinə qoyub onun qarşısında müntəzir dayandı.

Hacının üzündən yorğunluq yağırdı, sanki özü-özüylə danışırdı:

– O alçaq Münadilhəqq beynimi xarab elədi... of...off... Hələ heç kim üzümə bu cür durmamışdı. Sən camaatla gülərüzlü ol, adam yerinə qoy, onlar da nankorluq eləsin!

Sonra yanındakı kətilə oturdu. Hüccətüş-şəriə də iri sandıqlardan birinin üstünə əyləşdi.

Hacı çağırdı:

– Murad!

Həyətdən:

– Bəli, qurban! – sədası eşidildi.

– Kimsə məni görməyə gəlsə, de ki, ağa evdə yoxdur. Hazırdırsa, bizə iki çay gətir.

Hüccətüş-şəriə buyurdu:

– Gümüş stəkanda olmasın.

Murad gedən kimi Hacı dedi:

– Siz də lap mənim kimi qızılı, gümüşü sevmirsiz!.. Bu gün çox ciddi söhbətim var. Sizinlə mühüm məsələlər barədə danışmaq istərdim. Deyəcəyim budur ki, vəziyyət çox ağırdır, nəsə eləmək məcburiyyətindəyik. Şimala səfər edərək apardığınız təbliğatın bizə böyük xeyri oldu. Əlbəttə, xidmətləriniz nəzərə alınacaq.

Özünüz də yaxşı bilirsiniz ki, İran neft qoxuyur, alışması üçün bir qığılcım kifayətdir. Belə bir hadisənin önünü almaqdan ötrü axmaq, müti, itaətkar bir millətə ehtiyacımız var. Amma partiyaların qurulması, yollarda dəstə-dəstə yürümə, azadlıq, işçi haqları barədə dəm vurma, qulaqdan-qulağa keçən pıçapıçlar yaxşı əlamət deyil, təhlükəli, ölümcüldür. Xalqın arxasını gücləndirməsinə, əsarət boyunduruğunu çıxarmasına fürsət verilməməlidir. Qədimqaim sistem dəstəklənməli, hətta keçmiş şahın heykəllərinə belə ehtiram göstərilməlidir... ox.. oxx...

– Sizinlə razıyam. Amma son səfərimdə, bir neçə haram işə mürtəkib oldum, özüm özümdən utanıram. Ərz edim ki, mülkədarın göstərişi ilə Ərdəbil

[59] – qətran distilləsindən sonra qalan qatı maddə

yaxınlığındakı bir kənddə üç nəfəri təkfirçi elan elədim. Onlardan birini elə döydülər ki, qabırğaları qırıldı. Başqa birini də sürgün elətdirdim, halbuki günahkar olduğuna əmin deyildim. Kaş görəydiniz onların fəqir arvad-uşağı hər gün gəlib əbamın ətəyini necə öpüb yalvarır, bağışlanmaları üçün dua edirdilər...

Hacı axundun sözünü kəsdi:

– Yaxşı, ardını deməyə bilərsiz. Boş yerə narahat olmayın. Bir nəfər, on nəfər, ya min nəfər ölüb, cəhənnəmə ki! Mən ümumi vəziyyətdən danışıram. Sabah bu sistem çökəndə, mənim, sizin biçarə arvad-uşağımız o halına acıdığınız kəndlilərin ətəyindən yapışıb yalvaracaq... Bəli, yəni sabah Münadilhəqq, ya Məzləqaninin dostu kimi adamlar, – adı nəydi, yadımda qalmayıb, – başa çıxsalar, necə olacaq? Aha, adını xatırladım, Xeyzorani... Hə, onda mənim, sizin kimi adamlara bu mühitdə yer saxlanmayacaq.

Xalq başı dik, axirət dünyasının əzabından qorxmayan olarsa, bu dünyada ondan itaətkarlıq gözləməyə dəyməz. Onda arzuladığımız həyata sahib ola bilməyəcəyik. Ta axirət cəzası qorxusu olmayana qədər, mənim, ya sizin üçün çalışacaqlarını düşünürsüz? Qulaqlarınızdakı pambığı çıxarın!

Qoy daha açıq şəkildə deyim: əgər xalqı o biri dünyanın cəzaları ilə qorxmağa, bu dünyanın əzablarına səbrlə qatlanmağa təşviq etməsək, süngü, yumruq və təpiklə gözünün odunu almasaq, sabah başımıza bəla açarıq.

Məsələn, həddi-buluğa çatmış oğlum subay ikən, gözü görə-görə cüt-cüt siğə eləsəm, imanı zəifləyər, daha yanan siçanın dalınca qaçmaz, nizamı, qanun-qaydanı pozar. Əgər fəhlə gündə on saat işləyib, can verib, axşam bir tikə çörəyə möhtac qalırsa, mənim anbarım isə döşəmədən tavana qədər doludursa, bunun ilahi iradə ilə bu cür olduğuna inanmalıdır. Sabah onların yanına gedib boşboğazlıq etməməlidir ki, fəhlə gün boyu tər tökür, mənsə möhtəkirlik edirəm. Onda eşşək də əldən çıxar, palan da! Nə mənə, nə də sizə bu dünyada yer qalar. “Diyanət” toxuculuq fabriki aydan-aya mənə gəlir göndərməz. Dünya baş-ayaq olar...

Hacı cib yaylığını çıxarıb burnunu möhkəm sildi.

– Məqsədim sizə məsələnin mahiyyətini birbaşa ağızdan qulağa bildirmək, gözlərinizi açmaq, hərəkətə keçmənizi təşviq etməkdir. Köhnə kişilər bunların hamısını bilirdi. Bizə itaət etməsi üçün xalq ac-yalavac, möhtac, nadan və xurafatçı qalmalıdır.

Əgər filan əttarın uşağı dərs oxuyursa, sabah mənim hökmlərimə etiraz edər, nə mənim, nə də sizin mənasını anlaya bilmədiyimiz sözləri deyər. O zaman, xudahafiz, Hacı ağa, Hüccətüş-şəriə ağa! Onun yerinə biz kibrit satacağıq. Əgər Məşədi Təqi Əllafın uşağı ağıllı, istedadlı olacaqsa, mənim hacızadə oğlumsa tənbəl, axmaq çıxacaqsa, vay halımıza!

Buna görə də, özümüz, mənfəətimiz üçün arxamızı möhkəmləndirməliyik. Dünya dəyişir, Avropada dava boş yerə baş verməyib, çünki insanlar öz gözlərini və qulaqlarını artıq açıb, hüquqlarını tələb edirlər. Belə olan halda, burada xalqın irəliləyişinə sədd çəkməliyik, əks halda, işlər istədiyimiz kimi getməyəcək. Yoxsa bu dünyada kamımıza çatmayıb, küçədə süpürgəçi olacağıq.

Xoşbəxtlikdən, ölkənin mühiti bizim üçün münasibdir. Vəzifəmiz xalqı barmağımıza dolamaqdır, qoy başları dərd-sərlərinə qarışsın, bir-birinin yaxasından tutub didişsinlər. Başa düşdünüz?

Sabah xəstəxanaya gedəcəm, bəlkə də əməliyyat masasından qalxmayacam. Heç kimin ölməzlik əhdnaməsi yoxdur. Bu gün sizə hər şeyi açıq-aydın

şəkildə deyirəmsə, deməli, şüurlu şəkildə hərəkət etmənizi istəyirəm. Mənim, sizin, övladlarımızın taleyi bu təşəbbüsdən asılıdır. Cəmiyyət dürüst olmaq istəyirsə, bunun mənə, sizə nə xeyri!?

Bizim üçün cəmiyyət südverən inəkdir və dünya bizim üçün fırlanır. Qoyun belə də qalsın! Bu torpaqda oğruların və qaçaqmalçıların həmişə əlləri uzun olub. Çünki səlahiyyətli xarici məqamlar bunu müvafiq hesab ediblər.

Siz bu ölkənin rical əhli və əyanlarını tanımırsız, hamısının səfeh olduğunu çox yaxşı bilirəm. Onlarla müqayisədə Məşədi Həsən Xerkəçi[60] daha ağıllıdır. Amma maraqlarımız üçün bu rical yuxarı başda olmalıdır... of... off...

– Belə olan halda, dini şüarlar gücləndirilməlidir.

– Səhvə yol verirsiz. Adamların namazı, orucu necə düzgün əda edəcəyini başa salmanızı istəmirik. Əksinə, din adı altında köhnə adət-ənənəni təbliğ etmənizi. Dindar müsəlmanlara yox, sinəvuran, "şaxsey-vaxsey" deyən, qılıncla baş yaran, hər deyilən sözə tez inananlara ehtiyacımız var. Elə bir iş görməliyik ki, kəndçi mənə, sizə möhtaclığını anlasın, bizə şükür borcu duysun. Məqsədimizə çatmaq üçün o, xəstə, ölüvay, bisavad, kar, kor olmalıdır, öz haqqını bizdən dilənməlidir.

Bu silsilə davam etməlidir, yoxsa bütün xalq Münadilhəqq kimi dinsiz olar.

Yeri gəlmişkən, Münadilhəqqin yaxasını mənə kələk gələn general Allahverdinin əlinə verəcəm. Çünki o da bizlərdən biridir və ümumi maraqlarımız var.

Zahirdə xalqla mərhəmətli olmağı, dərdinə şərikliyi, həmdərdliyi unutmayın, çünki bu gün dəbdə olan rəftardır. Amma batində dədələrini yandırmalıyıq. İndi bəzi dəbə düşmüş sözlər var, onlar əsas silahlarımızdır. Məsələn, elm və maarif. Rza şah da eyni sözləri deyirdi, amma xalqın xeyrinə nəsə dəyişdimi? Əsas məsələ budur ki, onların tətbiqinə əngəl olaq, işi başlanğıcında pozaq...

Heç bilirsiz ki, bizim dilənçilərə, dilənçilərin də bizə nə qədər ehtiyacı var? Çünki sədəqə verməli, ianə toplamalı, yasa batmalıyıq ki, bu halda-təhərdə gözə görünək, həm də, hər şeyə əlavə, vicdanımız rahatlansın.

Əslində, küçədə dolaşan sümsük itlə dilənçi arasında nə fərqi var? Amma istənilən halda, çiyinlərimizə böyük məsuliyyət qoyulur. Onları biçarə halda taleyin ixtiyarına buraxa bilmərik. Buna görə də, millət vəkili olmağı ağlıma yeritmişəm. Görəsən, mənə uyğun işdir? Yox... əlbəttə, onların yüyənini əldə daha möhkəm tutmaq üçün... of...off...

– Bunun çox təhlükəli bir iş olduğunu etiraf edin. Çünki Rza xanın dövründə xalqın iman və əqidəsi zəiflədi, zəlalətə düşdü. İndi insanlar başbilənlərini özləri yetişdirir, dini çağırışlara zidd gedirlər.

Murad iki stəkan çay gətirdi. Hacı ağa ayağa qalxdı, dolabçadan üç kiçik qənd gətirdi. Murad yenə çölə çıxdı.

Hacı çayı dişləməylə içə-içə:

– Bəli... – dedi, – səhv edirsiz. Rza xanın özü də nə edəcəyini bilmirdi. O, verilən təlimatlara uyğun olaraq hərəkət elədi. Yəni zahirdə külahını dəyişsə də, bu, həmsərhəd İslam ölkələrini özündən küsdürmək üçün idi. Əslində isə, İslam birliyinə kömək etdi.

Narahat olmayın, bu, ağızdan düşməyən "Ərəb birliyi" ifadəsi daha sonra İslam birliyinə çevriləcək. Daha sonra da quyruğumuzu tələyə salacaq.

O zamanlar bütün tənzimləmələr və siyasi cəhdlər İranı qonşularından təcrid etmək, sünni-şiə qarşıdurmasını aradan qaldırmaq üçün idi. Allah

[60] – Ulaq kirayə verən şəxs

rəhmət eləsin, mərhum Şəhid Şahın dövründə kimsə cəsarət eləyib “Həzrəti Ömər ibn Xəttabın tərcümeyi-halı” kitabını nəşr edə bilərdi? Ancaq indi, Rza xanın təşəbbüslərinə görə, Osmanın köynəyini başımız üstünə qaldırıb[61] ona söyüş verməli, dişimizin dibindən çıxanı deməliyik. Əlbəttə, məqsədimizə daha asan çatmaq üçün... oxx... oxxx...

– Yaxşı, mən nə etməliyəm? Xətrinizi nə qədər istədiyimi bilirsiz. Siz zatalinin tapşırdığı bütün işləri icra elədim.

– “Əncümən” sizi yüksək qiymətləndirir. Bəlkə də budəfəki vəzifənizin icrası çətin olacaq. Özünüz saf-çürük edin, sizə xatir açıq-aydın deyirəm, şimal qonşularımız sayəsində baş qaldıran yeni hərəkatın qarşısını yalnız din adı altında xurafat və hərc-mərclik yayaraq ala bilərik. Bu dəfə dədələrinə od qoymaq üçün düz-əməlli bir diktatoru taxta çıxararıq. Bu, son kəskin silahımızdır.

Mövcud vəziyyəti dəyişməz saxlamaq üçün, lazım gəldiyi təqdirdə, cin-şeytanla da əməkdaşlıq edəcəyik. Cəmiyyətin dəyişməsi, bizim, bizim kimlərin ölümü deməkdir. Odur ki, vəzifəniz – sinə vurmağa, baş yarmağa, tiryəkxorluğa, cin tutmağa və rövzəxanlığa rəvac vermək, təkyə və hüseyniyyələrin çoxalmasına şərait yaratmaq, axund və başkəsənləri tərifləmək, hicabdan imtina əleyhinə nitq və moizələr söyləməkdir.

Bu millət həmişə qədim-qaim dövrə qaytarılmalı, iki min, üç min əvvəlki adət-ənənələrə yönəldilməlidir. Siyasət bunu tələb edir. Narahat olmayın, bu xalqın içindən ağlı başında olan bir kəs ortaya çıxıb soruşmayacaq ki, niyə dünyanın digər yerlərində belə şeylər baş vermir...

Qoy xəstə olduqda, cin vurma duası yazdırsınlar. Avropa dava-dərmanını içməsinlər, ciyərləri dağlanar deyə! Elektrik lampasından istifadə etməsinlər, desinlər ki, firəngli şeytanların icadıdır! Piy yandırsınlar ki, pulları ciblərində qalsın. Məxsusi ümumi yığnaq yerlərinə, qəhvəxanalara doluşsunlar, ruslar barədə ağızlarına gələni söyləsinlər, onları bədnam etsinlər. Kino, teatr, qaşıq-çəngəl, təyyarə, avtomobil və qramofonu kafir əməli elan edin. Bu işdə mahirsiz. Əvvəllər etdiyiniz kimi, deyin ki, radio Dəccalın təkgöz eşşəyidir və ilaxır.

Rza şahın hakimiyyəti dövründəki dinsizliyi qınayın. Camaat arasında hicabı, qara çadranı, qara əmmaməni təşviq edin, lüzum olduqda müftə paylayın. Səqaxana möcüzəsindən[62] qafil qalmayın.

Bu dəfə kəndlərə nüfuz etməlisiniz, çünki şəhərlərdə kifayət qədər nüfuz qazanmışıq. Sizə bunu da deyim ki, biz yalqız deyilik, böyük sistemin himayəsindəyik. Üstəlik, hakim nizam, qüdrət, ordu və qanun bizim tərəfimizdədir. Harada olursa-olsun, pul sahibləri bizi dəstəkləyir. Çünki pul

---

[61] – Danışıqda geniş yayılmış zərb-məsəldir. Hicri-qəməri tarixlə 35-ci ildə Müaviyənin xəlifə Osman bin Əffanın öldürülməsini (qana bulaşmış köynəyini) bəhanə gətirməsinə işarədir.

[62] – Söhbət 1924-cü il iyulun 18-də Tehran bazarında amerikalı diplomat Robert Uitni İmbrinin qətlindən gedir. Qətldən öncə Tehranda “Aşix Hadi”, yaxud “Ağa Şeyx Hadi” adlı səqaxanada baş vermiş möcüzə barədə şayiələr yayılıb. Deyilənə görə, səqaxanadakı çeşmədən su içən bir topal şəfa tapıb, bunun ardınca həmin məhəllədə dilənçiyə sədəqə verməyən bir bəhai kor olub. Xəbər qısa müddətdə bütün İrana yayılıb. “Neşnl Geoqrafik” jurnalı ilə əməkdaşlıq edən İmbri möcüzəsi ilə məşhurlaşmış məkanın fotolarını çəkmək istəyərkən, onun bəhai olduğu və səqaxanaya ziyan vermək istəməsi barədə şayiələr yayılıb. Azğınlaşmış kütlə İmbri və onu müşayiət edən Amerika missiyasının digər üzvünü qətlə yetirib. Bu hadisədən dərhal sonra ozamankı hökumət başçısı və hərbi nazir Rza xan ölkədə hərbi vəziyyət elan edib. Qətldə iştirak etmiş 3 nəfər edam olunub. İmbrinin cənazəsi “Trenton” gəmisində ABŞ-a göndərilib, onun dul arvadına isə 1950-ci ildə 70 min dollar təzminat ödənilib. Bəzi tarixçilər bu hadisənin Amerika şirkətlərinin İranda neft hasilatına maneə törətmək üçün ingilislər tərəfindən təşkil olunduğunu iddia edirlər.

sahibi əskinasın qoxusunu duyur və təhlükəni dərhal sezir. Buna görə də, azadlıqsevərlərin və inqilabçıların dediyi havada buxarlanacaq.

Hacı əlini jiletinin cibinə saldı, səkkiz min iki yüz tümənlik qəbzi Hüccətüş-şəriəyə uzatdı. Qəbzi görüncə axundun gözləri parıldadı, titrək əliylə onu cibinə qoydu və:

– Allah kölgənizi başımız üstündən əskik etməsin! – dedi.

– Səhv edirsiz, bu pul "Əncümən"indir, təbliğata xərclənməlidir. Qərara əsasən, sabah Urmiya tərəfə gedəcəksiz, başa düşürsüz? Əlbəttə, xərclər mümkün olduğu qədər azaldılmalıdır, pul lazım olarsa... ox... oxx... istənilən vaxt şifrəli teleqram göndərin, təcili qrifilə. Amma bu dəfə hesab-kitabı daha tez yollayın, özünüz işin çəmini bilirsiz.

Keçən kərə gördüyünüz işlər barədə yaxşı hesabat gəlib. Sizi o qədər tərifləmişəm ki, etimad qazanıbsız. Hərçənd yerinizə Bəkaüz-zakirini göndərməyi düşünürdülər, amma məsuliyyəti üzərimə götürüb israrla namizədliyinizi təsdiqlətdim.

Oralarda İraqdan, Beynən-nəhreyndən gəlmiş digər axundlarla rastlaşmanız mümkündür. Onların hesab-kitabı fərqlidir və rəqabətə ehtiyac yoxdur. Onlarla səmimi əməkdaşlıq etməlisiz, çünki səlahiyyətlilər bunu məqsədəuyğun sayırlar.

Əlbəttə, xidmətiniz qarşılıqsız qalmayacaq. Xalqın və tacirlərin vəziyyətindən yazın. Pul sahibləri hər yerdə tərəfdarlarımızdır. İlk növbədə, onlarla aşna-dost olmağa çalışın. – Hacı barmağını təhdidedici tərzdə yellədi. – Qəflət zamanı deyil a! Təlimat vermişəm, şəhərin bütün tacir və əyanları pişvazınıza çıxacaq.

– Hacı ağa, bütün vücudumla nökərinizəm. İcazənizlə əlinizi öpüm. – Hüccətüş-şəriə əyilib Hacı ağanın əlini öpdü, pırpız bığ-saqqalını qarşısındakı şəxsin kök, tüklü əlinə sürtdü. – İzninizlə bu gün günortadan sonra sizə şəqaqil[63] mürəbbəsi gətirim. Onun sayəsində siz zat-alinin xəstəliyi bitdikdən sonra canı qüvvətlənəcək, cinsi qabiliyyəti artacaq.

– İxtiyar sahibisiz. Sizə təşəkkür etməliyəm. Əslində, kafirlərlə cihad savabı qazanırsız. Bilirsinizmi, hərəkətsiz qalmaq olmaz... ox... oxx... Hə, sabah xəstəxanaya gedəcəm, bir səhv varsa, hər ehtimala qarşı bir xətamız olubsa, bağışlayıb halallıq verin. Qul xətasız olmaz, ağa kərəmsiz...

– Allah kölgənizi üstümüzdən əskik etməsin! Xudavəndi-Aləm sizə belə çətin günləri bir daha göstərməsin! İnşallah, mərəziniz keçib gedər. Məndə dəfə-dəfə təcrübədən keçirilmiş bir dua var. Onu da yazıb sizinçün gətirəcəm. Sol qolunuza bağlayarsız. Azca da türbət gətirəcəm, çox təsirlidir.

Hacı başını yırğaladı:

– Çox minnətdaram. – Saatına baxdı. – Murad!

Murad içəri girdi, biri Əliqulu Xeybərabadi, digər radiatorçu Səftərə məxsus iki vizit-kartı Hacıya uzatdı.

– Qurban, bu adamları qapıdan qaytardım.

Hacı bir az fikrə dalıb:

– Yaxşı, lap yaxşı, – dedi, – indi get Kəblə Zülfəlinin yanına, ondan əmanəti alıb bu otağa gətir. Elə et ki, uşaqlar görməsin!

Murad çölə çıxdı.

Hüccətüş-şəriə:

– Qurban, mürəxxəs ola bilərəm? – deyə soruşdu

– Allah amanında! İltimas-duanızı əskik etməyin. Sabah yola çıxırsız, oldu?

– Əlbəttə... əlbəttə... Allah razı olsun!

[63] – Yabanı yerkökü

– Mərhəmətiniz əskik olmasın!

Axund getdi. Hacı güclə ayağa qalxdı, bir neçə addım atdıqdan sonra geri qayıtdı, cib yaylığını götürdü, təmiz yer qalmadığını görəndə, ətrafına baxdı, sonra əbasının ətəyi ilə burnunu sildi. "Sabah xəstəxanaya gedirəm", – deyə öz-özünə donquldandı. Sonra iri sandıqlardan birinin qapağını açıb ora bir kağız qoydu. Bu dəm şalvarının kəməri yerə düşdü. Hacı əvvəlcə diksindi, sonra kəməri yerdən götürüb sandığın üstünə qoydu. Dübarə qəddini düzəldib əlini xalçalardan birinin kənarına sürtüb donquldandı.

Murad içində çörək, ciyər kababı olan məcməyi ilə otağa girdi. Hacı ağa şam yeməyinə oturdu, çənəsindən yağ, qan axa-axa, gicgahları tərpəşə-tərpəşə Murada dedi:

– Get, Məşdi Ramazandan beş sir[64] yaxşı üzüm al.

## *– 4 –*

Hacı lüt-madar, üzüqoylu, ayağını qarnına doğru yığmış, alnını iki əlinin üstünə qoymuş halda əməliyyat masasında idi. Sol qoluna bənd edilmiş dua görünürdü. Dodaqaltı "Ayətül-kürsi"ni oxuyur, burnunun suyu əməliyyat masasına axırdı. Arxasındakı güclü projektor vücudunun əməliyyat olunacaq yerini işıqlandırırdı. Gözləmə otağında, xəstəxananın dəhlizində rical, əyan, bazar əhlindən olan xeyli adam intizarla əməliyyatın nəticəsini gözləyir, Hacının əhvalını öyrənmək istəyənlərin telefon zəngləri bitmək bilmirdi.

Yanmış spirt, antiseptik dərman qoxuları ətrafı bürümüşdü. Qarayanız, çal saçlı və alicənab adam təəssüratı doğuran həkim Calinusül-hükəma dərman rəfinə doğru getdi. Hacı oğrun-oğrun ona baxırdı, həkim onun gözünə Şimr Zilcövşənin[65] timsalı kimi görünür, canının onun əlində olduğunu düşünürdü. Buna görə də, həkim hər dəfə əməliyyat masasına yaxınlaşdıqda, üzünü görməyə-görməyə zorən yaltaqcasına gülümsəyirdi.

Hacı həkimin rəfin qarşısında nə etdiyini anlamadı, amma buna qədər əməliyyat masasının yanında duran ağ xalatlı, xoş simalı gənc qadının yanmaqda olan spirt ocağına doğru getdiyini gördü. Adətkərdə vəziyyətdə olmadığına görə qadından utandı. Bu hissi boğmaq üçün ah-nalə çəkdi.

Həkim əməliyyat masasına yaxınlaşıb Hacının yanına iynə vurdu. Hacı əvvəlcə şiddətli ağrı hiss etdi, sonra fəryadı göyə yüksəldi. Həkim arxayın halda:

– Narahat olmayın, indi keçib gedər, – dedi.

Bundan sonra Hacı bədəninin keyidiyini, vücuduna məstedici rahatlığın yayıldığını hiss etdi. Həkim dübarə rəfə sarı gedib qayıtdı. Hacı bu dəfə yalnız rezin əlcək geymiş həkimin əlindəki şprisi gördü. Gənc qadın əməliyyat masasına yaxınlaşıb Hacının nəbzini tutdu. Həkim xəstəyə daha bir iynə vurdu, ancaq o, heç bir ağrı duymadı. Əksinə, xoş keyimə bütün bədənini bələdi. Aylarla davam edən iztirab, yuxusuzluqdan sonra ilk dəfə kef, nəşə aləminə düşmüşdü. Artıq heç nəyin fərqinə varmırdı. Yalnız həkimin tək-tük sözlərini eşidirdi.

O, yenə projektorun qarşısında dayanan həkimin divardakı kölgəsini gördü, sonra bədəninin xəstə yerindən isti mayenin axdığını hiss etdi. Bu dəfə tamamilə bihiss oldu, gözləri məstlikdən özü-özünə bağlandı.

Anidən Hacı boydan-boya kəfən içində olduğunu sandı. Elə bil kimsə qolundan tutub silkələyir, ucadan onu çağırırdı:

[64] – Çəki vahidi – 75 qram

[65] – İmam Hüseynin (ə.) qatili

– Hacı ağa!

Hacı da özü-özünə “Bəli!” dedi, amma hiss etdi ki, əslində, söz ağzından çıxmadı, fikrən söylədi.

Səs:

– Hacı ağa, bura sizin yeriniz deyil.

O, əvvəlcə ürkdü, çətinlik çəkmədən qəfildən dikəldi, gördü ki, vüqarlı, ciddi görkəmli, göyərçin kimi qanadlı iki mələk qabaq-qənşərində durur. Sol tərəfdəki mələk gözünə Möhtərəmin əmisi oğlu Gülübülbül kimi göründü. O, məlahətlə gülümsəyirdi. Hacı buna tam əmin olub özü-özüylə danışdı:

– Bütün həyatım boyu insanlarla xoşrəftar olmuşam, hamısının işinə əncam çəkmişəm, heç kimin malını yeməmişəm, qumarbaz, əyyaş olmamışam, kimsənin qəlbini qırmamışam, hamı barəmdə deyib: “Necə də həlim-salim adamdır!”

Mələk cavab verdi:

– Bəli, Hacı ağa.

– Mən xüms-zəkatımı mütəmadi vermişəm.

– Bəli, Hacı ağa.

– Mən Allah bəndələrinin müşküllərini həll etmişəm. Əgər namaz, orucumda bir qüsur varsa, vəsiyyət etmişəm, Hüccətüş-şəriə ağaya pul verin, qəzasını əda eləsin.

– Bəli, Hacı ağa, ixtiyar sahibisiz.

– İnqilaba müxalif olmuş, təkamülə inanmışam.

– Bəli, Hacı ağa, ixtiyar sahibisiz.

– Mənə həmişə tərif-mədh yağdırılıb. Amma indi məni hara aparacağınızı mütləq bilməliyəm.

– Bəli, Hacı ağa, ixtiyar sahibisiz.

– Düzü, yaxşı xatırlamıram, amma xeyli xeyirxah işlər görmüşəm. Hətta varlığım xeyirxahlıq mənbəyi olub.

– Yaxşıca fikirləş, gör, nə savab işlər görmüsən.

– O qədər çoxdur ki, saymaqla qurtarmaz...

– Bəli, yadımdadır, bir gün günorta vaxtı ovduğunuza milçək düşmüşdü, onu ovduqdan çıxarıb ölümdən nicat verdiniz.

Hacı bu cavabı gözləmirdi, birdən-birə haqq-hesab gününü xatırladı, Xudavəndi-Aləmin bütün bəndələrindən daha çox günah işlədiyini anladı. Özü-özünə dedi: “Yaman zarafatcıl mələklərdir!” Amma onların üzündəki ciddiliyin dəyişmədiyini gördükdə, dübarə fikrə getdi.

– Bəli, bütün həyatım boyu çox mərhəmətli olmuşam, həmişə ayağımın altına baxmışam ki, qarışqaları əzməyim... Odur ki...

– Odur ki, buyurun, Hacı ağa.

– Sizdən bir xahişim var.

– Buyurun, Hacı ağa.

– Xahişim budur ki... behiştə getmək... amma əvvəlcə evimi görmək istəyirəm. Sonuncu dəfə ona baxmaq üçün.

– İxtiyar sahibisiz, Hacı ağa!

Mələklər böyük bəyaz qanadlarını açdı, Hacını qanadlarına aldı, “Kəlilə və Dimnə”də olan qaz və tısbağanın hekayətindəki kimi, havaya qaldırdılar. Sonra bir göz qırpımında Hacını evinin qarşısına gətirdilər.

Nə görsə yaxşıdır? Murad Xeybərabadinin qarşısını kəsib, Xeybərabadi də xəstə gözü ilə yerə baxa-baxa çığır-bağır salıb:

– İndi başıma haranın külünü töküm!? Bu oğraş, yalançı oğru bütün malımı-mülkümü mənimsəyib. Əlimdə bir sənədim də yoxdur. Pulunu

ödəmədiyim radio ilə iki yük maşınını kimdən geri alım? Dədəmə od qoydu, müflis oldum! Mən o şərəfsiz oğraşın vəsiyyətnaməsinə baxmalıyam. Bəlkə orda bir şey yazıb. Yoxsa, başıma haranın külünü tökəcəm? Bu "Hacı ağa" deyilən nadürüst qara yerə soxdu məni!

Murad cavab verdi:

– Hansı Hacı ağa? Gəbərib getdi, canımız dincəldi! Səhərdən axşama qədər işi-gücü oğurluq, fırıldaq idi. Özümüzü tanıyandan belə bir afət-fəlakət görməmişdik... O dünyaya vasil olub getdi, görüm cəhənnəm odunda yansın! Get cəhənnəm mələyinin yanına, Hacıdan şikayət et!

Hacı coşub-daşdı:

– Qurumsaq! Şəhid Şahın dövrü olsaydı, ananı ağlar qoyardım... qanına qəltan etdirərdim... mənə hə... mənə...

Amma Muradın nə onu gördüyünü, nə də dediyi sözləri eşitdiyini anladı. Hacı utana-utana mələklərə baxdı. Fikrən "İçəri keçək", – dedi.

Evin həyətinə girdikdə, gördü ki, Kiçik ağa, Kəyumərs, Münadilhəqq, Xüzuri Həzgel və Dəvamül-vizarə süfrə ətrafında oturub "as-nas"[66] oynayırlar. Qumarda uduzan övladları kalan pul yazılmış qəbzləri qaliblərə verirlər. Hacının gözləri qaraldı, bağırdı:

– İt uşağı! Bu nə işdir belə, hə? Alnımın tərli ilə qazandığım bütün pulları bu bişərəflərə peşkəş edirsiz? İndi sizin...

Amma yenə də ətrafındakıların onu nə gördüyünü, nə də səsini eşitdiyini anladı. Mələklər Hacını artırmaya apardı. Pəncərə pərdəsi önündə boğazını arıtladı. İçəri girdikdə, qəribə bir mənzərə ilə qarşılaşdı: bütün arvadları vəsmə çəkmiş, bəzənib-düzənərək hovuz başında oturmuşdular. Ənis ağa və Məhliqa ənlik-kirşanlıydı; Möhtərəm və Əqdəs əl çalır və elə hay-küy salıblar ki, qonşular evlərin damına çıxaraq onları seyr edirlər. Sevimli arvadı Münir isə heyva çiçəyi rəngli çadrasını belinə bağlayıb, əlinə çubuq alaraq iri addımlarla gəzişir, sındıra-sındıra rəqs edir, Hacının içini yandıran can alan baxışı ilə sevinərək göz vurub mahnı oxuyur:

*Ərim tiryək çəkəndir,*
*Lap soxulcana bənzəyir,*
*Axşam evə gələndə*
*Məndən alır bir busə.*
*Həvəngi boş-boş döydün,*
*Bığımın altını süpürmədin.*

Digər arvadlar da gülür, çırtma vururdular.

Elə bil Hacıya od vurdular:

– Bihəya, əxlaqsız qadın! Yum ağzını, lal ol! Qonşuların yanında abır-həyamı apardız! İt balaları, cındırlar! Yallah, evimdən çıxın! Rədd olun hara istəyirsiz!..

Onun coşub-daşması bihudə idi. Üstəlik, mələklərin yanında alçalmışdı. Üzünü onlara tutub dedi: "Gedək! Sizə boş yerə əziyyət verdimsə, bağışlayın!" Mələklər bir ağızdan söylədi: "Necə də həlim şəxsdir! Necə də salim adamdır!"

Sonra onu götürüb havaya qaldırdılar, bir göz qırpımında əzəmətli bir qəsrin qarşısında yerə qoydular. Ucsuz-bucaqsız bir bağın ortasında yerləşən qəsri bürüyən ağacların budaqlarında xoşsəda quşlar cəh-cəh vururdu.

Hacı ağa kəmərini düzəltdi, əvvəlcə əsasını, cib yaylığını, təsbehini axtardı, amma heç birini tapa bilmədi. Çünki üstündə yalnız kəfən vardı.

[66] – İrana xas kart oyunu

Amma təəccübünü doğuran nə naxoşluq, nə yorğunluq, nə də ac-susuzluğu hiss etməsi idi, bir sözlə, heç nəyə ehtiyacı yoxudu. Bütün bədəni ilə rahat nəfəs alır, havanın ətri canına yayılır, ona ləzzət verirdi.

O, qəsrə nəzər yetirdi, yekparə zəbərcəddən[67] hazırlandığını gördü. Oyma naxışlı gözəl pilləkənləri vardı. Qönçəyə bənzər fəvvarələrdən süzülən sudan, xalçaların nəbati naxışlarından gözünü çəkə bilmirdi.

Birdən mələkləri gözlətdiyi yadına düşdü. İrəli addımlayıb qarşısındakı pillələri adlamağa başladı, heç bir çətinlik çəkmədən, yuxarı qalxıb içəri girdi. Böyük salonun pilləkəninə ayaq basmaq istəyərkən, mələklər önünü kəsdi, onu qapıçının otağına apardılar.

Sol tərəfindəki mələk:

– Sən bu qəsrin qapıçısısan, – dedi, – elə burada otur.

Hacı dodaqlarını büzdü, amma rahatca nəfəs aldı, otaqdakı kətildə oturdu. Anidən mələklərin yox olduğunu, onu yalnız qoyduqlarını dərk etdi. Ətrafına boylandı. Pilləkənlər çox qiymətli şəffaf mərmərdən, sürahiləri qızıl, abnus[68] və cürbəcür cəvahiratdan hazırlanmışdı. Bu zənginliyə, sərvətə belə yaxın olmasına tam inandığı vaxt, birdən divardakı böyük saatın zəng səsi eşidildi. Lakin saatın üzərindəki rəqəmlərin sayı o qədər çox idi ki, sanki sonsuzluğadək quraşdırılmışdı. Buna görə də, o, vaxtı təyin edə bilmədi.

Elə bu dəm Hacı ağa mələklər, hurilər və qılmanların şıq libaslarla pilləkənlər üzərindən uçuşaraq yuxarı qalxdığını gördü. Onların arasında az əvvəl sol tərəfində durmuş mələyi gözü aldı. Qarşısına gəlib soruşdu:

– Bu qəsr kimindir?

– Mademuazel Həlimə xanımın.

Hacı heyrətdən donub qaldı.

– Həlimə xanımın?

– Bəli, Hacı Əbuturabın keçmiş arvadı. Günahkar bəndə idi, amma o adamın evində o qədər əziyyət çəkdi ki, bağrı çatladı. İndi bu dünyada qəsrin sahibəsidir.

Hacı ağa dodağını dişləyib soruşdu:

– Yaxşı, bəs bu varlıqların hamısı onun kənizləri, qulamlarıdır?

– Xeyr, mademuazel Həlimə xanım bu axşam poker, rəqs məclisi təşkil edir. Bunlar onun pərəstişkarlarıdır. Çox yenilikçi və modern bir qadın olduğu üçün tez-tez belə ziyafətlər keçirir.

Mələk qələbəliyə qarışdıqdan sonra Hacı ağa dübarə fikrə getdi. Tezliklə çox gözəl, lətif musiqi sədası yüksəldi. Pillələrdəki cəvahiratın və çıraqların bərq vuran işığı Hacının gözlərini qamaşdırdı.

Bir müddət təəccüb içində qalıb, onu bürüyən gerçəyi dərk etməyə çalışdı. Heç bir ağrı hiss etmirdi. Heç bir şeyə ehtiyac yox idi. Ətrafda gəzişmək istəsə də, məsuliyyətdən yayınmaqdan qorxurdu. Mürgü vurmağa başladı, ancaq divar saatının ikinci zəngi Hacını oyatdı. Kefi pozulduğu o məqamda qonaqlar sel kimi aşağı axışdı.

Birdən keçmiş arvadı Həlimə xanımı qonaqların arasında görüb dərhal tanıdı. On dörd gecəlik ay kimi gözəldi, möhtəşəm gecə libası geymişdi. Bir əlində monokl eynək tutmuşdu, hərdən gözünə yaxınlaşdırıb baxırdı; o biri əlində fil sümüyündən düzəldilmiş bəyaz, uzun pərli yelpik vardı; qonaqlarla söhbətləşir, məclisi tərk edənlərlə xudahafizləşirdi. Hacı ağa bu cah-calalın, füsunkar libasların içində bədənini örtən kəfənə görə utandı.

---

[67] – xrizolit (qızılaçalar yaşılımtıl-sarı rəngli qiymətli daş).

[68] – yaxud ebenum; Seylonda bitən qara ağac

Həlimə xanım son pilləyə ayaq basanda, monokl eynəyi gözünə yaxınlaşdırıb Hacıya nəzər yetirərək üzünü turşutdu, Hacının yanında dayanan sol mələyə üz tutdu:

– Bu kimdir?

– Yeni qapıçı.

Hacı ağa təzim eləyib gülümsədi:

– Hüzurunuzdakı ən kiçik bəndəniz Hacı Əbuturab.

Həlimə xanım dərhal mələyə əmr etdi:

– Bu nakişi qurumsağın mitilini elə bu dəqiqə çölə atın!

İztirabın şiddətindən Hacı ayılıb gözlərini açdı, özünü xəstəxana otaqlarının birindəki çarpayıda uzanmış gördü. Yatağının yanında arvadı Zübeydə oturmuşdu, digər yanda da cərrahiyyə əməliyyatında iştirak etmiş ağ xalatlı gənc qadın nəbzini yoxlayırdı.

Zübeydə gülümsədi:

– Əlhəmdülillah, hər şey yaxşı qurtardı! Hacı ağa, şeytanın qulağından uzaq, kəfəni yırtdız. Vəssalam, canınız qurtuldu!

Sonra üzünü qapıda duran adama tutub dedi:

– Gedin, ağalara müjdə verin, deyin ki, Hacı özünə gəldi.

Hacı qısıq səslə:

– Özüm də bilirdim, – dedi.

– Nazirlər, millət vəkilləri, möhtərəm səfirlər gözləmə otağındadırlar. Ağayi Dəvamül-vizarə bu qızıl meyvə qabını sizə göndərib.

– Qızıldandır?

– Bəli, büsbütün...

– Ver, əlimi toxundurum... Yaman ağırdır a!

– Pis deyil, çəkisi yarım batman olar.

Hacının çat-çat olmuş dodaqlarına təbəssüm yayıldı. Mehriban rəfiqlərinə diqqət və qayğıya görə təşəkkür etmək istəyirmiş kimi, dedi:

– İndi rahat oldum. Artıq heç bir dərdim yoxdur.

– Bundan yaxşı nə ola bilər ki?! Yoxsa ödümüz ağzımıza gəlmişdi. Sizsə əməliyyatdan qorxurdunuz, noldu, qorxulu nə vardı ki?

– Heç bilirsən nəyi gördüm?.. O dünyanı!

– Bu nə sözdür deyirsiz? – Sonra maraqla soruşdu: – Hə, nə gördüz ki?

– Mən həmişə o dünyadan qorxurdum. Özüm-özümə deyirdim: “Cəhənnəmlik olma ha!” Amma indi ürəyim rahatlandı. Heç bilirsən orada mən kiməm?

– Yox.

– Heç kim. Bu dünyada sizin evinizin qapıçısı, o biri dünyada da mademuazel Həlimə xanımın qəsrinin qapıçısı!

*Təmmətəl-kitab bəunil-məlikul-vəhhab fi darəl-xilafə Tehran malihallah ənilhədsan fi əsril-qənabil illə tumi*
*mim mim mim mim*
*mim mim mim*
*mim mim*
*mim*

***Oxucudan dua umuram,***
***Çünki günahkar bəndəyəm.***



***Farscadan çevirdi: Əziz RZAZADƏ***



*Ayaz ARABAÇI*

Küləklərə qoşulub hara gəldi gedəsən,
Qaçasan bu şəhərin cəhənnəm istisindən.
Nə ki ümidlərin var, tikə-tikə edəsən,
Çıxasan boğulduğun arzuların hisindən.

Gedəsən e, lap elə ayağın tutan qədər,
Hər daşı, hər ağacı balan kimi qucasan.
Geridə nə qalırsa, qoyub tamam dərbədər,
Durnalara qoşulub uçduqca hey uçasan.

İmtina eləyəsən səni minən bir addan,
Dönməyəsən dalınca göynəyən haraylara.
Qəfil unudulasan, qəfil çıxasan yaddan,
Qarışasan bir ömür axıb-gedən çaylara.

Qaşa dönə bir ulduz ürəyinin tacında,
Amma nə əlin yetə, nə bir yol görüşəsən.
Çiçəkləyib açasan bir alma ağacında,
Atasız uşaqların nağılına düşəsən.

Əskilməyə üzündən işıq, məhəbbət, gülüş,
Çiçəklərin şehində çimən arı olasan.
Dəryadan bir at çıxa ağappaq, nalı gümüş,
Bir qızın qaymaq tutan yuxuları olasan.

Gedəsən, göy üzütək dolub, dolub gedəsən,
Çıxıb getmək yaxşıdı, baxa-baxa qalınca.

Lap bir əlçim, bir ovuc duman olub gedəsən
Elə hey üzüb gedən gəmilərin dalınca.

Kimsəsiz bir ananın döyəsən qapısını,
Aparasan adına ən qiymətli bir ənam.
Hönkürəsən o kivar, sinəsinə qısılıb,
Deyəsən ki, mən sənin çoxdan ölmüş oğlunam.

Qurumuş əlləriylə silib göz yaşlarını,
Çəliyinə dirənib ağı deyə bir ağız.
Gəzdirəsən üzündə isti baxışlarını,
Deyəsən ki, yalandı aldığın qara kağız..

Ot basmış həyətini, bağını-bağçasını
Bir saatın içində səliqəyə salasan.
Töküşdürə durmadan toz basmış taxçasını,
Dizlərinə söykənib sübhə kimi qalasan.

Gəzə titrək əlləri qarışqatək üzündə,
Elə bilə yuxudu, elə bilə əcəldi.
Batırasan dünyanı içindəki hüzündə,
Qoşulub küləklərə gedəsən hara gəldi...

***

Ad tapa bilmirəm bu qısqanclığa,
Yediyim-içdiyim zəhərə dönüb.
Bir dənə salamat küçəsi yoxdu,
Ürəyim xaraba şəhərə dönüb.

Odlu silah kimi susmayır dilin,
Yüz yerə, min yerə cəbhələnirsən.
Söndürüb atıram telefonumu,
Onda da başqa cür şübhələnirsən.

Qaçıb istiliyi evin-eşiyin,
Sən məni özgənin, yadın bilirsən.
Köhnə, it ürpənən kitabçamdakı
Kişi adlarını qadın bilirsən.

Guya işim-gücüm feysbukdakı
Türfə gözəlləri tilovlamaqdır.
Fikrin tək özünə bağlamaq deyil,
Ruhumu at kimi cilovlamaqdır.

Burax bu söhbətin başını getsin,
Mənəmi, onamı, kimə yanırsan...
Elə ki balaca sığal verirəm,
Dən düşən saçıma havalanırsan.

Bircə söz bilirsən tutuquşutək,
Bezdim bu tövründən, bu hallarından.
Adam balasısan, bəsdi də, əl çək,
Məzmunu şübhəli suallarindan...

***

Sağalmaz yarası acı günlərin,
Sən mənim dərdimə ayrı əlac gəz.
Həkim, o verdiyin analginlərin
Biri də ağrımı azalda bilməz.

Nəfəsdi, alıram-verirəm az-az,
Durma bu qəfəsə boş yerə zamin.
Sən mənə bir dənə "bomba" resept yaz,
Olum birdəfəlik İlahi, amin..

Başımı aldatma cavansan deyib,
İsrarın əbəsdi, cəhdin əbəsdi.
Hər axşam ömrümü-günümü yeyib
Çəkdiyim ağrılar özümə bəsdi.

Yatdığım otağın pəncərəsindən
Ölüm əl eləyib neçə yol mənə.
Kömək etməyəcək, bildim səsindən,
Yazdığın validol, karvalol mənə...

Gecdi, o mənasız təsəlli gecdi,
Söyləmə bildiyin doğrunu yanlış.
Bu ömrün sonuncu baharı keçdi,
Qəfildən qapıma dirənibdi qış.

Nə mənə şəfa var, nə sənə əhsən,
Sağalmır diləknən könül çatları.
Orda bir yara var harama dəysən,
Sınama üstümdə aparatları..

Azalmaz könlümdən qüssə-qəm, qəhər,
Qar tutub, buz tutub iliklərimi.
Qəbirdən dururam sanki hər səhər,
Yığıb-dəstələyib sümüklərimi.

Bu pəhriz-bu məhriz nəyimə gərək,
Sən o dərmanı da tam azalt, həkim.
Elə şumlayıb ki içimi fələk,
Boşuna söhbətdi inam-zad, həkim.

Bir yerə cəmlənib dövlətim-varım,
Duzlara, qumlara, daşlara dəymə.
Qoy özüm - özümü yuyum qurtarım,
Gözümdən süzülən yaşlara dəymə.

Sağalmaz yarası acı günlərin,
Sən mənim dərdimə ayrı əlac gəz.
Həkim, o verdiyin analginlərin
Biri də ağrımı azalda bilməz...

***

Payız kədərinə bürünüb hər yan,
Ağaclar narıncı qəmə bələnib.
Durmuşam sahildə gözləri giryan,
Yollarım dənizlə çərçivələnib.

İndi qulağımda o qəmli neydən,
Bircə ün yaşayır, bircə səs qalıb.
Yüz metr getməmiş düşmüşəm heydən,
Könlümdə nə arzu, nə həvəs qalıb...

Qızıl şəfəqini yoluma salıb,
Açılıb üzümə gümüş pəncərə.
Başımı qollarım üstünə alıb,
Yayxanıb qalmışam ağ məhəccərə.

Hər payız gələndə dinir qaboyu
Hələ də qəlbimi didən neştərin...
Mənim də bir zaman bu sahil boyu
Bitib-tükənməzdi sərgüzəştlərim.

Hərdən az qalıram, elə bu payız
Minib bir gəmiyə gözdən itəm mən..
Bir gecə qəfildən unutduğum qız,
Təkcə xatirədən ibarətəm mən...

***

Arada yalançı məsafələr var,
Vəslinə heç cürə çatmağa qoymur.
Həsrətin özünü şəhid eləyir,
Başımı bir "dəyqə"qatmağa qoymur.

Yoxdu bu həyatdan can güvənliyim,
Qıc olub, açılmır ömür tənliyim,
Qanıynan aldığı eşqi mənliyim,
Kiməsə çox ucuz satmağa qoymur.

Qıvrılıb qalıram paramın üstə,
Ağrıyır, çevrilsəm haramın üstə,
Eləcə duz tökür yaramın üstə,
Xəyalın gecələr yatmağa qoymur.

Nə zaman yürüyür, nə rəcəb olur,
Mənə nə olursa, çox əcəb olur.
Bəlkə duaların müstəcəb olur,
Məni göz yaşımda batmağa qoymur.

Xoşbəxtlk haqqında hansı hədis var?
Unutma, qəlbində mən adlı pis var.
Ehh, dəli, içimdə nəsə bir hiss var,
Səni unutmağa, atmağa qoymur...

***

Bir durnanın qanadını qırıb da,
Kağızlara lələk şəkli çəkirəm.
Ürəyini almaq üçün hər dəfə,
Hiylə şəkli - kələk şəkli çəkirəm.

Bircə kərə danışsana, dinsənə,
Nədi, bəlkə toxunubdu cin sənə.
Boş-boş sözlər yazmıram ki mən sənə,
Hər şeirimdə mələk şəkli çəkirəm.

Qürurundan mən tərəfə əy, adda,
Nə qalır ki bu sevgidən nə, yadda,
Dovşan qədər olmasam da həyatda,
Bəbir şəkli, pələng şəkli çəkirəm.

Adam gərək yıxılmasın sözündən,
Bacardıqca muğayat ol özündən,
Sən çox yaxşı ələyirsən gözündən,
Mən çox yaxşı ələk şəkli çəkirəm.

Arzuların, xəyalların qadını,
Unudummu bu sevginin dadını?
Nə zaman ki çağırıram adını,
Eləcə bir ürək şəkli çəkirəm.

Bu sevdadı, ağrıdanda ağrıma,
Nə yazım ki, bir şey gəlmir ağlıma.
Heç vaxt səndən olmayacaq oğluma,
Beşik şəkli - bələk şəkli çəkirəm.



*Fəxrəddin TEYYUB*

## TABLO

Qaralıb çöhrəsi, üzü narın da,
Göydən yağış yağır yerə var kimi.
Çılpaq budaqların şiş uclarında
Damcılar asılıb sırğalar kimi.

Çətir yarpaqları hardadır görən,
Tanıya bilmirəm qoz ağacını.
Üşüyən innabla göz-gözəyəm mən,
Duyur içimdəki ağrı-acını.

Neçə qönçə ömrü qalıb yarıda,
Alıb şilləsini əsən rüzgarın.
Boynunu bükübdü gül kolları da,
Gözləyir yolunu gələn baharın.

Üzümən oxunu ürəyindəki,
Gül düzüm arzumun küçələrinə.
Payızın nəfəsi dəyməsin təki
Mənim ümidimin qönçələrinə.

## GEDİR

Sevmirəm dərdimi kiməsə deyim,
Ağrımı içimdə çəkirəm, gedir.
Kədəri gözümdə bir toxum kimi,
Gözümün yaşıyla əkirəm, gedir.

Ruzum qaçaq düşüb əlimə gəlmir,
Günümə, ayıma, ilimə gəlmir.
Söz var ürəyimdən dilimə gəlmir,
Yetimtək boynumu bükürəm, gedir.

Dua da, alqış da canıma gəlir,
Ruhu təzələyir, qanıma gəlir.
Könlü qübar olan yanıma gəlir,
Ümidlə yarasın tikirəm, gedir.

## ÖMRÜ

Kamana vuruldum, sazdan doymadım,
Yayda isinmədim, yazdan doymadım.
Mən çoxu görmədim, azdan doymadım,
Vermişəm şaxtaya, ayaza ömrü.

Hər keçən xoş günüm simuzər kimi,
Dünya kimə gümüş, kimə zər kimi.
Səhvlərim alnımdan axır tər kimi,
İlahi təzədən kaş yaza ömrü.

Bəxti bəd adama əla yazıldı,
Yaxşının baxtına bəla yazıldı.
Dərinin quyusu dərin qazıldı,
Hədiyyə verdilər dayaza ömrü.

Hələ də qönçəyəm gül açmamışam,
Bir körpə uşağam, dil açmamışam.
Dilənçi deyiləm, əl açmamışam,
Tanrım, neyləyərdim bu qısa ömrü.

## KÜLƏK, YAĞIŞ…

Sevinc aşıb-daşır, ümid bir ətək,
Şükür ki, birtəhər ötürdüm qışı.
Döyməyin qapımı qəfil qonaqtək,
Nə səni sevirəm, nə də yağışı.

Qızılgül küləkdə necə dikəlib?
Buta gözlərində qəmi-nisgili.
Elə bil uşaqdı, dalaşıb gəlib,
Çeçələ barmağı sınıb əzgilin.

Ləçək bir ömürdü, yarpaq bir ömür,
Qoxusu ayrıdı çiçəyin, otun.
Mənə gözəlliyin sirrini demir,
Gözümü oxşayır barı xar tutun.

Yağış nə vaxt kəsər görəsən, Allah,
Silin göz yaşını, qönçə ağlayır.
Külək, dayan bir an, əsmə, sən Allah,
Görmürsən ağaclar bala saxlayır?

## ÖLÜMÜN RƏNGİ

Qəlbimdə daha yox gileyin yeri,
Demirəm bu dərddən zara gəlmişəm.
Tanrım, saya gəlməz möcüzələrin,
Hara gedəcəkdim, hara gəlmişəm.

Doğmalar nə bilsin başımda nə var,
Mənim bu halımı axı görən kim.
Sağımda, solumda ağ xalatlılar,
Nəbzimi ölçən kim, dərman verən kim.

Çökdü boğazıma yenə də qəhər,
Necə də ağrıya mən sinə gərdim.
Ölümün rəngini gördüm bu səhər,
Kaş rəssam olaydım, şəklin çəkərdim.

## TİBB BACISIYLA SÖHBƏT…

Üzündə təbəssüm çox olaydı kaş,
Görəydim sevincdən gözlərin gülür.
De görüm, çatırmı aldığın maaş,
Dayanma kədərli, boynu bükülü.

Sən Allah, nə olar, danış səmimi,
Süfrəyə nə qoyub, nə götürürsən.
Tale qarğışına düşənlər kimi,
Görürəm, elə hey köks ötürürsən.

Qayğılı baxışın qəlbimi sıxır,
Dumantək içimə çökürəm, bacı.
Az qala öz dərdim yadımdan çıxır,
Sənin də dərdini çəkirəm, bacı.

## ANAMIN ŞALI

Bəzən inciyirəm özüm özümdən,
Sən hardan biləsən halımı, ana!
Gərək qoruyaydım yaylığını mən,
Gərək saxlayaydım şalını, ana!

Elə sənin üçün mənəm ağlayan,
Səni məndən özgə düşünən kimdi.
Hanı darvazanı açıb-bağlayan,
Ana, həyət-baca sənsiz yetimdi.

Özüm də bilmirəm dözürəm nəyə,
Saçını darayan darağın hanı?
Ot da gətirərdin ala inəyə,
Biçənək yerində orağın hanı?

Vedrə pas atıbdı, kəndir yerində,
Quyunu doldurub kimdi itirən?
Qardaşım ev tikib təndir yerində
Anamın təknəsi hardadı görən?

Bəzən inciyirəm özüm özümdən,
Sən hardan biləsən halımı, ana.
Gərək qoruyaydım yaylığını mən,
Gərək saxlayaydım şalını, ana.

## YOX

Göyün yerə payı yağış,
Ömür bəxtdi, ömür naxış.
Xam torpağam, ürəyim xış,
Becərənim, əkənim yox.

Kəsən gərək göz yaşını,
Bu dünyanın savaşını.
Min ildi əlhəd daşını
Ətəyindən tökənim yox.

Bitməyən dəndə ölmüşəm,
Dumanda, çəndə ölmüşəm.
Anam köçəndə ölmüşəm,
Qəbrimə baş çəkənim yox.

# "HƏYAT – ALLAHIN YARATDIĞI FİLMDİR"



***Kinorejissor VAQİF MUSTAFAYEVLƏ sənətşünas ƏLİSƏFDƏR HÜSEYNOVUN söhbəti***

**– Vaqif müəllim, Siz orta məktəbi bitirdikdən sonra keçmiş Xalq Təsərrüfatı İnstitutunda ali təhsil almısınız və ixtisasca iqtisadçısınız. Amma taleyiniz birdəfəlik kino sənəti ilə bağlanıb. Və bu gün mən Azərbaycan kino sənətində müəllif kinosunun banisi, Avropa Kino Akademiyasının üzvü, bir çox nüfuzlu beynəlxalq mükafatlar laureatı Vaqif Mustafayevlə söhbət edirəm.**

**Sizi kinoya nə gətirdi və heç də hamar olmayan bu yolu necə qət etdiniz?**

– Dayım Tbilisi şəhərində Sənaye institutunda təhsil alıb və tələbəlik illərində Tbilisidə yaşamağı onun taleyində mühüm rol oynayıb. Belə ki, orada qədim gürcü knyazları nəslindən olan Evdokiya (Alekseyevna Baksadze - Ə.H.) adlı bir gürcü qızla tanış olur və tale elə gətirir ki, bu tanışlıqdan sonra onlar bir-birilərini sevib evlənirlər. Ailə qurduqdan sonra onlar bir yerdə "Gürcüstanfilm" kinostudiyasında işə düzəlirlər və dayım bu nüfuzlu kinostudiyanın baş mühəndisi, xanımı isə plan şöbəsinin müdiri vəzifələrinə qədər yüksəlirlər. Dayım hətta Gürcüstanın əməkdar mühəndisi fəxri adını alır. Bunu ona görə deyirəm ki, Gürcüstan kimi monoetnik bir respublikada bu uğura imza atmaq o qədər də asan deyildi...

Mən hələ kiçik yaşlarımdan yay tətilini Tbilisidə – dayımgildə keçirirdim. Dayımgilin evi isə kinostudiyanın arxasında Kür çayına açılan ərazidə kinostudiyanın işçiləri üçün salınmış kiçik şəhərcikdə yerləşirdi və həmin həyət, oranın xoş aurası, orda yaşayan kino xadimlərinin həyat stixiyası tədricən məni də öz ağuşuna alırdı... Kinostudiyada yaxşı bir ənənə vardır: həftənin cümə günlərində məxsusi orada çalışanlar üçün kinoprokata daxil olmayan filmlər nümayiş etdirirdilər...

**– Gürcü filmləri?**

– Xeyr, sovet və dünya kinosunun ən yaxşı nümunələrini və mən də dayımla, onun həyat yoldaşı ilə bir yerdə həmin seanslarda iştirak edirdim. Görünür, kino sənətinə marağımın ilk rüşeymləri də elə o vaxtlar – həmin filmlərə tamaşa etdiyim anlarda yaranmışdı... Yadımdadır, belə seansların birində biz Q.Notansonun çəkdiyi "Bir daha məhəbbət haqqında" filminə baxdıq və bu film nəyə görəsə dayımın xanımının xoşuna gəlmədi. Biz çölə

çıxanda dayımın xanımı həmin filmin afişasının vurulduğu yerdən keçəndə ayaq saxladı, afişaya nəzər saldı, sonra mənə baxıb qəfildən dedi: "Vaqif, sən çalış, mütləq rejissor ol".

Təəccüblə soruşdum ki, niyə, Dusya xala? Dedi ki, hiss edirəm ki, səndən yaxşı rejissor olar.

Dusya xalanın o vaxt zarafatlamı, ya ciddimi dediyi bu sözlər elə bil tale yolumda bir mayaka çevrildi.

Orta məktəbi bitirib sənədlərimi və yaradıcılıq müsabiqəsində iştirak üçün zəruri olan əsərlərimi UİDKİ-yə təqdim etdim. Bir müddət sonra imtahan komissiyasının sədri E.Dziqandan müsabiqədən keçməyim barədə təbrik teleqramı aldım və həvəslə qarşıdakı imtahanlara hazırlaşmağa başladım. Lakin həyat məktəbi keçmiş bəzi müdrik adamların məsləhəti məni dayanıb fikirləşməyə vadar etdi. Onların söylədiklərinin mahiyyəti bu idi ki, cibində 1 yox, lap 5 UİDKİ diplomu gəzdirsən də, həyatı öyrənməsən, onun sirlərini bilməsən, yaxşı rejissor ola bilməzsən, çünki yaradıcılıq – xüsusən də kino sahəsində təcrübə tələb edir. Soraq-məlumat kitablarını ələk-vələk edib təhsil müddəti ən az olan fakültəni – Xalq Təsərrüfatı İnstitutunun xalq təsərrüfatının iqtisadiyyatı və planlaşdırılması fakültəsini seçdim, elə həmin ildə də imtahan verib qəbul olundum.

**– Niyə məhz təhsil müddəti az olan fakültəyə?**

– Bunların hamısı kinoya olan sevgidən irəli gəlirdi. İstəyirdim ki, ali təhsilimi tez başa vurub müstəqil həyata başlayım və həyatın diqtə etdiyi qayda-qanunları, onun ziddiyyətlərini öz taleyimdə yaşayım – yəni həyatı kitablardan yox, öz şəxsi təcrübələrimdən öyrənim. Amma kino məni rahat buraxmır, maqnit kimi özünə çəkirdi. Hesab edirdim ki, mənim stixiyam kinodur, yalnız o mühitdə özümü rahat hiss edə bilərəm. O mühitdə isə heç bir əlaqəm, mənim ora daxil olmağıma kömək edəcək heç bir tanışım, qohumum yox idi.

Belə bir böhranlı, tərəddüdlü anımda qonşuluğumuzda yaşayan görkəmli aktyor Rza Əfqanlı dadıma yetdi. Dedi ki, oğul, çalış kinostudiyada Adil İsgəndərovun açdığı 3 illik aktyor sənəti kursuna daxil ol, o mühitə qoşul, yalnız bundan sonra arzularını reallaşdırmaq üçün imkanlar açılacaq. Beləlikə, elə Rza müəllimin rəhbərliyi altında həmin kursa daxil olmaq üçün hazırlığa başladım. Dəqiq yadımdadır, kursa imtahan götürənlər arasında Adil müəllimin özü, Leyla Bədirbəyli kimi böyük sənətkarlar vardı. Mən S.Vurğunun "Zəncinin arzuları" poemasını əzbərdən söylədim. İfam xoşlarına gəldi. Sonra bir neçə etüd də göstərdim və komissiyanın qərarı ilə kursa daxil oldum. Beləlikə, mənim kino mühitinə qovuşmaq, o mühitdə yaşamaq və işləmək istəyimin reallaşması üçün yaxşı imkanlar yarandı.

**– Sizin ilk müəllimləriniz kimlər idi və aktyor kimi özünüzü sınaya bildinizmi?**

– Adil müəllimin həm kinostudiyanın direktoru, həm də aktyor kimi qayğıları çox idi, ona görə də məşğələləri əsasən Əbdül Mahmudov, Muxtar Manıyev, Elxan Qasımov, Ötkəm İskəndərov aparırdılar. Lakin mənim üçün əsas məsələ aktyor olmaq yox, məbəd hesab etdiyim kinostudiyada – kinonun ərsəyə gəlməsində əvəzsiz xidmətləri olan böyük şəxsiyyətlərin işlədiyi bir məkanda mövcud olmaq, filmin yaranma prosesini görmək, hətta hansı bir formadasa bu prosesdə iştirak etmək idi. O ki qaldı aktyorluğa – bilirsiniz ki, mənim bu sahədə elə bir zəngin təcrübəm yoxdur. Hərçənd hələ kurslarda oxuyanda Hüseyn Seyidzadə məni "Gəncəbasarlı qisasçı" (başqa adı "Qatır Məmməd"dir – Ə.H.) filmində epizodik bir rola – çapar roluna çəkmək istəyirdi. Sonra elə oldu ki, o, bu filmi çəkməkdən imtina etdi və təbii

ki, mən də çəkilmədim... Amma bu film hər halda mənim kino taleyimdə mühüm rol oynadı.

**– Nə mənada?**

– Filmin bəzi epizodları pavilyonda çəkilirdi və mən çəkiliş prosesinin bütün incəliklərini, sirlərini öyrənmək məqsədilə bu prosesdə fəal iştirak edir, necə deyərlər, "başım girməyən yerə də bədənimi soxurdum". Civə kimi burdan ora, ordan bura axırdım. Həmin çəkilişlərin birində Adil müəllim pavilyona gəlib çəkiliş meydanına yaxınlaşdı. Bilmirəm nə gördü, görmədi – qəfildən üzünü Hüseyn müəllimə tutub dedi: "Qadam, bu diribaş uşağı hardan tapmısan? Yoxsa ondan 2 dənədir? Maşallah sağıma baxıram – onu görürəm, soluma baxıram – onu görürəm. Elə bil civədi bu." Hüseyn müəllim də qayıtdı ki, hə, çox diribaş, qabiliyyətli uşaqdır. Amma nə olsun? İşə götürmək istəmirlər. Adil müəllim "Necə yəni götürmürlər?" – deyib bu dəfə üzünü mənə tutdu: "Qadam, sabah gəl kadrlar şöbəsinə, əmrini verəcəm". Beləcə, Azərbaycan kinosunun 3 nəhəng sənətkarının xeyirxahlığı, xeyirduası ilə kino dünyasına sıravi zəhmətkeş bəndə kimi daxil oldum və buna görə öz taleyimə minnətdaram. Əsl ekran təfəkkürü çəkiliş meydanında, işıqçıdan, pirotexnikdən tutmuş montajçıya qədər bütün subyektlərin fəaliyyətini izləyə-izləyə, onların yaradıcılığını öyrənə-öyrənə formalaşır. Rejissor olmaq üçün rejissor köməkçisi, rejissor assistenti, 2-ci rejissor, rejissor mərhələlərini keçmək mütləq lazımdır, rejissorun öz stili, estetikası, dünyagörüşü bu təcrübənin üzərində formalaşır…

**– Rejissor olmaq üçün hər halda təhsil almaq da vacibdir...**

– Əlbəttə, elə ona görə də mən yenə Moskvaya can atırdım. Bu dəfə sənədlərimi Dövlət Kino Komitəsinin nəzdində açılmış 2 illik rejissorluq kurslarına göndərdim. Qabiliyyət imtahanlarından uğurla keçdim. Amma ən məsuliyyətli məqamda yenə də tale mənimlə zarafatından qalmadı. Bəlkə də bu, taleyin işi deyildi, kimlərinsə xudbinliyinə, paxıllığına dəlalət edən bir oyun idi…

Kimlərsə mənim hərbi xidmətə gedib sonra oxumalı olmağın zərurətini ortaya atdı, halbuki mən demək olar ki, qəbul olunmuşdum və kursun rəhbəri E.Lotyanu istəsəydi mənə möhlət verilməsi xahişi ilə lazımi instansiyalara müraciət edə bilərdi... Bunu ona məsləhət görənlər vardı. Amma o, bunu etmədi, əksinə üstüörtülü bir ironiya ilə "Əlvida, əzizim. Bəlkə də həmişəlik əlvida" – deyib mənə əl yellədi. Amma mən ruhdan düşüb sınsaydım, daha Vaqif olmazdım ki! 1 il Rostovda hərbi xidmətdə oldum. Bakıya qayıdandan sonra "Mozalan" satirik kinojurnalı ilə əməkdaşlıq etdim, bu məktəbi də keçdim və növbəti dəfə sənədlərimi Moskvaya göndərdim. Müsabiqəyə təqdim etdiyim yazılarım yenə də bəyənildi, yüksək qiymətləndirildi, amma bu dəfə imtahan komissiyasının üzvləri arasında mənə münasibətdə fikir ayrılığı yarandı.

Bir sıra görkəmli kino mütəxəssislərinin istəyinin əksinə olaraq, sonradan müəllimim olan Eldar Ryazanov və məşhur aktrisa Lyudmila Qurçenko nədənsə bu məsələdə qeyri-loyal mövqe tutmuşdular.

**– Bilmək olar nəyə görə?**

– Mənim seçdiyim ixtisas – kinokomediya rejissorluğu idi. Həmin janrın görkəmli nümayəndəsi olan E.Ryazanov isə nədənsə mənim şəxsimdə bu janra öz töhfələrini verəcək rejissor fenomenini görmürdü… Amma mən "Yaramaz"ı çəkəndən sonra "Sovetskaya kultura" qəzetində çap etdirdiyi məqaləsində öz səhvini etiraf etdi...

**– Bəs E.Lotyanu ilə yollarınız kəsişmədi ki?**

– Bu, artıq "Yaramaz"dan əvvəl olmuşdu – mən kurs işlərimi çəkəndən sonra. Yadımdadır, Kino Evindəki kafedə oturmuşduq. Birdən öz kiçik oğlu-

nun əlindən tutub bizə tərəf gələn Lotyanunu gördük. O, masaya yaxınlaşanda ayağa qalxdıq. Bizimlə əyləşdi və dedi ki, sağlıq demək istəyirəm. Qədəhi qaldırıb dedi: "Mən bir vaxtlar bir məclisdəki Vaqifə qarşı etdiyim səhv hərəkətimə görə günahımı yumaq istəyirəm. Onun çəkdiyi qısametrajlı filmlər hər cür tərifə layiqdir". Qədəhi başına çəkib yerə qoyandan sonra üzünü oğluna çevirdi: "Sənə haqqında danışdığım Vaqif , bax budur".

**– Yeri gəlmişkən, bir şey soruşum. Siz Eldar Ryazanovun kursunda təhsil almış, peşəkarlığın sirlərini ondan öyrənmisiniz. Amma filmlərinizə baxanda bu qətiyyən hiss olunmur. Sizin üslubunuzda, rejissor dəst-xəttinizdə Eldar Ryazanovun kino fəlsəfəsinin təsiri yox dərəcəsindədir.**

– O vaxtlar SSRİ kinosunda komediya janrında uğurlu fəaliyyət göstərən, janrın estetikasını zənginləşdirən 3 rejissor var idi: E.Ryazanov, L.Qayday və Q.Daneliya. Deyim ki, bu janrda öz sözünü demək və həmişə eyni səviyyədə filmlər çəkmək çətindir.

**– Düzdür. L.Qaydayın son işlərindən olan "Sportloto-80" filmi bədii-estetik məziyyətlərinə görə "Şurik" silsiləsinə uduzur.**

– Yəni demək istəyirəm ki, sənətə iddia ilə gələn şəxs gərək öz üslubunu yaratsın, öz simasını formalaşdırsın. Kimdənsə onu yamsılamaq səviyyəsində "öyrənmək" səhv yoldur.

Mən çox sevinirəm ki, Eldar Ryazanovun tələbəsi olmuşam. Vacib deyil ki, onun üslubunu, yozumunu öz filmlərinə proyeksiya edəsən. Hər kəs öz yerişini yeriməlidir.

**– Nə üçün həyatın kinematoqrafik yozum vasitəsi kimi məhz gülüş sənətini, komik janrı seçdiniz?**

– Bunun izahını vermək çətindir. Bu bir stixiyadır, həyat və düşüncə, özünüifadə məsələsidir. Yaradıcılığın psixologiyası ilə nəzəriyyəçilər məşğul olsalar yaxşıdır. Təkcə onu deyə bilərəm ki, gülüş insanın daxili gücünün ifadəsidir. Həqiqətləri gülüşlə əks etdirmək digər üsullara nisbətən daha çətindir.

**– Bu yaxınlarda internet məkanında belə bir yazı oxudum ki, guya biz Şərq mədəniyyətini təmsil edən bir xalq olaraq həyatın ziddiyyətlərindən doğan əzablarımızı gülüşlə yox, göz yaşları ilə qarşılamağı xoşlayırıq və ümumiyyətlə gülüş mədəniyyəti, gülməyi bacarmaq bizə yaddır. Mən bir çoxları tərəfindən "bəh-bəhlə" qarşılanan həmin yazıya belə bir rəy yazdım: "Qoy bu yazının müəllifi bizim Molla Nəsrəddin, Bəhlul Danəndə kimi lətifə qəhrəmanlarımızla Ç.Çaplinin məşhur "Avara" obrazı arasındakı fərqləri izah etsin. Lakin o, heç nəyə nail olmayacaq, çünki belə bir fərq yoxdur. Yaxud bizim nağıllarımızdakı, qaravəllilərimizdəki gülüş motivləri, gülüş qəhrəmanları, Axundovun, Mirzə Cəlilin, Sabirin əsərləri, orijinallığına qərblilərin heyran kəsildiyi Vaqif Mustafayev fenomeni Azərbaycan ruhunun ifadəsi deyilmi?"**

– Orijinal düşüncə sahibi olmaq və orijinal görünmək üçün "orijinal", əndrabadi fikirlər söyləmək başqa-başqa şeylərdir.

**– Sizdə çəkəcəyiniz filmin ideyası, ümumi obrazı necə doğulur? Nə çəkəcəyinizi, necə çəkəcəyinizi nələr müəyyən edir?**

– Bu suala cavab vermək o qədər də asan deyil. Hər rejissorun öz yaradıcılıq sirləri var. Biri oxuduğu hansısa qəzet məqaləsindən, digəri şahidi olduğu hadisədən, bir başqası adicə bir ifadədən təsirlənə bilir. Əsas ifadə etmək istədiyin məramı, onun obrazını tapmaqdır. Sonra onun ifadə planı gəlir, necə, hansı üsulla, hansı süjet daxilində çəkəcəyini müəyyən edirsən.

**– Etiraf edək ki, bəzi filmlərimizi çıxmaq şərtilə sizin quruluş verdiyiniz əksər filmləri əlüstü başa düşmək çətindir. Onlar sanki hamıya tanış olan, hamının bildiyi məntiqlə çəkilməyib...**

– Mən filmlərimi üst-üstə dayanan laylar prinsipi ilə qururam: üst qatdan – göz önündə görünənlərdən növbəti qata, oradan daha altdakı laya keçdikcə filmin planını ümumi rejissor konsepsiyası da formalaşır.

**– Qəhrəmanlarınız iştirakçısı olduğunuz hadisələrə əksər hallarda qeyri-adekvat reaksiya göstərir, sadə dillə desək, özlərini qəribə aparırlar.**



– Bu da gerçəkliyi əks etdirməyin bir formasıdır... Bilirsiniz, rejissorun öz filmlərini şərh etməsinin, öz estetikasının, ekran dilinin səciyyəvi cəhətləri barədə fikir yürütməsinə yaxşı baxmıram. Mən ümumi prinsipləri dedim, özəllikləri kinoşünaslar açmalıdırlar....

**– Məncə, sizin filmlərinizdə personajların zahiri görkəmi də, məsələn, saçının rəngi, geyimi, saç düzümü də nəyəsə işarədir. Hatəmin nəhəng gövdəsi, Habilin saçlarının qeyri-adi rəngi təsadüfi deyil.**

– Filmdə təsadüfi heç nə olmamalıdır. Hətta təsadüfən gəlib kadra düşən bir nəsnə, hansısa jest mütləq müəyyən bir informasiya daşımalıdır.

**– Əlalxüsus da rejissor öz filmlərini sizin kimi tekst qanunları ilə qurduqda. Çox vaxt deyirlər ki, sənət, o cümlədən də kino həyatın güzgüsüdür. Məncə, bu, düzgün yanaşma deyil. Güzgü hər şeyi olduğu kimi göstərir, onun surətini yaradır. Əgər kinonun missiyasını bunda görürüksə, onda hər şeyi gizli kamera ilə çəkib ekranda göstərmək daha məqsədəuyğun olardı. Sənətkarın missiyası həyatı kalka üsulu ilə kopyalamaq yox, hamının eyni ölçüdə, eyni rəngdə gördüyü dünyanın görünməyən tərəflərini üzə çıxarmaqdır.**

– Sizinlə razıyam. Gerçəklik, həyat lövhələri rejissorun təfəkküründə yaxşı mənada mütləq deformasiya olunmalıdır.

**– Rejissor film yaradanda bütün vasitələri öz konsepsiyasının, bədii idealının ifadəsinə yönəldir. Ekranda görünən hər şey –**

**küləyin əsməsi, günəşin çıxması, ay işığı – personajın hansısa jesti, gerçəklik atributu olmaqla yanaşı, həm də bədii informasiya mənbəyi olmalıdır. Bu mənada sizin aktyor sənətinə münasibətiniz, onlarla iş prinsipiniz maraqlıdır. Ələlxüsus bu kontekstdə ki, sizin sevdiyiniz öz aktyorlarınız var. Sizcə, aktyor kimdir – personajın yaranmasınına öz töhfəsini vermək üçün çəkiliş meydanında azadlığına təminat verilən yaradıcı subyekt, yoxsa özünü bütünlüklə rejissor ixtiyarına verən, azadlığının miqyasını ona etibar edən icraçı?**

– Aktyor seçimi film yaradıcılığı prosesində mühüm məqamlardan biridir. Çünki bədii kino aktyor amili üzərində qurulur. Aktyorun sifət cizgiləri, mimika və jest diapazonu zəngin informasiya mənbəyidir – onun hansısa kiçik, lakin ifadəli jesti, yaxud üzünün, gözlərinin ifadəsi informasiya daşıyıcısı olmaq baxımından, məsələn, deyək ki, bir hekayə, yaxud povestdə kiçik bir ifadədən tutmuş, bir neçə abzasa qədər müxtəlif mətn parçalarının gördüyü işi yerinə yetirə bilər. Tamaşaçı gerçəkliyi xeyli dərəcədə görmə duyğusu ilə qavrayır. Deməli, rejissor aktyoru tam şəkildə, necə deyərlər, dırnaqdan təpəyə qədər öyrənməli, onun simasını mənalı işarələrdən – sözlərdən, cümlələrdən təşkil olunmuş kitab kimi oxumalıdır. Lakin, zənnimcə, aktyora həddən artıq sərbəstlik, ona rejissor konsepsiyasının “redaktoru” olmaq hüququ vermək də olmaz. Onun azadlığı rejissorun yozum fəlsəfəsinin hüdudları çərçivəsini aşanda çatdırılan informasiyanın təhrif olunması ehtimalı çoxalır. Aktyor öz istəklərini, öz fantaziyasını yalnız rejissorun cızdığı hüdudlarda nümayiş etdirə bilir.

Amma bu o demək deyil ki, mən film yaradıcılığımda aktyorun rolunu kiçildirəm, 2-ci plana keçirirəm. Yox, bəlkə də əksinədir. Aktyor mənim üçün çox qiymətli personadır, çünki aktyorlarsız bədii film olmur. İkinci bir tərəfdən, mən hələ rejissor köməkçisi və assistenti olanda onların psixologiyasına, həyat tərzinə yaxından bələd olmuşam və bilirəm ki, bu sənətin sahibləri mənəvi-psixoloji baxımdan çox mürəkkəb, hətta mən deyərdim ki, əziyyətli bir həyat yaşayırlar. Kiminsə obrazını yaratmaq, rola girmək – aktyorları dəfələrlə öz stixiyasından çıxıb bütün varlığı ilə başqalaşmaq, sonra yenidən özünə qayıtmaq zorunda qoyur və görün bu prosesdə nə qədər mənəvi-psixoloji resurs lazımdır ki, bu işin öhdəsindən gələ biləsən. Xarrat pəncərə düzəldəndə ancaq əlləriylə, yazıçı beyniylə, nə bilim, sürücü ayaqları və əlləri ilə işləyir. Aktyor isə obraz yaradanda, onun – dırnaqdan-təpəyə qədər bütün vücudu, ruhu iş başında olur.

**– Hər bir yaradıcı şəxsin özünün də sevdiyi, yaradıcılığına hörmət etdiyi həmkarı, yaxud həmkarları olur. Məsələn, fransız rejissoru Tryuffonun A.Hiçkokun yaradıcılığına məhəbbəti o dərəcədə idi ki, bu rejissor haqqında kitab da yazmışdı və söz düşəndə deyirdi: “Kino nədir? Kino – Hiçkokdur.” Bu mənada sizin, necə deyərlər, döşünüzə ən çox yatan, ən sevdiyiniz rejissor, yaxud rejissorlar kimlərdir?**

– Əgər kino yalnız Hiçkokdursa, bəs onda Tryuffo kimdir?

**– Görünür, Tryuffo bir az aludə olub, hissə qapılıb...**

– Biz heç zaman hökm verə bilmərik ki, yaradıcılığın hansısa sahəsinin simasını konkret bir şəxs müəyyən edir. Bu, absurddur. Hər bir sənətkar özünə qədər formalaşmış təcrübəni, ənənələri öyrənir, mənimsəyir və gücü çatırsa, bu ümmana özündən də nəsə əlavə edir və onun xidməti də bu “nə isənin” ənənəyə çevrilib-çevrilməyəcəyindən, həmin yaradıcılıq sahəsindən söz düşəndə “bax bu, filankəsin kəşfidir, xidmətidir” - deyilib xatırlanacağın-

dan çox asılıdır. Kino dünyasında belə şəxsiyyətlər az deyil. Amma, düzünü deyim ki, mən hələ öz-özlüyümdə onların "müsabiqəsini" keçirməmişəm. Möhlət verin, bunu edim, sonra suallarınıza konkret cavab verərəm...

**– Mənim Rostovda yaşayan milliyyətcə rus dramaturq, esseçi dostum var. Bir dəfə Azərbaycanın kino sənəti ilə maraqlandı, konkret və dolğun təəssürat əldə etmək üçün hansı filmlərə baxmağın münasibliyi ilə bağlı fikrimi soruşdu. Sizin "Musiqili xaş", "Yaramaz", "Hər şey yaxşılığa doğru", "Milli bomba" və "Yerlə göy arasında" filmlərinizin internet ünvanını ona göndərdim. Bir müdət sonra mənə yazdığı mesajda heyrətini belə ifadə etmişdi: "Sizin dünya səviyyəli qeyri-adi rejissorunuz var ki! O, sonra filmləriniz haqqında öz rəyini yazmışdı və axırda da deyirdi: "Onu qorumaq sizin borcunuzdur".**

– O da, siz də çox sağ olun. Belə sözləri eşitmək hər bir yaradıcı adam üçün xoşdur...

**– Vaqif müəllim, necə bilirsiniz, sizin filmlərinizi, ümumiyyətlə, bu küll halında yararadıcılığınızı Azərbaycanda kifayət qədər anlayırlarmı?**

– Bilirsinizmi, hər bir filmin nə cür qavranılması ona hansı rakursdan baxılmasından, kinonun funksiyasının necə başa düşülməsindən çox asılıdır. Kinoya vaxt keçirmək, əylənmək vasitəsi kimi baxan tamaçaçı heç vaxt A.Tarkovskinin filmlərini bəyənməyəcək. Ona elə gələcək ki, kino elə Amerika boyevikləri, macəra filmləri, ekşnləridir. Yaxud zövqü serial estetikasına, melodram ruhuna köklənmiş tamaşaçılar üçün intellektual kino, təbii ki, mənasız, darıxdırıcı və anlaşılmaz bir şeydir. Kinodan həm də əmtəə kimi istifadə olunması onun estetikasında, tamaşaçı ilə ünsiyyətində paradoksal məqamlar yaradır... "Filan filmi filan qədər kassa yığıb, deməli, yaxşı filmdir" meyarı kinoya bazar təfəkkürü ilə yanaşmanın təzahürüdür və təəssüf ki, bu yanaşma bir çox halda günün reallığına çevrilir.

O ki qaldı mənim filmlərimə, o fikirdə deyiləm ki, milli auditoriya onlara biganədir, yaxud onları anlamır. Əgər bu və ya digər filmlərə baxanda, tamaşaçılar gülürsə – bu, artıq mənim qurduğum laylardan birinin işidir. Digər layların da başa düşülməsində kinodan yazanların, kinoşünasların üzərinə böyük iş düşür...

**– Kino görüntü, vizual qavrayış estetikasına əsaslanan sənət olduğundan ona ictimai və xüsusən də rəsmi nəzarət güclü olur, çünki kinonun dedikləri bir an içində yayılıb milyonların hisslərinə, şüuruna hakim kəsilə bilər. Ona görə də filmin müəllifi bir çox hallarda prodüserlərin, yaxud ictimai rəyin diktəsi ilə kompromisə getmək məcburiyyətində qalır ki, bu da işin ziyanına işləyir. Yaradıcılığınızda belə hallarla üzləşmisiniz?**

– Kompromis sindromu yaradıcılığın ən ağrılı yeridir. "Olar, olmaz" dilemması rejissora həmişə öz istəyini lazım olan şəkildə reallaşdırmağa mane olur. Bunu ilk dəfə "Yaramaz"ın ideyası mənə hakim kəsiləndə hiss etmişəm. Diplom işi kimi bu ideya ətrafında film çəkmək istədiyimi bildirəndə Eldar Ryazanov dedi ki, yaxşı ideyadır, amma onu reallaşdırmaq, həyata keçirmək çətin olacaq. Onun dedikləri müəyyən mənada öz təsdiqini tapdı. Və mən başa düşdüm ki, filmin obrazlar sistemini, dilini elə qurmalısan ki, sonradan sənin ideyan müəyyən kompromis sindromu ilə üzləşib təhrif olunmasın. Məsələn, hələ ssenari prosesində qərara gəlmişdim ki, bu filmin əsas qəhrəmanı iri gövdəli, kök adam olmalıdır. Filmin ümumi konsepsiyasında bu mənim üçün çox vacib amil idi. Amma müəyyən instan-

siyalarda bunu irad tutub deyirdilər ki, burada nə məqsəd ola bilər? Qoy sənin qəhrəmanın normal görkəmli adam olsun. Kompromisə getmədim və istədiyimə nail oldum. Bilirsiniz ki, bu filmdə cəmiyyətin düz, lakin çətin yol və qısa, asan, lakin əclaflıq yolu seçimi qarşısında qalan insanı şirnikləndirib yaramaza çevirməsindən bəhs olunur. Digər irad da bu motivlə bağlı idi. Yəni təxminən belə: "Niyə sənin qəhrəmanın düz yolu seçib, necə deyərlər, ac da olsa kişi kimi yaşamağı yox, əyri yolu, əclaf yolunu seçir? Sən elə onu düz yola düşən adam kimi göstərəydin də". Bu isə artıq o demək idi ki, bu iradı tutanlar mənin filmimin konsepsiyasını, mənim niyyətimi anlamırlar. Məgər yaramazlığın faciə olduğunu, insanı, şəxsiyyəti məhv etdiyini göstərmək dolayısı ilə insanları bu yoldan uzaq olmağa çağırış deyildimi?

Və nəhayət, sondakı zorlama səhnəsi. Filmin ideyası ilə bağlılığı olmadığını bəhanə edib məni onu ixtisar etmək lüzumuna inandırmaq istəyirdilər. Halbuki bu səhnə yaramazlığın insanı hara gətirib çıxardığını, ona nə kimi aqibət bəxş etdiyini görməmək baxımından çox vacib səhnədir və mən bu məsələdə də kompromisə getmədim.

**– Sizin danışdıqlarınız "Burada üfüqlər sakitdir" filmindəki "hamam" epizodu ilə bağlı əhvalatı yadıma saldı. Məmurlar filmi prokata cəmi bir neçə saniyə davam edən bu epizodsuz buraxmaq qərarına gəlir və rejissordan xəbərsiz həmin epizodu qayçılayırlar. Bundan xəbər tutan rejissor ərizə ilə Dövlət Kino Komitəsinə müraciət edir ki, əgər həmin epizod bərpa olunmasa, o, filmin müəllifliyindən rəsmən imtina edəcək. Onu dilə tutanda ki, film bu epizodun qarşılanmağı ilə heç nə itirmir, cavab verir: "Bu, sizin fikrinizdir. Mən bir müəllif kimi başqa fikirdəyəm" və epizodun bərpasına nail olur.**

– Əsl sənətkar öz prinsiplərini müdafiə etməyi bacarmalı, öz konsepsiyasının təhrif olunmasına yol verməməlidir.

**– "Müəllif" kinosunun nümayəndələri, adətən, komeoadan istifadə etməyi, yəni filmlərində hansısa kiçik bir rolu oynamağı xoşlayırlar. Məsələn, müəlliminiz Eldar Ryazanov, Georgi Daneliya,... Hiçkok isə bəzi filmlərində hətta öz kölgəsini çəkirdi. Siz nə əcəb bu üsula müraciət etməmisiniz?**

– (Gülür) Görünür hələ öz filmlərimdə ifa edəcəyim rolları tapmamışam. Həmin obrazları tapıb mən də bu missiyanı öz üzərimə götürərəm.

**– "Üzeyir ömrü" filmində yaratdığınız Abbas Səhhətin obrazı kiçik obraz olsa da - səhv etmirəmsə, ekranda cəmi 4-5 saniyə görünür - yadda qalır. Bu, deyəsən sizin yeganə aktyor işinizdir...**

– Mən peşəkar aktyor kimi filmlərdə baş rolu oynamaq fikrində deyiləm, amma komeoya müraciət etmək müəllif kinosunda müəllifin öz filminə qol çəkməsi – imza atması kimi bir şeydir...

**– İstəyirəm filmlərinizdəki bəzi məqamlar, nüanslar haqqında danışaq... "Yerlə göy arasında" filminin son epizodlarında bütün süjet boyu bağlı otaqda dustaq vəziyyətində təsvir olunan baba, səhv etmirəmsə, Qobustandakı çöllükdə ərəb geyimində təsvir olunur. Bilmək istərdim, – niyə məhz ərəb paltarında?**

– Üst qatda bu sualın cavabı elə sizin sualın özündə "gizlənib". O səhnədə məkan çöllükdür, səhradır. Səhra anlayışı isə bizim təsəvvürümüzdə ərəb anlayışı ilə assosiasiya olunur.

**– Bəs alt qatda?**

– Onu müəyyən etmək artıq tamaşaçıların, kinoşünasların üzərinə düşür. Qısası, onu deyim ki, bizim mentalitetdə, düşüncə tərzində sevginin, ağlın

gücündən divanə olub səhralara düşmək diskursu var. Mən hətta verilişlərin birində demişəm ki, nəyə görəsə biz uzun bir yol keçib müdrikliyin lap astanasında özümüzü itirib o qapıları aça bilmirik...

**–"Milli bomba" filminin fon musiqisini gürcü bəstəkarı Giya Kançeliya bəstələyib. O, çox tanınmış bəstəkardır, 50-dən artıq filmə, tamaşaya musiqi bəstələyib. Lakin Azərbaycan reallıqlarından bəhs edən filmdə hadisələrin gürcü "ləhcəsi" ilə müşayiət olunması nə dərəcədə məntiqlidir?**

– Bu cür yanaşmanı düzgün hesab etmirəm. Məgər dünyada Qara Qarayevin, Arif Məlikovun, F.Əmirovun, X.Mirzəzadənin musiqisini "Azərbaycan ləhcəli" musiqi kimi tanıyıb sevirlər? Onlar bəşəri musiqidir, ona görə də irqindən, dilindən asılı olmayaraq bütün insanların qəlbinə yol tapır. Kançeli də "Milli bomba"ya məhz belə musiqi bəstələyib. Düzdür, onun sırf milli ladda yazdığı kino musiqiləri də var. Məsələn, "Mimino", "Qəm etmə" filmlərinə yazılan musiqi kimi. "Milli bomba"da isə belə deyil. Fon musiqisi – təsvir olunan hadisələrə güclü düşüncəsinin münasibətini əks etdirmir.

Digər tərəfdən, fikir vermisinizsə, film kinopritça üslubunda çəkilib. Biri istisna olmaqla personajların heç adı da yoxdur. Yəni bu filmdə konkretliklə yanaşı, poetik bir mücərrədlik də var. Hər şeyə məhz bu kontekstdə nəzər salmaq lazımdır.

**– Yəni mövzuya ümumbəşəri yanaşmadan söhbət gedir?**

– Bəli. İnsanın cəmiyyətə lazımlığı, hər kəsin cəmiyyət düzənində məsuliyyəti, istəyi və qisməti – bu, ümumbəşəri bir mövzudur.

**–Heç, özünüzü bir filmdəki kimi çəkdikləri filmi montaj etməyə vəsait tapmayan kinoçuların yerində təsvir etmisinizmi?**

–Onlar məntiqi pozulmuş, dəyərləri dəyişmiş xaotik dünyada çaşıb qalan, əziyyət çəkən bütün insanları təmsil edirlər. Əgər bilmək istəyirsinizsə, "radioda oynamaq" epizodu mənim öz başıma gələn bir hadisənin əksidir.

**– Siz də radio ilə rəqs etmisiniz?**

– Ən azından bunu etmək istəmişəm.

**– Həmin səhnə filmdə ən gülməli və qüvvətli səhnələrdən biridir. Orda çox böyük fikir yükü var.**

–Filmdə məna yükü daşımayan heç nə olmamalıdır.

**–Tam razıyam. Film çoxlu xırda, kiçik mənaların bir-birinə hörülüb yeni məna(lar) doğurması prinsipi ilə qurulmalıdır. Siz öz filmlərinizə hansı statusla baxmağı sevirsiniz – tamaşaçı, yoxsa rejissor statusunda?**

– Maraqlı sualdır. Bilirsiniz, mənim filmlərim özünə ironiya, özünə gülmək prinsipləri əsasında yaranır. Yəni mən nəyisə göstərib gülüş obyektinə çevirirəmsə, özümü o məkandan ayırmıram, özüm ilə həmin məkandakı, müstəvidəki personajlar arasında məsafə saxlamıram, özümü onlardan ağıllı, dəyərli, qiymətli hesab etmirəm. Mən həmişə demişəm, indi də deyirəm: "Bütün filmlərimdə mən özüm də gülüş obyektiyəm və fikirləşirəm ki, bu, insanın gücünə, onun öz qüsurlarına, çatışmazlığına qalib gəlmək istəyinə dəlalət edir. Məsələnin bu tərəfi mənim öz filmlərimə münasibətimdə də elə buna oxşar bir aura yaradır. Film tam hazır olandan sonra mən ona baxıram və əgər hiss edirəmsə ki, bu filmi mən yox, mənə ironiya edən, məni gülüşlə düşündürən başqa bir subyekt çəkib – işimdən razı qalıram.

Mən təbiətən, həyatda da ritorikanı, özünəvurğunluğu, standart, şablon düşüncələri rədd edən adamam, mənim öz yanaşmam, öz düşüncə tərzim var. "Səni o qədər sevirəm ki, sənsiz ölərəm" deyimi insanın gücünü, yoxsa gücsüzlüyünü göstərir, bu ifadədə həqiqət çoxdur, yoxsa yalan, onun

doğurduğu dramatik ritorika həqiqəti daha çox əks etdirir, yoxsa gülüş effekti? Görürsünüz, adi bir cümlə öz bətnində nə qədər məna - yozum imkanları gəzdirir.

**– "Milli bomba"da... onun baxışları bədənimə cərəyan kimi işlədi" cümləsini elə sözlərin birbaşa mənaları kontekstində əyaniləşdirmisiniz...**

– Məni Moskva Beynəlxalq kinofestivalında gah Çaplinlə, gah Kustritsa ilə müqayisə edəndə qəti etiraz etdim və dedim: "Xahiş edirəm, məni heç kimlə müqayisə etməyin, çünki mən heç vaxt kiməsə oxşamağa, kimisə təqlid etməyə cəhd etməmişəm. Hərçənd Çaplin kino sənətinin nəhənglərindən biridir – heç vaxt ona da büt kimi baxmamışam. Gülüş sahəsində fəaliyyət göstərən əsil sənətkarları birləşdirən yeganə bir şey varsa, o da gülüşün özüdür.

**– Ona görə də sizin filmlərinizin baş qəhrəmanı da elə gülüşdür... Amma bu gülüş bütün digər gülüşlərdən fərqlənir, çünki Azərbaycansayağı gülüşdür.**

– Həm də dünyəvi...

**– Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi kino sahəsində də kəmiyyət və keyiyyət dəyişiklikləri başladı. Lakin ötən illər ərzində iş gəlib o yerə çatıb ki, nəyisə proqnozlaşdırmaq, nəyisə obyektiv meyarlarla qiymətləndirmək üçün kriteriyalar tapmaq çətindir. Keçmişimizə aqressiv ruhda köklənən bir qrup kino həvəskarı o illərdə çəkilən bütün filmlərin tarixin arxivinə verilməsini tələb edir, yeni Azərbaycan kinosunun yaranması lüzumundan danışırlar. Gənclərimiz o illərdə çəkilmiş kinofilmlərimizdən demək olar ki, büsbütün xəbərsizdir. Təbii ki, Azərbaycan kinosunun dünya kinosuna inteqrasiyası zəruridir. Amma bunun üçün tək Vaqif Mustafayev fenomeni azdır, üstəlik, bu prosesin uğurlu perspektivini şərtləndirən amillər də yoxdur. Siz Azərbaycan kinosunun müasir durumu haqqında nə deyə bilərsiniz? Azərbaycanda son illər çəkilən elə filmlər varmı ki, baxıb deyəsiniz:"Bax, bu filmin arxasında deməyə öz sözü, öz sözünü deməyə öz üslubu olan orijinal təfəkkürə malik yaradıcı şəxs dayanır"?**

– Mən bu suala 2 rakursdan, 2 statusda cavab vermək istəyirəm: tamaşaçı və sənətkar kimi. Mən təbii ki, öz tamaşaçı qabiliyyətimi itirməmişəm və çox vaxt da çəkilən filmlərə elə tamaşaçı kimi baxıram. Fərqi yoxdur özbək filmidir, İran filmidir, tacik filmidir – əgər məni öz qayğılarımdan ayırıb özünə cəlb edirsə, – baxıram və bu, tamaşaçı kimi məni qane edir. Bilirsinizmi, tamaşaçı kino nəzəriyyəçisi, adi məişət qaydalarına hansısa nəzəri prinsiplərlə yanaşan intellektual deyil və kino sənətinin missiyasını da tamaşaçıların maraqlarının təmin olunmasında görənləri qətiyyən qınamaq olmaz. Amma mən həm də taleyi kino sənəti ilə bağlı olan, kinoya mədəniyyət, sənət faktı kimi baxan bir peşəkaram və deməli, filmləri bu prizmadan da izləyirəm. Belə vaxtlarda isə artıq başqa meyarlardan çıxış edirəm və baxıb görəndə ki, Azərbaycanda az qala hər gün özlərindən başqa heç kimi bəyənməyən, özəl festivalların "qran prizlərini" əllərində bayraq edib öyünən kino dahiləri doğulur, – düzü narahat oluram. Bu ajiotaj, süni uğur sindromu bizi hara aparır axı? Bu kino "bilicilərinin" sayı ilbəil artır – ortada isə heç nə yoxdur.

Sualın sovet dövrü "kabusu" ilə bağlı tərəfinə də toxunmaq istəyirəm. Əvvəla deyim ki, mən Azərbaycan kinosuna heç vaxt yuxarıdan aşağı

baxmamışam. Unutmayaq ki, əfsanəvi Mehdi Hüseynzadəni, möhtəşəm nəsimişünasların xalqa lazımınca tanıda bilmədikləri Nəsimini, eləcə də Üzeyir bəyi, Dədə Qorqudu bizim tamaşaçılar məhz kino xadimlərimizin səyləri nəticəsində daha yaxından tanıyıb və seviblər və həmin filmlərin demək olar ki, hamısı sovet dönəmində çəkilib. Onların arasında uğurlu filmlər də var, uğursuzları da və bu da təbiidir. Amma “onlar sovet düşüncəsini əks etdirir, ona görə də gərəksizdir” məntiqinə əsaslanan yanaşmanın tərəfdarı deyiləm. Həmin həyatı biz hamımız yaşamışıq – kimlərsə inana-inana, kimlərsə şübhə ilə – fərqi yoxdur – bu, bizim taleyimizdir. Əksinə, düşünürəm ki, o filmlərin çoxu keçmişimizi öyrənməkdə, nələri səhv, nələri düz etdiyimizi müəyyənləşdirməkdə bizə kömək də edə bilər.

**– Vaqif müəllim, bir halda ki söhbət gəlib bu məqama yetişdi, bu məsələ barədə fikrinizi bilmək istəyirəm. Mən həmişə fikirləşmişəm və indi də fikirləşirəm ki, kinorejissorluq da şairlik, rəssamlıq, bəstəkarlıq, aktyorluq kimi Allah vergisidir, bu qabiliyyət insanda fitrətən anadangəlmə olmalıdır...**

– Əlbəttə, kinorejissorluq ilk növbədə istedad, yalnız bundan sonra peşədir. Rejissorluğa heç vaxt çörək ağacı kimi baxmaq olmaz. Çox təəssüflər olsun ki, bizdə – mən, ümumiyyətlə, keçmiş sovet məkanını nəzərdə tuturam – sənətlə məşğul olan insanları buna məhkum edirdilər. “Sən öz istədiyini yox, bizim təklif etdiyimizi, bizə lazım olanı çəkməlisən ki, öz həyatını təmin edəsən” – bu diktə həmişə kinorejissorların başı üzərindən Damokl qılıncı kimi asılaraq onların istəklərini tənzim və idarə edirdi. Yalnız öz prinsiplərini komfort həyatın, çörəyin ayağına verməməyi bacaran şəxsiyyətlər bu idarəçiliyə razı olmurdular. Bu, əlbəttə çətin yoldur, amma əsl sənətin mənafeyinə xidmət edən yoldur.

Anadan kinorejissor kimi doğulmuş anlayışını isə, məncə, bir az “redaktə etmək” lazımdır. Məncə, belə desək, daha məqsədəuyğun olar: “Yalnız öz içində kinorejissor olmaq üçün zəruri olan keyfiyyətləri gəzdirən, hamının gördüyü dünyaya alternativ dünya yaratmağı bacaran insanlar kinorejissor ola bilirlər”.

**–Aktyor Şamil Süleymanov televiziya ilə çıxışında sizi bir qədər qeyri-adi, gözlənilməz iş üslubu olan rejissor kimi xarakterizə etdi. Onun dedikləri də yadımdadır: ”Yalnız Vaqif Mustafayev çəkiliş meydanında qəfil deyə bilər ki, bu epizodun düzgün çəkilişi, məsələn, 30 nəfər yaşlı adam tələb edir və onları tapıb gətirmək lazımdır”. Mən şəxsən sizi çəkiliş meydanında görməmişəm. Amma Şamilin sözlərindən belə çıxır ki, sizin üçün öz qeyri-adi aurası, tələbləri olan çəkiliş prosesi əsasdır, yəni siz filmi daha çox çəkiliş meydanında yaradırsınız. Ümumiyyətlə, filmin obrazının yaranmasından filmin tam hazır olmasına qədərki proses barədə nə deyə bilərsiniz?**

– Hər bir sənətkarın, o cümlədən də kinorejissorun öz fərdi iş üslubu, öz yaradıcılıq laboratoriyası olur. Filmin ümumi obrazı təbii ki, ilk növbədə beyində yaranıb formalaşır. Rejissor filmini, necə deyərlər, hələ çəkilişlərdən əvvəl görməlidir. Sonra beynindəki bu natamam filmi kağız üzərində ssenari variantına salır və cilalayır, yalnız bundan sonra ideyanın real, gerçək film kimi doğuluşu prosesi – çəkilişlərə başlanılır. Bu proseslərin hər birində – mən beyindən kağıza, kağızdan lentə proseslərini nəzərdə tuturam – müəyyən itkilərin, yaxud dəyişikliklərin olması labüddür, çünki ifadə vasitələrinin öz təbiəti də dəyişir. Digər tərəfdən, sənin əvvəlcə beynində, sonra kağız üzərində yaratdığın artıq məkan fonuna, vizual qavrayış

obyektinə çevriləndə, konkretləşir və buna da uyğun müəyyən korrektə işlərinə ehtiyac yaranır. Beyində, kağız üzərində yaradılmış konkretlik və əyaniliklə çəkiliş meydanında yaradılıb lentə alınan konkretlik və əyanilik arasına bərabərlik işarəsi yaymaq olmaz. Mütləq nəyisə korrektə etmək, dəyişdirmək, gerçək əyaniliyə uyğunlaşdırmaq lazım gəlir. Və nəhayət, yaradıcılıq sözün müəyyən mənasında improvizasiyadır, intuisiyaya əsaslanan incə bir prosesdir. Buraxılmış, əldən verilmiş imkanların acısına sonradan təəssüflənməkdənsə, son ana qədər bu imkanları reallaşdırmağa çalışmaq, məncə, daha düzgün yoldur.

Mən hansısa bir epizodu, səhnəni çəkəndə, məndən başqa çəkiliş meydanında olan şəxslərin reaksiyasına fikir verirəm. Axı onların hər biri potensial halda həm də nominal tamaşaçıdır, özü kimi min, on min, yüz min.... tamaşaçının zövqünü, reaksiyasını əks etdirən barometrdir və onların həmin səhnəyə, epizoda reaksiya verməməsi, əgər gülməli epizod çəkilirsə – gülməməsi, təbii ki, məni “görünür nəyisə "düz etməmişəm” sualı ətrafında düşünməyə məcbur edir...

**– Sizin filmləriniz bir çox nüfuzlu beynəlxalq kinofestivalların baş mükafatlarına, qran prizlərinə layiq görülüb, özünüz Rusiyanın, İtaliyanın, Serbiyanın, Gürcüstanın yüksək orden və medalları ilə mükafatlandırılmısınız. Nə vaxtsa “Oskar”a sahib olacağınızın mümkünlüyü barədə fikirləşirsinizmi?**

– Mən “Oskar”a çox adi yanaşıram. Hələ 1992-ci ildə “Oskar”ın münsiflər komissiyasından “Nakəs” filminin bu mükafata təqdim olunma təklifi ilə bağlı mənim ünvanıma məktub daxil olmuşdu. Lakin o vaxt filmə ingilis dilində subtitrlər hazırlamaq üçün vəsaitin olmaması səbəbindən bu imkandan istifadə olunmadı. Olunmadı, olunmadı -- bunu dramatikləşdirməyin, ağrı kimi yaşamağın tərəfdarı deyiləm. Çünki kino ilə bağlı adamlar bilirlər ki, “Oskar” artıq xeyli dərəcədə siyasiləşmiş, müəyyən ideoloji qəliblərə salınmış mükafatdır, onun müsabiqə komissiyasının rəyi bütövlükdə Avropalı, Asiyalı, Afrikalı... dünyanın kino intellektuallarının mövqeyini, rəyini əks etdirmir.

**–Yəni hansısa bir filmin bu mükafatı almaması onun sənət incisi olması faktını şübhə altına almamalıdır və əksinə...**

– Düşünürəm ki, elədir: “Oskar” almayan o qədər dahiyanə əsərlər var ki...

**– Və bu mükafatın etiketi ilə “şöhrətləndirilsə” də, bu mükafata layiq görülməmiş həqiqi sənət əsərlərindən qat-qat aşağıda dayanan filmlər də az deyil.**

**Bu yaxınlarda Avtandil Maxaradzenin belə bir fikri ilə tanış oldum ki, əsl sənətkar, o cümlədən də kinorejissor həyata baxış, düşüncə tərzi ilə başqalarından fərqlənməli, standartlara sığmamalı, hətta yeri gələndə anormal adam təsiri bağışlamaqdan çəkinməməlidir.**

– Özünüifadə mənasında yəqin ki, belədir. İnsan özünü yaradıcı hesab edirsə, deməli, nə isə fərqli bir fikir söyləməyə, hamının görmədiyi şeyləri göstərməyə ehtiyac duyur. Onun “anormallığı” da elə bundadır, çünki onun deyəcəyini, göstərəcəyini həmin o “normallar” görmür axı. Standartdan, şablondan kənarlaşmaq isə artıq “anormallıqdır”.

Sənətkar öz baxış bucağı, öz yaşama tərzi, öz ifadə üsulu olan fərddir. Hamının bildiyini göstərmək, ifadə eləmək yaradıcılıq deyil.

**– Kinorejissorluq çox çətin peşədir. Çəkilişində iştirak edən, ümumiyyətlə, filmin yaranma prosesinə müəyyən qədər bələd olan adam kimi deyə bilərəm ki, bu proses kinorejissordan fəhm,**

**peşəkarlıq, intuisiya kimi xüsusiyyətlərlə yanaşı, sırf texniki xarakter daşıyan problemləri də həll etmək, bu işin ağırlığını daşımaq bacarığı tələb edir. Çəkiləcək səhnənin mizanlarını qurmaq, baxış bucağını müəyyən etmək, işıq, fon, rəng… və s. amillərlə bağlı problemləri həll etmək ondan həm də xeyli dərəcədə möhkəm əsəb, fiziki dözümlülük tələb edir… Sabah isə, deyək ki, ondan da çətin bir səhnənin çəkilişi gözlənilir… Adama elə gəlir ki, filmin üzərində iş vaxtı rejissorun adi bir insan kimi yaşamağa, dincəlməyə vaxtı qalmır, sanki bu müddət ərzində o, hər dəqiqə, hər an işləyir...**

– Bu, psixoloji bir prosesdir. Bilirsiniz ki, hər bir yaradıcı şəxsin öz yaradıcılıq laboratoriyası olur, məhsulunu, necə deyərlər, öz mətbəxində “bişirir”. Mən çəkiliş prosesində həmin prosesin gündəlik qayğılarından irəli gələn auranı axşam özümlə bərabər evə, ailəmin içinə gətirməyin tərəfdarı deyiləm və öz praktikamda da buna yol vermirəm. Dülgər axşam evə gəlib öz uşaqları ilə sabah düzəldəcəyi pəncərə barədə söhbət etmir ki? Yaxud diş həkiminin evdə özünü diş həkimi kimi aparması, adamlarla diş həkimi kimi davranması gülüncdür… Mən də evdə adi, hamıdan biri – Vaqif Mustafayev oluram…

**– Amma daxildə, şüur altında hansısa proseslər gedir axı…**

– Təbii, amma bu, səndən asılı deyil və ümumiyyətlə, bunsuz mümkün də deyil. Amma durub hər şeyə, məişət situasiyalarına rejissor düşüncəsi ilə yanaşmaq, hər şeyə rerjissor kimi reaksiya vermək – absurddur. İçində, şüur altında gedənlər sənə aiddir. Ola bilsin ki, sən oturub televizora baxanda, öz övladınla nəsə barədə söhbət edəndə də şüuraltı sabah çəkəcəyin səhnə haqqında düşünürsən, götür-qoy edirsən…

**– Kino sizin üçün nədir – həyat tərzi, peşə, sənət, yoxsa düşüncə tərzi?**

– Əslinə qalanda, əsl yaradıcı şəxsiyyət üçün kino bunların hamısıdır. Amma yaradıcı şəxs bunların bəzilərini pərdələməyə, gizlətməyə məhkumdur… Bax, tutaq ki mən evdə oturub televizorda gedən konsertə baxıram və eyni zamanda öz içimdə filmimi “çəkirəm”. Gözlərim ekrana baxır, qulaqlarım ordan gələn melodiyaları dinləyir, düşüncəm, fikrim isə öz filmimlə məşğuldur. Bax bu məqamda kinorejissorluq həm həyat, həm düşüncə tərzi, həm də peşədir. Amma onun həyat və düşüncə tərzi tərəfləri sırf mənə aiddir, necə deyərlər, mənim şəxsi işimdir, mən onu biruzə verməli, hamıya nümayiş etdirməli deyiləm və nəzərə alaq ki, həmin məqamda sənin sırf yaradıcılıq qayğılarına çörək dalınca dükana, nə bilim, soğan üçün bazara getmək qayğıları da qoşula bilər…

Kinorejissorluq ağır peşədir – təbii ki, bu peşəyə ciddi yanaşanlar üçün. Kim ki bu peşəyə çörək ağacı kimi, şöhrətə çatmaq şansı kimi baxır – onun üçün kino artıq başqa şeydir, özünün bu sayaq ehtiyaclarını ödəmək vasitəsidir… Bilirsinizmi, mən istəmirəm ki, kimsə bizim bu söhbəti oxuyub incisin və desin ki, bu daş mənim bostanıma atılır…

**– Amma hər kəsə öz yerini də göstərmək lazımdır. Qoy nəyə qadir olduqlarını, öz qiymətlərini düzgün versinlər.**

– Mən həmişə məsləhətlərimə ehtiyac duyan gənc rejissorlara, yaxud öz taleyini bu peşəyə bağlamaq istəyənlərə deyirəm: Əgər daxilinizdə cüzi də olsa şübhə varsa ki sizdən rejissor olmaz, yaxşısı budur özünüzə başqa peşə axtarın. Olsun ki, o film çəkməyin müəyyən üsullarını öyrənib nəsə çəksin. Amma o, daxilən özünə inanmadığı üçün filmini fərqləndirmək, özünü şöhrətləndirmək üçün min yola əl atacaq, dost-tanışlarının, ailə üzvlərinin

alqışlarını bütövlükdə tamaşaçı auditoriyasının rəğbəti, bir-iki sifarişli mükafatı filminin dəyəri kimi qələmə verəcək və beləcə ömür gedəcək, saçlar ağaracaq. Amma daxildən gələn səs, həqiqi dəyərlər ona deyəndə ki, yox, sən öz dəst-xətti, öz dünyası olan rejissor deyilsən və onda ən dəhşətli şey – paxıllıq baş qaldıracaq…

**– Və başlayacaq özünün itib-batmaması üçün manipulyasiya etməyə, istedadlı, peşəkar rejissorları gözdən salmağa, onlara qarşı qara piar aparmağa…**

– Bu, artıq fəlakətdir..

**– Şekspirin məşhur bir deyimi var: "Həyat teatr səhnəsi, insanlar isə aktyorlardır". Bu kontekstdə bəs kino nədir? Kino və həyat paraleli, həyatın kinoya, kinonun isə həyata bənzəməsi barədə nə deyə bilərsiniz?**

– Məncə, Şekspirin yaşadığı dövrdə kino mövcud olsaydı, o, məmnuniyyətlə teatr sözünü kino sözü ilə əvəz edərdi. Çünki kino həyatı teatrdan fərqli olaraq məkanın bütün nöqtələrindən göstərə bilir. O, insanın çöl dünyası ilə yanaşı, onun içinin, daxili aləminin, arzularının, istəklərinin də minbir çalarını açıb göstərmək gücündədir. Kino insanı özünə tapındırır, onun dilinə gətirə bilmədiklərini, yaxud gətirmək istəmədiklərini əks etdirir. Bu mənada kino həyatın fövqündə dayanır. Təsadüfi deyil ki, insan yaşadığı ömrünü, keçdiyi yolu öz təsəvvüründə bir film kimi görür. Yəni hər bir insanın yaddaşı elə əslində özünün içində çəkdiyi filmdir. Həqiqi film yaradanlar isə bax bu filmi (yaxud filmləri) öz fantaziyası, istəkləri ilə zənginləşdirib əsl lentə almağı bacaran insanlardır.

**– Hətta belə bir fikir də var ki, həyat Allahın "gizli kamera" ilə çəkdiyi, əvvəli və sonu olmayan filmdir.**

– Kino bəlkə də Allahın danışdığı ən yaxşı nağıldır. Kinoda insan həyatda həyata keçirə bilmədiklərini də həyata keçirir, qovuşa bilmədiklərinə də qovuşa bilir...

**– Belə deyək: "Kino təkcə gerçəkliyi yox, həm də reallaşmamış imkanları da əks etdirə bilir".**

– Kino – insanı özünə tanıdan və özünə qovuşduran bir sehrdir.

**– Siz də o fikirdəsinizmi ki, sənət, o cümlədən kino insanın içində işıq yandırmalı, onu həyatı sevməyə, yaşamağa səsləməlidir?**

– Bəli, mütləq. Özü də təkcə yaşamağa yox, düzgün yaşamağa... Kino insanı ümidləndirməlidir, onu ümidlə silahlandırmalıdır.

**– Sizin, belə deyək də, zahirən ən "bədbin" ruhlu filminizdə qəhrəmanı işıqla dünyaya bağlayan 2 metafora var – üstünə kiçik oğlan uşağının təsviri həkk olunmuş mis lövhə və Hətəmin sevgisi. Hətəm məhz içindəki bu işıqlar sönəndən sonra mənəvi cəhətdən, sonra isə cismani məhv olur.**

– Onun cismani ölümü də sual altındadır. Mən finalı bir növ açıq saxlamışam. Hətəmin yatdığını, ürəyinin getdiyini düşünən tamaşaçılar da var.

**– Məncə, onun elə cismani ölümü daha məntiqi olardı. Çünki mənəvi cəhətdən ölmüş adamın cismani yaşamasının heç bir mənası yoxdur. Amma demək istədiyim budur ki, bu cür bədbin finalın özündə də nə isə işıqlı bir məqam var. Çünki film insanlara vacib bir mesaj göndərir: "Belə yaşamaq olmaz, bu yolu seçməyin".**

**Bir məsələ haqqında sizin fikirlərinizi bilmək istəyirəm. Praktikada belə olur ki, çox vaxt filmin ədəbi ssenarisini filmin**

**özündən "çıxarırlar", yəni hazır filmə baxıb onu yazı mətninə çevirirlər. Məncə, bu, filmin xalis təmiz kino estetikası ilə yox, ədəbi üslubda çəkilməsinə dəlalət edir. Çünki mənim fikrimcə, xalis kinonu təmsil edən filmi sözlə nəql etmək çətindir, bəlkə də mümkünsüzdür.**

– Razıyam. Kinonun öz işarələr sistemi, öz dili var. Söhbət əlbəttə ki, nəsr texnologiyası ilə çəkilmiş filmlərdən getmir.

**– Sizin çəkdiyiniz 8 seriyalı "Yoxlama" filmi göstərdi ki, bu janrın da sirlərinə vaqifsiniz... Amma nədənsə sonra bu janra qayıtmadınız. Halbuki V.Mustafayevin çəkəcəyi seriallar televiziya kanallarımızın bəzəyinə çevrilə, tamaşaçıları səbirsizliklə axşam saatlarını gözləməyə məcbur edərdi, indiki serial sindromunu aradan qaldırardı.**

– Bu, təkcə mənim istəyimlə bağlı olan məsələ deyil. Serial çəkmək külli miqdarda vəsait tələb edir.

**– Dövlətimiz, səhv etmirəmsə, seriallar çəkmək üçün telekanallara kifayət qədər vəsait ayırır. Məndən olsaydı, həmin vəsaitin tən yarısını sizin üçün ayırardım ki, məsələn 10 keyfiyyətsiz, mənasız serialdansa, 3-4 keyfiyyətli, dəyərli serial yaransın.**

– Bu, artıq sizin şəxsi bölgü konsepsiyanızdır. Xahiş edirəm məni bu konsepsiyaya şərik etməyin (gülür).

**– Onda gəlin, söhbətimizin məcrasını dəyişək. Siz bədii kinoda böyük uğurlar qazanmış, öz kinoestetikasını yaratmış bir rejissorsunuz. Gerçəkliyi bədii cəhətdən deformasiya etmək, onu bir qədər fərqli, gözlənilməz rakursdan göstərmək, dünyanı zahirən özünə oxşamayan formada təqdim etmək bu estetikanın təməl prinsiplərindən biridir və birdən siz sənədli kinoya – bədii kino ilə diametral şəkildə əks qütbdə dayanan tamam başqa bir sahəyə müraciət etdiniz. Bu, nə ilə bağlı idi?**

– Bu da tale işidir. "Yaramaz" filmi ekranlara çıxandan dərhal sonra onun böyük bir zəfər yürüşü başladı, film dünyanın bir çox ölkələrində uğurla nümayiş olundu, məni Azərbaycandan kənarda da tanımağa başladılar… Və günlərin bir günündə Moskvada mehmanxanada mənə bir xanım yaxınlaşdı. O, çox məşhur bir prodüser idi və indi də fəaliyyətini davam etdirir. O mənə Moskvadakı yəhudi kamera teatrında çalışmış məşhur Samuel Mexoylos adlı bir aktyorun faciəli taleyindən bəhs edəcək sənədli filmin rejissorluğunu öz üzərimə götürmək təklifi ilə müraciət etdi. Bu çox gözlənilməz təklif idi. Dedim ki, bu sahədə özümü sınamamışam, film çəkməmişəm və qəti bir söz deyə bilmərəm. O, inad etdi ki, "Yaramaz"a baxandan sonra tam əmin olub ki, mən bu işin öhdəsindən gələrəm. Mən bu missiyanı üzərimə götürmədim və söhbət bitdi. Taleyin işinə bax ki, 1 il sonra başqa bir rusiyalı prodüser mənə Mexoylosu güllələtdirmiş Stalin haqqında 3 seriyalı sənədli filmin rejissoru olmaq təklifi göndərdi. Filmi çəkmək üçün yaxşı vəsait də vardı, amma mən bu dəfə də imtina etdim, dedim ki, Stalin mövzusu mənim üçün maraqlı deyil… Sənədli film çəksəm, elə öz xalqımın dahi şəxsiyyətlərindən çəkərəm… və taleyin işinə bax ki, elə belə də oldu.

İlk dəfə 1991-ci ildə xalqımızın dahi oğlu Heydər Əliyevi Bakının Fəvvarələr meydanı ilə addımlayan görəndə hiss edirdim ki, içimdə nə isə tərpəndi, nə isə izaholunmaz, qəribə bir hiss məni çulğadı… və neçə il ondan əvvəl – o vaxtlar ki, mən hələ Moskvaya oxumağa getməmişdim – "Mozalan" satirik kinojurnalında çəkdiyim bir filmi xatırladım. O vaxt Bakıda "Aynur" məişət kompleksi tikilib istifadəyə verilmişdi, lakin sifarişçinin laqeydliyi,

icraçıların məsuliyyətsizliyi üzündən son dərəcə problemli bir vəziyyətdə. Jurnalın baş redaktoru Eyvaz Borçalı dedi ki, respublika rəhbərliyi bu məsuliyyətsizliyin səbəbləri və nəticələrini "Mozalan"ın araşdırmasında görmək istəyir. Biz bu süjeti çəkməyi sənə təklif edirik... İdeyaya görə film sənədli-publisistik janrda çəkilməli idi. Lakin mən onu sənədli və bədii kinonun sintezinə əsaslanan yeni üslubda çəkdim, Əliağa Ağayevi dəvət etdim və maksimum şəkildə obyektiv münasibət sərgiləyən film yaratdım. 1 il sonra Bakı şəhər partiya təşkilatının konfransında Heydər Əliyev öz çıxışında məhz bu filmə əsaslanıb günahkarların adını çəkdi və cəzalandırılacağını dedi. Bu əlbəttə, mənim – hələ peşəkar rejissorluq təhsili almamış bir gəncin işinə verilən yüksək qiymət idi. Hətta onun dediklərini də xatırlayıram: "Mən bu yaxınlarda bir süjetə baxdım. Müəllif çox maraqlı və sənədli-bədii formatda "Aynur" məişət kompleksindəki biabırçılıqları göstərə bilib. Sağ olsun o filmi yaradanlar ki, bu məsuliyyətsizliyi, biabırçılığı faş edib ictimaiyyətin qınağına çeviriblər". Bu "sağol"dan təbii ki, mənə də pay düşürdü. Səhər kinostudiyaya gələndə, özümə qarşı tamam başqa münasibət gördüm – sanki çəkdiyim film Kann festivalının mükafatını qazanmışdı. Mənim Moskvaya getməyimdə də bu faktın böyük rolu oldu və həmin o 1991-ci ildə Heydər Əliyevə layiq olmadığı sayğısız münasibəti görəndə birdən-birə hiss etdim ki, bu böyük şəxsiyyətin həyatı, fəaliyyəti, ümumiyyətlə, şəxsiyyəti mütləq sənədli ekran təfəkkürünün işığında araşdırılmalı, bu fenomen özünün bütün çalarları ilə üzə çıxarılmalıdır. Və mən əldə olan materiallarla maraqlanmağa başladım, təfərrüatlara varmadan deyə bilərəm ki, gəldiyim nəticəyə bu şəxsiyyətin ömrü, həyatının – fəaliyyətinin yükünü çəkməyə heç 10 adamın ömrü bəs eləməz. Lakin diqqətimi ən çox cəlb edən bir ömrə sığışmaz dramatik məqamların çoxluğu idi. Sonrakı axtarışlarımın, araşdırmalarımın nəticəsi olaraq, mən bu mövzuda 4 film çəkdim. İş elə gətirdi ki, biz görüşdük və mən filmləri ona təqdim etdim. Filmlər onun xoşuna gəldi. Söhbət vaxtı dedim ki, cənab Prezident, mən öz ilkin araşdırmalarımdan belə nəticəyə gəlmişəm ki, Sizin Kremldən uzaqlaşdırılmağınızda, ardınca da xalqımızın olmazın əzablara urcah olmasında şəxsən Qorbaçovun sizə olan paxıllığının həlledici rolu olub və mən bunu ekran dili ilə araşdırıb bütün dünyaya göstərmək istəyirəm. Heydər Əliyev gülümsəyib dedi ki, mən Qorbaçovun xislətinə yaxşı bələdəm, o, heç vaxt bu məsələ ilə bağlı kamera qarşısında dayanmaq istəməz, dayansa da qeyri-səmimiyyəti, xisləti ona həqiqəti deməyə imkan verməz... Cavab verdim ki, mən buna nail olacam... və nail də oldum.

**–"Bir həsədin tarixi"nin yaranması, onun yaranma prosesinin xronologiyasını bilmək çox maraqlıdır...**

– Bu proses 3 il çəkdi. Mən əvvəlcə Qorbaçovu şübhələndirməmək, deyəcəklərini ondan itkisiz-filansız qoparmaq üçün çəkilişləri aparmağı moskvalı bir dostuma həvalə etdim və sualları ona göndərdim – məqsəd Qorbaçovu danışdırmaq idi və düşünürdüm ki, o, milliyyətcə rus olan rejissordan şübhələnməz, düşündüklərini ona deyər. Amma təxminən il yarımdan sonra dostum mənə deyəndə ki, Qorbaçovu deyəsən razı salmışam, mən çəkilişlərə etiraz etdim...

**– Nə üçün?**

– Fikirləşdim ki, dostum nə qədər peşəkar olsa da Qorbaçovu mən istədiyim kimi danışdıra bilməyəcək. Qorbaçovun Heydər Əliyevə, Azərbaycan xalqına bəslədiyi münasibəti bütün çılpaqlığı ilə – bəzəksiz-düzəksiz göstərmək üçün o, söhbət vaxtı azərbaycanlı hər kəsin gözlərinə baxmalı idi və hiss eləməli idi ki, sualları ona hansısa rus rejissoru yox, Azərbaycan xalqı verir. Beləcə, yenə də il yarımlıq çətin "razısalma" prosesi

başladı. Mən malik olduğum bütün kanallar vasitəsi ilə bu işlə məşğul idim, hətta həmin arada Qorbaçov Stavropolda –qardaşının hüzr mərasimində mənim xahişimlə ora təşrif buyuran çox nüfuzlu bir şəxs istəyimi ona çatdıranda təəccüblə deyibmiş ki, "Kimdir bu Mustafayev? Məni burda da rahat buraxmır". Mən onun köməkçisinə yol tapdım... "Əsil məhəbbət haqında" filmini göndərdim ki, bu filmin aurası ilə onun şübhələrini müəyyən qədər dağıtmağa nail olum... Bildiyimə görə, mənim yaradıcılıq yolum, aldığım mükafatlar barədə məlumatlar əldə edəndən sonra, axır ki, 15 dəqiqəlik çəkilişə razılıq verdi...

...Mən fondun binasına daxil olub həmin o məşhur akvariumu görən kimi dərhal qərara gəldim ki, çəkilişi məhz burda – bu akvariumun fonunda aparmalıyam, daha doğrusu, Qorbaçov məhz akvariumun yanında əyləşib danışmalıdır.

**– Yəqin bu, akvariumda üzən balıqların doğurduğu hansısa assosiaya ilə bağlı idi?**

– Bəli, elədir. Mən 3 il hazırlıq prosesi dövründə onun saysız-hesabsız tele və qəzet müsahibələri ilə tanış olmuşdum və görmüşdüm ki, bu adam bu qədər çox, bəlağətli danışmağına baxmayaraq, əslində heç nə danışmır, onun fikirlərində konkret heç nə yoxdur, gah nala, gah mıxa vurur, bütün vəziyyətlərdə soyuq balıq kimi sürüşüb aradan çıxır. Üstəlik, akvariumda üzən balıqlar dekorativ, yəni süni, bəzək balıqları idi və bu fakt da "Qorbaçov" mövzusu ilə çox yaxşı uyuşurdu... Nə isə, çəkilişlər başladı və 15 dəqiqə oldu 2 saat yarım.

**– Buna necə nail oldunuz?**

– Bu, psixoloji bir proses idi... Mən söhbəti bir növ neytral mövzulardan başladım – Heydər Əliyevlə tanışlığın tarixi... neçə illər əvvəl Stavropolda görüşlər, filan. Bilirsiniz də, söhbət aparmağın da öz nəzəriyyəsi var – gərək həmsöhbəti sənə gərək olan mövzunun üzərinə elə gətirəsən ki, bunu hiss etməsin, sualları elə verəsən ki, onların arxasında dayanan niyyəti duymasın. Beləcə, biz Heydər Əliyevin istefaya göndərilməsi, Yanvar hadisələri mövzularına keçid etdik və mən gördüm ki, Qorbaçov tədricən əsəbiləşir, qıcıqlanır, zəhər tuluğuna dönür... Bunu operator da hiss eləmişdi... Qorbaçov qəfildən söhbəti dayandıra, çəkilmiş materialların əlimizdən alınıb məhv edilməsinə göstəriş verə bilərdi, çünki o, artıq kamera qarşısında ifşa olunduğunu hiss eləmişdi. Amma xoşbəxtlikdən hər şey biz istədiyimiz kimi qurtardı. Çəkiliş başa çatandan sonra mən söhbətin axarını dəyişmək üçün fənd işlətdim: xahiş-minnətlə çəkiliş qrupunun ştativ daşıyan şəxsi qismində bizimlə içəri girən şəxsi – Rusiya Televiziya və Radio Akademiyasının prezidentini göstərib dedim ki, Mixail Serqeyeviç, bu şəxs də İslam Kərimov haqqında film çəkmək istəyir. Ona kömək edə bilərsinizmi? Qorbaçov "Bundan sonra heç bir çəkilişə icazə verməyəcəm" - deyib əllərini yellədi və görüş başa çatdı. Çölə çıxan kimi dərhal maşına əyləşib hava limanına getdik, halbuki uçuşa hələ 11-12 saat vardı. Hətta mehmanxanada qoyduğum əşyaların, paltarların da arxasınca getmədim. Fikirləşdim ki, Qorbaçov fikrini dəyişsə, bizi mehmanxanada haqlamaq şansı daha çoxdur. Hər şey ola bilərdi, axı əlimdə Qorbaçovun öz dili ilə özünü ifşa edən, xalqımız qarşısında günahlarını açıqlayan faktlar var idi və fikirləşdim ki, onlar mənim həyatımdan da vacibdir.

**– Mən sizə bayaq sənədli kinoya müraciət etməyinizin səbəbi ilə bağlı sual verdim. Amma fikrimcə, belə bir jest etməyimiz mənim üçün gözlənilən idi. Hələ neçə il əvvəl "Yaramaz" filmində "bazar" epizodunu sənədli film estetikası ilə çəkməyiniz məni**

**buna inandırmışdı. Hətta adama elə gəlirdi ki, epizod gizli kamera ilə çəkilib. Orada xüsusi rejissor mizanları hiss olunmurdu...**

– Görünür, mənim məntiqim bunu tələb edir ki, mən bədii kinoda demədiklərimi, yaxud demək istəmədiklərimi sənədli kinoda, demədiklərimi, yaxud demək istəmədiklərimi bədii kinoda deyim.

Bəlkə də bu, mənim rejissor, ssenarist olmağımdan əvvəl vətəndaş olmağımdan və bu missiyanın məsuliyyətini dərindən dərk etməyimdən irəli gəlir. Mənim bədii filmlərim özüm də qarışıq hamımıza xas olan qüsurlara məruz qaldığımız əzablara, ağrılara reaksiyanı, sənədli filmlərim isə xalqımızın ən yüksək dəyərlərini, gücünü, istedadını dünyaya nümayiş etdirmək istəyimdir.

**– İnsanlarda ən yüksək dəyər verdiyiniz keyfiyyət hansıdır?**

– Mənim kamil, yaxşı insan modelim belədir: sözünün yiyəsi olan, yalan danışmayan, yalandan and içməyən, müəyyən qədər yumor hissinə malik olan və ən başlıcası, dosta, ailəyə xəyanət etməyən və bu xüsusiyyətləri ilə başqalarının yadında qalan insan...

**– Əgər müəyyən subyektiv səbəblər üzündən əsl sənətkarı vaxtında görüb qiymətləndirmirlərsə, o, nə etməlidir?**

– Başını aşağı salıb işini görməlidir. Əsl sənət, novatorluq heç də həmişə ictimai rəyə rahat oturuşmur. Çünki sənətin mahiyyətində vaxtı qabaqlamaq istəyi, inersiyası var. Əsl sənət gec-tez öz qiymətini alır, çünki onu görməmək mümkün deyil. Sənətə münasibətdə, onu vaxtında qiymətləndirmə sahəsində Azərbaycanda klassik Heydər Əliyev nümunəsi var. Və mən xoşbəxtəm ki, sənətim, çəkdiyim filmlər bu dahi şəxsiyyətin xoşuna gəlib, lazımınca qiymətləndirilib. Təsəvvür edin, o, Klivlenddə imkan tapıb mənim yubileyimi təbrik etmişdi. Bundan yüksək diqqət, qayğı olarmı?.. “Hər şey yaxşılığa doğru” onun ən çox sevdiyi filmlərdən biri idi. Yadımdadır, Bakıya toplaşan MDB ölkələrinin yüksək çinli hökumət nümayəndələrinə məsləhət görmüşdü ki, bu filmə baxsınlar, gülsünlər və düşünsünlər...

**–Vətənə, xalqa namusla, təmənnasız xidmət edən sənətkara layiq olduğu qiyməti vermək, Vətənə xidmətin ən parlaq nümunələrindən biridir.**

– Hər bir insan öz bacardığı işi görməlidir. Belə olsa, heç paxıllığa da, qibtəyə də yer qalmaz...

**– Son illər texniki tərəqqinin kinonun dilinə, estetikasına təsiri xeyli çoxalıb, nəticədə belə deyək də, nəsnələri ətir saçan filmlər, tamaşaçını məkanın içinə daxil edən “3...D” formatı, kompüterdə qurulan cürbəcür vizual, optik effektlər, kinonu daim öz təsiri altında saxlayan faktlar kimi günümüzün reallığına çevrilib. Bu kontekstdə nəzər salanda gələcəyin kinosunu necə görürsünüz?**

– Bu məsələyə mənim yanaşmam belədir: Əgər hansısa texniki yenilik – istər kompüter texnologiyası ilə bağlı olsun, istər başqa səciyyəli, fərqi yoxdur – filmdə müəllif konsepsiyasının ifadəli təsvirinə, müəllifin ideyasının daha dərindən açılışına və eyni zamanda, tamaşaçıların artan tələbatının və marağının təmin olunmasına xidmət edirsə, mən onu qəbul edirəm. Kino, ilk növbədə, göstərən sənəddir. Görmə qavrayışının əhatə dairəsində olan hər şey, məsələn, işıq-kölgə effektləri, rəng çalarları, vizual aləmin təsviri üçün gərəkli olan effektlər burada mühüm rol oynayır, lakin elə etmək lazımdır ki, bayaq sizin sadaladıqlarınız məqsədə çevrilməsin, fikri, ideyanı təsirli və inandırıcı şəkildə demək üçün vasitə rolu oynasın. Əks təqdirdə onlar, sadəcə, aktrakksion effektləri yaratmağa, tamaşaçını kinonun sehirli dünyasına yaxınlaşdırmaqdansa, kinoya, sənətə dəxli olmayan qeyri-

müəyyən bir ünvana aparmağa xidmət edən ucuz, bayağı hoqqalardan başqa bir şey deyil.

**– Bayaq qeyd etdiniz ki, kino, ilk növbədə, göstərən, yəni vizual sıranın dili ilə danışan sənətdir. Doğrudan da kinonun "lal"- yəni səssiz dövrü olub, amma təsvir sırası olmayan film təsəvvür eləmək absurddur. Kinoda vizuallığın təşkilinə yanaşma prinsipləri isə müxtəlifdir. Məsələn fotogeniya, foto nəzəriyyələri, yaxud təsviri sənətdən irəli gələn prinsiplər... Hətta ötən əsrin 20-ci illərində bəzi kino nəzəriyyəçiləri filmin təsvir sırasının musiqi sənətinin estetik prinsipləri əsasında qurulması zərurətini gündəliyə gətirmişdilər. Bəs siz necə, filmlərinizin təsvir sırasını düşünəndə konkret hansısa bir estetik platformadan çıxış edərsinizmi?**

– Rejissor öz filminin vizual həllini ilk növbədə öz beynində həll edir, ayrı-ayrı epizodları, kadrları hamıdan əvvəl öz təsəvvüründə özü görür. Əsas məsələ də onun özünün öz təsəvvüründə gördüklərini başqalarının, yəni tamaşaçıların da görmə pedmetinə çevirməsi, yəni onları reallaşdırmaqdır. Bu zaman sizin sadaladıqlarınız həmin o estetik prinsiplər özləri öz iştirakı üçün, necə deyərlər, sifariş verirlər, yəni hansısa epizod foto, hansısa təsviri, hansısa da musiqi sənətinin estetik prinsipləri ilə qurulur. Bu, rejissorun çatdırmaq istədiyi mətləbin mahiyyətindən, xarakterindən asılıdır...

**– Kinoda musiqinin funksiyasını nədə görürsünüz? Ümumiyyətlə, öz filmlərinizin musiqi həlli barədə nə deyə bilərsiniz?**

– Mən əvvəllər o rejissorların mövqeyindən çıxış edirdim ki, onlar filmdə musiqinin roluna asketik yanaşırdılar. Deyəsən, Bunyuell demişdi ki, rejissorlar bəzən musiqidən o dərəcədə sui-istifadə edirlər ki, onların filmlərindən musiqini silsən, yerdə heç nə qalmaz. Filmdə musiqinin rolu və ondan istifadə limiti, məncə, rejissorun həyata hansı aspektdən yanaşmasından asılıdır. Həyatda hər şey – küləyin əsməsi, yarpaqların xışıltısı, dalğaların hərəkəti və eləcə də insanın hərəkətləri, davranışı müəyyən bir ritmə, tempə əsaslanan harmonik xarakter daşıyır, insan sevinəndə, yaxud kədərlənəndə öz içində mütləq nə isə bir melodiyanı zümzümə edir. Filmlərdə səslənən kadrarxası musiqiyə də bu aspektdən yanaşmaq lazımdır. O, filmdə tələb olunan dozada olmalıdır – nə az, nə də çox. Kadrdaxili musiqi isə bilavasitə təsvir olunan məkana bağlı olduğundan onun dozası başqa meyarlarla müəyyən olunur. Yəni bu musiqi ifadə vasitəsi kimi yox, reallığın atributu, əlaməti kimi çıxış edir. Yəqin diqqət vermisiniz, "Yerlə göy arasında" filmində kadrdaxili musiqi kadrarxası musiqidən dəfələrlə çoxdur...

**– Elədir, "Milli bomba" filmində də kadrdaxili musiqiyə daha çox yer vermisiniz.**

– Emin Sabitoğlu, Tofiq Quliyev kimi gözəl bəstəkarlarımızla mənim uğurlu işbirliyim olub. Onlar kino sənətinin musiqiyə olan ehtiyacının mahiyyətini düzgün anlayan, məxsusi film üçün musiqi yazmağı bacaran bəstəkarlar idi. "Milli bomba"nı çəkəndə isə onlar həyatda yox idilər. Və tale elə gətirdi ki, mən dünya şöhrətli bəstəkar Giya Kançeliya ilə işləməli oldum. Hərçənd əvvəlcə ümidverici bir şey gözləmirdik. O vaxt bəstəkar Brüsseldə yaşayırdı və çox məşğul idi, bizim təklifimizə konkret cavab vermirdi, tərəddüd edirdi. Moskvaya gələndə prodüserimiz onunla görüşüb "Hər şey yaxşılığa doğru" filminin bir nüsxəsini ona verib ki, baxsın və son qərarını versin. Kançeliya filmə baxan kimi dərhal prodüserdən xahiş edib ki, filmin 1 nüsxəsini ona bağışlasın... Sonradan bildim ki, filmə evdə ailə üzvləri ilə birlikdə bir də baxıb

və film onların o qədər xoşuna gəlib ki, hiss etmədən başlayıblar evin içində bir-biriləri ilə həmin filmin leksikonunda danışmağa. Elə mən də evlərinə zəng vuranda həyat yoldaşı xahişlərimə, suallarıma eynən filmdəki kimi cavab verirdi. Məsələn, soruşdum ki, “Qiyu mojno?”, cavab verirdi: “A poçemu net?”...

Və nəhayət, ümummilli liderimizin qızı Sevil xanım Əliyeva ilə tanışlığım. Bizi Heydər Əliyev tanış etmişdi və elə ilk tanışlıqdan onun yüksək intellektual səviyyəsi, insani keyfiyyətləri və musiqi sahəsindəki istedadı məni valeh etdi.



Düzü, ağlıma gəlməzdi ki, bu xanım mənim filmimə musiqi bəstələyəcək. Amma bu möhtəşəm hadisə baş verdi. Sonuncu filmimin musiqi tərtibatı Sevil xanıma məxsusdur. Düzdür, orada başqa bəstəkarların da musiqiləri səslənir. Lakin əsas –leytmotiv xarakterli musiqinin müəllifi odur.

**– Ədəbi əsərlərin ekranlaşdırılması məsələsi də kinoşünaslıqda birmənalı qarşılanmayan problemlərdən biridir. Bir çox görkəmli yazıçılar sağlıqlarında ekranlaşdırmanın qəti əleyhinə olublar. O cümlədən də Markes sağlığında heç bir əsərinin ekranlaşdırılmasına icazə vermirdi... Lakin kino tarixində ekranlaşdırmanın parlaq nümunələri də çoxdur. Sizin bu məsələyə münasibətiniz necədir? Nə vaxtsa hansısa əsəri ekranlaşdırmaq istəyiniz olubmu?**

– Bəli, bu, mürəkkəb bir məsələdir. Mən əsərlərinin ekranlaşdırılmasına etiraz edən yazıçıları başa düşürəm. Yazıçı öz romanını, povestini.... yazanda ekran obrazları ilə düşünmür, onun təsvir vasitəsi sözdür. Sözün gücü ilə yaranan təsvir isə oxucuların təsəvvüründə vizuallaşır, özü də fərqli şəkildə. Məsələn, hansısa bir romanın qəhrəmanını hər oxucu bir cür təsəvvür edir. Kinoda isə əyanilik, konkretlik var. Həmin qəhrəman hamıya bir qiyafədə, konket bir biçimdə təqdim olunur. Yəni oxucunun öz yaradıcılıq missiyası, öz yozum hüququ – əgər belə demək mümkünsə – onun əlindən alınır... Görünür, yazıçıları qayğılandıran, narahat edən əsas məsələ də elə budur. Digər tərəfdən, söz insanın düşüncələrini, hətta düşünülənin alt sırasında gedənləri təsvir eləmək, oxucuya ötürmək gücündədir. Kinoda isə bunu eləmək o qədər də asan deyil. Amma bütün bunlara baxmayaraq, yüksək sənətkarlıqla qələmə alınmış bədii əsərlər rejissorları, kino xadimlərini həmişə özünə çəkir, onlar həmin əsərlərin ekran variantlarını da yaratmaq istəyirlər.

Mənim yaradıcılıq həyatımda da ekranlaşdırma ilə bağlı müəyyən məqamlar, müəyyən şəxslərlə təmaslar olub. Bilirsiniz ki, mən Avrasiya Televiziya və Kino Akademiyasının 1-ci vitse-prezidentiyəm. O vaxt Akademiyanın prezidenti Oleq Poptsov idi. O "Rusiya" kanalının yaradıcısı, onun simasını müəyyən edən əsas şəxslərdən biridir. O vaxtlar hər il Akademiyanın xətti ilə forum keçirilirdi. Həmin forumların birində mənim təşkilatçılığımla məşhur heykəltaraş Sereteli, Moskva Universitetinin jurnalistika fakültəsinin dekanı Zasurski və Çingiz Aytmatovla Sütunlu Salonda maraqlı bir görüş keçirildi. Görüşdən sonra Seretelinin şəxsi restoranının "Vip zal"ındakı ziyafətdə mən Ç.Aytmatovla yaxından tanış oldum. Çox sadə və emosional bir insan idi. Söhbət əsnasında dedi ki, mənim "Yaramaz" filmim onun çox xoşuna gəlib və çox istəyir ki, mən onun əsərlərindən birini ekranlaşdırım. Zarafatla dedim ki, Çingiz Terequloviç, məncə, digər rejissorlar zirək tərpənirlər, əsərlərinizin hamısını ekranlaşdırıblar. Dedi, dəxli yoxdur, Bakıya gələndə bu məsələni ayrıca müzakirə edərik... Bir müddət sonra Bakıda olanda görüşdük, yenə israr etdi ki, əsərlərindən birinin mənim yozumumda ekran variantını görmək istəyir. Qərar verməyə çətinlik çəkirdim. Çünki onun əsərləri əsasında çəkilmiş filmləri bəyənirdim və onları, necə deyərlər, basıb keçmək istəmirdim. Fikirləşmək üçün vaxt istədim. Çingiz də öz vədinə döndü və təəssüf ki, türk dünyasının bu böyük söz ustası 3-4 gündən sonra dünyasını dəyişdi.

**– Bəs, özünüzün ekranlaşdırmaq istədiyiniz əsər, ekrana gətirmək istədiyiniz ədəbi qəhrəman varmı?**

– Bəli, Azərbaycan xalqının gülüş kralı Molla Nəsəddin lətifələri əsasında film çəkmək istəyirəm. Bu, mənim çoxdankı arzumdur. İstəyirəm ki, başqa xalqların folklorunda da mövcud olan Nəsrəddinlərin içərisində ən müdrikinin bizim Molla Nəsrəddin olduğunu bütün dünyaya göstərim.

Amma deyim ki, ekranlaşdırma ilə bağlı başqa istəklərim də olub, Məsələn, mən "Don Kixot"u ekranlaşdırmaq istəyirdim, ideya var idi, hətta ilkin hazırlıq işləri də gedirdi. Amma baş tutmadı. Bilirsiniz, yeri gəlib deyəcəm, bizdə kinoya tamaşa etməyi sevirlər, imkanı çatanlar isə onun yaranması prosesində iştirak etmək istəmirlər.

**– Sizi çox vaxt xasiyyətcə qəliz, çətin adam kimi xarakterizə edirlər...**

– Bilirsinizmi, mənim asan, yaxud çətin adam olduğum məni qətiyyən qayğılandırmır. Öz həyatını yaşayan – bir insan və sənətkar kimi. İndi kimsə asan, kiməsə qəliz görünür – bu, onların öz işidir...

Belə bir söhbət bir dəfə rəhmətlik Heydər Əliyevin də yanında olub. Ona deyiblər ki, Vaqif Mustafayev yaxşı sənətkardır, amma heyif, xasiyyəti qəlizdir. Heydər Əliyev də onların sözünü kəsib deyib: "Hamar xasiyyətli Vaqif Mustafayev kimə lazımdır ki? Siz istəyirsiniz ki, gənc yaşlarından artıq tarixə düşmüş bu adam adi, hamıdan biri olaydı? Qurtarın bu söhbətləri, sənətkarları rahat buraxın".

Bir dəfə – çox illər bundan əvvəl – Kinematoqrafçılar İttifaqının bir tədbirində kimsə yüksək tribunadan buna oxşar bir "bəyanat" vermişdi. Mən də fürsət düşən kimi tribunaya çıxıb dedim: "Vaqif Mustafayev rejissordur, film çəkir, sizin də vəzifəniz mənim yaradıcılığımı, filmlərimi təhlil etməkdir, xasiyyətimi yox. Onun xasiyyətinin necəliyi, çətin, yaxud asan adam olması həyat yoldaşının problemidir".

Mən necə çətin, qəliz adamam ki, dostlarımı bekar, işsiz görəndə onları bu çətin vəziyyətdən çıxarmaq üçün hətta öz istəklərimin üstündən xətt çəkməyi bacarıram. "Fəryad" filminin ssenarisini yazıb rəhmətlik Ceyhun

Mirzəyevi çətin, durğun vəziyyətdən çıxarmaq üçün ona verdim, halbuki onu özüm də çəkə bilərdim, amma fikirləşdim ki, qoy, o çəksin. Hətta baş rolu oynamağı da ona mən tövsiyə etdim. Dedim, xalq səni aktyor kimi yaxşı tanıyır, filmin taleyində bu amilin müəyyən rolu olacaq... Digər aktyorların seçimində də ona kömək etdim...

"Yapon" və yaponiyalı" filminin ssenarisini də əslində özüm üçün yazmışdım, amma eyni səbəbdən ondan da keçdim. Fikirləşdim ki, bunu özüm çəkməsəm, dünya dağılmaz...

Nə isə, fürsət düşmüşkən deyim: "Mən bir dost kimi, vətəndaş kimi, adi insan kimi öz missiyamı heç vaxt unutmayan bir insanam və həmişə də belə olacağam".

**– Siz gülməli situasiyalar yaratmağın ustasısınız. Bəs özünüz necə, gülməli situasiyalara düşmüsünüz, xüsusilə də çəkiliş vaxtlarında?..**

– Bilirsiniz, mənə gülməli görünən bir situasiya, olsun ki, başqalarına gülməli görünməsin. Belə hallar çox olub və bu da təbiidir. Hərənin öz gülmək istedadı var. O ki qaldı çəkilişlərə, "Hər şey yaxşılığa doğru" filminin çəkilişləri vaxtı özümün özümə gülməyim – özü də qəmgin halda – yadıma gəlir. O filmdə süjetə görə tabutla dəfələrlə bu həyətdən o həyətə girməli, çıxmalı idik... Bizdə isə əlamətlərə inanmaq, "düşər-düşməz" fəlsəfəsi çox güclüdür. Yadımdadır, çəkiliş günlərinin birində bir nəfər mənə yaxınlaşıb ədəb-ərkanla salam verdi, dedi ki, Vaqif müəllim, sizə böyük hörmətim var, nə desəniz canla-başla yerinə yetirməyə hazıram. Lap istəyirsiniz əlləri üstə dayanım əmrinizlə. Amma bir xahişim var, bu tabutu bizim həyətə salma...

"Bəyin oğurlanması" filminin çəkilişlərində də gülməli epizodlar yadımda qalıb. Mirzə Babayevin iştirak etdiyi epizodların çəkildiyi yerin yaxınlığında böyük bir alma bağı vardı. Fasilə olan kimi, yaxud çəkilişlərdən əvvəl, ya da sonra Mirzə müəllim kiçik cib bıçağını çıxarıb verirdi özünü bağa... Təxminən 1 həftə sonra gördüm ki, bağdakı ağaclarda alma qalmayıb... Dedim, ay Mirzə müəllim, barmaq boyda bıçaqla bu boyda bağı talan elədin ki! İndi bağ yiyələrinə nə cavab verəcəyik?

...Çəkiliş qrupumuzun Nəmxuda adlı bir direktor müavini vardı. O vaxt üzüm yığımının qızğın vaxtları idi, camaatı küçədə, çayxanada tutub üzüm yığmağa aparırdılar. Bir gün Nəmxudanı da götürüb üzüm yığmağa aparmışdılar. Nə qədər hay-həşir salsa da, xeyri olmamışdı...

**– Siz təkcə rejissor kimi yox, adi bir insan kimi də gülməyi bacarırsınız... Bəs ağlamaqla aranız necədir? Ağlamaq da əzablara, çətinliklərə reaksiya verməyin bir növüdür.**

– Öz ağrılarına, iztirablarına gülüşlə reaksiya vermək, onlardan bu yolla yaxa qurtarmaq onları göz yaşı ilə qarşılamaqdan qat-qat yaxşıdır. Hər bir xalqın öz gülüş ruhu, gülüş mədəniyyəti var. Və o, nə qədər zəngin olsa, həmin xalq bir o qədər güclüdür. Göz yaşları, hönkürtü mənlik deyil. Mənim uşaqlığım öz davranış etiketi olan köhnə "Sovetski" məhəlləsində keçib. Hər axşam məhəllənin cayılları tramvay dayanacağının yanındakı budkanın yanında yığışıb söhbət edərdilər və kiçik yaşlı uşaqlardan onların yanında dayanmağa hüququ çatanlardan biri də mən idim. Mən həyatın ziddiyyətlərinə, paradokslarına gülüşlə, yumorla, ironiya ilə reaksiya vermək qabiliyyətini də bəlkə elə orada misqal-misqal əxz eləmişəm. Fikrimə görə, kişi ağlayıb göz yaşlarını başqalarına nümayiş etdirməməli, öz içində, daxilində ağlamalıdır...

**– Sovet dövründə kino dövlət büdcəsindən maliyyələşdirilir, çəkiləcək filmlərin sayı əvvəlcədən müəyyənləşdirilirdi. Bunun**

**həm müsbət, həm də mənfi tərəfləri vardı. Və həmin dövrdə filmlər çəkmiş rejissor kimi bunu məndən də yaxşı bilirsiniz. Sistem dağılandan sonra kinonu öz qanadı altına alan, onun, necə deyərlər, nazı ilə oynayan etibarlı bir himayədar olmadığından, o da bazar iqtisadiyyatının diqtəsi ilə idarə olunan bir mühitdə əmtəəyə çevrilərək baş girləməyə məcbur oldu. Sənətin bazar məhsuluna çevrilməsi isə artıq onun ölümü deməkdir. Şəxsən mənim fikrimə görə, xalqın milli şüurunun, ictimai fikrin bu növü olan sənətin taleyini bazarın ixtiyarına buraxmaq, ona yalnız alış-satış predmeti, gəlir mənbəyi kimi baxmaq olmaz. Bu məsələ barədə nə deyə bilərsiniz?**

– Təbii ki, mədəniyyətin bir növü olan kino daim diqqət mərkəzində olmalı, o, bazar qanunlarının təsir edə bilmədiyi bir zonada saxlanılmalıdır. Amma əyləncə janrlarında çəkilmiş kommersiya filmləri də günümüzün reallığıdır, onun mövcudluğunu inkar etmək yox, bununla barışmaq lazımdır. Lakin nəzərə almaq lazımdır ki, xalqın yaxın və uzaq – strateji maraqlarının müəyyən olunması, insanların maariflənməsi, intellektual səviyyəsinin yüksəldilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması kimi missiyalar kommersiya kinosunun yox, məhz sənət hadisəsi mədəniyyət faktı olan kinonun üzərinə düşür. Ona görə də bu kinonu həmişə diri, işlək, döyüşə hazır vəziyyətdə saxlamaq lazımdır. Elə bir mexanizm qurulmalıdır ki, dövlət sifarişi olan filmləri təsadüfi adamlar yox, bu sənətdə öz sözünü demiş, uğur qazanmış təcrübəsi olan peşəkarlar çəksinlər. Sənətə dövlət, imkanlı adamlar və xalq tərəfindən həssas münasibət lazımdır. Əsl sənəti və sənətkarları bazar – “tolkuçka” predmetinə çevirmək yolverilməzdir. Bilirsinizmi, nə qədər qəribə də olsa deyəcəm: mənə xarici ölkələrdə elə yanaşırlar ki, sanki mən onların sənətkarıyam – cürbəcür təkliflər, layihələr, filan... Sözüm onda deyil. Söhbət aldığım mükafatlardan, adlardan getmir. Dövlətimizdən xidmətlərimə verdiyi qiymətə görə çox razıyam. Amma mən işləmək və mənim kimi digər sənət adamları yeni əsərlər yaratmaq, xalqımızı daha yüksək tribunalarda təmsil etmək istəyiriksə - buna şərait yaradılmalı, bu ciddi istəklər taleyin ixtiyarına buraxılmamalıdır. Bizim məmurlar tutduqları yüksək, məsul vəzifəyə xalqa, onun mədəniyyətinə xidmət etmək vasitəsi kimi baxmalıdırlar. Hətta bir məclisdə zarafatla dedim ki, məmurları vəzifəyə qoyanda hansısa bir yolla onların xalqın ruhuna, mədəniyyətinə nə dərəcədə bağlı olduğunu, Vətənini nə dərəcədə sevdiyini müəyyən etmək lazımdır.

Bəzən deyirlər ki, heç bir sahədə, o cümlədən də kinoda əvəzolunmaz şəxs yoxdur – Əli olmur Həsən olsun, nə bilim, Məmməd olmur, Qulu olsun. Bu, səhv yanaşmadır. Hansısa bir sənətkarın yaratdıqlarını, dediklərini heç vaxt bir başqası deyə bilmir – necə ki, uzun illər şairlər Nizamini, Füzulini, Sabiri... ancaq yamsılamaqla məşğul olublar. Hər bir sənətkara fərd kimi, əvəzolunmaz şəxsiyyət kimi yanaşmaq lazımdır.

**– Biz danışdıqca xəyal məni ötən əsrin 70-ci illərinin sonlarına apardı. Adı və soyadı sizinkilərlə eyni olan mərhum pianoçumuz Vaqif Mustafazadə həmin illərdə Azərbaycan musiqi mədəniyyətini özünün dünya miqyaslı kəşfləri ilə zənginləşdirir, caz sənətində yeni bir janrın – “Muğam-caz” janrının əsasını qoyurdu, amma onu qorumaq, axtarışlarına münbit şərait yaratmaq əvəzinə sıxışdırır, təqib edir, müxtəlif bəhanələrlə efirə buraxmırdılar.**

– Allah rəhmət eləsin ona. Bütün bunlara baxmayaraq, özünə, sənətinə xəyanət etmədi. Hətta bu ona həyatı bahasına başa gəlsə belə. Bilirsiniz niyə? Çünki o, özünə kənardan baxmağı bacarırdı, özünü kənardan görə

bilirdi. Bilirdi ki, nə uğrunda döyüşür, mübarizə aparır. Bu, çox vacib bir keyfiyyətdir. Nəinki hər bir sənətkar, hər bir sıravi vətəndaş, bütövlükdə isə xalq bunu etməyi bacarmalıdır.

Təəssüf ki, bu hiss, bu istək bizdə zəifdir. Baxın, evin içini zövqlə bəzəyirik, ona ideal bir görkəm verməyə, az qala muzeyə çevirməyə çalışırıq, amma giriş qapısından çöldəki zir-zibil, üfunət bizi narahat eləmir. Halbuki oranı qaydaya salmaq, təmiz saxlamaq evin içini muzeyə çevirməkdən qat-qat mədəni aktdır.

**– Gəlin, yenə sizin filmlərinizə qayıdaq. Sizin "Nakəs" filminiz poetik xüsusiyyətlərinə görə digər filmlərimizdən fərqlənir. Bu, sizin gülüş estetikasının prinsipləri ilə çəkmədiyiniz, səhv etmirəmsə, yeganə bədii filminizdir. İstərdim ki, bu filmi, onun ideyasını özünüz təqdim edəsiniz.**

– Bu filmin ideyası 90-cı illərin axırlarında son dərəcə mürəkkəb sosial-iqtisadi və mənəvi kataklizmlər dövründə yarandı. Birdən-birə mənə elə gəldi ki, komediya rejissoru kimi artıq tükənmişəm, daha gülməli nə isə çəkə bilmirəm. Bir növ özüm də mənəvi və yaradıcılıq böhranına bənzər bir hal yaşayırdım. Belə əzablı anlarda "Nakəs"in mövzusu – simasızlıq mövzusu gəlib özü məni tapdı. "Yaramaz"da mən "yaxşı", yoxsa "pis" dilemması qarşısında qalan və pisi seçən bir insanın aqibətini göstərmişdim. Bu dəfə isə ümumiyyətlə, seçimin fövqündə dayanıb birdən-birə hamı olmaq istəyən, hər vəziyyətdə həmin vəziyyətin qəhrəmanına çevrilməyi özünün həyat amalına çevirən, yəni öz siması, şəxsiyyətinin, ruhunun, necə deyərlər, "karkası" olmayan bir insanın taleyini araşdırmaq istədim. Zahirən belə adam yox kimi bir şeydir, amma həm də mövcuddur, hər zaman hər addımda rastlaşdığımız və bizə problem yaradan bir məxluqdur. Beləliklə, düşdüyü situasiyadan asılı olaraq müxtəlif yollara girən, müxtəlif adamların, xarakterlərin rolunu oynayan bir obraz yarandı. Özünün idealı, məsləki, xarakteri olmadığından onu idarə edən də məhz başqalarının istəyi, sifarişidir... O, bütün həyatı boyu ayrı-ayrı adamların roluna girir və onların obrazını yaradır və müxtəlif meyarlarla özünə haqq qazandırmağa çalışır. Məsələn, bir nəfər gəlib bacısının ləyaqətini alçaldan hansısa bir adamdan şikayət edir və o, dərhal həmin şikayətçinin roluna girib bir növ öz bacısının intiqamını alırmış kimi, həmin o nadürüstü məhv edir... Film bax bu insanın – bütün situasiyaların "qəhrəmanı" olan antiqəhrəmanın taleyindən bəhs edir...

**– Bəs sonda onun aqibəti nə ilə nəticələnir?**

– Mən "Yaramaz"dakı kimi elə final qurmuşam ki, onun məhv olduğu, ya olmadığı açıq qalır, nəticəni tamaşaçılar özləri çıxarırlar.

**– Təbii ki, həmin qəhrəmanın adı da yoxdur filmdə.**

– Bəli, ümumiləşdirilmiş, simvolik bir ad – nakəs, yəni heç kim...

**– Maraqlıdır, sizin filmlərinizin çoxunda personajların adı yoxdur, siz onları konkret adları ilə yox, peşələrinin adları, yaxud ailədəki, cəmiyyətdəki statusları ilə çağırırsınız, məsələn: rejissor, montajçı, oğul, qardaş, baba, həkim, ata...**

– Bilirsiniz, qəribə də olsa, deyəcəm. Personaja ad tapmaq mənim ən zəif yerimdir. Mənə görə personajın adının necə olması, necə səslənməsi prinsipial əhəmiyyət kəsb edir və bu mənada sizin sadaladığınız ifadələr də tapılmayan adları uğurla əvəz edir...

**– Məncə, burada sizin üslubunuzda pritça janrının elementlərinin müəyyən dərəcədə iştirakı da hansısa rol oynayır.**

– Bu, mənim özümə, gördüyüm işə, çəkdiyim filmə son dərəcə ciddi yanaşmağımdan irəli gəlir. Söhbətin əvvəlində də demişdim ki, filmlərimi lay-

lar prinsipi ilə qururam. Yəni üzdə zahirən gülüş doğuran hansısa bir epizod, ya jest öz bətnində hansısa ciddi bir mətləb gəzdirir. Gülüş sənəti əzablardan, iztirablardan qurtulmağın bir yoludur, deməli, mahiyyət etibarilə ciddi bir hadisədir.

**– Siz filmlərinizdə çox gözəl kalamburlar – yəni ikibaşlı söz oyunları qurursunuz, demək olar ki, bu sahədə ustasınız. Təsadüfi deyil ki, filmlərinizdə personajların dilindən eşidilən hansısa frazalar ekrandan həyata keçərək insanların müxtəlif situasiyalara münasibətini ifadə edən zərb-məsəllərə çevrilib. Danışıq nitqimizdə oturuşmuş bəzi ifadələrə münasibətinizi bilmək istərdim: məsələn, "canın yansın", "canını yeyərəm", "sən öl", "bu ölsün"...**

– "Yerlə göy arasında" filmində "bu ölsün"ün ekran yozumunu vermişəm (gülürük). Məncə, belə ifadələr, xüsusən də kimi isə nəyəsə inandırmaq üçün içilən andlar insanın gücsüzlüyünün, qeyri-səmimiliyinin göstəricisidir. Məsələn, uşağa müraciət edəndə, guya ona olan məhəbbəti ifadə etmək üçün deyirlər: "canın yansın" (yaxud "yanmasın"). Bu necə məhəbbətdir ki, onun canının yanmasını istəyirsən? Yaxud yenə də guya sonsuz məhəbbətini ifadə edən "canını yeyim". Yenə bunlara dözmək olur. Söyüşü, vulqar, təhqiredici ifadələri əzizlərinə statusunda işlətmək də qəribədir, paradoksdur: Məsələn,d ayı bacıoğlunu guya əzizləyirmiş kimi deyir: "köpək oğlu". Bu nə deməkdir? Yaxud yalançı andlar. Bazarda piştaxta arxasında dayanmış bazburutlu birisi bir də görürsən ki, malını satmaq xatirinə yalandan and içir: "balam ölsün, Göyçay narıdır" ya da "sən öl, Quba almasıdır".

Mənə elə gəlir ki, insanlar nə qədər az and içsələr, yalançı əzizləmələrdən nə qədər az istifadə etsələr – bir o qədər yaxşıdır. Dərd burasındadır ki, bu ifadələr bazarın, küçə-bacanın sərhədlərini aşıb bəzi məmurların da leksikonuna daxil olur. Bax, bu çox təhlükəlidir. Kişi gərək dediyi sözün məsuliyyətini dərk etsin, öz sözünün üstündə dursun. Düz danışırsansa, niyə and içirsən? Yaxud məhəbbətini bir sığalla, xoş sözlə bildirmək o qədər çətindir? Bütün bunlar məsuliyyətsizliyin nəticəsidir. Məsuliyyətsizlik isə çox təhlükəli bəladır…

**– Maraqlıdır, heç özümüzün ağzından qeyri-ixtiyari olsa da, bu ifadələr çıxırmı? Məsələn, siz heç söyüş söymüsünüz, yaxud əsəbiləşəndə söyürsünüz?**

– Uşaq vaxtı söyüş söyən, dəcəl uşaq olmuşam. Mənim bu qüsurumla rəhmətlik nənəm öz metodu ilə mübarizə aparırdı. Görəndə ki həddimi çox aşıram, məni tutub ağzıma acı bibər sürtürdü və deyərdi, "Get, indi söy, köpəkoğlu" (yenə köpəkoğlu!). Bir neçə gün söydüyüm söyüşlərin mükafatı kimi gözlərimdən yaş axa-axa gəzirdim... Bu, mənim rəhmətlik nənəmin tərbiyə üsulu idi...

**– Sizin filmlərinizdə bizim mentalitetimizin bəzi cəhətlərinə münasibət birmənalı deyil. Sizə elə gəlmir ki, biz müəyyən amillərin təsirindən yaranan bəzi kompleksləri mentalitet kimi qələmə verir və sonra bunun ağrısını çəkirik?**

– Bu, çox incə məsələdir. Razıyam ki, mentalitetlə komplekslərin sərhədləri çox kövrəkdir, şəffafdır və bəzi komplekslərin bu sərhədləri maneəsiz keçib mentalitetə oturması təhlükəsi var. Bilirsiniz, insan özünü, ruhunu islah eləmək üçün mütləq özünə gülməyi bacarmalıdır. Bəziləri bu ifadəni düzgün başa düşmür, özünə gülməyi özünü bəyənməmək kimi qələmə verirlər. Belə deyil. Özünə gülmək, əslində, hamıya gülmək və

deməli, hamıya – yaşından, cinsindən, sosial statusundan, maddi imkanları baxımından heç kimə fərq qoymadan – xas olan naqislikləri aradan qaldırmaqdır. Üzeyir Hacıbəyovun komediyalarına fikir verin. Qumarda uduzduğu pulları vermək üçün qızını satan bəy… fırıldaqçı bəylər... arvad hamamında gizlənən qoçu... cüvallağı Sərvər... atasından xəbərsiz həyətə yad oğlan salan bəy qızı… hamı gülüş obyektidir və Üzeyir bəy özünü onlardan ayırmır, onlarla birlikdə özünə də gülür…

Biz özümüzə güləndə mentalitet kimi qələmə verdiyimiz bir çox naqisliklər aşkara çıxarmaq çox asan olur. Yenə Üzeyir bəyə müraciət edək: baxın görün 2 komediyada nələri faş edib; rüşvətxorluq, boşboğazlıq, yalançılıq, xəsislik, bir qara qəpiyə dəyməyən qürur… Daha nə qaldı ki? Bu naqisliklərdən kənarda qalan bircə personaj var, o da Məşədi İbaddır. Amma qəribədir ki, uzun illər bizim sovet ədəbiyyatşünasları onu mənfi obraz kimi qələmə veriblər…

“Məşədi İbad” filmində bizim mentalitetin bilavasitə ifadəsinə xidmət edən bir səhnə var – qonaqlıqda muğamın oxunduğu və hamının heyranlıqla həmin ifaya qulaq asdığı səhnə. Həmin situasiyada hamı – acgöz Baloğlanı çıxmaq şərti ilə – eyniləşir, bütün personajlar digər qəlibdən çıxıb eyniləşirlər.

**– Vaqif müəllim, siz özünüz necə, muğamı xoşlayırsınız?**

– Bəziləri kimi desək ki, muğamın dəlisiyəm, gündə bir neçə dəfə muğama qulaq asmasam yaşaya bilmərəm - qeyri-səmimi olar. Amma muğam da, saz havalarımız da, rəqs melodiyalarımız da mənim ruhumda bir-birinə qoşularaq onun bir parçasına çevrilib. Xüsusən instrumental muğamları, musiqini çox xoşlayıram. Lakin muğama bir mif, büt kimi yanaşıb onun arxasında gizlənərək süni imic yaratmağın da tərəfdarı deyiləm. “Mən muğamı sevirəm, deməli, xalqına bağlı, milli adamam” – deyənləri ələkdən keçirsək, görərik ki, onlar əslində bir insan kimi öz məzmunsuzluqlarını bu yolla pərdələmək istəyirlər, baş aldadırlar. Bu işlə əsl sənətkarlar, muğam elminə, ifaçılığına vaqif olanlar məşğul olmalıdırlar.

**– Sizcə, ailədə tərbiyəni nədən başlamaq lazımdır ki, cəmiyyət üçün layiqli vətəndaşlar yetişdirmək mümkün olsun?**

– İlk növbədə uşaqların lap kiçik yaşlarından tutduğu işlərə görə cavabdehlik hissi – yəni vicdan duyğusu təlqin etmək lazımdır. Hər şeyin əsasında vicdan dayanır. O yoxdursa, insan hər cür alçaqlığa gedəcək, hər cür yaramazlıq edəcək, çünki onun daxilində özü-özünə hesabat vermək duyğusu, yəni məsuliyyət hissi olmayacaq. Rəhmətlik babam həmişə deyərdi: “İnsan gərək öz nəfsinin ağası, öz vicdanının qulu olsun”. Bu, böyük hikmətdir. Xoşbəxtəm ki, mən 4 övladımın dördünü də bu ruhda böyütmüşəm, babamın bu əxlaq kodeksini onların həyat tərzinə çevirməyi bacarmışam.

Yeri gəlmişkən, bir əhvalat danışım. Kvant mexanikasının “Şredinger tənliyi” adlanan bir tənliyi var. Bu tənlik elm aləmində bir kəşf kimi qəbul olunandan sonra 2 məşhur fizik küçədə rastlaşır və biri o birinə deyir: “Mən həmən tənliyi neçə il əvvəl tapmışdım, amma ona əhəmiyyət verməyib bir kənara atdım”. O biri fizik deyir: “Həmin tənliyi tapmamaq qətiyyən ayıb deyildi. Amma onu tapıb əhəmiyyət verməmək böyük biabırçılıqdır”. Yəni demək istəyirəm ki, vicdanın, məsuliyyətin lazımlı, vacib şeylər olduğunu bilmək hələ heç nədir. Əsas odur ki, sən özün də onlara yiyələnəsən, vicdanı, səmimiyyəti bir kənara qoyub səmimi sağlıqlar deməklə kifayətlənməyəsən.

Bilirsiniz, həyatda hər şey çox sadədir. Ən müxtəlif riyazi formullar, misallar da öz həllinə doğru gedə-gedə sadələşir, axırda adi bir rəqəm alınır. Çox

təəssüf ki, həyatda bəzən bunun əksini edirlər. Mürəkkəb, çətin görünən şeyləri sadələşdirməkdənsə, sadə şeyləri süni şəkildə çətinləşdirməklə məşğul olurlar. Belə bir misal çəkim. Müxalifət lideri bir qədər qəhrəman, fədai imicində, görkəmində küçəyə çıxıb camaatı mitinqə səsləyir, heç nədən qorxmamağa, əqidə yolunda hər cür əzaba qatlaşmağa səsləyir. Səhər isə başına, alnına plastır yapışdırıb sensasiya axtaran junalistlərin qarşısında ağlayıb-sızlayır: "Həqiqəti dediyimə görə məni döydülər". Əslində isə bu adi, sadə bir həqiqəti – özünün heç nəyə yaramadığını pərdələməkdən başqa bir şey deyil...

**– Sizin filmlərinizin demək olar ki, hamısı müasir mövzulara həsr olunub. Bəs tarixi mövzular sizi nə dərəcədə maraqlandırır? Nə vaxtsa tarixi mövzuda film çəkmək fikriniz varmı?**

– Mənə Qazaxıstandan, Türkmənistandan, Rusiyadan tarixi filmlər çəkmək üçün dəfələrlə müraciət ediblər. Hər dəfə də demişəm ki, qazaxların tarixini qazax, türkmənlərin tarixini türkmən, rusların tarixini də rus rejissoru çəkməlidir. Mən öz xalqımın övladıyam və bu mövzuda film çəksəm, yalnız öz xalqımın tarixi ilə bağlı mövzuya müraciət edə bilərəm. Amma təəssüf ki, rejissor yaradıcılıq planını həyata keçirməkdə yazıçı kimi, bəstəkar, rəssam, müğənni kimi azad deyil. Film, ələlxüsus da tarixi film çəkmək üçün maddi vəsait lazımdır. Amma Azərbaycanda iş adamları, buna imkanı çatan şəxslər bu məsələyə biganədirlər. "Əsgər atası" filmində qoca gürcünün rus əsgərini şillələyib dediyi sözləri xatırlayırsınızmı: "Sən üzümü ancaq yeməyi xoşlayırsan. Onu əkməyi, ona qulluq etməyi isə yox". Çox təəssüf ki, bizim iş adamları da kinoya ancaq baxmağı xoşlayırlar, ona vəsait qoymağı, dirçəltməyi yox!

**–Vaqif müəllim, söhbətin sonuna yaxınlaşırıq. Məndən gözlədiyiniz, lakin vermədiyim sual oldusa, xahiş edirəm, cavablandırın...**

– Çoxları elə fikirləşir ki, sənətkarlar, yaradıcı adamlar bir az əlçatmaz olurlar, onların xüsusi yaşam tərzi, ünsiyyətdə olduqları xüsusi adamlar olur, bir sözlə, onlar adi insanlardan, adi həyat tərzindən uzaq olurlar. Demək istərdim ki, mən belə bir həyat və sənət tərzini qətiyyətlə rədd edən, həyatda hamıdan biri olmağa can atan insanlardanam. İnsanlıq mənim nəzərimdə yaradıcılıqdan, sənətdən öndədir. Çünki yaxşı insan olmaq ən böyük yaradıcılıqdır... Mən həyatsevərəm, həmişə adi adamların əhatəsində olmağı xoşlayıram və qəti şəkildə deyirəm ki, Azərbaycandan kənarda yaşaya bilmərəm. Mən Azərbaycan stixiyası, Azərbaycan ruhu ilə əhatə olunmasam, nə yaşaya, nə yarada bilərəm.



*Əli NƏCƏFXANLI*

**YOLLAR**

Yollar yoldaşımdır, yollar sirdaşım,
Ömrümü yollara qurban etmişəm.
Bəzi adamlarla dil tapmasam da,
Yollarla lap yaxşı yola getmişəm.

Yerimək öyrədib mənə səbirlə,
Müəllimim olub ilk cığır, ilk yol.
Büdrəyib üzüstə yerə dəyəndə
Yollar dizlərimə deyib: möhkəm ol!

Dərəyə enmişəm, dağa qalxmışam,
Çətin sınaqlardan çıxarıb məni.
Hər vaxt qalibiyyət bayrağı kimi
Qaldırıb başından yuxarı məni.

Bəzən də yollanıb qaranlıqlara,
Muştuluq hayqıran səslə qayıdıb.
Sevdiyim gözəlin qapısına da
Ürkə-ürkə gedib, şəstlə qayıdıb.

Yollar ömrün-günün yelləncəyidir,
Sağım – yol, solum – yol, önüm, gerim – yol.
Yol da var, atəşkəs kəsib yolunu,
Durub gözləyirəm, gedən yerim yox.

Hələ ki, Şuşadan, Laçından düşən,
Özünü yandırıb-yaxandı o yol.
Bu gün o dağlara boylanır, baxır,
Sabah o yolları qalxandı o yol.

Sevinc də duymuşam, qəm də dadmışam,
Düyün salmamışam yolları heç vaxt.
Öpüb sevə-sevə ayaqlarımı -
Ayağa vermərəm onları heç vaxt.

## YUXU

Qulağıma səsin gəldi, ay ana,
Elə bildim darıxmısan, gəlmisən.
Məni səntək anlayana, duyana
Ehtiyacım olduğunu bilmisən.

Gözüm səni ha axtardı, ha gəzdi,
Gül üzünə tamarzıyam nə vaxtdı.
Tellərini qoxlamağa tələsdim,
Ürəyimdən misra-misra qan axdı.

Bir də gördüm üz çevirib gedirsən,
Dizim əsdi, ağzım-dilim qurudu.
Yoxsa mənə xəbərdarlıq edirsən -
Bu çalınan İsrafilin surudu.

Qıyya çəkdim, haray saldım gəl deyə,
Uşaq oldum altmış iki yaşımda.
Qopdu naləm, gəldi aləm lərzəyə,
İki əlim dava döydü başımda.

Sağa baxdım, sola baxdım, döyükdüm,
Bir daşındı, bir şəklindi, bir də mən.
Sən ki məni saat-saat böyütdün,
Amma sənə baş çəkmədim ildə mən.

Havam, suyum döndü zəhər-zəqquma,
Varlığımı yaxşı çəkdin dara sən.
Səsin məni səksəndirdi haqqına,
Kaş bu dərsi mənə hər gün verəsən.

## PAYIZ NƏĞMƏSİ

Könül budağımdan qopub düşsə də,
Mənim payızımın nəğməsi - yaşıl.
Əllərim fanidən üzülüşsə də,
Mənim payızımın nəğməsi - yaşıl.

Yay qalıb arxada, öndən qış gəlir,
Saçıma dən düşən gündən qış gəlir.
Yaşıl rəng mənə hər yöndən xoş gəlir,
Mənim payızımın nəğməsi - yaşıl.

Bir yaşıl eşqim də var – sirrim kimi,
Qalıb imtahandan kəsirim kimi...
Allahın yolunda nəzirim kimi
Mənim payızımın nəğməsi - yaşıl.

Əskik olmasa da başımdan duman,
Gözümdə, könlümdə işıldar güman.
Sarıdan qaçanam, yaşıldan uman,
Mənim payızımın nəğməsi - yaşıl.

Köksü cadar-cadar dəmirağacam,
Sevgiyə möhtacam, sığala acam.
Onsuz da başqa rəng qatmayacağam,
Mənim payızımın nəğməsi – yaşıl.

## UŞAQLIĞIM

Sanki uşaqlığım qızıl balıqdı,
Əlimdən sürüşüb sulara düşdü.
Sahildə vurnuxa-vurnuxa qaldım,
Könlüm min sorğuya, suala düşdü.

Dolaşdım xatirə küçələrində,
Geri dönən deyil, getdi dedilər.
Ana südü kimi kəsildi o da,
“Cırtdan” nağılıtək bitdi dedilər.

Onda ad günlərim şad günlərimdi,
Sevincim, fərəhim aşıb-daşırdı.
Demə, hay-haraylı bayramlarımla
Məndən uşaqlığım uzaqlaşırdı.

Gündə “dava-dava” oynamaq mənə
Ən yaxşı məşq idi, ən sevimli iş.
Bilməzdim, illərcə bitmək bilməyən
Davalı günlərim qabaqda imiş.

İndi ad günümdə qəhərlənirəm,
Təbrik edənlərə tutur acığım.
Qayğısız çağlarım hava şarıtək
Çıxıb, birdəfəlik əlimdən çıxıb.

Onda həyatımın min rəngi vardı,
Həsrət sarısını geyirəm indi.
Baxıb o illərin şəkillərinə
Eynəkli gözümü döyürəm indi.

Hərdən uşaqlığım tutsa da yenə,
Dəli dəcəlliyim çəkir bircə an...
Məni qınayanlar nə bilsin axı,
Doya bilməmişəm uşaqlığımdan.

Vardı sayagəlməz oyuncaqlarım,
Canlı oyuncağam indi mən özüm.
Hardasa ağlayan uşaq görəndə
Ağrıyır ürəyim, yaşarır gözüm.

O qatar geriyə qayıdan deyil,
Nəvələr könlümü alır yaxşı ki!
Uşaqlıq xoşbəxtlik adası kimi
Yaddaş xəritəmdə qalır yaxşı ki!

## GİZLƏTDİ MƏNDƏN

Yazın həvəsinə getmişdim qonaq,
Dağlar ürəyimi döndərdi qana.
Üzündə soyuqluq, gözündə qınaq
Duman Yardımlını gizlətdi məndən.

Zirvələr insafa gəlmədi barı,
Nə bütöv göründü, nə də ki yarı.
Yönümü düyünə saldı qarları,
Yaman Yardımlını gizlətdi məndən.

Gedib ürcah oldum qəmə-qüssəyə,
Gözüm həsrət qaldı kəndə-kəsəyə.
Güney sandıqlarım döndü quzeyə,
Güman Yardımlını gizlətdi məndən...

Harayım yetmədi o gün heç yana,
Arusa, Bərcana, Jiyə, Teşkana.
Ürəyim az qaldı birə-beş yana,
Deman Yardımlını gizlətdi məndən.

Qalmadı hayıma qaldırımları,
Gədik cığırları, yal şırımları.
Vahimə yaratdı sıldırımları,
Aman, Yardımlını gizlətdi məndən.

Könlümə dolmadı bahar sərgisi,
Həmdəmim olmadı lalə-nərgizi.
Məndən yurd yanğısı, yuva sevgisi
Uman Yardımlını gizlətdi məndən.

*Qeyd: Arus, Bərcan, Jiy, Teşkan və Deman – Yardımlıda kənd adlarıdır*

## YAZ GƏLSİN

Döz, ay canım, beş-on günə ağrın-acın ötəcək,
Yer öpüşüb-ayrılacaq soyuq qışın qarıyla.
Günəş nənə yumaq-yumaq dağıdacaq dumanı,
Xalça-palaz toxuyacaq ilmə şüalarıyla, -
Qoy, hələ bir yaz gəlsin!..

Gəlib, dağa döndərəcək ürəyini dağların,
Əyrim-üyrüm çay axmağa yanpörtü başlayacaq.
Balta səsi vahiməyə salmayacaq meşəni,
Ağaclarda quş xorunun konserti başlayacaq, -
Qoy, hələ bir yaz gəlsin!..

Kəpənəklər xəbərləri çatdıracaq çəmənə,
Dərələrin gözlərindən dağılacaq yuxusu.
Səhər mehi duyğuları şeir-şeir yayacaq,
Evdə soba qırağında yazılıbdı çoxusu –
Qoy, hələ bir yaz gəlsin!..

Bağçalarda allı-güllü xınayaxdı olacaq,
Tər çiçəklər arı-arı öpülməkçün öləcək.
Azadlığa çıxa-çıxa əl edəcək toxumlar,
Quru-quru kötüklər də yaşıl-yaşıl güləcək, -
Qoy, hələ bir yaz gəlsin!..

Bulaqların aynasında bəzənəcək pərilər,
Nazlanacaq igidlərin ürəyinə yatınca.
Gur sulara qoşulacaq arzuların qatarı,
Nəfəsini dərməyəcək dənizlərə çatınca, -
Qoy, hələ bir yaz gəlsin!..

## KÜSDÜ DEYƏSƏN

Neçə vaxtdı səsi gəlmir, sorağı gəlmir,
Nə dedilər, yenə ağlı kəsdi, deyəsən.
Xəbər verin, ortalığı qarışdıranlar
Əllərinə xına yaxsın -- küsdü, deyəsən.

Aramızı vuranlarla bir aradamı?-
Barı adam yerinə də qoymur adamı...

Soyuqluqdan, sərinlikdən halıdı hamı,
Hansı üzlə qayıdasan isti deyəsən?

Bu da var ki, inciyirsə, küsürsə, - sevir,
Səhər-axşam dodağını büzürsə, - sevir.
Əgər sevmək doğrudan da bu cürsə, - sevir,
Amma bir az amanatdı şəsti, deyəsən.

Mükafatdı - bir cəfa yox, min cəfa gəlsin,
Yardan gəlir, min xoş gəlsin, min səfa gəlsin!
Dözməlisən, ta ki özü insafa gəlsin,
Əli, necə dilin gələr bəsdi deyəsən?

## QOV QARANLIĞI

Gülüm, gəl, gözümdə işığı yandır,
Baxsın gülə-gülə üzümə dünya.
Yağışdan islanan rəsmlər kimi
Qarışıq görünür gözümə dünya.

Ürəyim elə hey altı-beş vurur,
Tikan şələsidi çəkdiyim qəmlər.
Yaman bəhsə girib qəsdimə durur
Köhnə ağrılarla təzə sitəmlər.

Sənə uzatdığım əl havadadı,
Quruyub qaxaca dönməyə qoyma.
Yaş odun atmışam ocağımıza,
Amanın günüdü, sönməyə qoyma.

Ütü çək qat kəsmiş ömür-günümə,
Hissimə, duyğuma güvə düşməsin.
Mənim başım üstə çaxan ildırım
Sən atıb getdiyin evə düşməsin.

Gün kimi, Ay kimi qov qaranlığı,
Yenə taleyimə, bəxtimə nur saç.
Yollar düyün düşüb, dolaşıq düşüb,
Yola gəl, biryolluq düyünləri aç.

## DOSTLAR QAYIDIR

Vəzifə sahibi olan dostların
Bir-bir təqaüdə çıxan vaxtıdı.
Daha yuxarıdan-aşağıya yox,
Üz-üzə, göz-gözə baxan vaxtıdı.

İndi səhər-axşam zəng eləyirlər,
Səsli ismarıc da yazırlar hərdən.
Sevincək dururam köhnə dostların
Yenə də qırmızı qulluğunda mən.

Bir dəfə onlara demirəm də heç,
İntizar çəkəndə bəs hardaydınız?
Mən sizsiz günləri, ayları saydım,
Sizsə gecə-gündüz dollar saydınız.

Şeirə könül verdim, sənət yolumda
Qaranlığı qovan söz işıldadı.
Mən sevdim kitabın xışıltısını,
Sizin əlinizdə pul xışıldadı.

Dördnala çapdınız ağ atınızı
Ayaq basan kimi üzəngiyə siz.
Mənsə, gözü yolda, qulağı səsdə
Gözlədim bir dəfə zəng eləyəsiz.

Amma telefonlar inadla susdu,
İldə bir dəfə də düşmədim yada.
Düşündüm, canları sağ olsun təki,
Dostdan umu-küsü etməz ki adam.

Sən özün qəbula get deyənlərə
Söylədim: başları çox qarışıqdır.
Onların hər biri vəzifəsində
El üçün alışıb-yanan işıqdır.

Gözlədim, gözlədim, gözlədim sizi,
Elə hey üzsə də məni bu həsrət.
İşıqsız da qaldım, işsiz də qaldım,
Bir yol qapınızı döymədim fəqət...

Giley eləmirəm, kimsə deməsin:
Buna bax, dostlardan hesab istəyir.
Bir ona şadam ki, onlar qayıdıb
Məndən oxumağa kitab istəyir.



*Gilə ƏLİQIZI*

## SƏN ADINDA HƏSRƏTİM VAR

Bir söz qədər uzaqlıq var
İkimizin arasında.
Sən adında həsrətim var
Ürəyimin yarasında.

Ömür oldu duman-duman,
Ürəyimi qırdı zaman.
Olmadı ki, bizə dərman,
Bir loğmanın çarasında.

Bəxt yazısı pozulmadı,
Yuxum xeyrə yozulmadı.
Adımız heç yazılmadı
Qoşa adlar sırasında.

Könlüm sonasız bir göldü,
Nə danışdı, nə də güldü.
Bir sevda boğuldu, öldü
Gözlərimin qarasında.

## YORĞUNAM BİR EŞQİN SÜRGÜN KÖÇÜNƏ

Yorğunam bir eşqin sürgün köçünə,
Günəşsiz, baharsız yurdum var mənim.
Gündüzlər tək-tənha, kimsəsizəm mən,
Gecələr dərd adlı ordum var mənim.

Həsrət ürəyimdə yuva qurubdur,
Kədər gözlərimdə naxışa dönüb.
İçimdə bir dəli payız yaşayır,
Göz yaşım leysana, yağışa dönüb.

Sığınıb toz basmış xatirələrə,
O ötən günləri soraqlayıram.
Dayanıb ömrümün tən ortasında,
Yarımçıq günləri varaqlayıram.

Yağış sonrasında göyqurşağıtək,
Üfüqdə bir umud istədim səndən.
Susdurub kecmişdən gələn ağrını,
Bir hüzur, bir sükut istədim səndən.

## SEVDAMIN GÖZLƏRİ YAŞDIR

Gözlərin belə məsumkən,
Bəs ürəyin niyə daşdır?!
Hər kəsə fəsli-baharsan,
Mövsümün bir mənə qışdır.

Açılmır gecəmə sabahım,
Özümü yandırır ahım.
Nədi, nədi, bəs, günahım,
Acı sözün mənə tuşdur.

Məlhəm yox yarama səndə,
Qalmışam dumanda, çəndə.
Leysan var bu gecə məndə,
Sevdamın gözləri yaşdır.

## BİR ŞİRİN KƏLMƏNİN HƏSRƏTİNDƏYƏM

Bir şirin kəlmənin həsrətindəyəm,
Söyləyə bilmirsən, dindirmə məni.
Mən sənin eşqinlə səmalardayam,
Göylərdən yanına endirmə məni.

Gülən gözlərimə qəhər gətirib,
Çiçəkli yoluma daşı düzmə gəl.
Mən ki, ilk baharda bir sərin yeləm.
Tufana, borana döndürmə məni.

Bürüyüb sənsizlik dörd bir yanımı,
Dustağam, əsirəm, gəl gör halımı.
İnsaf elə barı, alıb canımı,
Əcəlim gəlmədən öldürmə məni.

## GƏLƏRƏM

Çağır məni görüşünə,
Küləklə, yellə gələrəm.

Geyinib bahardan libas,
Çiçəklə, güllə gələrəm.

Yandırıb həsrət közümü,
Qatıb izinə izimi.
Şeir eyləyib sözümü,
Bir şirin dillə gələrəm.

Əllərinə əl yetirən,
Aradan ay, il itirən.
Torpağına gül bitirən,
Yağışla, sellə gələrəm.

## GEDİRƏM

Mən tutmuşam söz yolunu,
Nura, çırağa gedirəm.
Qoşulmuşam haqdan gələn,
Səsə, sorağa gedirəm.

Misraları düzə-düzə,
Calamışam izi izə.
Eşqdən yanan oda, közə,
Sönməz ocağa gedirəm.

Qəm-kədərə mehr eyləyib,
Bu dünyanı seyr eyləyib,
Dərdimi şeir eyləyib,
Yazıb varağa, gedirəm...

## DÖNDÜM

Bir sən keçdin könlümdən,
Bir xaraba çölə döndüm.
Bulud oldun göy üzündə,
Yağmadın ki, gölə döndüm.

Bu sevdanın sorağında,
Ünü yetməz fərağında.
Həsrətinin ocağında
Yanıb-yanıb, külə döndüm.

Dağına duman, çəniydim,
Zəminə sünbül, dəniydim.
Doğmalardan doğma məndim,
Yada döndüm, elə döndüm.

⬧ Nəsr

*Günel NATİQ*

# Gözəl günlər naminə…



*COVİD-19 pandemiyası ilə mübarizədə ön cəbhədə vuruşan həkimlərə ithaf olunur*

## *Allahyar*

Palatada iki nəfərik. Mən və Ulduzxan. Hələ bir həftə qabaq mən yüngülvari sətəlcəm olduğumu düşünürdüm; ölümcül virusa yoluxduğumun fərqində deyildim. Əvvəl boğazım ağrıdı, sonra bədənimi qəribə bir halsızlıq bürüdü və quru, öldürücü öskürək başladı... Bu azar-bezarın keçib-gedəcəyini düşünürdüm, amma ikinci həftə halım daha da xarablaşdı, üstəlik, təngnəfəslik əmələ gəldi. Təcili xəstəxanaya gətirildim, analiz götürüldü, nəticələr müsbət çıxdı. Ətrafımda olan adamlar karantinə götürüldü. Etiraf edirəm, səhlənkarlıq etmişəm, özünütəcrid qaydalarına əməl etməmişəm. Bir də koronavirusun uzaq Çindən ayaq açıb məmləkətimizə qədər gələcəyi kimin ağlına gələrdi ki?! Əslində, yenə o fikirdəyəm ki, alnımıza nə yazılıbsa, o da olacaq.

Epidemiya təzə başlayanda münəccim dostumuz Ulduzxan planetlərin düzülüşündən və bunun bizim həyatımıza təsirindən bir saat moizə oxumuşdu. Mən isə öz növbəmdə gülmüşdüm. Onunla həmişə mübahisəmiz olur bu barədə. O, nicatımızın kainatda olduğuna əmindir. Mən Allahın hökmünə inanıram. Allah ən böyük analitikdir. Hər şeyi elə təhlil edib ki... Ən incəliyinə qədər. Allahın yazısına redaktə yoxdur. Mən belə deyəndə astroloq dostum gülür. O mənə gülür, mən də ona. Amma bircə Allah bilir ki, bu mübahisəmizdə hansımız haqlıyıq.

Onu bilirəm ki, bu zəhrimara qalmış virus Allahın təhdididir, cəzalandırma metodudur. İnsan Allahın yolundan çıxdı, harama əl uzatdı. Allah da onu cəzalandırdı; yer üzünə bu bəlanı göndərərək “ey İnsan, özünə gəl”, - dedi.

## *Ulduzxan*

Bahar fəsli bizim məmləkətə səhər saatlarında qədəm qoymuşdu. Bizi birinci Günəş təbrik etdi. Sonra həkimlər gəldilər. Birinin əlində səməni vardı, bayramlaşdıq, - inşallah, gələn bayramı öz evinizdə, ailə-uşaqla bir yerdə keçirərsiniz, - dedilər. Nəvəmə tapşırmışam, axşam bütün xəstələrimin əvəzindən tonqaldan hoppansın, - deyən həkim əlindəki səmənini dolabın üstünə qoyub çıxdı. Gözlərindən gülümsəməsini hiss etmək olurdu.

Palatada mənəm, bir də Allahyardı. Xəyalım yenə də nəhayətsiz Kainatdadır. Əslində, bu, təbiidir. Çünki insan hara getsə də Kainatın bir zərrəsidir və özündə bütün Kainatı ehtiva edir.

Belə danışmağıma baxmayın, öskürək tutanda bütün nəzəriyyələr yadımdan çıxır, elə bil vücudumun ağırlığı ağrıyıb-göynəyən yerlərimə - sinəmə, ciyərlərimə çökür.

Astroloq deyəndə ulduz falı yada düşür, amma əsl astrologiya minillik təcrübə və biliklərdən ibarət olan mürəkkəb sistemdir. Bu vasitəylə biz öz mahiyyətimizi anlayıb yolumuzu təyin edə bilərik.

İnsanın ən böyük problemi odur ki, onu yetişdirən kainata qarşı çıxır, özünü kainatdan kənar hesab edir, insan düşüncəsinin kosmosdan enerji çəkən bir maqnit - maddi bir varlıq ola biləcəyinə inanmır. İnsanlar nəinki kosmik varlıqları qavramırlar, həm də onları zərərli təsirlərə çevirirlər. Epidemiyalar, təbii fəlakətlər bunun nəticəsində meydana çıxır və bunlar üçün insan özü məsuliyyət daşıyır.

Mən kainat və insan münasibətlərindən, astrologiyadan danışanda molla dostumuz Allahyar deyir: “Allahu-əkbər, Allahın əmrinə qarşı çıxırsan. Bunlar xurafatdır”. Ha and-aman eləsəm ki bu sözlərin özü xurafatdı, inanan deyil.

Molla dostumuz axirətə inanır. Keçən dəfə bir aktyorun koronavirusdan dünyasını dəyişdiyini həyəcanlı bir şəkildə mənə danışanda zarafata saldım. “İndi o dünyada tamaşalarını göstərər”, - dedim.

Allahyar tərs-tərs mənə baxdı. Əslində, epidemiya ilə bağlı söz-söhbətləri unutmaq üçün zarafat etdiyimi anlamamış deyil. - Deyirlər, aktyor xaricdən gətirib infeksiyanı... Olacağı varmış, - Allahyar deyir, - olacağa çarə yoxdur...”

### *Həkimxan*

Epidemiya qəribə bir kinlə, acıqla gəldi. Elə bil insanlıqla davası varmış. Nəyinsə intiqamını alırmış. Təbiətin intiqamı nə yaman olurmuş! Dünya necə kiçik və aciz imiş! Biz isə “qoca dünya”, “müdrik dünya”, - deyirdik, dünyanı yenilməz bilirdik... Tibb elmi son yüzilliklər ərzində çox nailiyyətlər əldə edib. İndi isə geriyə baxanda sanki heç nə görmürük. Koronavirusun acı nəticələri qarşımızda elə suallar qoyur ki, üstündən sükutla keçirik. Cavabı sükut olan suallardan qorxmuşam həmişə. İndi bütün dünya bu sükuta bələnib.

İndi bir fərdin qələbəsi bütün bəşəriyyəti xilas edə bilər. Ona görə mən və mənim kimi yüzlərlə həkim, demək olar ki, dincəlmədən çalışırıq. Tibbi personalın da yoluxma riski var. Amma bu, bizi qorxutmur.

Həmişə ənginliyi, fəzaları fəth etmək istəmişəm. Uşaq vaxtı bir-birimizə söz vermişdik ki, təyyarəçi olacağıq - Mən, Ulduzxan və Allahyar. Bizə nankorluq edən, torpaqlarımızı əlimizdən alan, atalarımızı, qardaşlarımızı öldürən düşmənimizi məhv etmək istəyirdik. Bu hiss indi də məni düşmənə qarşı, bütövlükdə insanlığın düşmənlərinə qarşı vuruşmağa sövq edir. Ona görə yox ki, insan mükəmməldir. Belə baxanda, insanın o qədər cinayətləri var ki: müharibələr edir, heyvanları öldürür, quşları ovlayır, gölləri, çayları çirkləndirir, dənizləri qurudub özünə göydələn tikir... İnsanı ona görə xilas etmək lazımdır ki, o, yeganə canlıdır ki, mükəmməlliyə can atır. Məhz buna görə insanlığa hörmət edirəm.

Texnologiya əsrində özümüzdən o qədər uzaq düşmüşük ki, öz ruhumuzu belə hiss etmirik. Halbuki insan elə buna görə insandır.

Ey, sonsuz kainata, fəzalara can atan insan, bir dəfə də dönüb özünə baxsana. Özünə yol başla, heç olmasa buna cəhd et. Bəlkə bu yol səni arzuladığın ənginliyə çıxaracaq...

Bir şey bilirəm ki, bu epidemiyadan sonra dünya başqa cür olacaq. Çünki insan özünə gedən yolu tanıdı. İndi geriyə yolu yoxdur. Kahinlər öz hücrələrinə çəkilib necə özünüdərk yolunu tuturlar? Bax, insan da özüylə baş-başa qalıb özünü daha dərindən dərk edəcək, anlyacaq ki, maddiyyat ancaq xeyirxahlıq etmək, özünü insan kimi hiss etmək üçün lazımdı.

Mən öz missiyamı indi daha yaxşı anlayıram. Ona görə sonuna qədər mübarizə edəcəyəm. Mən həkiməm və son sözümü də bu yolla deyəcəyəm.

### *Allahyar*

İndi düşünməyə, keçmişi xatırlamağa daha çox vaxtım var. Hadisələr zəncirvaridir, birini xatırlayanda, olub-bitənlər bir-bir yada düşür.

Mən idim, Həkimxan idi, Ulduzxan idi… 90-cı illərə, Qarabağ düyününə düşmüşdü uşaqlığımız. Bütün arzularımız da bu düyünə düşmüşdü... Günlərin birində Ulduzxanın atasını müharibəyə apardılar. Kəndlərdən birinin müdafiəsi vaxtı düşmən gülləsinə tuş gəldi.

“Güllə də səni çox sevirmiş, ay bala”, - anası ağlayanda deyirdi. Yaxşı adam imiş, hamı sevirdi onu. Güllə də sevmişdi.

Ulduzxan o gündən sonra uzaq yolların xəyalını qurmaqla təsəlli tapırdı. Xəyalən o uzaq yollardan əsgər geyimində olan atası gəlirdi və onu çiyninə qaldırırdı - sevdiyimiz filmdə qələbədən sonra oğlunu başının üstünə qaldıran qəhrəman kimi.

Ulduzxan o gündən söz vermişdi ki, pilot olacaq və qırıcı təyyarəsi ilə düşməndən atasının hayıfını alacaq. Mən və Həkimxan da onu tək qoymamaq üçün söz vermişdik. Biz də təyyarəçi olacaqdıq.

### *Ulduzxan*

Həmin yay Allahyar da fəlakət yaşamışdı. Yay tətilində anası ilə kəndə gedərkən yol qəzasına düşmüşdülər. Anası hadisə yerində can vermiş, özünün isə bir ayağı qopmuşdu. O da ayağıkəsik davam eləmişdi həyata. Həm anasızlığın, həm də yaşadığı komplekslərin sıxıntısı…

Daha futbol oynaya bilmirdi. Biz futbol oynayanda o, kənardan durub baxırdı. Bəlkə də ayağını düşünürdü. Yəqin ki, acığı tuturdu, çünki ayağı ondan uzaq düşəndən sonra o da bizdən uzaq düşmüşdü…

Atası evlənmişdi. Evə gələn qadın əvvəl onunla yaxşı rəftar edirdi, amma Allahyar ona isinişmədiyindən, ögey anasında da dostumuza qarşı kin əmələ gəlmişdi. Bir dəfə qonşular analığını laqeydlikdə təqsirləndirəndə dünyagörmüş qadın olan nənəm demişdi ki, ay bala, uzaqdan döyüş adama asan gəlir. Vallah, o tifillə o gəlinin dərdini tərəzidə çəksələr, o qadınınkı ağır gələr…

Kim bilir, bəlkə o qadın da Allahyar kimi sevgisizlikdən əziyyət çəkirdi.

Amma Həkimxanın həyatı bizimki kimi deyildi. Ata-anası, onu çox sevən doğmaları vardı. Evləri nağıllardakı padşahların sarayına bənzəyirdi. Bizə elə gəlirdi ki, Həkimxan vaxt keçdikcə bizdən soyuyur və uzaqlaşır, çünki uşaq vaxtı görmədiyi, fərqinə varmadığı yoxsulluğumuzu indi görməyə başlamışdı.

### *Allahyar*

Mən idim, Ulduzxan idi, Həkimxan idi. Sevincimiz də, kədərimiz də ortaq idi. Amma böyüdükcə ortaq baxışlarımız qeybə çəkilir, sözümüz tükənirdi. Bizi

bir yerdə artıq heç nə narahat etmirdi. Biz bir yerdə heç nəyə sevinə bilmirdik. Bir yerdə kədərlənə bilmirdik. Dərdlərimizi də paylaşa bilmirdik.

Bir dəfə Həkimxan ağ kostyumda gəlmişdi məktəbə. Guya ki, ehtiyatsızlıqdan mürəkkəb tökdüm kostyumuna. Dönüb baxdı, amma heç nə demədi. Yəqin ki, nəsə deməyi də lazım bilmədi.

Əslində, mən ağ kostyumun sevincini bölüşmək istəyirdim, amma onun gözlərində təkəbbür sezdim. Bəlkə də mənə elə gəldi. Hər halda, mən ondan deyil, o təkəbbürlü baxışlardan intiqam almaq istədim.

Əslində, bizim problemimiz bilirsiz nədən ibarətdir? Bizə yaxın insanın nələri sevdiyini bilirik, amma içindəki peşmanlıqlardan, məyusluqlardan, dağıntılardan xəbərimiz yoxdur. Bizdə də elə oldu.

Məktəbi bitirəndən sonra Həkimxanın atası yeni tikilmiş binada mənzil aldı, ailəcə daşındılar və əlaqəmiz kəsildi. Onsuz da yaxın görünsək də, mənən çoxdan ayrılmışdıq.

Sonra dedilər ki, oxuyub, doktor olub...

Mən məktəbi qurtarandan sonra işləmək məcburiyyətində qaldım. Psixoloji problemlər üstümə çökmüşdü. Daxili sabitliyi müqəddəs kitablarda axtarırdım. Quran oxudum, mollalıq eləməyə başladım.

Ulduzxan zarafatla deyir ki, aranızda bircə mən uşaq vaxtı qurduğumuz xəyallara sahib çıxdım - təyyarəçi olmasam da, astroloq oldum: “Könlüm fəzalardan enmədi”.

### *Həkimxan*

Eyni məhəllədə böyümüşdük - Mən, Allahyar və Ulduzxan. Əvvəl aramızdakı fərqləri görmürdük. Sonra olanlar olmuşdu. Ulduzxanın atasını müharibəyə aparmışdılar, ölüsü qayıtmışdı… Sonra anam bizə baxıb ağlamışdı. Bilməmişdim, o, bizim də atamızın öləcəyindən qorxur, yoxsa dostumuzun atasız qaldığına ağlayır. Həmin gün atam da başını qaldırıb üzümüzə baxmadı. Elə bil sağ qaldığından utanırdı. Sonra mənə pul verib “Ulduzxanın yolunun üstünə qoy, tapıb sevinsin”, - dedi. O pullar hər yerdə Ulduzxanın “qarşısına çıxırdı” - yolda, parkda, bufetdə…

Sonra Allahyarın üzləşdiyi fəlakət… Allahyarın ayağının elə olmağında elə bil mən günahkar idim. Bəzən ayağımın ağrıdığını bəhanə edib onun kimi axsayırdım. Futbol oynayanda bütün qollarımı ona həsr edirdim - o, bunu bilsə də, bilməsə də. Əsas o idi ki, mən bunu bilirdim və öz “günahımı” yuyurdum.

Yəqin mən özümü, öz duyğularımı ifadə edə bilmirdim, ona görə dostlarıma yaxın olmaq istədikcə, onlar məndən uzaqlaşırdı. Bir dəfə məktəbə ağ kostyumda getmişdim. Mən bahalı təzə kostyumda, onlar adi, köhnəlmiş geyimdə… Ulduzxanın əli titrədi, mürəkkəb kostyumumun üstünə töküldü. Səhv iş gördüyümün yalnız o vaxt fərqinə vardım. Ondan sonra paltarlarımı köhnəldib geyinirdim, ayaqqabımı isə palçığa bulaşdırırdım.

Sonra yollarımız ayrıldı. Bu illər ərzində onları düşünmüşdüm, amma birlikdə daha çox tənhalaşacağımızı bildiyimdən, görüşməyə can atmamışdım.

Koronavirus infeksiyasına yoluxmuş xəstələrin siyahısında tanış adları görəndə qəribə hisslər keçirdim. Bir tərəfdən pandemiya təlaşı, digər tərəfdən doğma adamların yenidən qarşıma çıxması... Sonra özlərini gördüm. Üzlərinin yarısını maska örtsə də, gözləri onları “ələ verdi”.

Yenə bizik - Mən, Allahyar və Ulduzxan. Elə bil keçmişimiz qayıdıb gəlib, o keçmiş ki, biz özümüz də fərqində olmadan onun yolunu gözləmişik...

## *Ulduzxan*

Mənim ehtimalıma görə, pandemiya bizdən yan keçməliydi, amma heyhat. Epidemiyanın məni bu dərəcədə tənhalığa sürükləyəcəyini ehtimal etməmişdim. Dörd divarın arasına sıxılmışdım. Üstəlik, içimdəki virus da məni özümdən uzağa itələmək istəyirdi. Bədənim virusun əlində əsir-yesir idi. Bircə ruhum mənim idi, yalnız ruhum mənə doğmaydı. Bu müddətdə ondan aralı düşdüyümün indi fərqinə varırdım.

Həyatla ölüm arasındaydım. Elə bil sinəmdən daş asılmışdı. “Qanda oksigen kəskin azalıb, ağciyər çatışmazlığı var, amma qorxmayın, birlikdə savaşıb qalib gələcəyik”, - dedi tanış bir səs. Çətinliklə başımı qaldırıb baxdım. Əynində xüsusi geyim, üzündə qoruyucu maska olan bu şəxs digər həkimlərdən fərqlənmirdi. Amma enli qoruyucu şüşənin arxasından görünən gözləri onu “ələ verdi”. Həkimxan idi, bizim uşaqlıq dostumuz.

Qeyri-ixtiyari əlimi ona uzatdım, sonra təhlükəni xatırlayıb tez geri çəkdim. Amma əlimi tutdu, həyatdan qopmaq üzrə olsam da, güclü əlin hərarətini və enerjisini hiss etdim. Nöqtə boyda görünən bir işıq üçün yaşamaq ümidinin oyandığını duydum.

Çətin günlər davam edirdi. Ürəkbulanma, qızdırma, nəfəs darlığı... Elə bil boğazımın yerində ət parçası vardı. Fikirlərim reallıqla rabitəsini itirirdi. Gözümə qarabasmalar görünürdü. Dəfələrlə həyatdan tamamilə qopduğumu düşündüm, amma həkimlərin fədakarlığı - bəzi məqamlarda sərt tələbkarlığı, bəzi məqamlarda şəfqəti dadıma yetişdi. Bir gənc həkim vardı, gecə-gündüz arı kimi çalışırdı, olduqca diqqətcil, mehriban və gülərüz idi, hərçənd maskanın altından təbəssüm bilinmir…

Ən böyük dayağım isə Həkimxan idi. Dostumun yanımda olduğunu duymaq belə mənə yetərli idi.

Sonrakı iki gün əvvəlki günlərə nisbətən rahat keçdi. Amma bilirdik ki, bu, müvəqqəti yüngülləşmədir, virus tamamilə məhv olmayınca, sağalmadan söhbət gedə bilməz.

Yenə üçümüzük - Mən, Allahyar, Həkimxan.

“Mən elə bilirdim, həkimlər xəstələnmirlər, ölmürlər, ona görə həkim oldum”, - zarafatla deyir Həkimxan. Onun sözlərinə gülə bilmirik, amma mimikalarla hisslərimizi bəlli edirik (onsuz da bir-birimizin ən xırda üz cizgilərinə də bələdik).

Mən də danışıram. Qınayıram, ittiham edirəm, amma bəlkə də (kim bilir) heyifsilənirəm.

- Bilirsiz ki, atam öldükdən sonra mən hər gecə ona şikayət edirdim? O qədər sizdən gileylənmişəm ki. Məsələn, Həkimxan, sən topumu götürüb qaçanda... Allahyar oyunda cığallıq edəndə. İkiniz bir olub balaca boyuma güləndə…

- Hər gün atan sənin yuxularına gəlirdi?

- Hə. Hər gün.

Həkimxan zəndlə mənə baxır.

- Nədi, inanmırsan? - mən incimiş halda deyirəm.

- İnanıram, - Həkimxan deyir.

- Mən də inanıram, - Allahyar dillənir, - yuxularda biz daha xoşbəxt oluruq. Çünki mən də heç vaxt özümü yuxuda şikəst görmədim. Heç bircə dəfə də.

- Biz də səni heç vaxt fərqli görmədik,- Həkimxan deyir.

- Doğrudan? – Allahyar bizə inamsız baxır.

-Hə, - mən təsdiqləyirəm.

- Amma mənim sizə acığım tuturdu…

- Nəyə görə?

- Heç özüm də bilmirəm nəyə görə. Yəqin ki sizin kimi ola bilmədiyimə görə. Ürəyimdə sizinlə o qədər dalaşmışam ki.

Xəstəlik bizi yaman kövrək edib. Xatirələrimizi, məyusluqlarımızı, peşmanlıqlarımızı bir-birinin ardınca dilə gətiririk. Bəlkə də Allahyarla mən bir də işıqlı dünyaya çıxa bilməyəcəyik. Burda həyat elə monotondu ki. Şərait yaxşıdı, amma mənəvi darlığımız qoymur nəfəs almağa. Elə bil divara dirənmişik. Özü də başqası yox, özümüz özümüzü divara dirəmişik.

### *Allahyar*

Xatirələrimiz bitmək bilmir. Bəzən danışa bilməyəndə hansısa hərəkətlə, ya bir sözlə keçmişdə olub bitən hansısa bir hadisəni yada salırıq. Üçümüz də o vaxta qayıdırıq, bir-birimizi sorğulayırıq. Sən demə, bizi yalnız xəyali uçurumlar ayırıb, əslində, belə bir uçurum yoxmuş. Eyni adammışıq demə. Varlı, ya yoxsul, sağlam, ya xəstə olmağımızdan asılı olmayaraq.

Bir dəfə kəsilmiş ayağımın ağrısını danışdım Həkimxana. Dedim, hər gün o ağrını duyurdum. Hətta gecələr o ağrı məni yatmağa qoymurdu. Sən bunu haradan biləcəkdin ki? Sən sevdiyin qızla ilk görüşə gedəndə mən kəsilmiş ayağımın dərdindəydim. “Bu görkəmlə məni heç kim qəbul etməz”, - fikriylə özümə əzab verirdim. Bu vaxt Həkimxan qəribə bir şey dedi. Demə, onun da öz kompleksləri varmış:

- Sən də heç vaxt bilməmisən ki, mən sənin ünsiyyət qura bilmək bacarığına həsəd aparmışam. Sən hamımızdan seçilirdin, çünki adamlarla daha asan dil tapa bilirdin. Mən isə özümə qapalıydım, duyğularımı ifadə edə bilmirdim.

Gec də olsa, bunları öyrənmək gözəl idi.

Əslində, həyat necə də sadəymiş.

Biz isə komplekslərimizlə həyatı ağırlaşdırır, onu özümüzə düşmən edir, daxili dünyamızı viran qoyuruq.

Müalicə prosesi yorucu və əzablı idi. Yüksək temperatura dözüm göstərmək müşkül olurdu. Dəhşətli yorğunluq bədənimə hakim kəsilmişdi. Aramsız üşütmə keçirirdim. Bəzən nəbzim zəifləyir, son həddə gəlib çatdığımı düşünürdüm. Hər dəfə özümə gələndə həkim dostumu başımın üstündə görür, daxilən rahatlıq tapırdım. Çünki insan ağrısını bölüşəndə yüngülləşir. Və nə qədər ki, sənin ağrını paylaşan biri var, demək, ümid var.

### *Həkimxan*

Bir aydır evə getmirəm. Çünki xəstələrlə təmas vaxtı koronavirusa yoluxub-yoluxmadığımı bilmirəm. Mənim kimi evə infeksiya aparmaq qorxusu ilə xüsusi ayrılmış yerlərdə, otellərdə gecələyən həkimlər çoxdur. Evdəkilərlə telefon vasitəsilə görüntülü danışırıq. “Bizim üçün evdə qalın, çünki biz sizin üçün burdayıq”, - deyirik. Koronavirusu digər viruslardan fərqləndirən əsas özəllik onun sürətlə yayılmasıdır. İnsanlar yalnız özlərini təcrid edərək yayılmanın qarşısını ala bilər.

Vəziyyət ağırdır, dünyada epidemiya qurbanlarının sayı gün-gündən artır, Covid-19 əleyhinə vaksin hələ tapılmayıb, ən böyük dövlətlər kiçicik bir virusun əlində aciz qalıblar.

Bütün hallarda pandemiya tarixdə qalacaq - insanlığın həm gücünün, həm də gücsüzlüyünün simvolu kimi… Bu durum mənə həyatdakı missiyamı anlamaqda kömək etdi. Bəlkə də mən bütün həyatım boyu bu anı gözləmişəm. İndi, ölsəm də heyifsilənmərəm.

Hərçənd, yaşamaq ümidləri gün-gündən artan Ulduzxanla Allahyar gələcək gözəl günlərin xəyallarını qururlar. Allahyar deyir ki, çoxdandır xəyal qurmağı tərgitmişdim, indi isə dipdiri bir xəyalım var - bu çətin günləri dəf edib gözəl günlər naminə yaşamaq.

Bu bir ayda bir-birimizlə çox ünsiyyət qurduq, duyğularımızı paylaşdıq. Bizi ayıran sərhədlərdən danışdıq. Məni görməzdən gəldiklərini düşündüyüm üçün onlardan uzaqlaşdığımı dedim. Sən demə, onlar da məndən eyni səbəbdən uzaqlaşıblar.

Bəzən adi bir anlaşılmazlıq bütün həyatımızı idarə edir. Halbuki bircə gözəl söz bütün taleyimizi dəyişə bilər. Biz insanlar hər şeyi elə mürəkkəbləşdiririk ki. Eqolarımızı bəsləyərək təklikdə daha xoşbəxt olacağımızı düşünürük. Halbuki tənhalıqda qaldığımız bu günlər bizə öyrətdi ki, insanların bir-birinə doğrudan da çox ehtiyacı var...

Bir vaxtlar təyyarəçi olmaq istəyirdik. Yüksəkliyi sevirdik. Yenə də sevirik. İnsanlıq üçün etdiyin fədakarlıq da səni mənən ucalda bilər.

### *Ulduzxan*

Dünən Həkimxan Allahyarı müayinə edərkən zarafatla dedi ki, çoxdandır “olacağa çarə yoxdur”, - demirsən, deyəsən, axirətə getmək fikrinin daşını atmısan.

Mən də onun zarafatına qoşulub dedim ki, xoşbəxt ulduz altında doğulmuşuq, bizə zaval yoxdur.

Allahyar da ordan qayıtdı ki, ay Ulduzxan, mən sənə ümidliyəm, sən də mənə. Görək başımıza nə gəlir.

Həkimxan başını yellədi: “Mən də elə bildim, siz mənə güvənirsiniz, amma görürəm ki, hələ də öz aləminizdəsiniz. Ay dostlar, nə alın yazısı, nə ulduz, tibbə güvənin, tibbə!”

Dedim: “Həkimxan qardaşım, bu dediyim, əlbəttə ki, zarafatdır, həyatımız üçün tibbə, siz həkimlərə borclu olduğumuzu bilirik. Vaxtında köməyimizə yetişməsəydiniz, yəqin ki, axirətə çoxdan varmışdım, münəccim dostumuzun da ruhu kosmik fəzalarda uçurdu”.

Gülüşdük. Əslində, buna gülmək də demək olmazdı, maskanın altından gülüşə bənzər boğuq səslər çıxardıq. Amma xoşbəxt idik. Xoşbəxt idik ki, yenə eyni şeylərə gülə, sevinə bilirik…

### *Allahyar*

Koronavirusla mübarizə apardığım bu çətin günlər həyatımda yeni mərhələ oldu. Elə hesab etdim ki, yenidən dünyaya gəldim. Ona görə yox ki, sağalıram. Ona görə ki, özümü, insanları və dünyanı yenidən dərk edirəm.

Bədənim sanki Əzrayılla mübarizədən qalib çıxıb. Ölümə qalib gələ biləcəyimi təsəvvür etməzdim. Məndən olsa, taleyə buraxardım hər şeyi. “Alnıma nə yazılıbsa, o da olacaq”, - deyib təslim olardım. Amma həkimlərimiz məni ölümün pəncəsindən qurtardı. Həkimxan ən ümidsiz vaxtlarımızda da

bizi ruhdan düşməyə qoymur, ölüm ayağında olan ən çarəsiz xəstələri də yaşatmaq üçün böyük iradə və fədakarlıq göstərirdi.

Sonrakı iki gündə Həkimxan ortalarda görünmədi. Düşünürdük ki, yəqin yaxşılaşmışıq, o da durumumuzdan rahatlayıb, indi daha ağır xəstələrin müalicəsi ilə məşğuldur. Bizi müayinə edən həkimdən xəbər alanda "Həkimxanın testi müsbət çıxıb, karantinə alındı", - dedi.

İndi fikir bizi götürüb... Ulduzxanla pəncərədən Günəşə baxır və onu aramızda gözləyirik.

### *Həkimxan*

Uzandığım çarpayının pəncərəyə yaxın qoyulmasını xahiş etdim. Pəncərədən Günəşə baxıram və düşünürəm ki, göy üzünü görmək xoşbəxtlikdir, - istər yağmurlu olsun, istər günəşli... Doğma insanları görmək xoşbəxtlikdir... Evdə məni gözləyən doğmalarımı yenidən görə bilmək üçün xəstəliklə mübarizə aparıram. Hələ heç nə itirilməyib. Həyata toxuna bilməsəm də, onu görə bilirəm.

Bilmirəm, yönüm ölümə tərəfdir, yoxsa həyata, amma bütün hallarda ümidliyəm. İnsanlığa ümidliyəm. Sevinirəm ki, illərdən bəri ürəyimin toz basmış "rəflərində" yığılıb qalan duyğularımı ifadə etdim, onları Günəşə çıxardım.

Nə olursa, olsun, yenə dostluq, insanlıq var olacaq. Yenə mən olacam, Allahyar olacaq, Ulduzxan olacaq...

Sosial məsafə saxladığımız bu günlərdə bir-birimizə mənən yaxın olduq. Artıq istəsək də uzaqlaşa bilmərik. Əslində, heç birimiz xəyallarımıza xəyanət etmədik. Hər birimizin missiyasında bir ənginlik vardı. İstədiyimiz də bu idi - insanlıq üçün savaşmaq. Mən də savaşdım. Və bütün hallarda biz qazandıq.

Minilliklər ərzində dünyanı təcrübələrimizlə, elmi biliklərimizlə böyütmüşük. Halbuki ən böyük silahı, ən təsirli dərmanı - sevgini əldən vermişik. İnsanın ən böyük silahı sevgiymiş, indi anladıq...

### *Ulduzxan*

Bu gün məni və Allahyarı ilk dəfə Günəşə çıxardılar. Elə bil dərin yuxudan ayılmışıq. Elə bil neçə min ili yuxuda keçirmişik. "Ölsəm, bir də min il sonra dirilsəm", - deyir şair. Elə bil ölüb min il sonra dirilmişik. İndi anlayırıq ki, həyat ona görə gözəldir ki, yaşamaq üçün yeni şans verir. Həkimxan dostumuz deyirdi bunu.

Bu səhər o, dünyasını dəyişdi... Haqqa yürüdü... Bütün mübarizə əzmini, ümidini, gücünü bizlərə xərclədi, özünü qorumağa heç nəyi qalmadı... Mən deyərdim ki, gözəgörünməz düşmənlə mübarizədə qəhrəmancasına şəhid oldu...

Təsəllimiz budur ki, onunla çox şeyləri paylaşmağa, bir-birimizi anlamağa macal tapdıq. İnsanlıq üçün dəyər daşıdığımızı anladıq...

O deyirdi ki, əgər kimsə xəstə yatağından qalxıb Günəşi görəcəksə, demək ki, insanlığın gözəl günlər görəcəyinə həmişə parlaq bir ümid və sarsılmaz bir inam olacaq...

Və yalnız gözəl günlər naminə yaşayacağıq.

***23-27 aprel 2020, Bakı***



# SABİR ƏHMƏDLİ – YARALARINA SIĞINIB YAŞAYAN ADAM

Sabir Əhmədli Azərbaycan nəsrinin yeni meyarlarla qurulmasında əvəzsiz rolu olan yazıçılarımızdandır. Milli düşüncənin ən həssas məqamlarına toxunmaqda, cəmiyyətin yaralarını bədii təcəssümün predmeti etməkdə xüsusi yerə və dəyərə malikdir.

1960-cı illərdən başlayaraq nəsrdə güclənən bir çox əlamətlər bir neçə yazıçının yaradıcılığında daha sərt boyalarla təzahür etdi ki, onlardan biri də Sabir Əhmədli idi. Qəhrəman olaraq seçilən adi insanların daha çox düşündürücü obraz qismində səciyyələndirilməsi, ailə-məişət mövzularına üstünlük verilərək mənəvi-əxlaqi məsuliyyət yükünün artırılması, romantikadan imtina edib əvəzində psixoloji dərinliyə meyillik, istehsalat aləmlərində robotlaşmış personajları cəmiyyət həyatının içərilərinə salıb onların individual, fərdi başlanğıca köklənmələrinə yol açması, təhkiyədə daha çox obrazlılığın və reallığın önə çəkilməsi kimi əlamətlər Sabir Əhmədli ustalığının hələ zahiri, görünən tərəfləridir. Görünməyən tərəfləri isə daha çoxdur və onun bir nasir kimi fərqliliyi bu tərəflərin səciyyəsindədir.

Yolun əvvəli.1961-ci ildə çap olunan ilk kitabında yer almış beş hekayə ilə nəsrə yeni bir imzanın gəlişi bəlli olmuşdur. 1951-1963-cü illər arasındakı bir dönəmi çevrələyən bu mərhələdə Sabir Əhmədli “Poçtalyon” (1951), “Arabaçı” (1953), “Əsgər oğlan” (1955), “Bir payız axşamı” (1957), “Sevimli şəhər” (1958), “Murov” (1958) və başqa hekayələri ilə ədəbi tənqidin diqqətini cəlb etmişdir.

Yazıçı haqqında ilk məqalələrin müəllifi olan ədəbiyyatşünas alim İmamverdi Əbilov 1962-ci ildə onun “Azərbaycan” jurnalının 1961-ci ilin dekabr sayında çap olunan beş hekayəsi haqqında elə “Beş hekayə haqqında” adlandırdığı məqaləsində yazırdı: “Sabir Əhmədov seçdiyi mövzuya ürəksiz, laqeyd münasibət bəsləmir, gördüklərini, müşahidə etdiklərini saf-çürük edib bədii şəklə sala bilir, surətin daxili aləminə nüfuz etməyi bacarır, fərdin psixoloji vəziyyətini onun hərəkət və fəaliyyəti ilə, cəmiyyətdəki mövqeyi ilə şərtləndirir. Sabir Əhmədov müəyyən bir lövhəni çəkərkən, xarakter yaradarkən heç bir zəruri ştrixi, lüzumlu təfərrüatı nəzərdən qaçırmır və bunlar hekayədə bədii keyfiyyətin yüksəlməsi xatirinə edilir. Yazıçının hekayələrində konkretlik, lakonik ifadə tərzi vardır”.

Sabir Əhmədli hələ ilk hekayələrindən başlayaraq təlim, tərbiyə, əxlaq, mənəviyyat məsələlərinə böyük önəm vermişdir. Təsadüfi deyil ki, ilk hekayə-

lərindəki olaylar məktəbdə və onun ətrafında cərəyan etmiş, ilk qəhrəmanları müəllim, şagird olmuş, istedadın dəyərləndirilməsi, lovğalıq, eqoizm kimi insan xislətinin naqis tərəflərinin tənqidi kimi məsələlər kiçik mətnlərinin bədii təcəssüm predmeti olmuşdur. "Pərvazlandılar" hekayəsində özündən müştəbeh şagirdin xarakterindəki mənfi çalarların müəllim tərəfindən islah edilməsi, "Çinar odunun qoxusu"nda çürük ənənələrə üsyan, "Qurumuş meşənin nağılı"nda istedadlı insanlara yol açmaq, onların itib-batmasına yol verməmək, "Ova gedəndə, ovdan qayıdanda" hekayəsində saxta şöhrətpərəstliyin, əməyə əsaslanmayan yalançı lovğalığın tənqidi, "Oğul" hekayəsində müəllim işləyən şəxsin uzun illərdən sonra rayona dönüşü kimi problemlər diqqət mərkəzinə gətirilmişdir. O da maraqlıdır ki, Sabir Əhmədlinin başladığı bu yol sonradan daha şaxəli, daha sistemli və təkmil şəkildə davam tapmış, hekayələrindəki məktəb məkanı, müəllim obrazları institut və orda çalışan müəllimlər, rəhbər işçilərin canlandırılması ilə əvəz olunmuşdur. Həmçinin şəhərdən yurda dönüş edən qəhrəmanlar, mənəvi-əxlaqi baxımdan natamamlıq kompleksi yaşayan personajlar da yazıçının hekayələrindən romanlarına daxil olaraq daha qabarıq, daha iri planda görünməyə, cəlb olunmağa başladılar.

Sabir Əhmədlinin əsərləri hər şeydən öncə iki fərqli dünyagörüşün, iki fərqli dünyanın qarşı-qarşıya gəlməsi üzərində qurulub. Yeni və kohnə dünya qarşı-qarşıya gəlir, hətta dövrün tələbi olan inqilabi-sosial, inqilabi-tarixi motiv belə bu əsərlərdə ümumbəşəri ləyaqət və mənəviyyat problemi səviyyəsinə yüksəlir. Bir tərəfdə sənayeləşən, modernləşən dünya, digər tərəfdə isə insan əxlaqını bu yeniliyin pozucu təsirindən uzaq tutmağa çalışan qəhrəmanlar. Və bu paradoksal situasiyadan yan motivlər də şaxələnir: urbanizə prinsiplərinə assimilyasiya olunmuş insanların getdikcə ailə bağlarından, ənənələrdən qopması, modernləşən şəhərlilər, yadlaşan kəndlilər, bir də heç nəyə baxmayaraq, dəyərlərinə sadiq qəhrəmanlar.

İqtisadi inkişaf tempi yüksəldikcə, texniki nailiyyətlər artdıqca insanlar da sanki robotlaşır, mənəvi dəyərlər maddi-texniki dəyərlərə uduzur. Sabir Əhmədlinin məkan dairəsindən asılı olmayaraq, bütün əsərlərində harasa tələsən, kökü ilə bağları qopmaqda olan, duyğuları öləziyən və qəddarlaşan insan kütləsinə qarşı bir üsyan var. O, sanki yeni nəslin üzlərinə hopan laqeydlik ifadəsini söküb atmağa çalışır, milli kimliyindən uzaq düşməkdə olan fərdin konfliktini verirdi. Müxtəlif simvol və metaforlarla, alleqorik yanaşmayla reallığı göstərir, arxetipləri statikliyin, dəyişməyin rəmzi olaraq nəsr məkanına daxil edirdi. Bu mənada, onun bütün əsərlərini "Azıxa doğru" işarələmək daha doğru olardı.

**Mühit və şəxsiyyət amili.** Yazıçının nəsrə gətirdiyi yenilik cəhdi onun ilk növbədə, şəxsiyyət amilinə münasibətlə izah olunmalıdır. Sovet ideologiyasının hökmfərma olduğu ən qatı dönəmdə belə yazdığı əsərlərdə mövzudan, problemdən daha çox insanın fərd olaraq şəxsi duyğularına istinad etməsi, daha çox psixologiya və mənəviyyat məsələlərinə önəm verməsi, qəhrəmanların davranış və əməllərinin bütün müsbət və mənfi tərəfləri ilə görüntülənməsi nəsrin yeni yaradıcılıq sferasında doğuluşunun göstəricisi idi. "Onun adı və imzası nəsrə gətirdiyi təfsilat və təfərrüatlarla bağlı olsa da, əsərləri "məişət realizmi"nin çərçivəsindən çox-çox kənara çıxır. Əslində, burada da "məişətçilik" psixologizmin, açıq kinayə isə mətnaltı kədərin, yanğının ifadə usulu kimi meydana çıxır", - yazan ədəbiyyatşünas alim Yaşar Qarayev haqlı idi. Mətnaltı kədər və yanğı Sabir Əhmədlinin ilk əsərlərindən sona qədər müxtəlif mövzu materialında işləndi. İlk romanı olan "Aran"da Sabir Əhmədli yazıçı partiya təşkilatı katibi olan Talıbın simasında müsbət və mənfi xüsusiyyətləri özündə cəmləyən partiya işçisi obrazı yaratmışdır. Sonralar "Görünməz dalğa" romanı ilə birləşdirilmiş "Aran" romanında nə sonluq xoşbəxtliklə bitirdi, nə də qəhrəmanlar müsbət səciyyəsi

ilə seçilirdilər. Niyə? Sabir Əhmədli buna görə mühit faktorunu qabardırdı. İlk dəfə olaraq, insanın bədbəxtliyində rejimin, ictimai-sosial mühitin rolu olduğunu önə çəkirdi. “Görünməz dalğa” Sabir Əhmədli üçün sosial mühitin özü idi. “Ümumiyyətlə, əsərdəki surətlərin hamısının davranışında, hərəkətlərində, bir-birlərinə münasibətlərində, xarakterlərində həmin “görünməz dalğaların” mənfi təsiri hiss olunur. Əsas qəhramanların heç biri bu dalğalardan kənarda qala bilmir” (Fərhad Mədətov). Saxta plan doldurmaları, yeniliklə köhnəliyin arasında aparılan cəfəng, əsassız mübarizə, insanların öz əsillərini danaraq yadlaşması uğursuz yaşamlara, uğursuz ailə həyatlarına rəvac verən amillər idi. Yazıçı “görünməz dalğalar” deyərkən bunları nəzərdə tuturdu və o, görünməyən bu kimi nəsnələri görünən etməklə nəsrin idilliyadan gerçəyə, romantikadan reallığa doğru axınını dəyişirdi.

Sabir Əhmədlinin əsərlərinə 1960-70-ci illər nəslinin yaradıcılığı prizmasından baxılsa, ondakı yeniliyin dövrə nə qədər müxalif ruhda olduğunu görəcəyik.1969-cu ildə yazdığı “Dünyanın arşını” romanında Cənub mövzusuna toxunub. “Yasaq edilmiş oyun” romanının mövzusu isə 37-ci il hadisələrindən götürülüb. Həmin illərdə ard-arda yaranan qəhrəmanlar - Anarın “Ağ liman”ındakı Nemət, Əkrəm Əylislinin “Adamlar və ağaclar”ının qəhrəmanı Sadıq, eləcə də Sabir Əhmədlinin “Aran” əsərindəki Talıb kimi obrazlar ənənəvi təhlilə və yozuma gəlmirdilər. Bu qəhrəman tipajı həyatı daha mənalı yaşamaq, insan ləyaqətilə ömür sürmək kimi fəlsəfi qənaəti və ovqatı daşıyırdı özündə.

“Aran” romanında köhnənin təmsilçiləri olan kolxoz sədri, mühasib və təhlükəli adam olan Yavuz Süleymanlı və yeniliyi təbliğ və müdafiə etməyə çalışan gənc qüvvələr – Hidayət, Talıb, Nargilə, pambıqçı qızlar üz-üzə qoyulur. Yeniliklərə qısqanclıqla yanaşılması, iki cəbhə arasında konfliktin dərinləşməsi iki fərqli dünyanın, dünyagörüşün konflikti kimi verilirdi əsərdə. Belə bir mübarizə yazıçının 1969-cu ildə yazdığı “Yamacda nişanə” povestində daha natural boyalarla nəsrə gətirilir. Xeyirlə şər, doğru ilə yalan, haqq və ədalətsizlik kimi ədəbiyyatın daim məşğul olduğu məsələlər “Yamacda nişanə” povestində daha kəskin qoyulmuşdur. Böyük ideallarla yaşayan, dəliqanlı, gənc Laçının faciəsi fonunda müəllif əslində mühitdə insana olan münasibəti mərkəzə gətirirdi. Laçın kimi doğru yolda olan və doğruları ilə yaşayan insanlar bu yolda olmayanlar üçün daim təhlükə mənbəyidirlər. Ona görə qardaşı da daxil olmaqla vəzifəli şəxslər Laçına qarşı əsk mövqe tuturlar. Hər yolla bu gəncə mane olmağa, yolundan sapdırmağa, əlini işindən soyutmağa, əqidəsindən döndərməyə çalışırlar.

Sabir Əhmədlinin əsərlərində monumentallıq əsərlərinin həcmi və əhatə dairəsinin vüsəti ilə ölçülməməlidir, əksinə, belə bir yanaşma böyük ədibin yaradıcılığına münasibətdə haqsızlıq olardı. Onun əsərlərində əksinə, reallığa yanaşmanın introvert üsulundan, yəni, daha çox iç təsvirlərinin dərinliyindən, metafizik başlanğıcın önə keçməsindən, daxili monoloqlara üstünlük verilməsindən bəhs etməliyik. Bədii təsvirlərdə daha çox milli koloritə köklənmək, milli mənəvi-əxlaqi dəyərlərə önəm vermək, problemlərə müasirlik prizmasından baxış vüsəti yazıçının üslubunun əsas xüsusiyyətlərindəndir. Sabir Əhmədlinin yazıçı kimi özəlliyindən digəri, qəhrəmanlarının xarakterini bir neçə detalda uğurla açması, təfsilata varmadan obrazın daxili aləminə işıq sala bilməsidir. Məsələn, müəllifin “Yamacda nişanə” povestində Laçının xarakterini ifadə etmək üçün ümumiləşdirdiyi bir neçə cümlə onu tip olaraq təsəvvür etməyə imkan yaradır: “Qorxsalar da, qorxmasalar da, sevsələr də, sevməsələr də, Laçın kiçik şəhərin bir ərköyün, dəlisov balası idi. Ərsəyə yetib, qənşərə çıxdığı gündən adamların üz-gözü ona elə öyrəşmişdi ki, buranı Laçınsız ağıllarına gətirə bilməzlər. Küçədə, dükanlarda, bazarda Laçın görünməsə, nə dükan dükandı, nə bazar bazar. Əlləri gah dalında, gah əsgərsayağı yanlarında yellənə-yellənə

girirdi bazara....Yerişində, hərəkətində elə od, hərarət vardı ki, guya keçib havaya kibrit çəksən, alovlanacaqdı". Yaxud "Dünyanın arşını" romanında əsərin qəhrəmanı Arifin Araz həsrəti və müəllifin bu həsrəti bir neçə kəlmə ilə təsvir etməsi həm yazıçının özünün Cənub ağrısını anlamağa, həm də həmin illərdə mövzunun nəsrdə işlənmə səviyyəsini sərgiləməyə imkan yaradır: "Mən bir üzü qırmızı, bir üzü sarı körpü daşlarını göz yaşlarımla yumaq istərdim. Alaq basmış nəhəng qəbirə bənzəyən torpaq körpüyə döşənib, o torpağı qucaqlamaq istərdim. Mən qan-qırmızı tuman-qofta geymiş elat qızlarını doğma bacımtək bağrıma basıb öpmək istərdim. Köçəri-tərəkəmə gözəllərini lap yaxından görüb, onların bizə necə bənzədiklərinə baxmaq istərdim. Mən heç bir zaman, ömrümdə heç bir vaxt doğma bacımın, yeganə əziz Bənövşənin həsrətini bunlar qədər çəkməmişdim. Könlümü, qəlbimi heç bir zaman həmin dəqiqələrdə, saatlarda olduğu kimi acı hicran zəhəri parçalamamışdı. Mən müəllimdim, müəllim olmaq arzusunda idim. Ömrümü son dəqiqəsinədək bax orada, o alaçıqlarda, o obalarda maarifə həsr edərdim".

Sabir Əhmədlinin əsərlərinin fəlsəfəsi sadə insan həqiqətlərinə söykənir. Onun yaradıcılığı üçün məkan amili kimi şəhər və kənd mühiti daim işləkdir və hansı mühiti bədii təcəssüm predmeti etməkdən asılı olmayaraq, yazıçı təsvirlərinin episentrində insanın mənəvi boşluğu, daxili aləmlərin naqisliyi kimi əlamətlər dayanır. Bu əlamətləri müəllif həyatdakı durğunluq, mühitin özündə gedən aşınmalarla eyni müstəvidə təsvirə çəkir. Mühit kirlənibsə, ictimai zəmin olaraq istinad etməyə saf, duru bir ərazi qalmayıbsa, o yerdə hansısa uğurdan, keyfiyyətli işdən və insanların işə can yandırmasından, təmiz, vicdanlı əməldən söhbət gedə bilməz. İstər "Aran", "Dünyanın arşını", "Azıxa doğru" romanlarında rayonda baş verən hadisələrin, istərsə də Bakıdakı hadisələrin baş verdiyi "Yaşıl teatr" və "Yasamal gölündə qayıqlar üzürdü" əsərlərində tənqid olunan əslində, mühit amilinin özüdür.

**Kənd həyatının təsviri.** Sabir Əhmədli kənd həyatına, kənd mühitinin təsvirinə xüsusi həssaslıqla yanaşmışdır. İlk qələm təcrübəsi olan "Arabaçı" hekayəsindən başlayaraq "Aran", "Gülmalı kişinin axırı", "Dünyanın arşını" romanlarına qədər müəllif kənd həyatının sosial-iqtisadi problemlərini bədii əsərlərinə gətirmişdir.  Bunu bir neçə səbəblə əlaqələndirmək mümkündür. Əvvəla, yazıçı daha çox yaxşı tanıyıb bildiyi, mahiyyətinə bələd olduğu məqamları verməyə çalışırdı və bu, daha doğru yoldur. Böyük yazıçı Prust yazırdı ki, hiss haqqında düşüncəni hissin özündən fərqləndirmək lazımdır. Bu mənada, yazıçının daha çox mənən yaşadığı, içindən keçirdiyi təsvirlərə köklənməsi onun prosesləri daha çanlı, daha inandırıcı və koloritli boyalarla qələmə almasını şərtləndirir. Kənardan, haqqında danışırmış kimi, bir təəssürat yaratmır. Bu mənada, Sabir Əhmədlinin kənd mühitini təsvirə çəkməsi qanunauyğun bir məsələ idi. Kənd mühitində yetişən bir fərd olaraq kəndin özəlliklərini təsvir etməkdə daha usta, daha mahir sayılırdı. Özü də dəfələrlə qeyd edibmiş ki, "Mən ədəbiyyata kitabdan deyil, həyatdan gələnlərdənəm". Əslində, fikrin "kitabdan gəlməyə" antitezis kimi işləndiyi bu məqamda müəlliflə mübahisə etmək də olar. Nədən ki, kitabdan gəlmək elə ədəbiyyata gəlməyin yoludur və bunu mütləq şəkildə həyat-kitab qarşıdurmasına çevirib üstünlüyü birinciyə vermək özünü doğrultmur. Böyük ədəbiyyatı, böyük əsərləri geniş mütaliəyə, dərin dünyagörüşə malik yazıçı yaradır. Həyatı tanımaq isə ona yuxarıda qeyd etdiyim kimi, "hissin özündən yazmaq" ustalığı üçün lazımdır.

Sabir Əhmədlinin kənd mühitindən yazmasının digər səbəbi o zamana qədər bu mövzunun daha çox işləkliyi, nəsrimizdə geninə-boluna istifadəsi ilə əlaqədar idi. 20-30-cu illərdən başlayaraq milli nəsrimizdə elə bir yazıçı adı çəkmək mümkün deyil ki, kənddən yazmasın, orda gedən quruculuq işlərini, yenilənmə,

maariflənmə ab-havasını təsvirə çəkməsin. Bu, dövrün tələbi idi, yazıçılar da hekayələrdən tutmuş romanlara qədər bütün janrlarda kənddəki hadisələrin təsvirinə maraqlı idilər. Amma Sabir Əhmədlinin, eləcə də həmin dövrdə nəsrdə qələm işlədən İsa Hüseynov, Əkrəm Əylisli, Sabir Azəri və başqalarının fərqi nədə idi? Onlar kənddəki quruculuq işlərindən deyil, ondakı əyintilərdən, yarıtmaz hallardan bəhs edirdilər, daha çox insanı önə çəkir, onun daxili aləminin təlatümlərinə diqqət yönəldirdilər. Bu dəfə hadisəyə, qəhrəmana, mühitə yanaşmanın arifmetikası dəyişirdi. Bu vaxtadək nəsrdə haqqında uca səslə danışılan, müsbət dəyər kimi qələmə verilən amillər artıq artefakt səciyyəsi alırdı.

Bu artıq dövr yazıçısının zamana, rejimə ironiyası idi. Yəni insan bütün fərdi duyğularından, şəxsi istək və yaşamından əl çəkib özünü bütünlükdə işə, onun tələblərinə köklədi, bəs əvəzində rejimin, mühitin insana verdiyi nə oldu? Yalnız antihumanist mövqe, sarsıntılı yaşantı və s. Sabir Əhmədlinin əsərlərinin başlıca mövzu-problematikası həmin proseslərə nüfuz və təsir etmək dərəcəsini gücləndirməyə yönəlmişdi. Qəhrəmanları artıq ailədə, məişətdə kommunikativ-sosial münasibətlərdən ünsiyyətin interaktiv tərəfinə adlayır, bir-birlərinə qarşılıqlı psixoloji təsir göstərməyə cəhd edirdilər. Buna görə yazıçı dəfələrlə dövrün tənqidçilərinin qınağına tuş gəlir, həyatı "birtərəfli" təsvirdə suçlanır, cəsarəti, "mərkəzdənqaçma" tendensiyası o qədər də birmənalı qarşılanmırdı. Ondan rejimə uyğun təsvir və idealizə cəhdi görməyənlər sərt tənqidə keçir, əsərlərdəki obrazları passivlikdə qınayırdılar. Unudulurdu ki, dünya nəsri çoxdan İnsanın duyğularının önə keçməsini reallaşdırıb, müharibədən sonrakı insanın içindəki kədər, boşluq simvolikasını bədii mətnin predmeti edib.

**Sosial-psixoloji qatlara eniş.** Sabir Əhmədlinin 70-ci illərin sonlarında yazdığı "Yasamal gölündə qayıqlar üzürdü" romanı daha çox insanın mənəvi aləminə, psixoloji qatlara nüfuzun dərinliyi ilə yadda qalır. Yazıçı romanlarında iki amili qarşılaşdırır: mühitə uyğunlaşan və uyğunlaşmayan qəhrəmanlar. İnsan, onun arzuları, istəkləri, xəyalları və ictimai-sosial mühit. İki qüvvə üz-üzədir. Əqidəli, işi ilə əməli düz insanlar həyatda yerini tapa bilmir. "Yasamal gölündə qayıqlar üzürdü" romanı bu ikiləşməni uğurla simvolizə edən əsər kimi dəyərlidir. Əsərdə çirkab suları ilə ekoloji baxımdan yarıtmaz halda olan Yasamal gölü çürüməkdə olan rejimin özünün obrazı idi. Bu çirkinliyə öyrəncəli olanlar, fərdi mənafeyi üçün onun çirkabına göz yuman Səlim Xəliloviç, Səməndər kimi obıvatel tipli obrazlar, eləcə də əks qütbü təmsil edən, xalqa ürəklə xidmət etməyə çalışan, ləyaqətli ömür sürməyi meyara çevirmiş Hikmət obrazı zamanın iki fərqli simasını özündə əyaniləşdirən qütb olaraq ümumiləşirlər. Elmi-tədqiqat institutlarında hökm sürən özbaşınalıqlar, elmə Gülümsərov tipində yanaşıb şəxsi qazanc və mənfəət mənbəyinə çevirənlər, gənc kadrların qarşısına çəkilən çəpərlər, onların istedadlarını görməzdən gəlmək halları, saxta dissertasiyalarla alim olanlar, xoşbəxtliyi ancaq pulda, əyləncəli həyatda görənlər və başqa bu kimi iyrəncliklər "Yasamal gölündə qayıqlar üzürdü" romanında Səlim Xəliloviç, komendant, Səməndər, Jületa obrazlarının timsalında ətraflı, incə boyalarla təsvirini tapmışdır.

"Aran", "Yasamal gölündə qayıqlar üzürdü", "Dünyanın arşını", "Yasaq edilmiş oyun", "Toğana" romanları sovet ideologiyasının çürük siyasətinin, rejimin iyrənc simasının, alt qatda gizlənən qorxulu mahiyyətinin üzə çıxmış nümunələri kimi onun antihumanist mahiyyətinə tutulan güzgü idi.

Sabir Əhmədlinin romanlarında yer alan qəhrəmanlar zamanla mənəvi müxalifətdə olan obrazlardır. Kimi sona qədər dirənib yaşayır, kimi isə fəal mübarizə aparmayıb təslim olurlar. Yazıçı bunu bəzən bir ailənin, bəzən də bir fərdin nümunəsində təqdim edir. Məsələn, "Yasamal gölündə qayıqlar üzürdü" romanında idealın iflasını göstərməyə çalışmışdır və bu çöküş ruhunu

qəhrəmanın oğlu və qızının, eləcə də Büllur obrazının nümunəsində ümumiləşdirmişdir. Həyatın amansız məngənəsi içində boğulan, axıra qədər davam gətirməyib təslim olan, mənəvi, ruhsal təmizliklərini qoruya bilməyən faciə qəhrəmanları. Sabir Əhmədli mühitin çirkablarla dolu olduğu bu zamanda ideal həyat tərzinin çətin olması fikrini önə çəkirdi. Buna ancaq mənəvi müvazinəti güclü insanlar qadir ola bilərdi. Yazıçı Hikmət obrazında belə bir qəhrəmanın varlığı ilə əxlaqi deqradasiyaya meydan oxuyur, az da olsa, mühitə qarşı dayanan qəhrəmanların varlığını önə çəkirdi.

Heç nəyə baxmayaraq öz fərdiliyini qoruyub saxlamağı bacaran "Mən"! Yazıçının nəsrdə önə çəkdiyi əsas başlanğıc bu idi. "Yasamal gölündə qayıqlar üzürdü" romanında Büllurun son anının təsviri ilə bağlı belə bir epizod yer alır:

"Bu dəyərli, az tapılan sovqatın, yadigarın hər biri gətirildiyi gün yəqin uşağı-böyüyü əməllicə sevindirmiş, kiçik bir bayram olmuşdu. Bunlar görünəndi. Mücrülərdə, sandıqlarda, çamadanlarda, məxmər qutularda, qumaş düyünçələrdə, Büllurun gizlincində daha nələri vardı, nə tanqah yatırdı, Allah bilirdi.

Kirimişcə baxışdılar.

– Bütün bu dəfinədə bircə şey çatmır.

– Mən.

– Sən!

– Mən olsam, bunlar olmayacaqdı.

– Ən böyük sərvət ürəyin fərəhidi. Qalan hamısı heç-puçdu".

Yazıçı qəlbin fərəhini, halallıqla ömür sürməyin önəmini əsərdə sosial-mənəvi, etik-psixoloji münasibətlər fonunda açır, fikirlərini Hikmət Sadıqlının düşdüyü antielmi, dəyərləri deqradasiyaya uğramış bir mühitdə qəhrəmanın yaşam tərzində sınaqdan çıxarmaqla zamanın fövqünə qalxmış obraz yaradırdı. Suyu qalxan Yasamal gölü və dəyərlərindən əl çəkməyən, bataqlığa, çirkaba bulaşmayan qəhrəmanlar romanda simvolik planda birləşir, sabaha daha inamlı bir baxış formalaşdırırdılar. Ümumiyyətlə, Sabir Əhmədli yaradıcılığında alt qata meyillilik, fikrin sətiraltı formada inikası, simvolik şəkildə təqdimi əsas yer tutur. Bunu yazıçının tədqiqatçısı Ruhiyyə Nağıyeva da öz əsərində qeyd edib: "Sabir Əhmədov qəhrəman və mühit probleminin bədii həllinə çalışarkən eyham, mətnaltı ifadə, bədii detal, metafora, simvolik obraz və sairdən məharətlə istifadə edir. Biz bunu "Yasamal gölündə qayıqlar üzürdü" romanındakı tabut, quruyan göl, "Yaşıl teatr" əsərindəki oyuncaqlar, heyvanxana, "Qanköçürmə stansiyası" povestindəki kəsilən buğa, "Yasaq edilmiş oyun" romanındakı uşaq oyunu, "Toğana" romanındakı yetim dana, sürüdən ayrılmış quzu, "Azıxa doğru" romanındakı mağara, "Aran" romanındakı pambıq sahəsi və s. təsvirlərində daha aydın görürük. Rəmz, alleqoriya mühitin dolğun mənzərəsini yaratmaqda, cəmiyyətin əhval-ruhiyyəsini, zamanı, mühitin ziddiyyətlərini, qəhrəmanların psixologiyasını verməkdə yazıçının tez-tez istifadə etdiyi ədəbi fiqurlardır".

**İntellektual qəhrəmanlar.** Sabir Əhmədlinin əksər əsərlərinin qəhrəmanları ziyalılardır. Cəmiyyətin intellektual kəsimi. Yazıçı niyə əksər qəhrəmanlarını bu dairədən seçir? Düşünən beyinlər daha uzaqgörən olmalı, mühitdəki naqislik dalğasını yarmağa, eybəcərlikləri dəf etməyə digərlərindən daha artıq səy göstərməlidir..., - bunumu təlqin eləmək istəyirdi?! Bəs bu zümrənin özü naqis olanda, öz içindən çürüyəndə necə, ümidsizliyə yol açılmırdımı? "Dünyanın arşını", "Toğana", "Yasamal gölündə qayıqlar üzürdü" romanlarının qəhrəmanları filosof Arif, Adil, Mayis, Hikmət, eləcə də "Aran", "Gedənlərin qayıtmağı", "Dünyanın arşını", "Yaşıl teatr" kimi romanların qəhrəmanları daha çox islah etməyə çalışır, bunu görməyəndə ümidsizliyə uğrayırdılar.

Bütün hallarda yazıçı kolliziyada olan qəhrəman tiplərini üz-üzə qoyurdu. "Toğana" romanında, məsələn, konflikt mənəviyyatla mənəviyyatsızlıq,

maddiyyatçılıq arasındadır. Azərbaycan ziyalılarını mənəvi-psixoloji çirkabdan xilas etmək istəyən Adillə Mayis cinayət işləri üzrə mütəxəssis olan, hiyləgər, maddiyyat düşkünü Fatehlə vuruşur.Yaxud “Yasamal gölündə qayıqlar üzürdü” romanında şöhrət qazansa belə, sadəliyindən, ləyaqətli həyat tərzindən uzaq düşməyən Hikmət hiyləgər, saxtakar Səlimlərə, meşşan həyat tərzi keçirən Büllurlara qarşı sonadək müqavimət göstərir.

Sabir Əhmədlinin əsərlərində əxlaq, saflıq, halallıq ona əks qütbdə dayanan maddiyyatçılıq, riyakarlıq, şər qüvvə ilə üz-üzə qoyulurdu. Bəzən heç bir müqavimət hissi olmadıqda belə qəhrəmanların tapındıqları həyat gerçəkləri, ona sığınıb yaşamaları və doğrularından usanmamaları böyük əhəmiyyət daşıyırdı. Belə hallarda Sabir Əhmədlinin qəhrəmanlarının gücü ancaq barışmamağa, düşünməyə, iç dünyalarına çəkilməyə, xəyallar qurmağa, mənəvi aləmlərini mümkün qədər çirkabdan qorumağa çatırdı. “Yaşıl teatr” romanında olduğu kimi. Həyatlarını sakit şəkildə yaşayan, ümumi axına qoşulub ömür sürən Kainat, Şiraslan, Xeyransa heç kimlə mübarizə aparmasalar da xeyirxah, səmimi, mənəvi baxımdan tox olduqlarına görə rəğbət doğurur, elə bu şəkildə də şərlə mübarizə cinahında qərarlaşırdılar.

Amma bu qəhrəmanların əsərlərdə funksiyası yalnız şərə müqavimət aşılamaq deyildi. Onlar daha çox nəsrin düşüncə arsenalını, təfəkkür ərazilərini genişləndirirdilər. Nəsr artıq fəlsəfi suallara köklənir, dünyanın yaranışı, xeyir-şər dilemması, olum-ölüm, tale-ömür kimi əbədiyyət məqamlarına varır, psixoloji yük artır, əsərlər daha estetik biçim alır, daxili monoloqlar genişlənir, bədii məndəricə dolğunlaşırdı. Hələ ki, nəsrin qəhrəmanları düşünürdü, amma bu həm də yazıçının özünün dünya problemləri, əbədi huzur axtarışları yönündə narahatlığı idi. Məsələn, “Yasamal gölündə qayıqlar üzürdü” əsərində hadisələr, institutda, daha dəqiqi, kiçik bir laboratoriyada baş verir. Romanın qəhrəmanı Hikmətin çalışdığı institutda özbaşınalıq baş alıb gedir, hər şey rəsmi direktivlərdən asılıdır, əsl alim əməyinə qiymət verilmir, söz və fikir azad deyil, elmi müəssisə direktorun şəxsi gəlir monopoliyasına çevrilib. Buranı cəmiyyətin kiçik modeli, mikromühiti kimi qəbul edə bilərik. Belə bir mühitdə Hikmət uzun illər apardığı elmi axtarışlarının sonunda dünyanı silkələyən kəşf edir. Bu kəşf əlbəttə ki, simvolik səciyyə daşıyır və insanların xilasına, yeni zamanın yaxınlaşmasına işarə kimi sərgilənir. Hansı yeni zaman, hansı təhlükədən qurtuluş? Bunu isə yazıçı artıq oxucunun ixtiyarına buraxır və reseptiv tənqidin ixtiyarına verir.

Sabir Əhmədlinin ziyalı həyatını təsvirə çəkən digər “Azıxa doğru”, “Toğana” romanlarında da eyni yarıtmaz aqibət yaşanır. “Toğana” romanında mühitin naqisliyi qəhrəmanın daxili monoloqunda belə təsvir edilir: “İnsan hər gün əl-üzünü yuyur. Həftədə bir-iki dəfə də hamama gedir. Bu, təmizlikdir. Bəs adamın içərisini, daxili nə yuyur? Axı, insanın ruh və mənəvi varlığı da pas atıb, qrum bağlayır. Bundan, əl-üzünün yuyulmadığından daha artıq ziyan çəkər və ziyan törədər. Bunun üçün ən yaxşı vasitə təbiətin qoynudur. Meşələrin nəfəsi, açıq, təmiz səmanın görünüşü, otların ətri sənin ürəyini, beynini yuyub paklaşdırar, fikrin, duyğuların büllurlaşıb saflaşar. Məscidə getmirsən, kilsə görmürsən. Günahlarının bağışlanmasından ötrü Allaha dua etmirsən, ibadətin nə olduğunu bilmirsən. Onun hamısından daha qüdrətli və təsirli ibadət odur ki, təbiətin pak qoynunda öz vücudunu, varlığını aç…”

Bu romanda artıq təbiət-cəmiyyət qarşıdurmasının bütün tərəfləri göstərilir, müəllif təbiətin insan həyatında təmizləyici rolunu qəhrəmanı Adil müəllimin düşüncələrində, onun Mayısla dialoqunda üzə çıxarır. İnsan yalnız mənəvi təmizliyi ilə təbiətdəki yerinə, başlanğıcdakı ilahi saflığına qayıda bilər, yalnız onunla qaynayıb-qarışdıqda ruhsal müvazinətini bərpa etməsi mümkündür.

**Urbanizasiya problemi.** Sabir Əhmədli texnogen sivilizasiyanın inkişaf etdiyi, insanın təbiətə, mühitə, özünə belə yadlaşdığı bir dönəmdə ekoloji mühitin insan həyatında vacibliyi amilini qabardır, insan saflığını təbiətin gözəlliklərinin ekvivalenti kimi təqdim etməklə oxucunu təbiiliyini qorumağa səsləyirdi. “Azərbaycan ədəbiyyatında bir vaxt təbiət təsvirində estetik cəhətə daha çox üstünlük verilirdi. Ədəbiyyatımızın inkişafının yeni mərhələsində, o cümlədən Sabir Əhmədovun “Toğana” romanında təbiətə yeni bir münasibət, ona mənəviyyat yolçusu kimi bir baxış da var” (Tofiq Hüseynov).

“Toğana” urbanizasiya məsələsini ciddi şəkildə nəsrə gətirən romandır. Rəngarəng, çəkici meqapolis mənzərələri, yoxsa kənd dəyərləri, huzur, saflıq amili? Psixologiya üzrə alim olan Adil müəllimin düşüncələri əsasında oxucu Toğana yaylasında dincələn üç ailənin daxili aləmi ilə tanış olur. İnsan həyatını asanlaşdıran elmi-texniki inqilab, yoxsa mənəviyyat? Bütün hallarda dəyərlərini itirməyən, mənəvi keyfiyyətlərindən uzaqlaşmayan insanlıq! Onu qorumaq hər nə qədər çətin və məşəqqətli olsa da: “Eh rəhmətliyin oğlu, nə qoyub, nə axtarırsan. Hanı üstündə bircə ləkəsi olmayan mütləq ləyaqət, mənəvi yüksəklik? Mütləq heç nə yoxdur. Mən sənə nisbətən yaxşıyam, sən o birinə nisbətən şükürlüsən. Hamı bu nisbətdədi. Beşindən geridə qalsa da, yüzünü beşindən irəlidə istəyir. Buna can atır. Ona qalsa, mənim əlimdə hamıdan çox əsasım var ki, şərəfimi qoruyum, hər hansı böhtandan, bədxahlıqdan mühafizə edim”.

Sabir Əhmədlinin əsərləri həm də urbanizasiya prizmasından, torpağa, kəndə, doğma yurda bağlılıq aspektinin qabardılması amilindən dəyərləndirilə bilər. Amma həmin dövrün bir qisim yazıçılarından fərqli olaraq, Sabir Əhmədli bütün sosial bəlaları, əxlaqsızlığı, mənəviyyatsızlığı urbanizasiya ilə əlaqələndirmir. Ona görə kəndin və kəndlinin problemlərinin kökündə şəhər və şəhərli amili dayanmır. Belə bir mövqeni milli prozamızda İsa Hüseynov, İsi Məlikzadə, Sabir Azəri və başqalarının yaradıcılığında da müşahidə etmək mümkündür. Sabir Əhmədli üçün kənddən şəhərə axın etmək məsələsi, təbiətin insan mənəviyyatında təmizləyisi funksiyası ön planda olsa da ümumən, insan xislətinin naqisliyi onun özünün çatışmazlığı kimi dəyərləndirilir. Belə bir çatışmazlığa isə rəvac verən rejimin antihumanist mahiyyətidir, sosial problemlərin şəhərlə birlikdə kəndi də çevrələməsidir.

Yazıçının “Azıxa doğru” romanı fikirlərimizə sübutdur. Roman qəhrəmanı Valeh kənddən şəhərə üz tutur və yaşının yetkin çağlarında yenidən geri dönür. Yazıçı müxtəlif zaman mərhələlərini irəli-geri dönüm sıçrayışları ilə eyni bədii müstəviyə gətirir. Yaşanan ömür, keçmişin həsrəti və gələcəklə bağlı arzu və xəyallar. Filosof ədalı, romantik düşüncəli Valeh şəhərdən yorulub, onun səs-küylü həyatından qaçıb kəndə sığınmaq niyyətini romanın əvvəlində dostu ilə olan qısa dialoqu sərgiləyir:

“– Hə, sən də yaxşısan. Nə olub sənə?

– Üzülmüşük əşi, biz. Şəhər üzüb. Yorulmuşuq”.

Bu əsərlərdə ümumən insan darıxır, nə şəhərin urbanist təhnalığında, nə də kəndin statik ab-havasında özünü tapa bilmir. “Azıxa doğru” romanında olduğu kimi. Belə bir qarşıdurmada yazıçı seçim olaraq qəhrəmanını şəhərdən kəndə, ordan da Azıxa - mağaraya doğru meyilləndirməklə modernləşən dünyanın ifrat tələbləri ilə qədim yaşayış tərzindəki minimalizmi üz-üzə gətirir. Bu yerdə Platonun "Mağara haqda mif" alleqoriyasını xatırlamamaq olmur. Mətnin məzmununa görə, mağarada zəncirlənən insanlar üçün mağaradan kənar reallıq yoxdur. “Real dünyadan onlara sadəcə dumanlı kölgələr gəlib çatır” və bu insanlar yalnız o kölgələri vahid gerçəklik hesab edirlər.

Valeh kəndə qayıtmaq istəyir, qayıdır da. Ancaq kənd onun qoyub gəldiyi kimidirmi? Məgər sürətli dəyişimlər, elmi-texniki inqilabların dalğası, sürətlə

gedən mənəvi aşınma, rejimin yarıtmazlıqları kəndə də gəlib çatmayıbmı? Yenə də sistemin, mühitin naqisliyi. Valeh müəllim halallıqla, öz qazancı hesabına kənddə ev tikmək istəyir. Ancaq jurnalist kimi bir-iki yazı yazmaqla bu işin mümkün olmayacağını anlayır. Dostu, qardaşlığı, eləcə də digər yaxınları Valeh müəllimə ev tikməkdə, yurd salmaqda hər bir köməklik edəcəklərini söz versələr də, praktiki olaraq heç bir iş görmürlər. Yazıçı kənddəki pozulan mənəviyyatı raykom katibi Balayev obrazında ümumiləşdirmişdir. Yenə də kolliziya, yenə də üz-üzə qoyulan dəyərlər. Bu dəfə raykom katibi Balayevlə toqquşan Valehdir, sadə kəndli, qarovulçu Orucdur.

Valeh müəllim rejim qanunlarının hakim olduğu bütün dairələrdə, bütün ərazilərdə naqisliyin epidemiya kimi yayıldığını, insanların mənfəətpərəst, riyakar olduğunu görür. Ona görə də kəndin yaxınlığındakı sakit bir guşəyə − Azığ mağarasına çəkilir. Yazıçının onu Azıx mağarasına yönləndirməsi sıradan məqam sayılmamalıdır. Bu, həm də insan oğluna düşünmək, ibrət üçün seçilən mənəvi ərazidir. Doğulduğu yurdun qədrini bilməsi, onun tərk edib başqa məkanlara üz tutmaması üçün özünüdərk təlimidir. Bu mənada, ədəbiyyatşünas tənqidçi Akif Hüseynlinin qənaətləri dəqiqdir: “Azıxa doğru! – biz bunu belə qavrayırıq ki, yəni tariximizi tanımağa, torpağımızın qədimliyini duymağa, xalqımızın varlığına qovuşmağa doğru! Azıxa doğru! – yəni mənəvi simamızı mühafizə etməyə, yurdumuzu – məskənimizi qəlbimizdə ucaltmağa, onun şamını-çırağını həmişə alışdırmağa doğru!”.

Dünyanın dağılan nizamı, əyilən arşını, itirilən meyarları Sabir Əhmədlinin simvolik şəkildə adlandırdığı “Dünyanın arşını” romanında daha bitkin formada öz əksini tapmışdır. “Dünyanın arşını” çox dəyərlərin itirilməsinə işarə edən bir əsərdir. Ailə bağlarının, insanların bir-birinə inamının, haqq sözün çəkisinin itirilməsini bədii boyalarla təcəssüm etdirən bu əsər XX əsr Azərbaycan romançılığının seçilmişləri sırasında qərarlaşır. Tənqidçi Vaqif Yusifli yazır: «Dünyanın arşını» Azərbaycan nəsrində öz fəlsəfi-publisistik yönü ilə seçilirdi. Zahirən bir rayonda baş verən hadisələri təsvir etsə də, əslində, problem əhatəli idi, durğunluq illərində bütün ölkəni və xalqı sarmış mənəvi və sosial bəlaların bir rayon timsalında ümumiləşdirilməsi o zaman yuxarı dairələri qıcıqlandırmaya bilməzdi. İndi lap ucadan, qorxusuz-hürküsüz söylədiyimiz həqiqətləri Sabir Əhmədli qırx-qırx beş il əvvəl açıq söyləmişdi”.

Bu əsərdə də kənd və onun problemləri fonunda yazıçı ümumən bütün ölkənin neqativlərinə fokuslanırdı. Filosof Arifin cəmiyyətdə gedən proseslərə fəlsəfi baxışı, baş verən sosial-ictimai hadisələrlə bağlı mühakimələri onun həm də sosial mühitə qarşı üsyanı statusu alırdı. Roman kimi Haraylı kəndinin də adı simvolikdir. Bu, əslində, problemlər içində qıvrılan, yaşamın acınacaqlı hala gəldiyi bir mühitin harayıdır. Yazıçı qəhrəmanın çıxışı əsasında şüur oyanışının labüd olacağını, kəndlinin öz hüquqlarını, haqlarını tanıyacaqları günün yetişəcəyini, öz müqəddəratını onun taleyi üçün cavabdeh ola biləcək şəxsə etibar etmək vacibliyini mətnaltı şəkildə işarələyirdi: “Filosof danışır, öz səsini eşidirdi. Kəlmələr guya xırda-xırda çınqıllardı, göləmi, çayamı düşürdü. Deyirdi:

– Camaatı dolandırmaq lazımdır, camaatı. Bilirsiniz, kənddə camaatın rəyi şox şeyi həll eləyir. (O, gözünün altınca sədrə baxdı, sədr də ona baxırdı.) Əvəllər bir qədər başqa cür idi, amma indi xalq… (yenə aramla başını çevirib sədri görmək istədi. Sədr solmuş, üzülmüşdü) qətiyyən yol vermir ki, təsərrüfatın, kəndin taleyi onun başı üzərindən həll edilsin”.

Sabir Əhmədlinin povestlərində yaratdığı qəhrəmanlar daha üsyankar ruhu ilə seçilirlər. “Yamacda nişanə” povestinin qəhrəmanı Laçın, “Qanköçürmə stansiyası”nın qəhrəmanı Hüsən kimi. Bu qəhrəmanlar, xüsusilə Hüsən obrazı ilə müəllif mühitin ağır basqıları altında əzilən bir obraz yaratmış, mühitin

rəzilliklərini, insan qanına susayan dəllalları, qanını pula satıb sonra həmin pulla araq alıb içən əyyaşları, qəssas işləyən qəhrəmanın həyatı, fərqli düşüncə tərzini prozaik müstəviyə gətirmişdir.

Gördüyümüz kimi, Sabir Əhmədli 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində yazdığı hekayələr və “Aran” roman ilə əməkçi insanı əsas obraza çevirdi. 80-ci illərdə yazıçının yaradıcılığında başqa mühüm keyfiyyətlər önə keçdi. Urbanizasiya problemləri, sosial-psixoloji dərinliyə meyil, ziyalı, intellektual obrazların hiss, düşüncə aləmlərinin təsviri ilə sosial mühitin reallıqlarını açıb göstərmək təmayülü işlək oldu. Sabir Əhmədlinin 90-cı illər yaradıcılığı isə onun milli-azadlıq hərəkatına, Qarabağ münaqişəsinə, metafizik başlanğıca müraciəti ilə dolğunluq qazandı, dəyişən zaman və mühit kontekstində qəhrəmanın həyata, cəmiyyətə ümumbəşəri dəyərlər prizmasından yanaşması dünyadərk məqamı kimi mənalandı, varlıq və yoxluq hüdudunda hərəkətə gələn ruhun ucalıq səviyyəsi nəsrimizin yeni estetik dəyər və ümumbəşəri çalar kəsb etməsinə yol açdı.

**1990-cı illər - Qarabağ.** Sabir Əhmədlinin 90-cı illərdən başlayaraq Qarabağ müharibəsinə həsr etdiyi romanlarında metafizik anlamda çevrilmə baş verir. Bu dəfə yazıçının düşündürən nəsnələr “olumla ölüm, cənnətlə cəhənnəm, ruhlar aləmi ilə həqiqət dünyası, zalımlıq və adillik” (Famil Mehdi) məqamları olur. Bütün əsərlər, onların mövzu və əhatə dairəsi çağın diqtə etdiyi reallıqlara adekvat olaraq yazılır. “Kütlə”, “Yanvar hekayələri”, “Axirət sevdası”, “Kef”, “Ömür urası” və ölümündən sonra çap olunan “Yazılmayan yazı” əsərləri Sabir Əhmədlinin bir yazıçı kimi ölkədə yaşanan situasiyalara həssas yazıçı baxışıdır. Meydan prosesləri, milli azadlıq hərəkatı, 20 Yanvar faciəsi, Qarabağ münaqişəsi, erməni təcavüzü, Sumqayıt hadisələri, qaçqınlıq problemi, yurd həsrəti motivləri və başqa bu kimi müharibənin ardınca gətirdiyi bəlalar çeşidi yazıçının əsərlərindən başlıca xətt kimi keçir.

“Kütlə” romanı 1980-ci illərin sonlarında alovlanan Meydan hərəkatına həsr edilən əsərdir. Meydanlara axışan xalq, tribunalarda xalqı mübarizəyə, azadlığı uğrunda mücadiləyə səsləyən ziyalılar, eyni zamanda, bu ağır gündə, insanların ərzaq məhsullarının çoxunu talonla aldığı bir zamanda yuxarı eşalonda çalışan partiya işlərinin firavan yaşayışı və s. bu kimi məsələlər əsərdə geniş əksini tapıb. Ad məsələsində həssas olan Sabir Əhmədlinin romanını “Kütlə” adlandırmasını təsadüfi saymırıq. Burada bir amal uğrunda küçələrə axışan insanların yumruq kimi birliyi ilə bahəm, onların fərqli ambisiyalar, ideologiya və dünyagörüş nəticəsində kütlə olaraq qalması da nəzərdə tutulur. Yazıçı eyni zamanda Meydanı yalnız görünən qüvvələrin deyil, həm də “görünməz dalğa”nın idarə etdiyini anladır.

Sabir Əhmədli hələ yenicə haqq səsini qaldırmağa çalışan xalqın toplandığı Meydanı bütün detalları ilə təsvirə çalışır, insanların psixologiyasının qatlarını açır, qınaq və ittihamlar, üsyana hazır olmamağın fəsadları, düşüncədəki natamamlıqları təsvir edir. Bəzən bu təsvirlərdə qarışıqlıq hakim olur, sanki Kütlə ab-havası əsərin daxilində də yaşanır. Bu da ondan irəli gəlir ki, müəllif o dövrə dair müşahidə etdiyi bütün nəsnələri mətnə hopdurmağa çalışır, qarışıq üslub, dolaşıq dialoqlarla yüklənən əsərdə bəzi yerlərdə nəzərə çarpan çaparaqlıq, cilalanmamış fikirlərin təqdimi xaotik bir dalğa yaradır. Buna baxmayaraq, “Kütlə” romanı xalqın üzləşdiyi problemləri incəliklərinə qədər əhatələyib içinə almaq baxımından tarixilik nöqteyi-nəzərindən dəyərli nümunədir.

“Kütlə” romanında tarixi qata nüfuz müasir proseslərlə qoşa verilir. Müəllif bu xətti əsərdə Adaş müəllim obrazı vasitəsilə əyaniləşdirir. Nəşriyyat işçisi, azadlıq hərəkatının alovlu iştirakçısı, xalqın hürriyyətini ürəkdən arzulayan Adaş müəllimi yazıçının prototipi, avtobioqrafik obraz kimi də qəbul etmək olar. Hadisələrə soyuqqanlı tərzdə yanaşan Adaş müəllim baş verənlərə tarixin ibrət məqamla-

rından nəzər yetirir, keçmiş olaylara ekskurs edir, fikirlərini ya özü, ya da Asif, Qulamla paylaşır. Ermənilərin zaman-zaman xalqımızın başına açdığı oyunlardan, torpaqlarımızı işğal etməsindən, törətdiyi vəhşiliklərdən, ötən əsrin əvvəllərində zülmü ərşə dayanan işgəncələrin vüsətindən bəhs edir, 1915-ci ildə Türkiyəyə qarşı xəyanətlərini, ziyalılarımıza qarşı riyakar və bədnam əməllərini xatırladır. Müəllif Adaş müəllim, Asif və Qulam obrazlarında proseslərə daha ayıq, daha analitik münasibət izhar edə bilir.

Sabir Əhmədlinin 1990-1991-ci illərdə yazdığı “Yanvar hekayələri” bizim nəsrdə 20 Yanvar faciəsinə həsr olunan hələlik ən sanballı bədii nümunədir. Bu hekayələr kitabında həmin hadisə ilə bağlı bütün mənzərə bədii rakursdan məharətlə işlənib. Öz azadlığı naminə meydanlara axışan xalq, silahsız xalqa hücum edən sovet ordusu, qana boğulan insanların fəryadı hekayələrin əsas təsvir predmetini təşkil edir. Sabir Əhmədli bu hekayələrdə insan hisslərini, ondakı vətənpərvərlik duyğularını, yurdu üçün əzmlə mücadilə etməsini psixoloji nüans dəqiqliyi ilə ifadə etməyə çalışır. Eyni zamanda, rus imperialist siyasətinin obrazı, bir xalq olaraq dəfələrlə aldanışlarla üz-üzə qalmağımız kimi məsələlər də hekayələrin içindən əsas xətt olaraq keçir. Qeyd edək ki, kitabda yer alan “Dənizdən gələn səda” hekayəsi ABŞ-da da yayımlanmışdır. Hekayədə 20 Yanvar faciəsi ilə bağlı məqamlara, gizlin qatlara varılır ki, məsələn, meyitlərin dənizə atılması, yandırılması, ölülərə edilən işgəncələr, izi itirmək üçün onları sulara qərq etməklə bağlı faktlar və s., - onların həqiqətə əsaslandığı çox keçmədən etiraf olundu.

“Dənizdən gələn səda” hekayəsi “son mənzili Xəzər olan” oğlanın, beş bacının tək qardaşının nisgilli, nakam taleyinə həsr olunub. Rusların hücumu ilə 20 Yanvarda həlak olaraq neftdaşıyan gəmidə ölüsünə belə işgəncələr verilən, Dərbənd sularına atılıb suitilərə yem edilən bu oğlandan təsəlli olaraq geridə qalan anasına yazdığı məktubdur. Yazıçı o məktubdakı sözləri ümumən 20 Yanvar hadisələrində itkin düşənlərin son xatirəsi kimi əbədiləşdirir. O kəslər ki, onlara heç Şəhidlər Xiyabanında dəfn olunmaq belə qismət olmadı.

Amerikalı ədəbiyyatşünas, Azərbaycan ədəbiyyatı üzrə mütəxəssis Betty Blair hələ 1990-cı illərin əvvəlində ingilis dilinə tərcümə edərək "Azerbaijan International" dərgisində nəşr etdirdiyi bu hekayəni belə təqdim edirdi: "Sabir Əhmədlinin üslubu sürreal hesab oluna bilər. "Dənizdən səda" hekayəsində xaotik gecədə öldürülmüş bir oğul anasına məktub dilində ölümünü və ölüsünü təsvir edir. Bu müddətdə dəniz cəsədi kənara atıb, suitilər cəsədlə çarpışır".

Müəllifin həmin silsilədən çap olunan "Cəza”, “İşığı söndürmə”, “Şəhidlər Xiyabanı”, “Qisas”, “Heç nə” hekayələri də şəhid ata və anaların harayını, emosional baxışlarını, övlad itkisinin onlara hansı psixoloji zərbə vurduğunu, erməni quldurlarının bədnam əməllərini, xalqımıza olan mənfur niyyətlərini meydana qoyur.

“Kütlə” və “Yanvar hekayələri” Sabir Əhmədlinin yazıçı, vətəndaş olaraq xalq, millət qarşısında mənəvi cavabdehlik hissindən hasilə gələn əsərlərdir. Ölkənin çətin günündə baş verənlərə tarixi qiymətin verilməsində, onun taleyüklü məsələlərinin ədəbiyyata gətirilməsində bu əsərlərin müstəsna rolu oldu.

Qarabağ məsələsi Sabir Əhmədlinin bioqrafiyasında izini dərin qoymuş, yazıçının müharibə faktoruna çağdaşlarından daha həssas yanaşmasına, mövzunu davamlı təsvir predmetinə çevirməsinə səbəb olmuşdur. Hələ “Ədəbiyyat qəzeti”nin 1993-cü il mart-aprel aylarında “Qarabağın qarlı səngərləri” adlı publisistik yazısında yazıçı Füzuli və Cəbrayıl bölgəsində apardığı müşahidələrini oxucularla bölüşərkən cəbhədə rastlaşdığı bütün reallıqları təfərrüatı ilə nəql etmiş, erməni qüvvələrinin dinc əhaliyə tutduqları divanları, onların yaşadıqları ərazilərə qəfil basqın etmələrini, əliyalın insanların

çarəsizliyini, eyni zamanda, belə ağır günlərdə arxa cəbhədə aparılan oyunları, vəzifə hərisliyi, dəstəbazlıq, ön cəbhədəkilərin vəziyyətinə biganəlikləri və digər bu kimi amansız gerçəkləri sərt formada sərgiləmişdir. Sonrakı illərdə müharibə mövzusu yazıçının yaradıcılığında daha çox o kontekstdən işlənmişdir ki, dünyanı idrak, özünü dərk, son problematikası, heçlik duyğusu önə keçmiş, iş yaşantıları, mənəvi iztirabları ancaq bu məqsədin ifadəsinə yönəlmişdir: “Məni ölüm düşündürür”!

Ölüm haqqında düşünmək üçün Sabir Əhmədlinin böyük ağrıları vardı. Qardaşını Böyük Vətən müharibəsində itirən yazıçı 1994-cü ildə Qarabağ uyrunda aparılan savaşda oğlu Məhəmmədi də itirmişdir. Bütün bu iztirablar yazıçının “Axirət sevdası”, “Kef” və “Ömür urası” romanlarında əksini tapmışdır.

Bu üç əsəri ilk trilogiya adlandıran və “Qarabağ müharibəsi mövzusu ümumən ədəbiyyatımıza bu trilogiya ilə girir”, - yazan ədəbiyyatşünas tənqidçi Tehran Əlişanoğlunun “Sabir Əhmədlinin Qarabağ trilogiyası” adlı məqaləsində oxuyuruq: “Axirət sevdası” üç romandan ibarət trilogiyadır; əgər eyni adlı birinci romanda Müharibə ilə üz-üzə İnsanın Əbədiyyət axtarışları (ruhi varlığı) predmet seçilmişsə, "Kef”də müharibə şəraitində İnsanın başlıca olaraq nəfsi - cismani yaşamları hədəfdədirsə, "Ömür urası”nda yazıçının diqqəti bu dəfə İnsanın mənəvi siması, "yer sakini”nin məğzi-mənası, Yer ölçüləri üzərindədir”.

“Axirət sevdası” və “Ömür urası”nda tale, ölüm, ruhun fəlsəfəsi, fanilik və əbədiyyət haqqındakı düşüncələr aparıcıdır. İtirdiyi torpağı, ocağı ilə bağlı narahatlığını yanıqlı bir dillə qələmə alan yazıçı qəfil intonasiyanı, ritmi dəyişir və hadisələrin obyektivi müəllifin mənəvi yaşantılarının dərin qatına fokuslanır. “Məni ölüm düşündürür”! Bundan sonra daha çox fəlsəfi mündəricə önə keçir. Bu fəlsəfi düşüncə ilə yüklənmiş obraz yazıçının özüdür. Sabir Əhmədlinin yazıçı, vətəndaş, ata kimi duyğularını danışdırdığı əsərdir “Axirət sevdası”. Roman boyu qəhrəmanın – özünün daxili nitqi, şüur axını, irəli-geri zaman dönümlərinə sıçrayışları, oğlu Məhəmmədin itkisi ilə bağlı yaşadığı dərin psixoloji-hissi sarsıntıları o qədər dərin işlənir ki, oxucu yazıçının şəxsi kədər və iztirabının fonunda bütöv vətənin yaralarını, portretini görür.

“Axirət sevdası” romanındakı əsas surət yazıçının oğlu Məhəmməd olsa da o, romana təhkiyəçinin xatirələri, düşüncələri, yaddaş qəlpələri əsnasında adlayır. Təhkiyəçi isə yazıçının özüdür. Oxucu yazıçının seçdiyi belə bir bədii üsul vasitəsilə müharibə və onun acı reallıqları, oğlu Məhəmmədin ön cəbhəyə könüllü qoşulması, az sonra şəhid olma faktı ilə tanış olur.

Oğlunun ardınca cəbhə bölgəsinə yollanan ata onu Beyləqanda, Goranda, Gəncədə, Murovda axtarmalı olur. Ordan Gəncəyə, dostunun evinə qayıdır. Bu zaman ona Məhəmmədin yaralanması xəbərini verirlər və o, dərhal Bakıya üz tutur. Və... Evə daxil olunca oğlunun hüzür məclisi ilə qarşılaşır:

“Orta - böyük otaqda çəhrayı ipək örtük salınmış cənazə qoyulmuş, anası başdan oturmuş, xalaları, qonum-qonşu cənazə dövrəsində halay qurub əyləşmişdilər.

-Y O X! Yox! Yox… Ola bilməz. İnanmaram! Məhəmməd, balam mənim! İnanmaram! - cənazənin ayağında çöküb, dizin-dizin onun üstünə can atdım.

- Açın üzünü! Götürün örtüyü! Mən onu görmək istəyirəm!.. Mən səni haralarda axtardım, balam?! Gəlibmişsən, özün gəlibmişsən! Məndən qabaq gəlib çıxmısan evimizə”.

Bu kiçik parçada müharibə məşəqqətlərini, onun insan həyatına qatdığı acıları dərk etmək üçün hər şey var. Oğul itirən atanın ağrıları, canını vətən üçün könüllü sipər edən oğullarımızın nakam taleyi, insan həyəcanlarının ekstaz biçimdə təqdimi və bütün bu mənəvi yaşantıların sonda insan psixologiyasına vurduğu zərbələr. Bu mənada “Axirət sevdası” əsərinin əsas leytmotivini təşkil edən fanilik

və əbədiyyət haqqında düşüncələr heç nahaq deyil. Əlbəttə, əsərin içinə aldığı çox problem, çox mənzərə var. Müharibə ritmi əsərin hər səhifəsində duyulur. Düzdür, müəllif savaş səhnələri canlandırmır, buna baxmayaraq, yazıçının həm arxa, həm də ön cəbhədə görüb şahid olduğu reallıqlar, əsgərlərimizin orduda vəziyyətlərinin qənaətbəxş olmaması, silahsızlığı, əyin-başlarının nazikliyi, belə bir çətin durumda, onların ölüm-qalım savaşında canları ilə əlləşdikləri bir zamanda rəhbər işçilərin biganəliyi, müxtəlif rayonların icra başçılarının toy-büsat qurmaları, öz eyş-işrətlərindən qalmamaları haqqında təhkiyəçi yol boyu düşünür, ağrıyır.

"Kef" romanında yazıçının toxunduğu problemlər çoxyönlüdür. Bir yazıçının ailəsindən başlanan hekayət az sonra ictimai sferaya adlayır. Əsərin mövzusunu ölkəmizdə gedən ictimai-siyasi proseslər, ərazi bütövlüyü uğrunda çarpışmalar, milli müstəqilliyimizin bərpa olunması, qaçqınların öz doğma ocaqlarına qayıtması, savaş ruhunun dirçəldilməsi, müharibənin fəsadlarının aradan qaldırılması kimi məsələlər təşkil edir. Romanla bağlı bir müsahibəsində yazıçı deyirdi: "Baş verənləri mürəkkəb bir axın şəklində görmək lazımdır. Ən ağıllı və fərasətli adam odur ki, bu axında cəmiyyəti hansı xəttin səciyyələndirdiyini ayırd etməyi bacarıb, öz işlərini o istiqamətdə qurur. Sənət adamları, məsələn, yazıçılar da dövləti idarə edən, onun siyasətini müəyyənləşdirən adamlardan köməklərini əsirgəməməlidirlər".

Nəhayət, yazıçının sağlığında çap olunan "Ömür urası" romanı. Bu məqama diqqət edək: son kitab "Axirət sevdası" (2003), son əsər isə "Ömür urası" (2000-2001)!

"Ömür urası" Sabir Əhmədlinin həyat, ruhlar aləmi, iki dünya ilə bağlı narahat düşüncələrinin mətnləşdiyi son ünvandır. Bu həm də yazıçının özünün gəlib çatdığı, nəfəs dərdiyi son duracaqdır - ömür urasıdır. Necə ki, əsərin əvvəlində yazır: "Bağlar sovulanda yığılan bara el arasında "peşxudr" deyirlər. Biçilmiş zəmidən düşən tək-tük sünbül "başaq" adlanır. Bostan, dirrikdən qalma son məhsulsa "ura"dır. Məsəl var: "Gedər bostan urası, qalar üzün qarası." İnsan ömrünün sovulan çağına da "ura" söyləmək olar. Oxuculara çatdırılan bu romansa yazıçı ömrünün son yetirməsi – "ura"dır. Bundan sonra nə yazsa, həmin ad altında gedəcək".

Bu əsər də Qarabağ mövzusuna həsr olunub. Yazıçı son günlərinə qədər itki ilə barışa bilmir: qardaş, oğul, dost, torpaq itkisinin hər biri yazıçının qəlbində izini qoyur. "Yeddi il keçmişdi. Günə çevir bu yeddi ili, gör neçə gecə-gündüz eləyir. Onun hər anı ürək ağrısı, af-ufla doluydu", - yazır əsərində. Burada da müharibənin insan psixologiyasına vurduğu zərbələr, şəhərə gəlib yurdunun talanmasına biganələşən qaçqınlar, paytaxtda şəhər evlərinə yerləşib doğma ocaqları üçün tərpəniş göstərməyən insanlar, düşmən əməllərinin önündə unutqanlığımız əsas qınaq predmeti olur. Amma əsər büsbütün bu motivlər üzərində qurulmayıb. "Ömür urası" Sabir Əhmədlinin xəyallar aləminə virtual səyahətidir. Savaş bitmiş, Qarabağ azad olmuş, itirdiyimiz torpaqlar geri alınmış, qaçqınlar öz yurdlarına qayıtmışlar. Əsər Sabir Əhmədlinin həm xəyalının, həm də gələcək arzularının təsviri, sabaha nikbin baxışı ilə qapanır.

Yazıçı Həmid Herisçinin fikrinə görə, "Bakı-Mincivan qatarı"nda Cəbrayıla gedib çıxan tənha müəllim obrazı Sabir Əhmədlinin özüdü". Yol boyu trilogiyanın qəhrəmanı olan Kişi bir zaman müəllim işlədiyi yurdunun kənd-kənd, oba-oba sorağına çıxır. Ermənilərlə qonşuluqda yaşamalarını xatırlayır, işğala az qalmış tikdirdiyi evin izi ilə az qala hər dağın, daşın əvvəlki biçimini axtarır. Reallıqsa danılmazdır. Ermənilərin kənddə dağıtmadığı, viran qoymadığı heç nə qalmayıb. Evlər, muzeylər, tarixi abidələr, heykəllər, qəbirlər xarabazara çevrilib. Sabir Əhmədli sovet dövründə yanaşı, dinc şəraitdə birlikdə yaşadığımız erməni məsələ-

sinə həssaslıqla yanaşır. Qeyd edək ki, yazıçı hələ 1984-cü ildə nəşr olunan “Göy gümbəz” kitabındakı “Qəribə səyyahlar” (1973) adlı hekayəsində “Qara limanı”, “Madğa” kimi sözlərlə Qarabağla bağlı müəyyən işarələr etmişdir. Bu artıq Sabir Əhmədli fəhminin gücü idi. İndi budur, illər ötmüş, “deyilənlər başa gəlmiş”dir. Yazıçı isə heç vəchlə olanlarla barışa bilmir: "Türk görəndə əsim-əsim əsən erməni gör bizi doğma yurddan necə qaçırtmış, yurd-yesir etmişdi: "Ara musurman! Yeddi ermənini bir dərədə tək görmüsən?” deyib də ələ saldığımız, sarıdığımız erməni başımıza nə müsibətlər gətirdi! Qorxaq, quşürək sandığımız dığalar, haylar tarix boyu nə qədər uduzmuşdular, nə ki hayıfları vardı bizdə, hamısını aldılar”...

Sabir Əhmədli qələminin həqiqətləri boyasız təqdim etmək səriştəsi burda da işə düşür. Yazıçı ittihamına tuş gələn yalnız erməni vəhşiliklərinin hüdudsuzluğu olmur, həm də ermənilər gəlməmiş boşalmış yurdda mahaldakı evlərin talan olması faktı mətnə gətirilir. Eyni zamanda, müharibə yaşanan bir dövrdə hökm sürən disharmoniya, ölkənin iki qütbündə ayrı atmosferin mövcudluğu, torpağı qorumaq əzmində birlik yarada bilməməyimiz, insanları düşmən önündə tərksilah, əliyalın buraxılması, üstəlik, müxtəlif dünya birliklərinin bu haqsızlığa göz yumması, erməni ilə olan iş birlikləri Kişinin düşüncələrindən keçən fikirlər qismində qərarlaşır: "Dünya ermənilərin mənafeyini güdür, bütün xaçpərəst aləmi, Avropa, Amerikada sakinləşmiş erməni diasporu onlara yardım edir, havadarlıq göstərirdi. Bizimkilərsə iqtidar-müxalifət cəbhəsinə bölünüb, bir-biriylə çəkişir, öcəşir, bitib-tükənməz didişmədən qurtarıb, Qarabağın azadlığından ötrü iş görə bilmirdilər”...

Romanda son səhnədə yurduna qayıtmış Kişi burada ilk xalçaçı qızlarla rastlaşır. Bu həm də yurda bağlı olmağın təkrarsız milli çalarda ifadəsidir. Məhz xalça toxuyan qızların yurda ilk sahib çıxması! Amma onlar həm də Kişinin şəhid olmuş oğlunun arzularının şahidləridir: “Kişi hal-əhval tutdu. Xalça Birliyinin başına nə gəldiyini soruşdu.

Qızın baxışları taxtapuşu sökülmüş alt-üst evin üst qatına dolandı. Pəncərələri çıxarılmış otağın önündə, eyvanın tavanına dikildi. O, köks ötürüb dedi:

- Sizin oğlunuzun başına gələni də eşitdik... Murovda şəhid olub...

Qızı qəhər boğdu, kişi dilləndi:

- O, yayda buraya gəlir, evin işinə əl tuturdu.

Qız üst qatı, eyvanın tavanını göstərdi:

- Oranı rəngləyirdi. İşdən gedəndə görmüşdük. Anası çağırırdı: "Ehtiyatlı ol, yıxılarsan!” Bibisinin, sizin bacınızın toxumçuluq idarəsinə də baş çəkirdi... Bibisinə deyibmiş: "Mən xalçatoxuyan qız alacam!”

Kişi kəsik ağacların dibinə axan suya baxdı, dilləndi:

- Hər şey yerini alacaq. Dağılmış şəhərlər, kəndlər yenidən qurulacaq, əzəlkindən də abad olacaq. Qaçqın-köçkün yurda qayıdacaq. Bircə şəhidlər qayıtmayacaq. Onlar biryolluq köçüblər.

Xalçaçı qız üst qatdan gözünü yığıb, müəllimlə sağollaşıb, düzəldi yola.” (Sabir Əhmədov. Axirət sevdası. Bakı: Ozan, 2003, s. 308).

"Ömür urası” Avropa standartlı bir romandır, ... qaldırdığı yükün çəkisinə görə burda biz bəlkə bir onda çaşa bilərik ki, romanı Nobel mükafatçısı yox, Sabir Əhmədli yazmışdır. "Ömür urası”nda yazıçı lokal yozumları, yalançı pozaları qıraraq etnoqrafik, məişət, mənəviyyat, vətəndaşlıq, millət və ümumən insanlıq sırasından hadisələri və ziddiyyətləri ustalıqla bəşəri məzmuna yığa bilmiş; aya, olmadı elə, oldu belə, kiminsə yanında gözüqıpıq görünməyimizdən qorxmamışdır. Romanın uğuru məhz ondadır ki, burda vətən hissi, vətənə, Vətən torpağına bağlılıq fərdi məzmununda qavranılır. Kişinin yurdla təması o qədər ibtidai və eyni zamanda düşüncəli, sivilizasiondur ki, istəsə də üçüncü bir kəsin bura girməyə yeri yoxdur...” (Tehran Əlişanoğlu).

Yazıçının ölümündən sonra işıq üzü görən, 80 illik yubileyinə həsr edilən "Yazılmayan yazı" müəllifin ən iri həcmli romanı kimi avtobioqrafik səciyyə daşıyır. Romanda müəllifin dünyaya göz açdığı Cəbrayıl rayonunun tarixi ilə bağlı faktlar, məktəb və tələbəlik illəri ilə bağlı xatirələri, Bakıya gəlişi, müəllim kimi rayonda çalışması, ədəbi mühitlə münasibətləri, Cənub mövzusu, çox sevdiyi Ziyarat dağı, “onun hər iki yanından Araza doğru uzanan qollar”, Qarabağ silsiləsi haqqında məlumat, nəsil şəcərəsi, ailə üzvləri, 20 yaşında müharibədə həlak olmuş qardaşı Cəmil Əhmədovun məzarını “Qardaşlıq qəbiristanlığı”ndan tapması və başqa bu kimi tərcümeyi-halının bir çox səhifələri əbədiləşib.

**Yolun sonu.** Sabir Əhmədli qəribə taleli yazıçı oldu. Qardaşı Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun qəbri Polşada qardaşlıq məzarındadır. Atası, anası, nəsil-şəcərəsinin əksər üzvləri Cəbrayılın dağılmış, gülləbaran edilmiş məzarlığında. Şəhid olan oğlu, Milli qəhrəmanımız Məhəmməd Əhmədov 2-ci Fəxri Xiyabanda dəfn olunub. Özünün qəbri isə Binəqədi qəbiristanlığında.

Sabir Əhmədovun 79 ilə sığmış ömrü çox əzizlərinin itkisini sığdırdı özünə. Amma ən böyük dağı iki böyük dəyərini itirəndə yaşadı. Oğlu Məhəmmədi, ondan əvvəl isə qardaşı Cəmil Əhmədovu.

Qardaşına olan sevgisi Sabir Əhmədlini həyatının sonuna qədər müşayiət eləyib. Bütün əsərlərindən keçən irili-xırdalı hansısa cizgi, hansısa motiv bu sevgini duyub tanımağa imkan verir. “Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov” adlı kitabında, “Dünyanın arşını” romanında, «Biz yenə görüşəcəyik» adlı sənədli povestində, sonuncu əsəri olan “Ömür urası”nda, ölümündən sonra çap olunan “Yazılmayan yazı” romanında və s.

“Dünyanın arşını” romanında belə bir məqam diqqətimi çəkdi. Burada təbii ki, söhbət başqa məsələdən gedir, əsərdəki obrazlar, situasiya tam fərqlidir. Amma o yerdə ki, insan duyğularının həzinliyi dil açıb danışır, o zaman Sabir Əhmədli sözü öz yaşantılarına verir. Çünki yaşadığı, içində dərd kimi böyütdüyü o ağrının çəkisi çox böyükdür: “Dərd, fikir çəkməyə qalsa, o, hamıdan artıq əzab çəkir. Çoxunun yastığa baş atıb rahat yatdığı gecələri o, diri gözlə açır... Bu halında, bu görünüşündə o nə isə, kimdisə Arifin nəzərində qardaş və insan dediyi, həyatına, xasiyyətinə bəlkə hamıdan dərin bələd olduğu, dünyada hər kəsdən, hamıdan artıq sevdiyi qardaşının özü idi. Hansı dəruni çevrilişdənsə düşdüyü bu həqiqi halında o – Rəhmanın özü, Arifin təsəvvüründəki bütün rəhmanlardan ən yüksəyi, ən doğması və ən böyüyü idi”.

Digər romanı - “Yazılmayan yazı”da Sabir Əhmədli 1941-1945-ci illərdə baş verən müharibədən daha geniş söz açır, həmin illərdə insanların psixologiyalarına döyüş ruhunun, savaş əzminin, təəssübkeşlik duyğusunun daha çox sirayət etdiyini bildirir. Cəmil Əhmədovun döyüşdə göstərdiyi hünərdən bəhs edir, o ağır günlərdə qardaşının ölüm xəbərini eşitdiklərində hansı yaşantılara məruz qaldıqlarından yazır: “O zaman, 45-ci ilin martında Cəmilin döyüşdüyü vaxt artıq bizə 6 aydan artıq məktub gəlmirdi. Anası Tavadı ovundururduq: “Sağdır, yaralanıb gələcək”. Özümüz də bir az inanırdıq. Ağlımıza gəlirdi, bəlkə belədir”.

Yaxud son əsəri olan “Ömür urası”ndakı bir həssas məqama diqqət edək. “Ömür urası”nda qəhrəman xəyalən işğal altında olan yurduna dönür, müharibə bitib, insanlar topraqlarına geri qayıdıblar və doğma elinin həsrəti ilə yaşayan Kişi – müəllim daha çox qardaşının, Cəbrayılda, rayonun mərkəzində ucalan Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun abidəsini görməyə tələsir, hətta buna görə özünü qınayır da: "Bir nanəcib onun nigaranlığı qabağında, üzə olmasa da, dalda söylərdi: Bunca millət məhv olub gedir. Bu da dirinin halına ağlamaqdansa, ölüyə yanır”... Amma gözlədiyinin əksi ilə rastlaşır, Qarabağdakı bütün abidələri, heykəlləri güllələyən, məhv edən ermənilər nədənsə Cəmil

Əhmədovun heykəlinə toxunmayıbmış. Romanın qəhrəmanı yurduna dönərkən heykəli öz yerində sağ-salamat görür: "Qardaşının heykəli yuxarı meydan – Bazarbaşında sağ-salamat, yerində idi. Həmin ucalıqda dayanırdı".

Bu, Kişinin xəyalında qurduğu bir dönüş təşnəsi, qardaşı ilə görüş məqamı idi. Amma xəyalında belə Sabir Əhmədli qardaşının heykəlinin uçulub dağılmasını təsəvvür edə bilmirdi. Heç olmasa burda diri, bütöv yaşatmaq istəyirdi onu: "Yeddi ildi özümüzünkülər burada yoxdular. Qaçqın düşmüşdülər, doğma yurdda bircə həyan – yerli qalmamışdı. Bəs bu güllərə kim baxmış, kim onları suvarıb, yanmağa qoymamışdı. Heykəlin bağçasındakı kollar gül açmış, həndəvərdəki ağaclar böyümüşdü"...

Əlbəttə, əsərdə düşmənin bu mövqeyini motivləndirən səbəblər sadalanır. Qəhrəmanın gümanı min yerə gedir, hansısa formada inandırmağa çalışır özünü. Bu bəlkə də əsərin sonunda ifadə olunmuş acı reallığın öldürücü təsirindən bir az ovunmaq üçün yazıçının özünü inandırdığı aldanış idi: "Hər şey yerini alacaq. Dağılmış şəhərlər, kəndlər yenidən qurulacaq, əzəlkindən də abad olacaq. Qaçqın-köçkün yurda qayıdacaq. Bircə şəhidlər qayıtmayacaq. Onlar biryolluq köçüblər".

Sabir Əhmədli bütün yaradıcılığı boyu kişilik dəyərlərinin xilası, onun qorunması üçün çalışdı. Bütün əsərlərində yanğılı bir dillə köhnə adət-ənənələrin, ailə kultunun, yurd sevgisinin itirilməsindən, cılızlaşmasından, yoxa çıxmaq təhlükəsindən bəhs etdi, haray çəkdi. Onun qardaş itkisinə həssaslığının mahiyyətində dayanan amil həm də bu idi. Ona görə hər kişi bir evin yanan çırağıdır, dünyanın əyilən arşınını öz kişi ötkəmliyi, prinsipləri ilə nizama salandır, heç vaxt yaşanmayan, vaxtı gəlməyəcək "ura"ların səbəbidir.

Sabir Əhmədli öz ömründə bir neçə həyatı yaşayırdı. Nigaranlığı bir az da bu üzdən ola bilərdi. Yarımçıq qalmış talelər onda bütünləşir, var olurdular. Belə bir hiss həm də hər addımda ölümün hənirini duymaq, onunla iç-içə olmaq əzabı yaşadır insana. Təsadüfi deyil ki, Sabir Əhmədli son romanında ölüm mövzusuna, metafizik başlanğıca qayıtdı. Bu, bəlkə də gəncliyində aldığı ölüm zərbəsinin – qardaş itkisinin sonda yenidən yazıçı ruhunda dirilişi idi. Tənqidçi Südabə Ağabalayevanın 1999-cu ildə yazdığı "Bu ömür deyilən bir kiçik möhnət" məqaləsində yazıçının ibrətli həyat yoluna aydın, dəqiq vurulmuş naxışlar yer alıb: "Yazıçı Sabir Əhmədli çox yollara yolçu olub, çox yerləri gəzib, amma onun ömründə getdiyi iki yol var ki... Yolların biri Sabir Əhmədli qardaşı – Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun adına Polşa torpağına gedib. Şimali Qafqazdan Polşayadək vuruşub, Cəbrayıla heykəl olub «qayıdan» qardaşının qəbrini ziyarət edib.

Beş il əvvəl Sabir müəllim bir də yola çıxdı. Məhəmmədi görməyə getdiyi yol labirint oldu, oğlunu soraqladığı yollar səmtini Bakıya yönəltdi... Və Yasamaldakı evin həyətində qurulmuş yas mağarında bitdi... Burada Sabir müəllimin yolçuluğu başa çatdı. Bu yolun sonunda Sabir müəllimi Şəhid Atası adı gözləyirdi".

Ölümün də, ağrının da, həyatın da hər üzünü, hər çeşidini görmüş bir "ömür urasından" gedir söhbət. 14 yaşında fiziki əzabına qatlandığı ölüm dəhşətini qocalığında "axirət sevdası" şəklində yaşamalı oldu Sabir Əhmədli. Tale, ölüm, ruhun fəlsəfəsi, fanilik və əbədiyyət haqqında düşüncələrin ağırlığı ilə içindəki özünüdərk prosesi bütövləşdi, ölümdən qorxmağı deyil, onu sevməyi təlqin etdi bizlərə. Və məncə, buna ona görə nail oldu ki, bütün həyatı boyu onu incidən yaralarından qaçmadı, ona sığınıb ömür sürdü, ağrısının üstünü daha bərk basaraq yaşamağa çalışdı. Niyə də qaçaydı? Axı vətən uğrunda can qoymuş qəhrəman oğulların qardaşı, atası olaraq yaşamaq hər insana nəsib olan xoşbəxtlik deyildi...

***Elnarə AKİMOVA***

# Rübail: şeirin və ömrün dörd fəsli



Rübail müəllimlə Gəncədə iki, ya üç görüşümüz olub. Səhv etmirəmsə, ilk dəfə yay günlərinin birində, Xan bağında görüşmüşük. Əziz şair qardaşlarım İnqilab İsaq və Sahib İbrahimli də bu unudulmaz "məclisi-üns"ün iştirakçıları idilər. Sonra şəhər kənarında, Kəpəzlə qabaq-qənşər, bir bağçada oturub söhbətləşmişik. İndi isə Rübail müəllimin artıq ilğıma dönmüş obrazı və şeirlərindəki fikrinin səsi ilə baş-başa qalmışam...

Rübail müəllim təpədən-dırnağa klassik Gəncə ziyalısı, Gəncə sevdalısı idi. Kübar oturuşu-duruşu, danışığı ilə "şəhər şairi" idi. Gəncə Azərbaycan poetik sisteminin vacib kodlarından biri, irfan simvoludur. Mənim sadəlövh fəhmimə görə, Azərbaycan şəhərləri arasında Gəncə elə mistik, simvolik qüvvəyə malikdir ki, kənddən gələn istənilən şairi bir müddətdən sonra "şəhərli" edir... Hələ onda söz-söhbətimizdən anlamışdım ki, Rübail müəllim öz şeirlərinə, o şeirlərdəki həqiqətə çox inanır və özünün inandığı bəlli bir estetik hadisə var. Bu estetik hadisə onun öz ömrü idi.

Ömür – Rübail poeik dünyasının baş qəhrəmanıdır və əsas yaşantı hadisəsidir. Ömrü anlamaq zərurəti şairi müdrik edir. Ömür haqqında bilgilərini və duyğularını dörd misralıq hikmətə sığışdırdı. Bütün ritorik sualları və nidaları ömürlə bağlıdır. Böyük alman filosofu M.Haydegger şairliyi "ölçmək" feilinin məna çevrəsi ilə əlaqələndirirdi. Və şairin özündən başqa kimsə onun ömrünü dürüst ölçə bilməz. Bu mənada Rübail müəllimin dürüstlüyünə söz ola bilməz.

Rübail öz halal mövzusu, öz baxış bucağı və məna fokusu olan şairlərimizdən biridir. Sözünün hikmət-ibrət dünyasına gətirdiyi hər bir mətləb, detal öz yaddaşının fraqmentləridir. Necə ki, təsadüfən hardansa gəlib alnının qırışında azmış bir qarışqa da onun düşüncəsini hərəkətə gətirirdi:

***Əl vura bilmirəm qarışqaya,***
***Ovcumda tale yazım var.***
***Oxuyub dəli ola bilər;***
***Dərdim ona da bəlli ola bilər.***

Eləcə də qatarların yola düşməsi, yaxud gecikməsi ilə bağlı vağzalda məlumat bürosunun xəbəri "metafizik mənalar" sırasına daxil edilirdi.

***Şirin yuxu mürgülərlə xallanır,***
***Sərnişinlər vədələrlə aldanır,***

***Bəlkə kimsə son səfərə yollanır,***
***Bizim qatar nə vaxt yola düşəcək.***

Rübail müəllimin rübai kimi klassik poetik formaya ürəkdən bağlanması, düzü, məndə o zaman təəccübqarışıq heyrət doğurmuşdu. Hətta bir rübaisində bu misrası hələ də yadımda qalmışdır : "Durna uçur ulduzlardan tuta-tuta".

Janr instinkti şairin düşüncə tipi ilə, şəxsi xarakteri və özünüdərk hissi ilə bağlıdır. Rübai silsilələri ("Yol rübailəri", "Böyük yaşlı uşaqlar və ya kiçik yaşlı böyüklər üçün rübailər"i, "Fəlakətin rübailəri") göstərir ki, artıq bu şeir şəkli onun poetik təfəkkürünün məntiqini müəyyənləşdirmişdi.

***Bir ağac kömürü, bu da daş kömür,***
***Hazırdı yanmağa hər iki ömür.***
***Ağac yanmaq üçün bir dəfə yanıb,***
***Dağlar yanmaq üçün kömürə dönür.***

Rübail müəllim sözünün keyfiyyət əmsalını, fikrinin enerjisini sanki rübai kodunda anlayırdı. Bəlkə şairin bu formaya sevgisi öz adı ilə səsləşən (Rübail-rübai) assosiativ doğmalıqdan gəlirdi!..Ənənəvi şeir formalarında belə (qoşma, gəraylı, qəzəl), rübaiyə meyil edir. Bəzən ilk misrası, ilk və ya son bəndi səni rübai məntiqinə kökləyir.

***Qaraçılar at oğrayar, saç alar,***
***Üfülürsə qovuq qalxar, ucalar,***
***Xam üzgüçü uzaq üzər, qıc olar,***
***Bir deyən yox, dön geriyə bax, baxa.***

yaxud

***Başı pambıq kəsib, torpağı sular,***
***Daha yaxamızda qalmayıb tutar,***
***Yaxşı ki, bu günün sabahı da var,***
***Su ilə ayrılan sərhəd dayanmaz.***

Rübail fikir şairidir. Poetik dilinin aforizm damarı az qala istənilən şeirin məna məkanına rübai havası gətirirdi. Məsələn, "Cib" şeirinin əvvəlində müdrik həyat qənaətlərini təqdim edir:

***Əliaçıqların cibi çox,***
***Qəlbidaşlarınkı dərin olur.***
***Mərdlərin cibi isti.***

Rübail ömrün mənasını təzadların vəhdətində anlayırdı. Təbiət və həyat təzadları, ikili məna qarşıdurmaları ömrün miqyasını ölçmək üçün idi. Təzad yüklü başlıqlar ("Toxlar və yoxlar", "Tələsənlər – gecikənlər", "Görəsən, gedənlər qayıdacaqmı", "Start – finiş" və s.) yalnız şeirlərinin süjetindən gəlmirdi, həm də bu təzadlar içindən öz ömrünə boylana bilirdi.

***İlk öpüş varsa da son da olacaq,***
***Birisi buz olur, birisi ocaq.***
***İnsan bu dünyadan köçüb gedəndə***
***Kirpiklər son dəfə öpüşür ancaq.***

Şeirlərinin rəng qrafikası da bu təzad məntiqindən doğulurdu. Poetik rəng palitrasında "ağ" və "qara"ya üstünlük verirdi. "Ağ"dan "qara"ya, "qara"dan "ağ"a keçidləri epitet səviyyəsində yalnız üslubi göstərici kimi deyil, həm də iç dünyasının hadisəsi kimi qavrayırıq:

***Məzar üstə ağ daş olub***
***Anamın ağ kəlağayı.***

Məndən ötrü (bəlkə Rübail müəllimdən ötrü!) "Anamın ağ kəlağayı" şeirinin yeri ayrıdır. Şeirdə kəlağayı milli geyim-qiyafət mədəniyyətimizin simvolu kimi deyil, həm də bir ananın tale işarəsi kimi mənalandırılır.

***Atam öldü – uçdu qaya,***
***Hamı gəldi bu haraya.***
***Döndü qara kəlağaya***
***Anamın ağ kəlağayı.***

Hətta mahiyyətində “qara”nı ehtiva olunan nəsnələrdə, varlıqlarda, hadisələrdə belə “ağ”ı görmək istəyidir. Məsələn, “ağ kömür”, “ağ yuxu”, “ağ ilan”, “ağ zənci”... ifadələri şair Rübailin gördüyü və inandığı vəhdətin adıdır.

***Ağ dağın altı ağ kömür,***
***Ağ mərmərdi – bir ağ ömür...***

Güclü təzad məntiqi ağ yuxu ilə qaranlığı bir məna məcrasında birləşdirirdi.

***Gözümü yuman kimi***
***ağ yuxular görürəm,***
***qaranlıqda ağ yuxu...***

Rübail müəllimin qaraçılara həsr olunmuş şeiri (“Vətəni bütün dünya”) var. Deyərdim ki, Azərbaycan poeziyasında bu sirli, mistik etnik toplum haqqında ən gözəl poetik örnəklərdən biridir.

***Qaraçılar alnında tər***
***Dəmir zəncir düzəldə***
***nəyisə, kimisə***
***torpağa bağlamağa***
***Fəqət özlərinin***
***bilinməz yeri...***

“Qaraçı” adının etimologiyasında “qara” kodlaşıbdır və “Gecə” sözü ilə və “qaraçı”nın mahiyyətini bir misra hüdudunda göstərə bilir.

***Gecələr harda olsa,***
***qaraçıları tapar,***
***saçlarına hopar.***
***Qaraçılar yuxu görməz,***
***yuxu yozar.***
***Yuxuları sübhə kimi***
***tonqal odunda yanar.***

“Sual” sözü onun poetik lüğətində ən işlək sözlərdən biridir. Dünya ilə bağlı gileyləri, zəmanədən şikayətləri, ölüm - həyat, insan - cəmiyyət məsələləri bədii sualların təzad ovqatını müəyyən edirdi:

***Xoşbəxtlik – ölçüsü nə?***
***Bədbəxtlik – ölçüsü nə?***
***Mənim budur sualım***
***Allahın elçisinə.***

Ömrünün aşırımında geriyə baxıb görür ki, yağışlı günlərdə qoşa addımladığı küçəni bu gün tək gəzməli olur.

***Bir çətir altında qoşalaşardıq,***
***Tənha küçələri hey dolaşardıq.***
***Sevincli, kədərli ömür yaşardıq,***
***İndi çətir yoxdu, yağışlar yağır.***

Təzad instinkti ona nəvəsi Adəmə həsr etdiyi şeirdə həyatın mənasını dərk etmək duyğusu verir.

***Sən dərsə gedirsən hər gün qürurla,***
***Kənardan göz qoyub görürəm səni.***
***Mən dərsdən gəlirəm həmin cığırla,***
***Sayıram böyüyən ləpələrini.***

Etiraf edim, məni heyrətləndirən Rübailin son dərəcə zərif təbiət duyumu, peyzaj həssaslığıdır.

***Yosunlar boylanır çayın qaşından,***
***Yaşıllıq sallanır qaya başından,***
***Dağlar örpəyini açıb başından,***
***Subay ağacların başına örtür.***

Rübailin ömür yaddaşı sanki ilin dörd fəslinin xatirəsindən ibarətdir. Ömrün-günün dəyər-qiyməti bu mövsüm-peyzaj xatirələrindən bəlli olur. Mövsüm ovqatı şeirlərin ruhuna, psixoloji-məzmununa elə hopmuşdur ki, altında tarix yazılmasa da, şeirin hansı fəsildə yazıldığını bilmək olar:

***Ömür uzandıqca günlər gödəlir,***
***Qış yazdan borc alır, yay da payızdan.***
***Xəzəllə ağacın borcu ödənir,***
***Son yarpaq düşəcək yerə bir azdan.***

Aşıq Alının “Nə qaldı” rədifli məşhur qoşması üzərinə köklənmiş şeirində həmin həqiqəti bölüşür:

***Ömrün fəsilləri dönüb il oldu,***
***Tarixə düşməmiş il yaşa qaldı.***

Təbiət obyektlərinin (Göy göl, dəniz, dağ) canlı yaşamı “fəsil gözü” ilə müəyyən edilir.

***Sahilinə bürkü enər, səngiyər,***
***Sularında qış qızınar yay, çimər...***

Rübailin metaforik dili ayrıca bir araşdırmanın mövzusudur. Rübail ruhunun peyzaj xatirəsi dilin metaforik imkanlarını genişləndirirdi.

***Zülməti qurbanlıq qara qoç kimi***
***Sübhə qurban kəsir hər səhər külək.***
***Odur ki, şəfəqlər qızıl qan kimi***
***Axıb dan yerini boyayır, demək.***

Metafora dünyanı ən yığcam və lakonik yozma üslubudur. Şairin metafora potensialı ən gizli nöqtələri hiss etməyə imkan verir. Fəsillərin dəyişməsi onun içinə ömrün kədər havasını doldururdu.

***Görən nə var bu dağların dalında***
***Azan durna bəlkə yazı gözləyir.***
***Çəmən yatıb bizə qənşər yalında***
***Quzey yönü qardı, izi gözləyir.***

Yaxud

***Elqovanla köç üz tutdu arana,***
***Qara bulud qonaq gəldi torana,***
***Kösöv söndü, qurban oldu borana,***
***Ocaq yeri qaldı yolda göz dağı...***

Şeirlərinin məsamələrindəki qüssə hissi payızın gəlişi ilə bağlı olurdu. Rübail hər fəslin (xüsusən qışın, payızın) gəlişini sümüyü ilə duyurdu.

***Payız gəldi, küləklərlə uçdu yay,***
***Çulğaladı körpə ayaz yaylağı...***

Həyat - ölüm nöqtələri də ilin dörd fəsli ilə uzlaşdırılır, görüşü yazın, ayrılığı payızın ayağına yazır:

***Neçə dostu itiririk payızda,***
***Durnaları ötürürük payızda...***

yaxud

***Torpaqdan ot olub göyərib hər yaz***
***Çiçəklərdən, anam məni soruşur.***

Rübail müəllimin "Payız bülbülləri, yaz bülbülləri" adlı bir şeiri var. Bu şeiri oxuyana qədər mən bülbülləri yalnız yazda təsəvvür edirdim. Amma payız bülbüllərinin mövcudluğunu mənə şair inandırmışdı.

***Bahar bülbülləri gül əllər üstə***
***Çağlayır, min nəğmə söyləyir hərə.***
***Payız bülbülləri xəzəllər üstə***
***Ağlayır, xəzəli tapşırır yerə.***

Keçən günlərin dəyəri fəsillərin "mizan-tərəzi"sində ölçülür. Ömrün "əvvəl"i və "son" u bahar - son bahar (payız) fəsillərinə uyğun gəlir. Rübail şeirinin ifadə-təsvir imkanlarını "mövsüm kodu"ndan kənarda təsəvvür etmək olmaz. Ömrün – yaşın miqyası ilə qarlı qış arasında assosiativ əlaqəni şair gözü görə bilərdi.

***Qocanın qocalığı***
***Qar ayağanda bilinir.***

Rübail işıq nisgili çəkən, ağ işıq həsrətində olan şairdir. Hər gecə həsrətlə dan yerini, sübh işığını gözləyirdi.

***Şükür edirəm hər səhər***
***Gecədən çıxdığım üçün.***
***Az qalıram işığı içim -***
***gecə olmasın,***
***qaranlıq olmasın içim.***

Ruhunun peyzaj cövhəri də həmişə işıq axtarışında idi:

***Kölgələr uzanır günəş batanda,***
***İşığın əlindən zülmət tutanda.***
***Ulduza əmanət verir işığı -***
***Adamlar sübhədək, gecə yatanda.***

Elə mənim yaddaşımda bəyaz saçlı, ağ üzlü Rübail müəllimin işıq obrazı qalıb! Sözü ilə şəxsiyyəti bu qədər dürüst olan dəyərli şairlərimizdən biri! Çünki şeirlərində nə özünü, nə də xalqını aldatmadı – bu, əsl şair üçün ləyaqət məsələsidir.

***Rüstəm KAMAL***

*Möhsün NAĞISOYLU*



# "Dədə Qorqud": eposun yeni variantı

2019-cu il türk dünyası, bütövlükdə türkologiya üçün əlamətdar hadisə ilə yadda qaldı: oğuzların ana kitabı "Dədə Qorqud"un yeni bir əlyazması aşkarlandı. Əlyazmanın mətni qısa müddətdə Türkiyədə Yusif Azmun, Mətin Ekici və 4 nəfərlik heyət: Naser Xaze Şahgüli, Yaqubi Vəliullah, Ağtabai Şahruz və Behzad Sara tərəfindən nəşr edilmişdir. Əsər həmçinin İranda və Azərbaycanda çapa hazırlanmışdır. Yeni əlyazma Türkiyədə üç adla: "Dədə Qorqudun üçüncü əlyazması" (Y.Azmun), "Dədə Qorqud kitabı. Türkistan/Türkmən səhra nüsxəsi" (M.Ekici) və "Dədə Qorqud kitabının Günbət yazması" (N.Şahgüli və b.), Azərbaycanda isə "Kitabi-Dədə Qorqud"un üçüncü əlyazması" (Ramiz Əskər) adları ilə çap olunmuşdur. Əlyazmanın çox qısa müddətdə bir neçə dəfə nəşr olunmasının başlıca səbəblərindən biri də, fikrimizcə, onun həcminin kiçik olması ilə (31 vərəq) bağlıdır. Yeni aşkarlanmış əlyazma "Türkologiya" jurnalının 2019-cu il, 3-cü sayında (səh.86-121), eləcə də keçən ilin oktyabr ayında Azərbaycan Dillər Universitetində "Sovet-Türk kollokviumu"nun 30 illiyinə həsr edilmiş dəyirmi masada geniş müzakirə olunmuşdur. Sonuncu müzakirədə biz də iştirak etmiş və əlyazma ilə bağlı bəzi məsələlərə öz münasibətimizi bildirmişik ("Türkologiya", N4, 2019, səh. 34-97). Bu yazıda isə əlyazmanın özü və onun nəşrləri haqqında bəzi fikir və mülahizələrimizi diqqətə çatdırırıq. Öncə onu qeyd edək ki, yeni aşkar edilmiş əlyazmanın adlarından heç biri əlyazmaşünaslığın, mətnşünaslığın meyarları və tələblərinə uyğun gəlmir. Əlyazma kitabının "Kitabi-Dədə Qorqud"un üçüncü əlyazması" adlandırılması o deməkdir ki, yeni aşkarlanmış əlyazmanın mətni eposun əvvəlki iki əlyazma nüsxəsinin (Drezden, Vatikan) mətninin ya eynidir, ya da heç olmasa, onlar arasında məzmunca müəyyən bir uyğunluq vardır. Halbuki yeni aşkarlanmış əlyazma ilə "Kitabi-Dədə Qorqud"un məlum əlyazma nüsxələri arasında mətn baxımından uyğunluq və bağlılıq, demək olar ki, yoxdur. Deməli, bu əlyazmanın "Kitabi-Dədə Qorqud"un üçüncü əlyazması" adlandırılması mətnşünaslıq baxımından düzgün sayıla bilməz. Əlyazmanın "Dədə Qorqud kitabının Türkmən səhra nüsxəsi" adlandırılması da heç bir meyara uyğun gəlmir. Qeyd edək ki, "nüsxə" məsələsinə bizdən öncə Türkiyə alimi Osman Fikri Sərtqaya aydınlıq gətirmişdir: "Günbed yazmasının ne Drezden ne de Vatikan yazmaları ile ilgisi yoktur... Günbed (Türkmen Sahra) yazması... "nüsha"

değil, ancak “paralel metin” olma özelliği taşımaktadır” (“Türkologiya”, N3, 2019, səh. 93). Biz də bu fikri dəstəkləyir və məsələ ilə bağlı onu diqqətə çatdırırıq ki, əlyazmaşünaslıqda nüsxə termini hər hansı bir əsərin ilkin əlyazmasından köçürülmüş əlyazma kitabı anlamında işlənir. Məsələn, Füzuli divanının Konya nüsxəsi dedikdə o başa düşülür ki, bu əlyazma, şairin divanının daha qədim olan, tutaq ki, Bakı və ya Daşkənd nüsxəsinin mətnindən köçürülmüş bir əlyazma kitabıdır. Təbii ki, bu əlyazma nüsxələrinin mətnləri arasında müəyyən kiçik fərqlər ola bilər, lakin bu şərtlə ki, həmin ayrıntılar əsərin ümumi məzmunu və mətninə əhəmiyyətli dərəcədə təsir edəcək səviyyədə olmasın. Deməli, yeni aşkarlanmış əlyazmanın “Dədə Qorqud” kitabının Türkmən səhra nüsxəsi” adlandırılması da mətnşünaslıq baxımından düzgün deyil. Eyni sözləri “Dede Korkut Kitabının Günbet Yazması” adına da bütünlüklə aid edirik. Maraqlıdır ki, Yusif Azmun yeni aşkarlanmış əlyazmanı “Dede Korkut’un üçüncü elyazması”, “Soylamalar ve iki yeni boy ile Türkmen sahra nüshası” adlandırsa da, kitaba yazdığı ön sözdə onu “Kitabi-Dədə Qorqud”un variantı sayır: “Bu yazma ahenkli ve ritmli cümleleriyle Kitab-ı Dede Korkut’un bir varyantıdır”. Onu da qeyd edək ki, Y.Azmun əlyazmanın fonetik özəlliklərinə dayanaraq onu köçürənin “Azərbaycanlı biri olduğu” qənaətindədir. Müəllif həmçinin mətndəki utdurmak sözünün açıqlamasında bu sözün əskidə yutdurmak (uddurmaq) olduğunu vurğulayaraq söz başında y səsinin, eləcə də müvafiq hərfin düşümünə görə əlyazmanın Təbrizdə hazırlanmasını qeyd edir. Tanınmış Türkiyə alimi Əhməd Bican Ərcilasun da yeni aşkarlanmış əlyazmanın mətninin səciyyəvi dil özəlliklərinə dayanaraq onun Güney Azərbaycanda hazırlanmasını vurğulayır. Alim bu özəlliklər sırasında feilin əmr şəklinin göstəricisi olan -gilən morfemini, eləcə də məsdər şəkilçisində ahəng qanununun pozulmasını (əksilmaq, tükənmaq, dögüşmaq və s.) feli sifət şəkilçisi duğı morfemini (gəlduğı, gəzdürduğı və s.) xüsusi olaraq qeyd edir. R.Əskər isə əlyazmanın leksik xüsusiyyətləri əsasında onun Azərbaycanda köçürüldüyünü diqqətə çatdırır. Alim bu fikrinə sübut olaraq polad, partal (paltar), hündür, eşikağası, marıx, oğru, uşaq və s. kimi sözlərin yalnız Azərbaycanda işləndiyini diqqətə çatdırır.

Yeni aşkarlanmış əlyazmanı Mətin Ekici tam şəkildə bu cür adlandırmışdır: “Dede Korkut Kitabı. Türkistan/Türkmen Sahra Nüshası. Soylamalar ve 13.Boy: Salur Kazan’ın Yedi Başlı Ejderhayı Öldürmesi”. Açıqlama səciyyəli bu uzun addakı “Soylamalar” başlığı tamamilə doğrudur, çünki əlyazmanın mətninin əsasını “Kitabi-Dədə Qorqud”un hər iki məlum əlyazma nüsxəsində də olan söyləmələr/soylamalar (alqışlar, nəsihətlər, hikmətli sözlər) təşkil edir. Qeyd edək ki, əlyazmanın əvvəlində boy (fəsil, bölmə) anlamında işlənmiş soy sözü müəyyən mənada mətndəki bölümlərin ipucu – açarıdır: irəlicədən onun məzmunu haqqında müəyyən təsəvvür yaradır: “Bu soyda (seçdirmə bizimdir – M.N.) Dədənüŋ müddəası budur ki, hər kim, bəlkə hər nəstə öz həddində və kəmalində olsa, yaxşıdur. Əhli-iste’dadı kəmali-təhsilinə tərğib edüb moizə eylər. Ağız açub bir Allahuŋ adını kim adamaz? Adaduğı ərənlər könli içində mö’mini-müttəqi gərək” (1b). Bəri başdan qeyd edək ki, bu kiçik mətndəki adamaz, adaduğı sözlərini Y.Azmun bu şəkildə oxumuşdur: ādemzādaduğı – səh.26. Mətnin sonuncu cümləsindəki müttəqi (Allahdan qorxan; dindar, mö’min) sözü isə M.Ekici və R.Əskərin nəşrlərində həqir şəklindədir. Y.Azmun bu sözü düzgün oxumuş, lakin mömin (mü’min) sözündən sonra və də artırmışdır, halbuki mətndə bu leksik vahid yoxdur. Şahgüli və b. isə sonuncu iki sözü bu şəkildə oxumuşlar: mö’min müttəqi (səh.200). Mətnin məzmunundan çıxış edərək bu sözlərin

izafətlə oxunuşunu düzgün sayırıq: mö’mini-müttəqi (Allahdan qorxan mömin). Qeyd edək ki, yuxarıdakı kiçik mətni verməkdə bir məqsədimiz də diqqəti yeni aşkarlanmış əlyazmanın nəşrlərində müşahidə olunan yanlış oxunuşlara (bunların sayı az deyil və ayrıca bir araşdırmanın mövzusudur) yönəltməkdir.

İndi isə M.Ekicinin nəşrindəki 13-cü boy məsələsi üzərində dayanmaq istəyirik. Qeyd edək ki, bizdən öncə Ramazan Qafarlı və Seyfəddin Rzasoy yeni aşkarlanmış əlyazmaya və 13-cü boy məsələsinə öz münasibətlərini ətraflı şəkildə bildirmişlər (“Türkologiya”, N4, 2019, səh. 94-109). Təcrübəli folklor mütəxəssisləri kimi, onların fikrincə, “.... bu əlyazma mətnləri (şərti olaraq “Dədə Qorqud”un 3-cü əlyazması” adlandırılmış yeni əlyazmanın və eposun məlum iki əlyazmasının mətnləri – M.N.) tam fərqli poetik struktur tipologiyalarına malikdir və bu mənada “Kitabi-Türkman lisanı” heç bir halda “Kitabi-Dədə Qorqud”un üçüncü nüsxəsi və əlyazması hesab oluna bilməz” (“Türkologiya”, N3, 2019, səh. 106). Yeni aşkarlanmış əlyazmadakı cəmi 5 vərəqdə (26b-31a) yer alan kiçikhəcmli boyun (Salur Qazanın yeddibaşlı əjdahanı öldürməsi) “Kitabi-Dədə Qorqud”un 13-cü boyu kimi təqdim edilməsini biz də doğru saymırıq. Fikrimizcə, bu əlyazma, ümumiyyətlə götürdükdə, soylamalardan və kiçikhəcmli bir boydan ibarət tamamilə yeni bir mətndir – “Dədə Qorqud”un variantlarından – paralel mətnlərindən biridir. Onu da qeyd edək ki, Y.Azmun əlyazmanı “Soylamalar və İki Yeni Boy ile Türkmen Sahra Nüshası” adı altında nəşrə hazırlamışdır. Tədqiqatçı həmin iki boyu şərti olaraq belə adlandırır: “Salur Kazan’ın Araz suyı ilə Kars Kal’asını aldugı boy” və “Salur Kazan’un yedi başlı ejdehayı öldürdügi boy”. Qeyd edək ki, R.Əskərin çapa hazırladığı mətndə də iki boy vardır və onların şərti adları Y.Azmunun nəşrindəki kimidir: “Salur Qazanın Araz suyu ilə Qars qəl’əsini alması”; “Qazan xanın yeddibaşlı əjdahanı öldürməsi”.

Bu “boy”lardan birincisinin mətni əlyazmada cəmi iki vərəq (24a-25b) həcmindədir və burada Qazanın özünü öyməsindən danışılır. Qazan öncə sərhəd bəylərindən bir çaparın gələrək onun üstünə on min yağının yürüməsi xəbərini verməsindən söz açır. Sonra isə düşmən qoşununun sayını on min-on min artıraraq sonda yüz minə çatdırır:

“Qeysər Salur iyəsi, dumanlı dağ börüsi, Salur yegi, Eymur görki, Zülqədir dəlüsi, Bayındır padşah vəkili Qazan der: Ağalarum ilən ala qarlı, gög sünbülli dağlara ava getmiş idüm, içür idüm. Sərhəd beglərindən çapar gəldi: “Qazan, nə içərsən? On min yağı üstünə gəldi.”

On min yağı gəldügini eşidəndə qol götürüb aq otaq içində oyına girdüm.

İyirmi min yağı gəldi, - deyəndə yerümdən imrənmədüm.

Otuz min yağı gəldi, - deyəndə hiçə saydum.

Qırx min gəldi, - deyəndə qara gözümün ucından qıya baxdum, qımzanmadum.

Əlli min gəldi, - deyəndə əl verüb əlləşmədüm, “azdır”, - dedüm.

Altmış min gəldi, - deyəndə Allahı andum, atlanmadum.

Yetmiş min gəldi, - deyəndə yeltənmədüm.

Səksən min, [gəldi], - deyəndə səksənmədüm.

Doqsan min yağı gəldi deyəndə, - arxaluqcaq idüm, donum geydüm.

Yüz min yağı gəldi, - deyəndə yüz çevirüb qayıtmadum”.

Qeyd edək ki, Qazanın bu öygü – soylamasının azacıq fərqli variantı “Kitabi-Dədə Qorqud” eposunun Drezden nüsxəsindəki “Salur Qazan tutsaq olub oğlı Uruz çıqarduqı boyı bəyan edər” adlı 11-ci boyunda da yer almışdır. Yeni əlyazmadan fərqli olaraq Qazan bu boyda kafirlərin ona: “bizi öy”, - deyərkən yalnız bir parçasını verdiyimiz aşağıdakı soylamanı dilə gətirir:

***On bin ərdən yağı gördüm isə, "oyunum" de[mə]düm.***
***Yigirmi bin ər yağı gördüm isə, yelmədüm.***
***Otuz bin ər yağı gördüm isə, ota saydum.***
***Qırq bin ər yağı gördüm isə, qıya baqdum.***
***Əlli bin ər [yağı] gördüm isə, əl vermədüm.***
***Altmış bin ər [yağı] gördüm isə, alışmadum.***
***[Yetmiş bin ər yağı gördüm isə, yeləmədüm]***
***Səksən bin ər yağı gördüm isə, səksənmədüm.***
***Toqsan bin [ər] yağı gördüm isə, tonanmadum.***
***Yüz bin ər [yağı] gördüm isə yüz dönmədüm.***

(Oğuzların diliyle Dedem Korkut'un kitabı. Hazırlayan: Mustafa S.Kaçalin, Ankara, 2017, səh. 190)

Bu fakt Dədə Qorqud dastanlarının uzun müddət ərzində müəyyən dəyişikliklərlə yaddaşlarda qorunub-saxlandığını, şifahi şəkildə nəsillərdən nəsillərə ötürüldüyünü sübut edir. Qeyd edək ki, yuxarıdakı parçalar arasında yaxın bir səsləşməyə baxmayaraq, onlar da tamamilə fərqli məqamlarda özünü göstərir. Bu məsələyə bizdən öncə diqqət yetirən R.Qafarlı yazır ki, həmin oxşar parçalar "şifahi epik ənənənin standartlıq qanunu əsasında ayrı-ayrı zamanlarda yaranmışdır. Bu, nağıl və dastan mətnlərindəki iki qat, üç qat təkrarlanma sistemində olduğu kimi şifahi poetik mətn elementidir". ("Türkologiya", N4, 2019, səh.65)

Yeni əlyazmadakı sözügedən bölümdə Qazan yuxarıda verdiyimiz soylamasından sonra namaz qılır, ya Məhəmməd, ya Əli deyir (sonuncu söz burada açıq-aşkar bir şiəlik təəssübkeşliyi olmasını təsdiqləyir) və önündə kimləri çarxçı (döyüşdə öncü, öndə gedən) buyurmasını söyləyir. Onlar sırasında Dədə Qorqud dastanlarında adı çəkilən Qaragünə oğlu Qara Budaq və Qıyan oğlu Dəli Dondarla yanaşı, qurçıbaşı Xan Əfşarın da adına rast gəlirik. Qeyd edək ki, "Kitabi-Dədə Qorqud"da qurçıbaşı (Səfəvilər dövründə atlı mühafizə alayının başçısı) kimi bir vəzifə sahibinə, eləcə də Xan Əfşar adlı şəxsə rast gəlmirik. Maraqlıdır ki, "yüz min kafirin qırıldığını" bilən Qazan xan qələbədən sonra Akça Qala Sürməlidə Lələ Qılbaşı daruğa (darğa) təyin edir. Qeyd edək ki, monqol mənşəli daruğa sözü "Kitabi-Dədə Qorqud" dastanlarında qeydə alınmamışdır. "Yeddi gün, yeddi gecə kafirə qılıc çalan" Qazan sonda Qars qalasını alır və bəylər ilən Təbrizin cənubundakı Sürxab (Eynəli) dağına gəzintiyə çıxır ("Kitabi-Dədə Qorqud"da bu toponimlər də yoxdur). Bütün bu hadisələr Qazanın dilindən verilir və açıq-aşkar bir öygü (özünü öymə) təsirini bağışlayır.

Əlyazmanın ən sonunda yer alan və Qazanın yeddibaşlı əjdahanı öldürməsindən bəhs edən hissəni ayrıca bir boy kimi təqdim edən Y.Azmun və R.Əskər Qars qalasının alınması ilə bağlı bölümü də boy adlandırmışlar. Məsələ ilə bağlı M.Ekicinin fikri isə bir qədər fərqlidir. Onun fikrincə, bu bölüm əlyazmada yeganə olan boya – Qazanın yeddibaşlı əjdahanı öldürməsi boyuna hazırlıq məqsədi daşıyan bir hissədir. M.Ekici bu fikrinə sübut olaraq "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsindəki Dirsə xan oğlu Buğac, eləcə də Qanlı Qoca oğlu Qanturalı haqqındakı boylarda da buna bənzər bir durumun yer aldığını, yəni eposun bu hissələrində də əsas hadisədən ayrıla biləcək yerlərin olduğunu diqqətə çatdırır. Biz də folklorçu mütəxəssisin bu arqumentləri ilə razılaşır və hesab edirik ki, əlyazmadakı Qazanın Qars qalasını almasından bəhs edən hissə məzmununa görə ayrıca bir boy üçün vacib olan meyarlara cavab vermir və əslində öygü-soylama təsirini bağışlayan bir bölümdür.

İlk vərəqi itmiş yeni əlyazmanın heç bir yerində başlıq yoxdur. Bununla belə, onun mövcud 1b və 2b vərəqlərində qırmızı xətlə yazılmış başlıq sə-



ciyyəli iki kiçik mətn vardır ki, biz onlardan birini yuxarıda verdik. Qırmızı mürəkkəblə yazılmış hər iki başlıqda – soyda Dədənin (Dədə Qorqudun) məqsəd və məramına aydınlıq gətirilir, mətnin qısaca məzmunu verilir. Bu fakta əsasən düşünürük ki, əlyazmanın itmiş ilk vərəqində onun qırmızı mürəkkəblə yazılmış adı var imiş.

Əlyazmanın mövcud 3a, 4a, 5b, 7b, 9a, 11a, 14b, 15b, 16a, 17a, 17b, 18b, 19b, 20b, 22a, 22b, 23b, 26b vərəqlərində də başlıqlar üçün boş yerlər buraxılmış, lakin hansı səbəbdənsə həmin hissələr elə boş olaraq da qalmışdır. Qeyd edək ki, orta əsrlərə aid digər əlyazmalarda da bu kimi hallara rast gəlirik.

Əlyazmada başlıq üçün boş buraxılmış sonuncu vərəqin (26b) mətni “Bir gün adəmlər əvrəni, islam dini qüvvəti, qoŋur atlı Salur yegi...” sözləri ilə başlayır və burada Qazan xanın yeddibaşlı əjdahanı öldürməsindən danışılır.

Qeyd edək ki, burada Qazan xan üçün işlədilmiş epitetlər yuxarıda nümunə olaraq verdiyimiz parçadakılardan bir qədər fərqlənir. Ən maraqlısı isə odur ki, bu epitetlər sırasında “Savalan dağı yaylaqlı” və “Azərbaycan ləngəri” ifadələrinə də rast gəlirik:

“...Salur yegi, Eymur görki, Zülqədirli dəlüsi, Savalan dağı yaylaqlı, Sarıqamış qışlaqlı... Adərbaycan ləngəri, padşahun vəkili Ulaş oğlı Qazan qara yazun fəslində tazı-tula yeddürdi,.. ava getdi”.

Boyun qısaca məzmunu isə belədir: Günortaya qədər Aq Manqanda ov ovlayan Qazan yoldaşlarını (mətndə: aqalarını) orduya göndərərək tək qalır və qaranlıq düşəndə Qara dağın ətəyində yeddi yerdə alovlanan – tüstülənən od görür. Həmin yerə yaxınlaşanda alovun yeddibaşlı əjdaha olduğunu görür. Qazanın ovda tək qaldığını eşidən Lələ Qılbaş ağasının ardınca gəlir. Qazan lələsi ilə əjdahanın üstünə getməsi barədə məsləhətləşir və “hə” cavabını aldıqdan sonra bu heybətli heyvanı öldürməyə girişir. Əjdaha əvvəlcə Qazanı sümürüb udur, lakin igid qəhrəman Allahına yalvardıqdan sonra əjdahanın ağzından xilas olur və yenidən vəhşi heyvanla vuruşur. Bu zaman Qazanın bir gözü qana bulaşır. Maraqlıdır ki, boyun bu hissəsində Qazanın öz gözü haqqında dediyi sözlər “Kitabi-Dədə Qorqud”un 11-ci boyunda Qazanın yeddibaşlı əjdahanın adını çəkdiyi soylamadakı cümlələrlə yaxından səsləşir. Aşağıda hər iki parçanı veririk:

***Yedi başlu əjdərhaya yetüb vardum,***
***Heybətindən sol gözüm yaşardı.***
***Hey gözüm, namərd gözüm, müxənnət gözüm.***
***Bir yılandan nə var ki, qorxdun? – dedüm.***

*(Oğuzların diliylə Dedem Korkudun Kitabı, səh.190).*

***“Mərə sən mənüm namərd gözüm.***
***Qara polad sav qılıcun yalmanından qorxmazdun,***
***Sühar oqlar peykanından üşənməzdün.***

***On altı batman kafir görzi təpəmdən dəgdi, pörtləmədün.***
***Əjdəha dedikləri bir yılandur, anda nə var ki, bulaşursan, öləzürsən?***
***Sənün kimi namərd göz mənüm kimi mərd igiddə neylər?"***

*(Yeni əlyazma, 28b-29a).*

Bu sözləri dedikdən sonra Qazan əvvəlcə xəncər ilə gözlərini oymaq istəyir, lakin bu fikrindən daşınır. Əjdahaya səksən ox tuşlayan Qazan sonda vəhşi heyvanı öldürür və onun dərisini soyduraraq özünə don düzəldir və bu qiyafədə Bayındır padşahın hüzuruna gəlir. Padşahın vəkilləri əvvəlcə Qazanın əjdahaya döndüyünü düşünərək onu öldürmək qərarına gəlsələr də, padşah onlarla razılaşmır və Qara Budağı igidin üstünə göndərir. Qara Budağ məsələdən xəbərdar olur və padşah İç Oğuzla, Dış Oğuzla birgə öz vəkilini – Qazanı qarşılayır. Padşahın ayağına düşən Qazan əjdaha dərisindən sayəban (kölgəlik) tikdirir və yeddi gün, yeddi gecə padşahı qonaqlayır. Boy bu sözlərlə bitir:

Dədəm Qorqud der: "Qazan kimi qoçaq igid dünyadan gəldi-keçdi".

Yeni əlyazmadakı bu boyun məzmunundan da göründüyü kimi, o, istər həcminə, istərsə də hadisənin təsvirinə görə "Kitabi-Dədə Qorqud"da yer alan boylar səviyyəsində deyil. Başqa sözlə desək, "Qazanın əjdahanı öldürməsi süjeti ümumi axarına görə boy janrının tələblərini tam ödəmir". (R.Qafarlı)

Onu da qeyd edək ki, başda Şahgüli olmaqla dörd nəfərin hazırladığı mətndə, ümumiyyətlə, başlıq yoxdur. Burada mətndəki bölümlər 25 nömrə altında verilmişdir ki, fikrimizcə, bu, daha məqsədəuyğun bir qərardır.

Əlyazmanın mətnində başlıq üçün boş buraxılmış yerlərdən birində (5b) fars dilində karandaşla yazılmış belə bir qeyd vardır:

Celd-e doyyom-e ketab-e torkman lesani. 1347

Türkmən dilindəki kitabın ikinci cildi. 1928/1929

Qeyddəki sonuncu sözün (lesani – dil) ərəb əlifbasındakı ikinci hərfi sin əvəzinə yanlış olaraq se hərfi ilə yazılmışdır. Bu fakta əsasən Y.Azmun və R.Əskər həmin sözün lesan yox, əl-sani (ikinci) olduğu qənaətindədirlər. Onların fikrincə, katib (əslində kitab sahibi) burada sani sözündən qabaq rəbiül və ya cəmadiül sözlərini yazmağı unutmuşdur (rəbiül-sani, cəmadiül-sani). Biz isə hesab edirik ki, həmin yazı kitab sahibinə aiddir: o, milliyyətcə İranda yaşayan türkmandır və bu qeydlə əlyazmanın türkman dilində olmasını diqqətə çatdırmaq istəmişdir. "Celd-e doyyom" (ikinci cild) məsələsinə gəldikdə isə, düşünürük ki, mövcud əlyazma Dədə Qorqud haqqındakı soylamalardan ibarət olan kiçikhəcmli kitabın ikincisi imiş, yəni onun birinci cildi də həmin vaxt (1347/1928-29-cu ildə) naməlum xətt sahibinin istifadəsində olubmuş. Qeydi belə də izah etmək olar: xətt sahibi bu yazısı ilə əlyazmanın əvvəlki vərəqlərini (1a-5a) kitabın (mətnin) birinci cildi, sonrakıları isə (5b-31a) ikinci cildi kimi qəbul etmişdir. Əlyazmanın 4b vərəqinin yuxarısındakı qeyd də eyni xətlədir və mətnin birinci sətrindəki sözlərin təkrarıdır. Maraqlıdır ki, bu vərəqdə də başlıq üçün boş yer buraxılmışdır.

Əlyazmanın köçürülmə tarixinə gəldikdə isə, qeyd etməliyik ki, Şahgüli və b.-nın qeyd etdikləri kimi, katib 1a vərəqinin haşiyəsində iki sözün (uçmağ, sızdırdı) mənalarını izah edərkən Nadir şahın münşisi Məhəmməd Mirzə Mehdi xanın 1759-cu ildə tamamladığı "Sənglax" ("Daşlıq") adlı lüğətində verilmiş çağatay türkcəsinin məşhur nümayəndələrindən olan şair Lütfinin (XV əsr) iki beytindən istifadə etmişdir. Bu isə o deməkdir ki, sözügedən əlyazma bu tarixdən (1759) sonra hazırlanmışdır. Əlyazmanı araşdırmış tədqiqatçılardan M.Ekici və Y.Azmun isə onun XVII-XVIII əsrlərə aid

olduğunu təxmin edirlər. Əlyazmadakı eşikağası, divanbəgi, cəbbadar (cəbbəxana müdiri) kimi vəzifə adları onun arxetipinin Səfəvilər dövrünə aid olduğunu sübut edən amillər sırasındadır.

Yuxarıda qeyd etdiyimiz kimi, əlyazmanın mətnində olan eyni sözlərin müxtəlif nəşrlərdə həm fərqli oxunuşları, həm də ayrıntılı mənaları diqqəti çəkir. Bu qəbildən olan sözlərdən biri üzərində ayrıca dayanmaq istəyirik. Bu, aşağıda verilmiş cümlədəki ayqaq sözüdür:

Ayqaqlaruŋ ağzından, çuqullaruŋ dilindən, quru böhtan bəlasından Dədəm der: Həq-təala saxlasuŋ canuŋızı (15b).

Ayqaq sözünün mənasını M.Ekici cahil, Y.Azmun isə boş konuşan, geveze kimi mənalandırmışdır. N.Şahgüli və b.-nın nəşrində bu sözün çok konuşan mənası qeyd olunur. R.Əskərin nəşrində də ayqaq sözünün gəvəzə, çox danışan mənası göstərilir. Göründüyü kimi M.Ekicidən başqa, digər tədqiqatçıların fikrincə ayqaq çox danışan deməkdir. Müasir Azərbaycan ədəbi dili üçün arxaik səciyyə daşıyan bu söz dilimizin Qax və Naxçıvan şivələrində ayqax şəklində öz varlığını qoruyub saxlamışdır. “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə bu sözün Qaxda bələdçi, Naxçıvanda isə təlxək mənaları qeydə alınmışdır. Çağdaş türk ədəbi dilində isə ayqaq/ayğak sözünə rast gəlmirik.

Türk dillərinin əski qatlarına dair lüğətlərə gəldikdə isə, ayqaq sözü bizə məlum məşhur əski lüğətlərdən Lazar Budaqovun və Vasili Radlovun lüğətlərində qeydə alınmışdır. L.Budaqov bu sözü ayğak kimi yazaraq onun çağatayca və qırğızcada şahid, xəbərçi anlamlarında işləndiyini göstərir.

Vasili Radlov da ayğaq sözünün qırğızcada, çağataycada şahid və xəbərçi mənalarını qeyd edir. Alim bu sözün kökündə uyğurcada danışmaq, demək mənasında işlənən aymaq feilinin dayandığını da vurğulayır. Maraqlıdır ki, bu qədim söz dilimizin Füzuli şivəsində aymağ (söyləmək, demək) anlamında öz varlığını qoruyub saxlamışdır. Demək, söyləmək anlamını daşıyan aymaq feili ilə ayqaq (şahid; xəbərçi) düzəltmə ismi arasında müəyyən bir bağlılıq olması göz qabağındadır. Deməli, yuxarıda verdiyimiz nümunədə işlənmiş ayqaq sözü də burada çox danışan, gəvəzə anlamını yox, xəbərçi mənasını daşıyır. Yeri gəlmişkən qeyd edək ki, XVI əsr Azərbaycan tərcümə əsəri “Şühədanamə”də bu söz əyğağ şəklindədir və casus anlamında işlənmişdir:

Əmma ravi der ki, neçə əyğağlar Ziyadoğlına dedilər ki, Müslimün iki oğlı bu şəhərdə gizlüdürlər.

Aydınlıq üçün qeyd edək ki, “Şühədanamə”nin farsca orijinalı olan “Rövzətüş-şühəda” əsərində əyğağ sözünün qarşılığı casus leksik vahididir.

Onu da qeyd edək ki, xəbərçi və casus sözləri arasında müəyyən məna bağlılığı olsa da, fikrimizcə, yeni aşkara çıxarılmış əlyazmada işlənmiş ayqaq sözü daha çox casus mənasını verir. Bunu həmin cümlədə işlənmiş çuğul (xəbərçi) sözü də təsdiq edir.

Alman türkoloqu Dorfer “Yeni farscada türk ünsürləri” adlı məşhur kitabında ayqaq sözünün xəbərçi mənasını göstərərək bu leksemin özbək dilində kəşfiyyatçı, casus anlamlarında da işləndiyini qeyd edir. Dorfer həmçinin ayqaq sözünün fars və monqol dillərinə keçdiyini də diqqətə çatdırır. Qeyd edək ki, “Özbək dilinin izahlı lüğəti”ndə aygok sözü ilə yanaşı, ayğokçi lekseminin gizli agent, casus və salnaməçi anlamlarında işləndiyi göstərilir. Ayqaq // ayğağ sözü ilə bağlı onu da əlavə edək ki, İran leksikoqrafı Həsən Ənvərinin “Soxən” adlı farsca izahlı lüğətində türkmənşəli bu leksemin orta əsrlərdə fars dilində xəbərçi anlamında işlənməsi qeyd olunur.

Əlyazmanın yazı xüsusiyyətləri ilə bağlı fikirlərimizi də bildirmək istəyirik. Mətn şikəstə ünsürlü gözəl nəstəliq xətti ilə, əsasən, 14 sətirdə yazılmış və qızıl suyu ilə işlənmiş beş nazik xətlə haşiyəyə alınmışdır. Haşiyədəki 1-ci və 2-ci, eləcə də 3-cü və 4-cü xətlərin arası qızıl suyu ilə doldurulmuşdur. Beşinci xətt isə bütün bu xətləri dövrəyə alır. Əlyazmadakı mövcud 1a vərəqinin mətni bu sözlərlə başlanır: "Həq-təala gögdən Qur'an endürdi arı dinli Mühəmmədə oqumaq içün". Əlyazmanın sonluğu – axırıncı cümləsi isə belə səslənir: "Dədəm Qorqud der: "Qazan kimi qoçaq igid dünyadan gəldi-keçdi" (31a).

Əlyazmanın mövcud ilk vərəqindən (1a) başlayaraq, bir sıra vərəqlərin haşiyələrində katib kiçik xətlə öz dövrü üçün arxaik səciyyə daşıyan bəzi türkmənşəli sözlərin izahını vermişdir. Məsələn, uçmaq (behişt), ağayıl (qoyun, qoyun sürüsü), böri (qurd), imrəmək (həvəslənmək), ırğanmaq (sallanmaq) və s. Qeyd edək ki, bu izahlar sırasında yanlış olanları da vardır. Məsələn, katib ornac sözünü "zahirən görk və borazeş (yaraşıqlı – M.N.) mənasına ola" kimi açıqlayır (3a). Halbuki ornac sözü burada ölən adamın yurdunda qalan, varis, xələf anlamındadır. Azmun isə kitabın "Sözlükçe" bölümündə bu sözü ornaç kimi yazaraq onu belə mənalandırır: göstəriş, yakışık. Yeni əlyazmanın digər nəşrlərində isə ornac sözünün varis, xələf mənaları göstərilir.

Qeyd edək ki, əlyazmanın haşiyəsində yazılmış izahlar yalnız ilk vərəqlərdədir, sonrakı vərəqlərdə onlara rast gəlmirik. Əlyazmanın haşiyəsindəki xətlə əsas mətnin xətti eyni katibə məxsusdur. Sadəcə olaraq, haşiyədəki yazılar əsas mətnlə müqayisədə kiçik xətlə yazılmışdır.

Əlyazmanın bədii tərtibinə görə düşünürük ki, o, yüksək vəzifəli şəxs üçün hazırlanıbmış. Qeyd edək ki, əlyazmanın hazırkı sahibi, İranın Gülüstan ostanının Günbət şəhər sakini Vəli Məhəmməd Xocanın dediyinə görə, o, bu qiymətli kitabı Tehrandakı bir bukinist mağazasından almışdır. Kitabı satan şəxs Vəli Məhəmməd Xocaya Qacarlar nəslindən olduğunu və əlyazmanın Ağa Məhəmməd şah Qacarın kitabxanasına məxsus olduğunu söyləyir. Deməli, əlyazma uzun zaman bu görkəmli dövlət xadiminin kitabxanasında olmuşdur.

"Kitabi-Dədə Qorqud" eposu kimi, yeni aşkarlanmış "Dədə Qorqud" əlyazmasında da bahadırlıq və mərdlik, igidlik və qoçaqlıq, comərdlik və əliaçıqlıq, insansevərlik və xeyirxahlıq kimi keyfiyyətlər tərənnüm olunur. Əlyazmanın dili də eposda olduğu kimi, özünəməxsusluğu: axıcılığı və oynaqlığı, ritmikliyi və ahəngdarlığı, coşqunluğu və lirizmi, obrazlığı və yüksək poetik xüsusiyyətləri ilə seçilir ki, bütün bunlar da oxucuya yüksək estetik zövq verir. Aşağıdakı kiçik parça bunu əyani şəkildə sübut edir:

***Sərp yügürür sallar atlar - ər qanatı; minə bilməz, çapa bilməz,***
***Bir müxənnəs ol atları savaş güniownincə minməsə yeg.***
***Çalar, kəsər, götürür, qara polad sav kılıclar - ər azusı;***
***Anı çala bilməz, yetürə bilməz Müxənnəsün əlində***
***Qılıcdan isə, mərd igidün əlində bir aqac yeg.***
***Otı bitməz qara daglar yıxılsa yeg***
***At yeməyən acı otlar qara yerün üzərində bitincə bitməsə yeg.***
***Adəm içməz bulanuq sası su***
***Damarından çəkilsə yeg.***
***Bəzə miskin, xeyir görməz, korilən nakəs baylar,***
***Dədəm der: Talanıban pozulsa yeg.***(22a-22b)

Daha bir vacib məsələ haqqında öz fikirlərimizi bildirmək istəyirik. Ə.B.Ərcilasunun da qeyd etdiyi kimi, yeni aşkarlanmış "Dədə Qorqud"

əlyazmasının Türkiyə nəşrlərində, daha doğrusu, əski əlifbada olan mətnin transkripsiyasında kifayət qədər fərqli məqamlar vardır (“Türkologiya”, N4, 2019, səh. 80-81). Bakıda prof. R.Əskərin nəşrə hazırladığı “Kitabi-Dədə Qorqud”un əlyazmasının transkripsiyasında da mübahisəli məqamlar az deyil. Bunu nəzərə alaraq biz sözügedən əlyazmanın yenidən nəşrə hazırlanmasını bir mətnşünas-əlyazmaçı kimi müəyyən mənada özümüzə borc bilərək bu işi artıq tamamlamış və tezliklə nəşrə təqdim etmək fikrindəyik.

Əlyazma ilə bağlı daha bir incə məqam onun Günbət yazması, yoxsa Türkmən Səhra nüsxəsi adlandırılmasına aiddir. Yuxarıda qeyd etdiyimiz kimi, yeni aşkarlanmış əlyazmanın “Kitabi-Dədə Qorqud”un üçüncü nüsxəsi kimi təqdim olunması mətnşünaslıq baxımından yanlışdır. Günbət yazması məsələsinə gəldikdə isə, fikrimizcə, əlyazma kitabı Tehranda aşkara çıxarıldığı və uzun müddət ərzində bu şəhərdə saxlanıldığı üçün onun Tehran əlyazması adlandırılması məqsədəuyğundur. Qeyd edək ki, R.Əskər də bu fikirdədir.

Bir neçə kəlmə də yeni aşkara çıxarılmış əlyazmanın adı haqqında. Yuxarıda qeyd etdiyimiz kimi, əlyazmanın bizə gəlib çatmayan ilk vərəqində, çox güman ki, onun adı qeyd olunubmuş. Hər halda indiyədək əldə olan Dədə Qorqud əlyazmalarına əsasən, fikrimizcə, yeni aşkara çıxarılmış əlyazmanı şərti olaraq “Dədə Qorqud: soylamalar və Qazan xanın əjdahanı öldürdügi boy” və ya “Oğuznamə” adlandırmaq olar. Xatırladaq ki, “Kitabi-Dədə Qorqud”un məlum Drezden və Vatikan nüsxələrində əlyazmaların adları bu şəkildədir: “Kitabi-Dədəm Qorqud əla lisan-i taife-yi Oğuzan”; Hekayət-i Oğuzname-yi Qazan bəg və ğeyri”.

Onu da qeyd edək ki, Dədə Qorqudla birbaşa bağlı olan daha bir əlyazma Ankarada – Türk Tarix Qurumunda saxlanılır. Həmin əlyazma professor Mustafa S.Kaçalin tərəfindən nəşrə hazırlanmış və şərti olaraq “Oğuz-namə” adlandırılmışdır. Bu əlyazmada “Kitabi-Dədə Qorqud” eposunun Drezden əlyazmasının əvvəlindəki Dədə Qorqud haqqında olan hissə (mətndə: Hekayət-i Qorqud Ata) və birinci boy (mətndə: Əl-hekayətül-əvvəlu) yer almışdır və bu hissələr Drezden əlyazmasından, demək olar ki, fərqlənmir. Təliq xətti ilə yazılmış cəmi 11 vərəqlik bu əlyazma yarımçıqdır: onun əvvəli və sonu yoxdur. Onu da diqqətə çatdıraq ki, Ə.B.Ərcilasun bu əlyazmanı “Dədə Qorqud”un 3-cü əlyazması, Tehranda yeni aşkar olnumuş əlyazma kitabını isə eposun 4-cü əlyazması adlandırır.

Əlyazmanın olduqca böyük əhəmiyyəti sırasında xüsusi olaraq qeyd etmək lazımdır ki, burada işlənən bir sıra sözlərin “Kitabi-Dədə Qorqud”un Drezden əlyazmasındakı indiyədək oxunuşu mübahisə doğuran ayrı-ayrı leksik vahidlərə aydınlıq gətirməsidir. Məsələn “Kitabi-Dədə Qorqud”da indiyədək ortac, çaya girsə, qanadıyla kimi oxunmuş leksik vahidlər yeni əlyazmada ornac, çapa girsə, qanadı ala şəklindədir ki, bu da tamamilə düzgün variantdır. Ümumiyyətlə, yeni aşkarlanmış “Dədə Qorqud” əlyazmasını türkologiya üçün əlamətdar hadisə sayır və hesab edirik ki, bu dəyərli əlyazma kitabı ən yüksək səviyyədə və ətraflı şəkildə araşdırılmalıdır.

*Lalə HƏSƏNOVA*

# Şərin təntənəsi və ya yaşamaq haqqını itirənlər haqqında elegiya

## *Zahid Sarıtorpaq. "Köhnə mücrüyə elegiya"*

Zahid Sarıtorpağın "Köhnə mücrüyə elegiya" romanında son illər qələmə aldığı əsərlərində ("Dərdin sarı çəpkəni" (2017), "Kül" (2018), "Quşların intiharına ağlamayın" (2019)) olduğu kimi, ekzistensial bir çıxılmazlıq yer alır. Bir çox simvolların (nifrət doğuran sərçələr, rəgbətlə canlandırılan sığırçınlar, rəhm doğuran tutuquşular, mücrü, qəfəs, natamam tikili, zəlzələ, müqəvva və s.) yer aldığı romanda ilk olaraq qəfəs – dünya modeli diqqət çəkir, itirilən dəyərlər müstəvisində müasir dünyada həyatın insan üçün qəfəsə çevrilməsi təsvir olunur: "Qəfəslər hamısı yerindəydi. Amma quşlar yoxuydu. Kiçicik qapıları açıq olan kədərli qəfəslərə baxmaqdan başqa çarəm qalmamışdı. Çox üzülürdüm. Əhvalım tamam dəyişmişdi... Birdən-birə qəfəslər lalların xorunu başladı, nə başladı! Amma melodiya o qədər cingiltiliydi ki, mücrünü yerə qoyub əllərimi qulaqlarıma qapayası oldum. Elə bil qəfəslərin nazik məftillərinə toxunan melodiya orada doğram-doğram olub sızlayır, üşüyür, soyuq-soyuq cingildəyir, ülgüc kimi içimi çərtirdi. Gözlərimi bərk-bərk yumdum..." Həyatın qəfəsə çevrilməsi İshaqı təsirləndirsə də, digərləri bu halı adi qarşılayırlar. Qəfəs motivi əsərdə bir necə dəfə təkrarlanır: "Bu xəstəliyimin mənə bircə xeyri o idi ki, hər şeyi unudurdum, xoş anlarım da, dərdim, sərim də yadımdan çıxırdı. Canım elə bil küləkli havada boş bir qəfəsə dönürdü. İçində nə varsa uçub gedirdi, incə barmaqlıqlarında yellər doğranırdı, eynən zoomağazadakı kimi. Amma sonradan bir də görürdün yaddaşım qəfil bərpa olurdu (lap indiki kimi), olub-bitənlər hamısı bircə-bircə ötürdü gözümün önündən, canımın içindən, ruhumdan... Belədə sanki kimsə o qəfəsi götürüb çırpırdı yerə, hər şey eləcə sona yetirdi... Amma yenə də, bu dünya mənim üçün daha çox həmin o zoomağaza kimi bir şey idi elə. İçində bomboş qəfəs kimi hiss eləyirdim özümü. Çox vaxt da həyat külək kimi toxunurdu zərif barmaqlıqlarıma, tikələnib tökülürdü və heç kim ürək eləmirdi mənə toxunmağa". Qəfəslə yanaşı natamam tikili də, zənnimizcə, romanda dünya modeli olaraq yer alır.

İshaq dünyada rahatlıq tapmayan, təklənən, yalqız olan biridir: "Yamacda bitən kola oxşayırdım, elə bil qucağıma yuxarılardan bir daş diyirlənib düşmüşdü, ağuşuma alıb kirimişcə qalmışdım..." Xoşbəxt olmasına mane olan daş, onu müşayiət edən qeyri-müəyyən səslər ("lalların xoru" adlandırılan boşluğun sədası, uğultu), qaranlıq ("gecə yarıdan keçib. Ay batmışdı", "Amma heyif ki, gündə bir dəfə, özü də axşam içmək olar bu dərmanı... Gündüz qəbul etmək qətiyyən olmaz, qəti qadağandı!..") təbiət hadisələri (zəlzələ), davamlı şəkildə İshaqa müraciətlə təkrarlanan "darıxmırsan?" sualı, özünü yadplanetli sayması kimi məqamlar dünya və insan qarşıdurmasının aktuallaşmasına

səbəb olur. "Küçə boyunca yeridikcə, ovcumun içi kimi bilirəm, yoldan keçən tanımadığım o qaraqabaq adam da məndən qat-qat bəxtəvərdi. Yarısınacan qurumuş o iydə ağacı da məndən gözəl ömür sürür, budağında büzüşən o sərçə – dünyada ən zəhləmgetmiş quş olan o sərçə də məndən xoşbəxtdi"; "Biz gəlməyik, vallah, Biriş, gəlməyik biz... Bir adam tapmazsan ki, üzündə torpağın, suyun, havanın əlaməti olsun…".

Əsərin ilk səhifələrdən bir çox bəlli məqamların əks anlam kəsb etməsi diqqət çəkir: "Allah, sən kömək ol..." deyib gərnəşdim və gözləmədiyim halda, qəfil fərqinə vardım ki, gecə-gündüz dilimdən düşməyən "Allah" sözünün sonu "ah"la bitir...", "...təzədən bir də "Allah..." pıçıldayıb, ardınca da dərindən ah çəkib, yastığı qucaqladım. Elə bil yastıq bir daş idi. Hə, yastıq daş kimiydi". Mifologiyadan İshaq peyğəmbərin artıq ahıl, dünyaya uşaq gətirə biləcəklərinə ümidi olmayan yaşlı valideynlərin övladı olduğu bəllidir. Yaradan ən ümidsiz məqamda belə insana həyat bəxş etsə də, bəşər övladı xoşbəxt ola bilmir. İshaqı həyata bağlayan heç nə yoxdur, evi kimi həyatı da baxımsız və acınacaqlıdır. Daha bir peyğəmbərin, öz xalqını Misir fironunun əsarətindən qurtaran xilaskar Musanın adını daşıyan isə iki dəfə insan öldürən, 24 il həbsxana həyatı yaşayan biridir. Beləliklə, insanlara verilən peyğəmbər adları müqəddəs insanlara xas müsbət keyfiyyətlərin müasir dünyaya ötürülməsini təmin etməyə hesablansa da, əcdadlarından fərqli olaraq İshaq və Musa müsbət deyil, mənfi xüsisiyyətlər daşıyıcısıdırlar. Dəyərsizləşən ali məqamlar - taxıl anbarına çevrilmiş məscid, anlamını itirən xosbəxtlik ("Xoşbəxtlik adlanan o qidanın özü mənə iyrənc görünür indi...") qəfəsə çevrilən dünyanın atributları olaraq canlandırılır.

Ailənin yeganə övladı olan İshaq valideynlərini itirdikdən sonra tənha ömür sürür. Qəribə sənəti olan - taksidermist və aldığı zərbə nəticəsində demensiya xəstəliyinə düçar olan gənc kimi romandakı digər personajlar – Çörəksatan - pişik saxlayan adam, Bomj, Musa da tənha, həyatın hər üzünü görmüş insanlardır. Bəzilərinin həyatını paqonlular ("obaxeis") məhv edir (əmioğlu İsrafil), digər tərəfdən insanlar özləri bir-birinin qanına susayır (İshaqı öldürən Marat, Sədrəddin həkim, aldatmağa çalışan fırıldaqçılar - Şeyx Zülfüqar, ağsaqqal Nuhbala), üçüncüləri isə tale özü cəzalandırır (Həqiqət bibi, Brilyant) və s. Əsərdə hər kəs kədər saçır – İshaq, Brilyant, Çörəksatan, ortaya düşüb oynamaqla dərdini səngidən Bomj... Canlandırılan dünyada insana fərəh gətirən hər şey bitib-tükənib, xoşbəxtlik yalnız uydurma, illüziyadır: "Özümü o qədər rahat hiss eləyirdim ki, heç deyiləsi deyil. Bilirdim ki, bu dəqiqə dirəklərdən süzülən lampa işığından da xoşbəxtəm. İçində nur topası kimi bir dəstə gülə bənzədiyim gecənin özündən də bəxtiyaram... Amma adını belə bilmədiyim, quzu kimi dalınca düşüb getdiyim adam məndən də bəxtəvər görünürdü..." Dərdin insanı üstələdiyi, sındırdığı ortamın təsviri (ölmüş insanın bəxtəvərliyi) vahimə yaradır.

İshaqın həyatının müxtəlif mərhələlərinin canlandırıldığı ayrı-ayrı epizodlardan ibarət romanı oxuduqca Cəlil Məmmədquluzadə yaradıcılığı ilə paralellər müşahidə olunur: ölüm ayağında olan yaxınına buzu çatdıra bilməyən uşağı ömrü boyu təqib edən əzab hissi ("Buz"), kömürlə divarda şəkillər çəkən "saqqallı uşaq", insanları aldadan Şeyx ("Ölülər")... İshaqın beynində dolaşan Füzulinin "Şövqi-lə'lin gəl çıxar mümkünsə candan, ey təbib!" misrası kimi, oxucu yaddaşında canlanan assosiasiyalar da dövrdən asılı olmayaraq eyni problemlərlə qarşılaşan personajların xatirimizdə canlanmasına səbəb olur.

Xatirələri olmayan, yaddaşına arxalanmayan insanın şəxsiyyət kimi bütövləşməsi mümkün deyil. Şəhərdə məqsədsiz şəkildə dolaşan, yaddaşının dolanbaclarına baş vuraraq başına gələnləri xatırlamağa çalışan İshaq qorxu və həyəcan keçirir. Yaddaşında canlanan ani təəssürat (detal) onun ömrünün müxtəlif dövrlərini xatırlamasına təkan verir. Yaddaşının qayıtması, daha çox

hadisələri xatırlaya bilməsi həyatının ən böyük sevincidir. Uğurlu seçilmiş təhkiyə rakursu həyata qayıtmaq şansını itirmiş insanın düşdüyü vəziyyətin çıxılmazlığını, ağırlığını ifadə edir. İshaq düşünmədən etdiyi hərəkətin nəticəsini aradan qaldırmaq üçün müxtəlif yollara əl atsa da (yaddaşının qayıtması üçün içdiyi həblər, Sədrəddin həkimə inanması), geriyə yol yoxdur.

Yuxu əsasən reallıqdan mistik aləmə keçid üçün istifadə olunsa da, romanda, əksinə, çox zaman reallığı əks etdirir. Həyatının bir çox məqamlarını İshaq məhz yuxularında xatırlaya bilir.

Hadisələrin dağınıqlığı, təhkiyəçinin beynində yaşananlar, "xəstə" şüur dünyadakı xaosu tamamlayaraq dəqiqliklə ifadə etməyə imkan verir. Ömrünün müxtəlif mərhələlərini xatırlayan İshaqın taleyi ağrı və əzab doğurur - uşaqlığından atası ilə bağlı epizod və sərçələrə ömürlük nifrəti, başından zərbə alması ilə həyatını itirməsi, onu aldadaraq sonuncu tikəsini əlindən almağa hazır olan fırıldaqçıların əməlləri... Gözləntilərinin əksinə olaraq, həyat ona ümid və sevinc deyil, yalnız iztirab və əzab bəxş edir, sevgini yalnız "qızılca" kimi öldüyü zaman yaşaya bilir: "Bütün ömrü boyu heç kimə aşiq olmayanların, eşqin nə olduğunu heç vaxt bilməyənlərin də sevgisi qızılca kimi gəlir".

Təhkiyənin diskret formada inkişaf etdiyi, daxili monoloqun zaman-zaman şüur axını ilə növbələşdiyi roman-monoloqda personajın bu günü deyil, keçmişi nəql edilir. İndiki və gələcək zaman istisnadır, çünki təhkiyəçi ölmüş biridir. "O, köhnə mücrünü qucağıma qoyub, gülümsündü: – Rusyətdə ölüb gələn... (İshaq – L.H.) – Hə... – dedim. – Yoxsa sənin kimi? – Elə onu de... Ömründə bir dəfə Bakıya gedəsən, özü də xalan qızının toyuna. Səadət Sarayının pilləkənindən kəlləmayallaq yıxılasan, boynun qırıla, elə ordaca qalasan... Özün cəhənnəm, yazıq qızın da toyunu çevirəsən yasa. Belə şey olar? (Brilyant - L.H.). Əvvəlcə gülüşdük, sonra xeyli susduq. Çünki heç birimiz heç nə anlamırdıq, heç nə..." Beləliklə, personajların həyatda olmadıqları özləri tərəfindən bildirilir. Hadisələrlə tanış olduqca fiziki ölümün yadlaşma, insanlar arasında etibarın itməsi, ümidsizliyin bərqərar olması ilə şərtləndiyi aydınlaşır.

Özünə doğma olan məkanlarda dolaşan, tanıdığı insanlarla qarşılaşan İshaq məkanın "yad"lığını hiss etmir, haqq və nahaq dünya fərqləndirilmir: eyni insanlar, eyni əməllər canlandırılır: "ortada Sədrəddin həkim kimi əjdahamız var... Bu sözü qoyum, o sözə keçim, şeyx, yadına gəlir, yazıq Sədrəddin həkimi maşın necə xurd-xəşil eləmişdi bazarın sfetaforunda? Qırmızıda keçmişdi deyəsən, cənnətməkan... Amma ömrü boyu qulaqkəsən olub haa, özü də qəddarından! Hə, bax, o, hər şeyi yoluna qoyacaq, özü deyib. Narahat olmağa dəyməz. Şeyx qımışdı: – Yəni, üzü qibləyə". Yuxusunda öldürdüyü əntəri özü ilə sürüyən bomj, doğulmamış körpənin keçmişi kimi personajlar hadisələri mistik ahəngə yönəldir, axirətin mənzərəsi tədricən sezilir. On dörd gün Keçiqıran dərəsində, bir aydan çox nənəgildə qalan İshaqı tanımadğı adam səsləyir və onlar ikilikdə yola çıxırlar.

İnsanın sinəsi altında gəzdirdiyi ürəklə müqayisə olunan, sonadək hər kəsin bir-birinə ötürərək qorumağa çalışdığı qədim mücrü bütün səylərə baxmayaraq sonda parça-parça olur: "O mücrüdəkindən xəbərin var? – Nə mücrü? Mücrü nədi? – Bax, budu! Bunu deyirəm dəə! – Sinəmə bir yumruq ilişdirdi. – Bilmirsən bunun içində nə var? Bax, bu qabırğaların altındakını deyirəm eey, ondan muğayat ol!" Əsərdə günah konsepti yalnız ətrafdakılarla bağlı deyil, Brilyantın həyatını məhv edənlər, bibinin dövlətini ələ keçirməyə çalışan "juliklər" kimi İshaq özü də günahkardır. Marat İshaqı sevgilisi Sveta ilə münasibəti olduğu üçün vurur. İshaq isə itirdiklərinin fərqindədir: "Mücrü... Mücrü haa! Pah! Olmaz bu sınıq-salxaq sinədən. Olmaz bu nərdivana oxşayan qabırğaların altında olanlardan! Hələ bir muğayat da olacam. İşim-gücüm qurtarıb elə... Sonra da fikirləşdim ki, "başı xarab olub bu adamın yəqin. Bəs bilmir ki, indiyə orda heç nə qalmaz?" Başına gələnləri nəql edən İshaq gunahını yumağa çalışmır,

əməlinin ağırlığına varmayaraq, hadisənin Maratın səfehliyi ucbatından baş verdiyini qeyd edir: "Neylədiyini bilməyən Maratlar... Sveta xislətli qancıqların ağuşunun istisinə aldanıb "qardaş" dediyi, "qanımız birdi haa..." dediyi adamı "uf" demədən oyanlıq eləyən Maratlar..."

Zahid Sarıtorpaq həm də şairdir və romanda nə qədər kədərli və ağır təsvir yer alsa da, fərqli, metaforik şəkildə xarakterizə edilən personajlar əsərə lirizm qatır: "Məsum, dilsiz-ağızsız, fağır anamın. Necə zülm-zillətlə yaşadı, necə əzablar çəkdi yazıq anam... Elə bil, şüşə bir balona salınmış kəpənək idi, ağzını bağlayıb, gətirib qoymuşdular güllü bir çəmənliyə... Yəni yazın ətri vurmadı onu heç vaxt, o, qalın şüşənin arxasından güllərin şəklinə baxdı ömrü boyu... Baxdı, baxdı... amma onların qoxusunu, təmasını duymadı ölənəcən, duymadı... O ağzıbağlı şüşə balondakı kəpənək kimi baxa-baxa qaldı elə adına dünya deyilən bu divanəxanaya... Axırda da yazın, baharın yox eey, mənim dərdim öldürdü onu, mənim..."; "İçi sümürülmüş, ağzına tıxac vurulmuş gərəksiz bir kuzəydim elə bil, düşüb böyrü üstə qalmışdım. Bir təpik vuran olsaydı, çiliklənəcəkdim, içimin boşluğu çıxacaqdı üzə..." Mövzunun ağırlığına rəğmən, metaforik təsvirlə şərtlənən lirizm əsərin intonasiyasına dinamiklik qataraq birnəfəsə oxunmasına sövq edir.

Son olaraq bu mürəkkəb, qəmgin dünyadan ümidsiz ayrılmırıq. İnsanın yanlışlarını bütün mürəkkəbliyi ilə canlandıran yazıçı ümidsizliyə qapılmır, əksinə, yaşam meyarlarımız haqqında yenidən düşünməli olduğumuzu aşılayır. Bu gün yaşadıqlarımız - dünyanı saran virus, karantin, ümidsizlik və s. əsasən, düşünülmədən yaşanılan həyatın bədəli olaraq qiymətləndirilir. Bu cür həyatdan bəşəriyyətə qalan isə yalnız müqəvva - canlını xatırladan içiboş bir maket ola bilər. Bu baxımdan, insanın müqəvvaya çevrilmə ehtimalını sərgiləyən əsər həyatda qoruyacaq heç nəyi qalmayan, tükənmiş müasir insan haqqında elegiya kimi oxunur.

**OXUCULARIN NƏZƏRİNƏ!**
**2020-ci İL ÜÇÜN**
**"AZƏRBAYCAN"**
**jurnalına abunə yazılışı davam edir.**
**"AZƏRBAYCAN"**
**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,**
**illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**

# İsmayıl Saryalın “Bakı rüzgarı” romanı: mühacir ömrünə əsən küləklər




### – 1 –
### *Faciə və ümid*

XX əsrin əvvəlləri dünya tarixində ictimai-siyasi təbəddülat və kataklizmlərin ifrat həddə çatması ilə yadda qaldı və sonradan dünyaya gələn hər bir insanın yaddaşını ehkamçı baxışla yeniliyin, əsarətlə azadlığın kəskin mübarizə alovuyla qarsıdı, bu kiçik zaman çərəyində baş vermiş hadisələr böyük bir epoxanın içiylə qan dənizi kimi axıb keçdi: tarix, zaman və bunları anlamaq tərzi kardinal şəkildə dəyişdi.

Bu dəyişiklik sözügedən müstəvidə insanların həyatında elə bir rol oynadı ki, ömrün mənası, onun vətən və millətlə bağlanması, ümumən, millət olma gerçəyi ilə bağlı məsələləri gündəmə gətirdi. XX əsrin əvvəllərində şura hökuməti və rejiminin qurulmasıyla insanların zorən vətənini tərk etməsi, yad ölkələrdə sığınacaq tapması hadisəsini araşdırarkən bərqərar olan rejimin “mühacirət” anlayışına hansı mənanı verməsini mütləq nəzərə almaq lazımdır. Məlumdur ki, Stalin rejimi bu hadisəyə vətəni satmaq anlamını verir və beləliklə, insana qul, yaxud əşya kimi baxmasını təsdiqləyirdi. Yuri Borevin fikrincə, “mühacir Vətəndən uzaqlarda yaşasa da onunla daxili rabitəsini itirməmiş insandır və bu insan mahiyyətcə faciəvidir”. Mühacir, şübhəsiz ki, nə Vətən xaini, nə də dönükdür. Y. Borev bunu rusca daha dürüst ifadə edir: “Эмигрант не отверженный, неотщепенец, не передатель Родины. Он блудный сын Отечества.” Yenə bu görkəmli alimin fikrincə, “İzotop kimi mühacir mədəni prosesdə kifayət qədər əhəmiyyətli məqamları üzə çıxardır.” Fikrimizcə, mühacirət hicrət və nostalgiya anlayışlarından çox-çox böyük və geniş anlamdır. Vətəni birdəfəlik tərk etmiş insan daim öz daxili səsini, daxilinə aşılmaz sədd kimi yüklənmiş sədaqət və sevgi, vətən sevgisini dinləyir, bu “izotopları” müvafiq konfiqurasiya biçimində yanaşdırıb vətən adlı ucusuz-bucaqsız məkanda gedən mədəni prosesi dərindən dərk edib dürüst nəticə çıxarmaq, irəli aparmaq istəyir. Bir anlığa M.Ə.Rəsulzadənin onu tənqid edən şeir parçalarına görə qəzəblənməməsini, əksinə, son dərəcə müdrik sözlər deməsini xatırlayın. Mühacirin məqsədi həmin çoxmənalı mədəni prosesdə iştirak edib bu şəkildə vətənin azadlığına yetişməkdir. Məlum hadisələrdən sonra vətəni tərk etmiş mühacirlər yaşayıb-çalışdıqları məkanda Azərbaycan yazıçı və dramaturqlarının, eləcə də böyük satirik Mirzə Ələkbər Sabirin yaradıcılığı haqqında tamam fərqli kontekstdə əsərlər yazdılar. Bu yazılarda filoloji səviyyə arzu edilən yüksək səviyyədə olmasa da həmin mühacirlərin mədəni prosesdə belə fərqli ampluada iştirak

etmələri daha sonradan bu və digər əsərlərin tarixə təsirinə şərait yaratdı. Yəni, insanlara başqa cür, tam fərqli düşünmək fürsəti verən bu kitab və yazılar sonradan müstəqillik dönəmini yaşayıb-yaratmaqda, xüsusən də keçmişdən düzgün yolla ayrılmaqda kömək etdi. Burada vurğulanmalı olan başqa bir dəyərli məqam da var. Vətəndə yaşayıb onun gerçəklərindən yazmaqla mühacirətdə vətənə baxıb yazmağın diametral fərqləri var. Yaxından baxanda işıq hər şeyi "qaraldır", əşya və ya hadisənin konturlarını daha səlis görməyə mane olur, uzaqdansa bu işıq hər bir zərrəciyi ilə görünə bilir. Ona görə də XX əsrin əvvəllərində vətəndən uzaqlarda yaşamış və yaratmış mühacirlərin tarixə təsir baxımından oynadıqları rol böyükdür.

### – 2 –
### *"Bakı rüzgarının" müəllifinin ömürlüyü*

İsmayıl Saryal (Seyidzadə) 1896-cı il fevralın 13-də Gəncədə, Vəqflər müdiri Mir Hacı Seyid Əhməd və Minabəyim xanımın ailəsində doğulur. İsmayıl bir azərbaycanlı ailəsi üçün norma hesab edilən dini ənənələrə, mənəvi dəyərlərə bağlı bir mühitdə böyüdü; onun valideynləri sayılıb-seçilən və hörmət edilən insanlar idilər.

Qeyd edək ki, İsmayıl Saryal adı keçən "Bakı rüzgarı" romanında Oğuz obrazıyla ailəsi və özündən söz açır, eyni zamanda, həmin dövrdə Gəncə şəhəri üçün tipik sayılan insan mənzərələrindən təmkinlə danışır. Maraqlıdır ki, müəllif insan təsvirlərində etnik-kulturoloji cizgiləri təqdim etməkdən də yan keçmir. Romanda müəllif özünü prototipi vasitəsilə belə səciyyələndirir: "Orta boylu bir Azəri gənciydi. Heç bir xüsusi cəhəti yox idi. Hamı kimi hərəkət eləyir, hamı kimi yaşayırdı, nə coşqun, nə də həddən artıq sakit idi. Varlı ailənin övladı demək olmazdı, amma həyatından da razıydı. Doğulduğu gün anası ona Oğuz adı qoymuşdu. Böyüyəndə də bu adı çox bəyənmiş, anasının əlindən öpmüşdü. Soyadları Qayalı idi. Ailəsi islam dininə bağlı olduğundan, onu bu yöndə tərbiyə eləmişdilər. Bu hərəkət təbii deyildi, adət idi. Qolları-qıçları qısa, gövdəsi uzun, çiyinləri və alnı geniş, dərisi ağ və gözləri ala idi. Asiyalı idi, türk irqindən gəlirdi. İlk danışdığı dil olan türkcə onun ana diliydi". Dövrünün aydın insanlarından olan Əhməd bəy oğlunun təhsilinə ayrıca diqqət yetirir, ən yaxşı məktəblərdə təhsil almasını təmin edirdi. Elə bu səbəbdəndir ki, oxuduğu məktəblərdə rus, alman, fransız dilləri daxil olmaqla ona bir çox dillər öyrədilmiş, lakin bu dillər içərisində ən yaxşı danışdığı rus dili idi. Həyatının sonrakı illərində də bu qabiliyyəti özünü doğruldur. O, ibtidai təhsilini Gəncədə alır. Avtobioqrafik səciyyəli "Bakı rüzgarı" romanında taleyində və yaddaşında Gəncənin xüsusi yeri hiss olunur. Həmçinin, o zaman türklüyün mərkəzinə çevrilmiş Gəncə istər coğrafi, iqtisadi, istərsə də, siyasi və mədəni mənada Azərbaycanın həyatında böyük əhəmiyyət daşıyırdı. Bu şəhərə olan böyük sevgisini müəllif sonralar yazdığı romanın səhifələrinə daşıyır və ondan xüsusi rəğbətlə bəhs edirdi. Deməliyik ki, İsmayıl bəylə bağlı məlumatlarla tanış olduqda, eləcə də əsərdə özü ilə bağlı profili izlədiyimizdə onun şəxsiyyəti ilə bağlı bizdə belə bir təsəvvür formalaşır: o, olduqca azad düşünən, fikri mənada həmyaşıdlarından irəli gedən, eyni zamanda da köklərinə son dərəcə bağlı bir insan olub. Elə əcdadlarını araşdırıb öyrənmək üçün gimnaziya təhsilini Lənkəranda almaq istəyi də bu xarakterdən qaynaqlanırdı. İstəyinə qismən nail olmasa da, Qohumu İskəndər Talışxanlıyla dost olmuş, gimnaziyanı müvəffəqiyyətlə bitirmişdi. Daha sonra Kiyev Politexnik İnstitutunun elektik mühəndisliyi fakültəsinə daxil olur. Kiyevə təhsil almağa getdikdən bir ay sonra atasının ölüm xəbərini alır. Daha sonra beş azərbaycanlı dostu ilə Kiyev Politexnik institutunda kursu tamamlayıb yay tətilini keçirmək üçün vətənə döndükləri zaman gözlənilməzliklərlə qarşılaşırlar. Həmin dövrdə Kiyevdə də vəziyyət o qədər yaxşı deyildi. Burada da dalğalanma müşahidə olunurdu. Çox

sayda müxtəlif tələbə təşkilatları inqilabi fəaliyyətlə məşğul idi, tez-tez iğtişaşlar baş verir, tələbələr həbs edilirdi. Mövcud hadisələr səbəbilə, əsasən, 1917-ci il inqilabından sonra təhsilini davam etdirə bilməyən İsmayıl Seyidzadə Bakıya qayıdır, Milli hökumət tərəfindən Almaniyaya, Berlin Texniki Universitetinə göndərilir. 1924-cü ildə təhsilini tamamlayan gənc mühəndis evləndiyi alman qızı Helena ilə Azərbaycana qayıdır, Bakı-Sabunçu-Suraxanı elektrik dəmir yolunda mühəndis kimi çalışır. Eyni zamanda, N.Nərimanov adına Politexnik Texnikumu və M.Əzizbəyov adına Politexnik İnstitutunda çalışır. Lakin Stalin repressiya dalğası onun həyatından da yan keçmir. O, 1929-cu ilin sentyabrında ailəsilə birgə İrana, 1930-cu ildə isə Türkiyəyə qaçmağa nail olur. Burada Saryal soyadı götürən İsmayıl Seyidzadə Ankarada məskunlaşır, Elektrik və Qaz fabrikində işə girir, orada baş mühəndis vəzifəsinəcən yüksəlir. 1982-ci il fevralın 13-də Ankarada vəfat edir.

Onu da qeyd edək ki, romanda müəllifin yaxın qohumu, sonralar Milli hökumətin naziri və sədri olmuş Nəsib bəy Yusifbəylidən də bəhs edilir. Hətta onun qardaşı Həmid bəy Yusifbəylinin mövcud dövrdə Azərbaycan xalqının maariflənməsi üçün atdığı ciddi addımlar - milli dildə kitablar çap edən mətbəə açması, daha sonra Mərkəzi Ruhaniyyə məktəbinin açılmasında ideya müəllifi kimi çıxış etməsi romanın güclü informativ enerji daşıyan mənbələrindəndir. Deyilməlidir ki, bu fəaliyyətlər müxtəlif çətinliklər - təqib və təzyiqlər bahasına reallaşırdı. Həmçinin, Kommunist partiyasının Azərbaycandakı əsas füqurlarından, milli varlığımıza qarşı daim düşmən münasibətdə olan Mustafa Quliyevlə bağlı məqamlar roman səhifələrində yer alır. Müəllif onunla Kiyevdə təhsil alarkən tanış olur. Onun sərt və acıqlı biri olduğunu vurğulayır, eləcə də, radikal çıxışları ilə də diqqəti cəlb etdiyini qeyd edir. Daha sonralar da onlar bir neçə dəfə qarşılaşırlar. Hər dəfəsində də milli mədəniyyətimizə, ədəbiyyatımıza, tariximizə yad mövqedə çıxış edən Mustafa Quliyevin mənfi istiqamətdəki müxtəlif tərəflərinin şahidi oluruq. Hətta o vaxt təhsil naziri olan Quliyevin yanına iş istəmək üçün gedən (Quliyevin - S.M.)"Oğuz" xarakterini görməz-likdən gəlməsi xeyli vaxtdır davam edən siyasi zəmində ədavətin tərkib hissəsidir.

## – 3 –
## *“Bakı rüzgarı” janr-üslub kontekstində*

Roman, onun yazılma səbəbi və digər vacib detallar haqqında kiçik bir haşiyə... İsmayıl Saryal mühacirət ədəbiyyatı kontekstində mühüm əhəmiyyət kəsb edən “Bakı rüzgarı” romanını 1975-ci ildə qələmə alır. Övladlarının da qeyd etdiyi kimi, ölkə daxili və xaricində baş verən siyasi hadisələr səbəbilə romanın nəşri 1997-ci ilə qədər təxirə salınır. Müəllifin oğlu Nuri Saryal və nəvəsi Nilgün Saryal tərəfindən hazırlanıb Ankarada çap olunan “Bakı rüzgarı” romanı müəllifin görüb şahidi olduğu və eşitdiyi istiqlal dövrü tarixi hadisələrinin məcmusudur: “Bu əsər romandan daha cox uzun bir hekayətdir. Bir Azəri gəncinin hekayəsidir, yəni bir gəncin gerçək həyatıdır. Bunu vətənini tərk edib Türkiyəyə sığınan minlərlə Azəri ailəsinin hekayəti də adlandırmaq olar, çünki hamısının keçirdiyi çətinlik bir-birinə bənzəyir”. Əslində, İsmayıl bəyin də yazarlıq tarixçəsi digər mühacir mətbuatı nümayəndələrinin ədəbiyyata gəlmə səbəblərindən çox da fərqlənmirdi. Peşələrindən, siyasi arenada tutduqları mövqedən və qabiliyyətlərindən asılı olmayaraq, istiqlal duyğusu, qürbət ağrısı və ağır həyat şəraiti onları eyni dalğada - ədəbi müstəvidə birləşdirirdi. Tərtibçilər yazırlar ki, dostlar arasındakı ailə toplantılarında, həmvətənlərlə bir araya gəldikdə İsmayıl bəy şahidi və iştirakçısı olduğu istiqlal dövrü hadisələrindən bəhs edərmiş. Sonralar israrlar üzərinə həmin hekayətləri roman şəklində qələmə alır. Demək lazımdır ki, əvvəllər yazı təcrübəsi olmayan birinin sürəkli təhkiyə gücünə malik belə bir əsər ortaya qoyması təəccüb doğurur. Bu əsər həm də, berlinli alman

qızıyla azərbaycanlı gəncin eşq və azadlıq uğrunda mübarizəsinin ən yaxşı sənədidir.

Romanda siyasi təqiblər səbəbilə bəzi şəxslərin adları dəyişdirilmişdir. Qeyd edək ki, müəllifin hələ Kiyevdə təhsil alarkən dostları ilə tətil səbibilə vətənə döndüyü zaman, elə vağzaldaca erməni fitvası ilə hərəkətə keçən rus kazaklarının basqını ilə başlayan mücadilə dolu həyatının 1930-cu ilə qədərki gərgin hadisələrlə zəngin mərhələsi burada əks olunmuşdur. Onun 1930-cu illər Atatürk Türkiyəsində keçən həyatının başqa bir hekayənin mövzusu olduğu söylənilir. Hələlik onun bizə məlum olan əsəri haqqında bəhs etdiyimiz romandır. Yeri gəlmişkən qeyd edək ki, “Bakı rüzgarı” romanı uzun illərdən sonra ilk dəfə məhz Nəriman Əbdürrəhmanlının tərcüməsində Azərbaycan ədəbi ictimaiyyətinə təqdim olundu.

İsmayıl Saryalın “Bakı rüzgarı” romanını bir neçə aspektdən təhlil etmək lüzumu yaranır. Əvvəlcə belə bir sual yaranır: “Bakı rüzgarı” əsərində bədii mətn hansı tipə aiddir. Bunu aydınlaşdırmaq üçün funksional üslubiyyatın memuar ədəbiyyatı, memuar nəsrinə tətbiq edilən xüsusiyyətlərindən söz açmaq gərəkdir. Tədqiqatların birində oxuyuruq: “...Ədəbiyyatşünaslıqda müxtəlif tip bədii mətnlərin analitik və eyni zamanda, şərhə əsaslanan təhlilinin zəngin və misilsiz təcrübəsi mövcuddur ki, bu da həmin əsərlərin mənəvi, kulturoloji və estetik aspektlər baxımından dərkini zaman keçdikcə dərinləşdirmişdir.” Müəllif daha sonra qeyd edir ki,“Yaddaş mədəniyyətin əsasıdır. Memuarlar isə yaddaşın sözdə və sözlə əşyalaşmasıdır”; tədqiqatçıların fikrincə, o (memuarlar - S.M.), “nəsillərin mənəvi varisliyinin vasitələrindən və cəmiyyətin mədəni səviyyəsinin, onun öz keçmişinə şüurlu və analitik yanaşmasının göstəricilərindən biridir.”“Baki rüzgarı” janrı etibarı ilə sinkretikdir, yəni, burada təkcə memuar xətti deyil, digər bədii-publisistik istiqamətlər də janr məkanına hərəkətdə olan vektorlar kimi daxil olur və bədii mətnin canlılığını, eyni zamanda isə “funksional nitq tərzini” şərtləndirir. Bəs bunun köklü səbəbi nədir? Məsələ belədir ki, zamanın istənilən çağında hər hansı məmləkətdə təkcə siyasi rejimi deyil, daha çox insanların arzu və ümidlərini, onların ömrünün altını üstünə çevirən hadisələr baş verdikdə, müəyyən müddət keçdikdən sonra insanlarda həmin “uçurumdan” keçmək, baş verən hadisənin şırımlarını yazmaq ehtiyacı yaranır. İsmayıl Saryalın bədii nəsr qələmə almasının əsas, köklü səbəbi, zənnimizcə, budur. Diqqət edin, o, Türkiyədə çalışdığı işdən təqaüdə çıxdıqdan sonra bu əsəri qələmə almaq qərarına gəlir, yəni, İsmayıl Saryal təkcə öz ömrünün tarixçəsini, öz başında çaxan ildırımları deyil, bütövlükdə Azərbaycan adlı ölkənin yuvarlandığı uçurumun süxurları haqqında yazırdı və bu kontekstdə o dövrdə dünyanı qoynuna alan girdabın içində nə hiss etdiyini bildirmək istəyirdi. Fikrimizə dayaq kimi, nəzəri ədəbiyyatda rast gəlinən bu tipli bədii nəsr nümunəsinə yönəlik fikirləri nümunə kimi vermək olar: “... memuar, mənəvi həyatın xüsusi hadisəsi kimi həmişə intibah xarakterlidir. Çünki memuarlarda şəxsiyyətin əqli inkişafının dönüş mərhələləri, onun “özünü dünyada” və “dünyanı özündə” dərki əksini tapır.

“Bakı rüzgarı” romanını oxuyarkən hislə qavradığımız poetik komponentlərdən biri də sürəklilikdir. Müəllif irad etdiyi nitqin əvvəlindən sonuna qədər bütün diqqətini hadisələri yerli-yataqlı, həm də fikrən təhlil süzgəcindən keçirib nəql edir, bu mənada onun üçün əsas olan hadisələrin baş vermə ardıcıllığından çox, zamanın dəyişdiyi, sındığı, başqa, olduqca radikal xarakterli hadisələrə keçid edildiyi məqamlarını tutmaq önəmlidir. Müəllifi bu tip mətni qurmağa vadar edən faktor məhz tarixin dəyişməsi və tezlik vektorları içində insan ömrünün dağılması, onun mübarizəsinin, bəslədiyi idealların taleyi, sanki bir göz qırpımında baş verənlərin bütün ərzi silkələməsi, bu “zəlzələdən” sonra qurulan yeni düzümün insanlara düşmən kəsilməsi... kimi olaylardır. Yer-yerdən ayrıldığı, sənin tarixin başlanğıcından gələn həyatının yeni siyasi rejimə aid olmadığı üçün insanlar Vətəni tərk edir, ya da olduğu qürbətdə Vətənə dönə bilməyəcəyini anlayıb dərin

sarsıntı keçirir. Bilindiyi kimi, İsmayıl Saryal Azərbaycan Cümhuriyyətinin xaricə oxumağa göndərdiyi 100 gəncdən biri idi. Bu məqamda mübahisəli görünən bir cəhətə diqqəti yönəldək. Bilindiyi kimi, Milli hökumətin istiqlal təlimi həm də maarif və müasirlik ideoloji istiqamətində inkişaf edirdi. Azərbaycanlı gənclərin təhsil üçün müxtəlif xarici ölkələrə göndərilməsi də bu fəaliyyətin bir parçası idi. Hətta, Vilayət Quliyevin hadisəylə bağlı geniş şərhində həmin tələbələrin sayının əslində 101 olduğu, lakin onlardan birinin xəstələnərək dünyasını dəyişməsi və digərinin də "qan davası"na qurban getməsilə bu sayın 99-a enməsinə dair məlumat var. Lakin mövcud mətndə müəllif israrla 86 tələbədən bəhs edir. Yeri gəlmişkən qeyd edək ki, Ədalət Tahirzadənin "Cümhuriyyət tələbələri" araşdırmasında İsmayıl Saryala da xüsusi yer ayrılmışdır. Cümhuriyyətin devrilməsi ilə onun həyatında radikal dəyişikliklər baş verir, bundan sonra bütün güc və enerjisini sərf edib Azərbaycanda 1910-1930-cu illərdə cərəyan edən milli mücadilənin sıra nəfərinə çevrilir, şübhəsiz ki, aktual olaraq yox, fikrən. Bu məqam onun sonralar yazacağı “Bakı rüzgarı” memuar xarakterli bədii nəsr nümunəsinin təhlili üçün çox önəmlidir: “Millətlərin təkamülü ümumi surətdə hadisələrin doğurduğu zərurətlərlə həmahəng olmaq nəticəsində baş verir. Xarakterləri çox mühafizəkar olsa da, bu hal onların sürətli təkamülünə kafi dərəcədə sədd çəksə, çoxmüddətli inqilab baş verə bilər”. Konkret olaraq bu hal məhz əsrin əvvəllərində Azərbaycan xalqının tarixi taleyində baş vermişdir. Millət olma gerçəyi təbiətin və tarixin ruhundan doğan bu hərəkatın başlıca motivinə çevrilirdi. Bəli, məhz hərəkat! O mənada ki, sanki hansısa qüvvənin hərəkətə gətirdiyi bu sürətli dalğa tarix, milli mənlik, irsiyyət, mədəniyyət kimi məfhumları öz sıralarına qataraq getdikcə daha da şiddətlənərək ətrafa yayılırdı.

Bir anlığa təsəvvür edin ki, sürətlə axıb gedən çaya baxırsınız və bu sürətlə axan suların altındakı girdabı düşünməyə macal tapmırsınız. Memuar xarakterli bədii mətndə iki eyni zamanda, baş tutan hadisə mövcuddur: sürətlə axıb keçən zamanı izləmək və eyni zamanda girdabı düşünmək. Əsərdə bununla bağlı məqamları sitat verə bilərik. Diqqət edin: "Birinci Dünya müharibəsi Rusiyanı lap əldən salıb yormuşdu. Çar üsuli-idarəsindən narazı olanların sayı hər gün artırdı...

Müxtəlif irqlərdən ibarət olan, Rusiyanın qərbdən şərqə və şimaldan cənubacan böyük bir hissəsini əhatə eləyən ərazidə yayılmış millətlər yaranan və həyati əhəmiyyət daşıyan vəziyyəti narahatlıqla izləməyə başladılar... Rusiyada nizam gündən-günə daha da pozulurdu. Bölgələrdə yaşayan millətlər müstəqil yerli hökumətlər qurmağa başladılar. Hadisələr Azərbaycana da təsir elədi. Burada da idarəetmə dağılmış, tamamilə iflic olmuşdu. Şəhərin küçələrində silahlı adamlar dolaşırdılar. Hər an bir hadisə baş verməsi ehtimalı vardı". Burda bədii mətn kontekstində “görünən” janrla bağlı bir cəhəti də qeyd edək: istənilən memuar xarakterli bədii mətnin spesifikasında təhkiyəçinin “ikiliyi” anlayışı mövcuddur. Yəni, həmin təhkiyəçinin varlığı mətndə iki zamanda əyaniləşir. Indiki zamanda (yazı zamanı) və keçmişdə (hadisə zamanında). İsmayıl Saryalın mətnində qurulma baxımından iki prinsip eyni zamanda izlənilir: nəqletmədə həqiqilik (doğruluq) və subyektivlik. Xatirə üçün çəkilən fotolarda insan gələcəyə necə baxırsa, memuar yazan müəllif də həmin baxışın perspektivini tutub keçmişi indiləşdirməli və ona fərdi yaşantısını qatmalıdır. Yəni, memuar tipli nəsr əsərinin təhkiyə strukturundakı “foto üslubu” eyni zamanda fərdi başlanğıc, hadisələrə fərdi baxışı istisna etmir, əksinə, bu hadisələrin həm tarixi, həm də kulturoloji aspektdən daha aydın şəkildə yozulmasını şərtləndirir. Bunu daha anlaşıqlı şəkildə müşa-hidə etmək üçün mətnə müraciət edək: " ... Oğuz hələ beş-altı yaşındaydı. Ailənin ilki, dəliqanlı Eyyub onun əlindən tutub oxuduğu Bakı Dənizçilik Məktəbində tətil olduğuna görə yay aylarını ailəsinin yanında keçirirdi. Eyyub onun əlindən tutub Böyük Meydana aparmışdı. Meydan izdihamlıydı. Uzaqdan eşitdikləri zurna və dəf səsləri get-gedə onlara yaxınlaşır, bayram əhval-ruhiyyəsi yaradırdı. Eyyub balaca Oğuza başa salmağa çalışırdı:

- Çox-çox uzaqlarda, Uzaq Şərq adlı bir yerdə ruslar yaponlarla müharibəyə girib məğlub olublar. Rusiyada yaşayan müxtəlif millətlər bundan istifadə eləyib çar hakimiyyətindən onlara azadlıq verilməsini tələb eləyirlər. Bu tələbə azərilər də qoşulublar, ona görə bayram eləyirlər". Burada, milli azadlıq naminə müəyyən fəaliyyət məqamında olan qəhrəman yaddaş anımları vasitəsiylə illər öncəsinə gedir və sanki azadlıqla bağlı hazırki tələb və istəyin rüşeymləri araşdırılır. Məsələyə bu yöndə yanaşsaq, hadisənin müxtəlif tərəflərini şərh etmək imkanı qazanarıq. Əvvəla, formalaşmaqda olan hazırkı inqilabi milli şüurun alt qatları yaddaş vasitəsilə üzə çıxır. Demək ki, qəhrəmanımız bu mənada bəlli bir zəmin üzrə yetişmişdi. Digər tərəfdən, mövcud tarixi hadisələr iki zaman arealında - "indiki" və "keçmiş" zamanda əyaniləşir və mətndə üçüncü xətt zaman içində zaman anlayışı boy göstərir. Belə ki, müəllif yazı zamanı hadisə məkanına yaddaş vasitəsilə qayıdır və burada növbəti yaddaş dövriyyəsi baş verir; hadisə zamanından əvvəlki zaman və məkana səfər edilir. Eyni zamanda, XX yüzilin əvvəllərinə dair tarixi mərhələnin ictimai-siyasi icmalı verilir.

“Bakı rüzgarı” romanının janr spesifikasında konkret olaraq hansı komponentlər iştirak edir? Müəllif (İ.Saryal) Cümhuriyyətin qurulduğu dövrdə Vətəndə olmuş, yuxarıda qeyd edildiyi kimi, 100 gənclə birlikdə xaricə təhsil məqsədi ilə göndərilmişdir. Nəticə etibarilə, son dərəcə milli düşünən İsmayıl bəy öz təəssübkeşliyinə görə saysız təzyiqlərə məruz qalır. Bu yolda tarixdən də bizə məlum olan bir sıra əqidə yoldaşlarını itirir ki, onlardan Həsən bəy Dadaşzadənin, Cahangir bəyin ölümü onu dərindən sarsıdır. ÇEKA nümayəndələrinin törətdiyi çoxsaylı əngəllər onun Bakıdakı yaşamını mümkünsüz edir. Digər milli məfkurə yoldaşları kimi ölkədən getməyi seçir. Bu mənada əsərdən bir parçaya diqqət edək: "Bu həyəcan dolu dəqiqələrdə Bakıdan qorxu içində, gizli şəkildə yola çıxan təşkilat üzvləri, onlara qoşulan Alya (İsmayıl bəyin həyat yoldaşı - S.M.) və səkkiz aylıq balaca Mete Şərqi Anadolu dağlarının çiçək, çəmən, yarpaq qoxusu verən ətəklərində AZADLIĞI ciyərlərinə çəkir, türklüyün rəmzi olan yeni vətənlərinə qovuşmağın xoşbəxtliyi və həyəcanıyla "Ölkə... Millət... Sevgi... Vurğunluq... Xəyal... və Həqiqət" altbucağında yeni və ümid dolu bir səfərə hazırlaşırdı". 1930- cu ildə bolşevik hökumətinin ölkədə, o cümlədən Bakıda tüğyan etdiyi günlərdə təşkilat üzvləri çarəni bəzi üzvlərini, o cümlədən İsmayıl bəyin ailəsini ölkədən çıxarmaqda görürlər və onların təhlükə dolu yolçuluğu başlayır. Yuxarıda nümunə göstərilən hissə böyük qorxu və həyəcandan xilas olmanın eyforik halıdır. Lakin bu gediş zahiri effekt idi, yalnız konkret məkandan gediş kimi izah oluna bilər. Bütün varlıqları ilə arzuladıqları o azadlığa qovuşsalar da, qürbət hüznü, vətən dərdi də onlarla birlikdə getmişdi. Bu, yuxarıda deyildiyi kimi, hürriyyətə və vətənin gələcək qurtuluşuna olan səfər idi.

Təhkiyə müstəvisində onun şəxsən görüb şahid olduqlarıyla qürbətdə olarkən duyduğu və həyatındakı zəlzələ effektli hadisələrin qarışıq təsvir tipi əhəmiyyətlidir. Vətəndən kənarda ikən gözüylə görmədiyi, ancaq eşitdiyi hadisələrin məğzini vermək üçün o, istər-istəməz keçmişə ekskurs edir, ona hər nöqtəsi bəlli olan keçmişdən gələcəyə boylanır. Xatırladığı hər bir hadisəni fikrində başlanğıcı, ortası və sonu olan mətnə çevirir və bu əsnada janr ölçüsü öz yerini alır, yəni təhkiyə axarı sənədliliklə, şəxsi müşahidələrdən doğan faktiliklə subyektivliyin sərhədində qərar tutur, bu isə İsmayıl Saryalın romanını tarixdən gələcəyə baxış bucağına çevirir.



***Samirə MƏMMƏDLİ***

# LALƏ ƏLİZADƏ: MƏCAZDAN HƏQİQƏTƏ



Qədim və orta dövr Azərbaycan ədəbiyyatının nadir bilicilərindən olan filologiya elmləri doktoru Lalə (Laləzar) İkram qızı Əlizadə klassik ədəbi irsin az öyrənilmiş sahələrindən olan alleqoriya problematikası üzrə ixtisaslaşmış mütəxəssislərdən biri, Azərbaycanda isə birincisidir. O, Nizamidən başlayaraq ədəbiyyatımızda sistemli şəkildə özünü göstərən reallığın alleqorik inikasını mərhələlər üzrə araşdıran ilk tədqiqatçıdır.

Lalə xanıma qədər Azərbaycan ədəbiyyatşünaslığında klassiklərimizin irsində alleqoriya onların ümumi yaradıcılığının tərkibində öyrənilirdi. Alleqorik əsərləri daha çox pedaqoji yöndən tədqiq olunurdu. Lalə Əlizadə isə konkret ədibin yaradıcılığından alleqoriyanı çıxarıb, xüsusi tədqiqat obyektinə çevirməklə ilk dəfə hər hansı bir sənətkarın hadisələrin alleqorik təsvirini vermə mexanizmini işləmiş, fikrin bu formada inikasının ədəbiyyatımız tarixində inkişaf dinamikasını ortaya qoymağı bacarmışdır.

O, 1981-ci ildən başlayaraq müxtəlif illərdə nəşr etdirdiyi məqalələrində Azərbaycan ədəbiyyatında alleqoriyanın mənşəyini dərindən öyrənmiş, alleqorik əsərlərin ideya, süjet və obrazlar aləmini, sənətkarlıq xüsusiyyətlərini sistemli şəkildə araşdırmışdır.

Alimin bu istiqamətdən yaradıcılığını tədqiqata cəlb etdiyi ilk sənətkar Məhəmməd Füzuli olmuşdur. Bu, predmetə rasional yanaşma idi. Məlumdur ki, Füzuli “Söhbətül-əsmar”, “Bəngü Badə”, “Həft cam” kimi bir neçə alleqorik poemanın və “Səhhət və Mərəz” kimi alleqorik novellanın müəllifidir. Lakin L.Əlizadə təkcə Füzulinin sırf alleqorik əsərlərini deyil, eyni zamanda, digər bədii əsərlərini də tədqiqat obyektinə çevirmişdir. Müəllif sənətkarın irsində alleqoriyanı həqiqəti əks etdirmə vasitəsi olaraq həm mükəmməl metod, həm də ünsür səviyyəsində öyrənmişdir. Məhz bu xidmətini nəzərə alaraq, mərhum professor Əkrəm Cəfər onu “Füzulinin qızı” adlandırmış, sonradan bu ad onun zəhməti ilə qazandığı ləqəbinə çevrilmişdir. Bekə ki, Lalə xanımın üç kitabı: “Füzulinin gizli sözü” (1989), “Füzulini tədris edərkən” (1995), “Məhəmməd Füzuli” (2009) əsərləri qüdrətli söz ustası və mütəfəkkir Məhəmməd Füzulinin ölməz irsinin tədqiqinə və tədrisinə həsr olunmuşdur. O, uzun illər televiziya ekranlarından, radio dalğalarından və mətbuat səhifələrindən Füzulinin füsunkar yaradıcılığını təbliğ etmiş, gənc nəslə sevdirməyi bacarmışdır (bu sətrlərin müəllifi də həmin nəslin nümayəndəsidir).

Artıq qeyd etdik ki, Lalə xanım alleqoriyanı bədii inikas üslubu və üsulu kimi sistemli şəkildə araşdıran müəllifdir. Onun həm namizədlik, həm də doktorluq dissertasiyaları bu problemin həllinə yönələn fundamental tədqiqat işləridir. Belə ki, onun 1985-ci ildə AMEA-nın müxbir üzvi Azadə Rüstəmovanın (R.Azadə) rəhbərliyi altında müdafiə etdiyi "Məhəmməd Füzuli yaradıcılığında alleqoriya" mövzusunda namizədlik dissertasiyası və 2017-ci ildə AMEA-nın həqiqi üzvü Teymur Kərimlinin elmi məsləhətçiliyi ilə müdafiə etdiyi "Klassik Azərbaycan ədəbiyyatında alleqoriya (XII-XVI əsrlər)" mövzusunda doktorluq dissertasiyası bir-birinin məntiqi davamı idi.

Lalə xanımın tədqiqatlarında ayrı-ayrı iri həcmli alleqorik əsərlərin kompleks ədəbiyyatşünaslıq təhlilini də görə bilərik. Alim alleqorik əsərləri təkcə məzmun mündəricəsi, mövzu dairəsi baxımından deyil, sənənətkarlıq yönümündən də təhlil edir. Füzulinin "Bəngü Badə", "Həft cam" kimi əsərlərinin təhlili belə tədqiqlərə nümunə ola bilər. Cəsarətlə deyə bilərik ki, Lalə xanım alleqoriyaların bədii cəhətdən təhlil metodikasını hazırlayaraq, özündən sonrakı tədqiqatçılar üçün, bir növ, qəlib təklif etmişdir. Hazırda gənc tədqiqatçılar hər hansı bir sənətkarın alleqorik əsərini təhlil edərkən bu metodikadan yararlanır.

Alimin üç kitabı alleqoriya probleminin bədii ədəbiyyatımızda öyrənilməsi ilə bağlıdır. Həm 1989-cu ildə nəşr olunmuş "Füzulinin gizli sözü", həm 2016-cı ildə çapdan çıxmış "Söz gözəlinin örtüyü" (2016), həm də bu il yenicə işıq üzü görən "Azərbaycan ədəbiyyatında alleqoriya (məcazdan həqiqətə)" monoqrafiyaları klassiklərimizin yaradıcılığında alleqorik əsərlərin özünəməxsusluğunu tədqiq etməklə bərabər, həmin sənətkarların ümumi irsində alleqoriyadan bir vasitə kimi istifadənin spesifikasını öyrənir.

Əgər birinci monoqrafiyada bu tədqiqat ardıcıllığı konkret müəllifin ədəbi irsinə söykənirdisə, sonrakı monoqrafiyada tarixçilərin orta əsrlər kimi xarakterizə etdiyi bütöv bir mərhələdə - XII-XVI əsrlərdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığına əsaslanır.

Tədqiqatçının son monoqrafik araşdırmalarında ədəbiyyatımızda alleqoriyadan istifadənin ümumi mənzərəsini görürük. Lalə xanım alleqoriyadan istifadənin Azərbaycan ədəbiyyatında müəllifdən-müəllifə necə dəyişdiyini nümunələr əsasında göstərir, söz sənətimizdə, folklordan yazılı nümunələrə qədər, bu istiqamətdə əldə olunan ən mühüm nailiyyətləri nümayiş etdirir, sənətkarların ənənəyə sadiqlik və yeniliklərə meyil etmələrinin səbəblərini açıqlayır. Tədqiqatlarda diqqətçəkən məqam ədəbiyyatımızda geniş tətbiq olunan təsəvvüf rəmzlərinin və Quran poetikasının bəzi cəhətlərinin alleqoriya ilə əlaqələndirilməsidir.

Lalə Əlizadənin "Söz gözəlinin örtüyü" adlı monoqrafiyasında alleqoriya gerçəkliyin bədii-simvolik inikas forması kimi xarakterizə edilir. Monoqrafiyada orta əsrlər Azərbaycan ədəbiyyatında alleqoriyanın mövqeyi və ideya-estetik funksiyaları da nümunələr əsasında izah edilmişdir. Bu əsərdə Xaqani, Nizami kimi klassik Azərbaycan poeziya məktəbi nümayəndələrinin yaradıcılığında alleqoriyanın özəllikləri daha sonrakı dövr XIII-XVI əsrlər Azərbaycan ədiblərinin əsərləri ilə müqayisədə araşdırılmış, Marağalı Əvhədi, Şeyx Mahmud Şəbüstəri, Hümam Təbrizi, Əsrar Təbrizi kimi yaradıcılıqları farsca olan Azərbaycan şairlərinin irsində alleqoriyanın yeri və rolu Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Məhəmməd Əmani kimi daha çox ana dilində yazan sənətkarların əsərləri ilə qarşılıqlı şəkildə öyrənilmişdir. Adıgedən tədqiqatında müəllif lirik janrlarda alleqoriyadan istifadənin epik növün janrlarında istifadədən fərqləndiyini göstərir və bunun həmin əsərlərin daşıdığı ideya-poetik yüklə bağlı olduğunu bir daha diqqət mərkəzinə çəkir.

2020-ci ildə Lalə Əlizadənin oxucuların istifadəsinə təqdim olunan “Azərbaycan ədəbiyyatında alleqoriya (məcazdan həqiqətə)” adlı yeni monoqrafiyası da 1981-ci ildə bu istiqamətdə başladığı elmi tədqiqatlarının, bir növ, mükəmməl yekunu sayıla bilər. Alimin bu monoqrafiyasında Azərbaycan ədəbiyyatında işlənən alleqorik obrazlar ədəbi və fəlsəfi məktəblər çərçivəsində kompleks tədqiqata cəlb olunmuşdur. Müəllif belə bir yekun qərara gəlmişdir ki, orta əsrlər Azərbaycan ədəbiyyatında alleqoriya çox güclü poetik mövqeyə malik olmuş və müxtəlif ideya-estetik funksiyalar yerinə yetirmişdir.

Monoqrafiyanın diqqətçəkən cəhətlərindən biri də alimin alleqoriya haqqında elmi dairələrdə mövcud olan fikir müxtəlifliyində konsensus axtarışlarıdır.

Lalə xanım yerinə görə bədii kateqoriya və poetik ifadə vasitəsi kimi çıxış edən alleqoriyanın yeni və müasir dövr ədəbiyyatımızda da istifadə perspektivlərinin müəyyənləşməsində bu ədəbi təcrübənin böyük əhəmiyyəti olduğunu göstərmiş, A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq kimi şairlərin, H.Cavid, Ə.Haqverdiyev kimi dramaturqların yaradıcılığına həmin ənənənin nüfuzedici təsini də ortaya qoya bilmişdir.

Tədqiqatçı geniş mənada, ədəbi-fəlsəfi təfəkkür hadisəsi kimi alleqoriya ilə simvolun məna və məzmunca, eləcə də yerinə yetirdiyi bədii-estetik funksiya baxımından bir çox hallarda yaxın mövqelərdən çıxış etdiyini və bəzən də üst-üstə düşdüyünü qeyd edir. Müəllif təmsillər, atalar sözləri və məsəllərdə, eləcə də, yazılı ədəbiyyatımızın müxtəlif nümunələrində alleqoriyanın xüsusi yer aldığını və müxtəlif ədəbi nümunələrdə: lirik, epik və dramatik əsərlərin fərqli janrlarında meydana çıxdığını əsaslandıra bilir.

100-ə yaxın elmi məqalə və 6 kitabın müəllifi olan filologiya elmləri doktoru Lalə Əlizadənin elmi fəaliyyətinin mərkəzində qırx ildən artıq bir müddətdə tədqiq etdiyi Azərbaycan ədəbiyyatında alleqoriya problemi durur. Onun bu mükəmməl irsin hərtərəfli tədqiqinə həsr etdiyi tədqiqatları təkcə Azərbaycanda deyil, türk dünyasında (əsasən, Türkiyə, Özbəkistan, Qazaxıstan və Tatarıstanda), MDB ölkələrindən Rusiya və Ukraynada da hörmətlə qarşılanır. Alimin bu mövzuda 2 məqaləsi beynəlxalq bazalara daxil edilən istinad xarakterli, təsir əmsallı jurnallarda dərc olunub. Hazırda Lalə xanım yaradıcılığının ən məhsuldar dövrünə qədəm qoyub, ömrünün 70-ci baharını yaşayır. Biz yubilyarı bu münasibətlə təbrik edir, ona uzun ömür, can sağlığı və yeni-yeni nailiyyətlər diləyirik.



***Əzizağa NƏCƏFZADƏ***

# ♦Kitab rəfi




**ANAR**
**“YAŞAMAQ HAQQI”**
**BAKI, “QANUN” NƏŞRİYYATI, 2020**

Xalq yazıçısı Anarın “Yaşamaq haqqı” tarixi-kulturoloji traktatı işıq üzü görüb. Kitab Azərbaycanın qədim dövrdən bu günümüzə qədərki tarixi əhatə edir. Əsərdə bütövlükdə ümumtürk tarixinə ekskursiya olunur.

Qədim türk abidəsi olan Orxon-Yenisey kitabələrindən üzü bəri bir çox mühüm yazılı mənbəyə müraciət edən müəllif tarixi hadisələr, görkəmli şəxsiyyətlər, ictimai-siyasi xadimlər, maarifçilərimiz haqqında şəxsi mülahizələrini bölüşür.




**KAMAL ABDULLA**
**SEÇİLMİŞ ƏSƏRLƏRİ**
**BAKI, 2020**

Xalq yazıçısı, akademik Kamal Abdullayevin yeddi cildliyinin birinci cildi işıq üzü görüb. 7 cilddən ibarət “Seçilmiş əsərləri”n 1-ci cildinə akademik Kamal Abdullayevin üç romanı və haqqında məlumat, 2-ci cildinə bir romanı, bir povesti və hekayələri, 3-cü cildinə şeirləri, esseləri, pyesləri, 4-cü cildinə “Kitabi-Dədə Qorqud” tədqiqatları, 5-ci cildinə dilçilik və poetikaya aid əsərləri, 6-cı cildinə intervü və məqalələri, 7-ci cildinə onun haqqında ölkədə və xaricdə yazılan məqalə və kitablar, eləcə də yazıçının onlara münasibətini əks edən parçalar daxil edilib.

Qeyd edək ki, Xalq yazıçısı K.Abdullayevin romanları Azərbaycan və dünya tənqidində postmodern ədəbiyyatın, intellektual nəsrin bariz nümunələri kimi qeyd olunur.




**NATİQ MƏMMƏDLİ**
**“QƏHRƏMANIM SƏNSƏN”**
**BAKI, "KÖHLƏN" NƏŞRİYYATI, 2020**

"Köhlən" nəşriyyatının çap etdiyi kitabda müəllifin yeni, habelə müxtəlif vaxtlarda qələmə aldığı otuza yaxın seçmə hekayəsi yer alıb.

Kitab yazıçının “Mənim oxucum mənim qəhrəmanımdır” devizi ilə oxucularına müraciətilə başlayır. “Qəhrəmanlar təkcə müharibələrdə yetişmir. Adi həyatlarını yaşayan elə səssiz, elə təvazökar qəhrəmanlar var ki, bəlkə də hər gün yanımızdan ötüb keçirlər, amma biz onların fərqinə varmırıq... Mən səssiz qəhrəmanların yazıçısıyam”, - deyə yazıçı oxucularına xitab edir.

“Ləyaqət düsturu”, “Bekketə salam” hekayələr toplusu və “Körpüdə ümid” romanından sonra “Qəhrəmanım sənsən” Natiq Məmmədlinin oxucularla növbəti görüşüdür.

Kitabı şəhərimizin kitab mağazalarından əldə edə bilərsiniz, həmçinin "Köhlən" nəşriyyatından onlayn sifariş də mümkündür.




**FƏRQANƏ MEHDİYEVA**
**“GEDİRƏM TORPAĞI QUCAQLAMAĞA”**
**BAKI, “TƏHSİL” NƏŞRİYYATI, 2020**

Azərbaycan Yazıçılar Birliyinin və "Ulduz" jurnalının ortaq layihəsi olan "Ulduzlu nəşrlər" seriyasından növbəti kitab işıq üzü görüb.

Bu seriyada mərhum şairə Fərqanə Mehdiyevanın müxtəlif illərdə qələmə aldığı şeirləri yer alıb. Kitab müəllifin sayca altıncı kitabıdır. Buna qədər onun "Çəkdiklərim mənə bəsdir", "Deyirlər, şirindi dünya", "Payızın yanında gözlərsən məni", "Hayana gedib anam?", "İkimiz darıxsaq" kimi kitabları çap olunub.

Layihənin rəhbəri Qulu Ağsəsdir.




**VÜSAL NURU**
**“QARAQAŞLI” (roman)**
**BAKI, “MÜCRÜ” NƏŞRİYYATI, 2020**

Qarabağ müharibəsindən bəhs edir. Əsərin qəhrəmanı on üç nəfərlik kəşfiyyat dəstəsinin komandiri gənc İbaddır. O, Rusiyada hərbi xidmətini yarımçıq qoyub Qarabağ müharibəsində könüllü döyüşməyə gəlir. Ona məlum olur ki, ovçu atasının ailə yadigarı olan tüfəngini əlindən alıblar. Erməni terror dəstələri qədim Alban monastrını zəbt ediblər, qadınlar əsir düşüb. İbad özüylə kəndə döyüş ruhu gətirir və işğalçıların ələ keçirdikləri bu müqəddəs dəyərlər uğrunda savaşır.




**AFAQ ŞIXLI**
**“BƏZƏN OLUR…”**
**BAKI, 2020**

Şair, tərcüməçi Afaq Şıxlının “Bəzən olur...” adlı kitabı Azərbaycan Yazıçılar Birliyi tərəfindən gerçəkləşdirilən “aybKitab” layihəsi çərçivəsində çap olunub. Kitabda müəllifin son illərdə yazdığı mənsur və sərbəst şeirləri toplanıb.

Layihənin rəhbəri Xəyal Rzadır.




**NƏCİBƏ İLKİN**
**YARIMÇIQ TOY**
**BAKI, “ADİLOĞLU” NƏŞRİYYATI, 2020**

Şairə-publisist Nəcibə İlkinin “Yarımçıq toy” adlı kitabına müəllifin müxtəlif illkərdə yazdığı povesti, hekayələri, esseləri daxil edilmişdir.

Kitabın redaktoru yazıçı Elçin Hüseynbəyli, bədii redaktoru Naibə Yusifdir.

Qeyd edək ki, bundan öncə müəllifin “Bir ömür uduzdum” (2004) , “Qəlbimdə dil açan dünya” (2006), “Könlüm nağıl istəyir” (2016), “Sözün ölçüsü və çəkisi” (fikirlər və rəylər) (2016) şeirlər kitabı nəşr olunmuşdu.